f) halogenlərin kimyəvi xassələrinin müqayisəli şəkildə izahı. Bu zaman onların bəsit maddələrə (tipik metallara və qeyri-metallara) və qeyri-üzvi maddələrin əsas siniflərinə (oksidlərə, əsaslara, turşulara və duzlara), həmçinin, suya və onların həssas olduğu digər xüsusi mürəkkəb maddələrə qarşı münasibətləri uyğun reaksiya tənlikləri yazılmaqla və ya manitorda (slaydlar və ya pdf şəklində) göstərilməklə şərh olunmalıdır. Kimyəvi xassələrinin izahına, həmçinin, halogenlərin mühüm birləşmələrinin xassələri də daxil olmalı və yeri gəldikcə onlar da reksiya tənlikləri göstərilməklə analiz edilməlidir. Belə sistemləşmə mühazirə materiallarından əldə olunan biliklərin tələbələrin yaddaşında uzun müddət qalmasına köməklik edir (sistematika, ardıcıllıq, fəndaxili və mövzudaxili əlaqələr öz müsbət təsirini göstərir);

g) müvafiq yarımqrup elementlərinin mühüm birləşmələrinin tətbiqi (Əkbərov və b., 2023).

3. Mühazirələr zəngin məlumatlı olmalı və müasir informasiyaları özündə əks etdirməlidir. Onların tələbələrə asan dillə və sistemli şəkildə izahından sonra müvafiq materiallar tələbələrin elektron poçtuna göndərilməlidir. Lakin burada müntəzəm yeniliklər səbəbindən yaranan iki problem vurğulanmalıdır:

a) elektron mətnlər də daxil olmaqla mini-mətnlərlə işləməklə tanışlıq;

b) dərslik mətnlərinin müəllimin şifahi izahatı ilə müqayisədə ikinci dərəcəli əhəmiyyətli olması.

Bu gün demək olar ki, bütün ümumtəhsil müəssisələrimiz məhz belə fəaliyyət göstərir. Onların metodoloji aparatı, elan edilmiş yeniliklərə baxmayaraq, yenə də şagirdlərdə "müəllim asılılığı"

yaradır. Lakin universitetlərdə ali təhsil fərqli şəkildə fəaliyyət göstərir. Bu, müxtəlif mənbələrdə təqdim olunan böyük həcmdə məlumatla, müstəqil iş vasitəsilə "intizama alışmaq" və ümumiyyətlə "peşəyə" fərdi inkişafı təşviq etmək üçün nəzərdə tutulmuşdur ki, bunlardan ən vacibi də məhz müvafiq fənn dərsliyi və dərs vəsaitləridir.

Təcrübə göstərir ki, birinci ildə, məktəbdə olduğu kimi, "Qeyri-üzvi kimya" fənnini öyrənərkən, hələ də ilkin şifahi təqdimata, yəni mühazirəyə ehtiyac var. Tələbənin nöqteyi-nəzərindən mühazirələr həm mini-mətn, həm də məlumatı qavramaq üçün tanış eşitmə kanalı və müəllimin imtahan cavablarına dair tələbləri üçün aydın bir istinad nöqtəsidir.

Laboratoriya dərslərinə, kollokviumlara və imtahanlara hazırlaşarkən, tələbələr, əsasən, mühazirələrə müraciət edirlər və şifahi cavablarının demək olar ki, 90%-ində mühazirə məzmunu təqdim olunur. Beləliklə, universitet təhsil mühitindəki mühazirələr tələbənin öyrənmə fəaliyyətində və bilik əldə etməsində "pilot" rolunu itirərək fərqli bir funksiyanı - *əsas məlumat mənbəyi funksiyasını* yerinə yetirməyə başlayır. Ona görə də müasir mühazirələr yalnız məlumatla zəngin olmalı deyil, həm də mövcud biliklərin yayılması və onun əldə edilməsi, emalı, yaddaşda uzunmüddətli saxlanılması və təkmilləşdirilməsi üçün alqoritm daxil olmaqla kifayət qədər təhsil potensialına malik olmalıdır (Shraiver, 2004).

Mühazirənin çox diqqətli dizaynı, slaydlarla ifadəsi onların akademik xarakterini, ölkəmizdəki ali təhsilin ən yaxşı ənənələrini itirməməli, digər tərəfdən isə təhsildə müasir innovasiyaları və tələbələrin öyrənmə üstünlüklərini, onların ehtiyaclarını ödəməkdə artan praktikliyini və utilitarizmini nəzərə almalıdır. Bu vəziyyəti nəzərə alaraq, gələcəkdə istifadə üçün əvvəlki hərfi "ümumi bilik"dən daha çox, öyrənilən anlayışların, hadisələrin və xüsusiyyətlərin daxili qarşılıqlı əlaqəsi prinsipinə əsaslanan tədris materialının seçilməsinə daha uyğun bir yanaşma nəzərdən keçirilməlidir. Bu halda, yalnız bir dəfə qeyd olunan bir anlayış nəzərdən keçirilən təhsil vəziyyətində informasiya baxımından əhəmiyyətsiz hesab edilməməlidir (Kuznetsova və Khmelev, 2012).

"Qeyri-üzvi kimya" kursundakı mühazirələrdən alınan elmi biliklərin daha mükəmməl olması üçün "Ümumi Kimya" modulunun klassik bölmələri (atomun quruluşu, dövri qanun, kimyəvi rabitə, məhlullar, kimyəvi termodinamika və kimyəvi kinetika) də baxılan yarımqrup elementləri misalında bir daha təkrar olunmalıdır. Bu daha yüksək və dərinləşdirilmiuş biliklər əldə etmək üçün çox vacibdir. Bundan əlavə, öyrənilməsi tələb olunan minimum anlayışları seçərkən tələbənin onları mənimsəmə bacarıq və qabiliyyətinin olması nəzərə alınmalıdır (İlyaslı, 2016; Qurbanov və b., 2014).

Yuxarıda deyilən prinsipi "Elementlər Kimyası" modulunda da tətbiq etmək olar. Bu məqsədlə minimum sayda müəyyən birləşmələr seçilir və hər bir birləşmənin ətraflı öyrənilməsinə ciddi şəkildə çalışılır. Bu halda daha böyük həcmdə material öyrənmək lazım gəlmir və nisbətən az və keyfiyyətli materialla daha yüksək biliklər əldə etmək olur (necə deyərlər: minimum enerji ilə maksimum nəticə).

Mühazirə materialının təqdimatına gəldikdə onu da qeyd etmək lazımdır ki, bu zaman "təsviri-rəvayət" formatından uzaqlaşdıq, əsas yanaşma kimi sübutlara əsaslanan, təhsil yanaşmasını seçmək daha məqsədəuyğundur. Bu, iki səbəbdən irəli gələ bilər (Akhmetov, 2001):

Birincisi, kimya elmini öyrənən tələbələrə "Qeyri-üzvi Kimya" kursunun tədrisinin əsas məqsədi – bu kursa aid olan və başa düşülən biliklərin, yəni öyrənilən anlayışların, mənimsənilən metod və alqoritmlərin, həmçinin, əldə edilən bacarıqların sərbəst şəkildə təkrarlanması, şərhi və praktik tətbiqini inkişaf etdirməkdir.

İkincisi, müasir qeyri-üzvi kimya təkcə eksperimental tədqiqat deyil, həm də karbohidrogenlər və onların törəmələrinin əksəriyyəti istisna olmaqla, elementlərin bütün birləşmələrinin quruluşunun və xüsusiyyətlərinin nəzəri təfsiridir. Nəzəri təfsir "Ümumi Kimya" modulunun bütün əsas nəzəriyyələrindən ya birləşmələrin reaktivliyini proqnozlaşdırmaq, ya da qeyri-üzvi maddələrin artıq öyrənilmiş fiziki və kimyəvi xüsusiyyətlərini izah etmək üçün istifadə etməyi nəzərdə tutur. Bu, kursun ayrı-ayrı, məcburi mövzular toplusu kimi deyil, eksperimental faktların və nəzəri təkliflərin davamlı, məntiqi və funksional ardıcıllığı kimi qəbul edilməsinə imkan verir, atom və molekulların birgə mövcudluğunun "ağ-qara" deyil, "rəngli" mənzərəsini formalaşdırır (Bespal'ko, 1989).

"Qeyri-üzvi Kimya" kursunun dərindən öyrənilməsində mühazirə materialları və laboratoriya işləri ilə yanaşı, praktiki işlər – müvafiq mövzulara aid məsələ və çalışmalar da müəyyən əhəmiyyətə

malik olur. Belə ki, Yaponiyanın təhsil sistemində olduğu kimi, nəzəri biliklər onlara aid çalışmaları həll etdikcə, sual və tapşırıqlar cavablandırıldıqca, daha da möhkəmlənir, uzun müddət yaddaşlarda qalır və praktiki əhəmiyyət kəsb edir. Bu baxımdan, hər bir mühazirənin sonunda nəzəri materialdan alınan bilikləri daha da möhkəmləndirmək və onları praktik yararlı etmək üçün həlli məntiqi təfəkkür və əqli düşüncə tələb edən bir neçə maraqlı məsələ və çalışmaların tələbələrlə birlikdə analiz edilməsi mühazirənin verdiyi nəzəri biliklərin əhəmiyyətini artırır və onların praktikaya tətbiqinə, insanlara, onların yaşadıqları cəmiyyətə xeyir verməsini təmin edir (Əkbərov və b., 2020).

Nəticə

"Qeyri-üzvi Kimya" fənninin daha yaxşı mənimsənilməsi üçün ilkin şərt - mühazirə mətni ilə əhatə olunmuş aktiv iş kursunun tələbələr tərəfindən düzgün və aydın şəkildə başa düşülməsidir ("aydın başa düşülməyəni qavramaq mümkün olmaz" prinsipinə uyğun olaraq). Məsələn, effektiv təlim texnologiyaları üzrə bütün təlim kursları mühazirə mətninin ya növbəti mühazirədən bir gün əvvəl, ya da mühazirədən sonrakı 2, 7 və 30-cu günlərdə məcburi şəkildə yenidən oxunmasını tələb edir və s. Bu, məlumatların qısamüddətli yaddaşdan uzunmüddətli yaddaşa ötürülməsi üçün lazımdır. Lakin başa düşülən bilikləri inkişaf etdirmək üçün sadəcə materialı oxumaq və əzbərləmək kifayət deyil. Buna görə də tələbələrə qeyri-üzvi kimya üzrə öz "dərsliklərini" yaratmağı tövsiyə edirik. Onun "skeleti" tələbənin evdə özünü-qiymətləndirmə və özünüqiymətləndirmə suallarına yazılı cavablarla, seminarlarda isə çətin və aydın olmayan sualların cavablarını aydınlaşdırmaq üçün yazılı cavablarla tamamladığı mühazirə mətnidir. Mühaziraçi "dərsliyin" yazılmasına rəhbərlik etməklə yanaşı, həm də mətndə yeni məlumatlar üçün boşluqlar qoyulmasını təklif edir. Yuxarıda göstərilənlərə əlavə olaraq, bunlara qeyri-üzvi kimya qaydasını gücləndirən əlavə kimyəvi reaksiyalar və ya öyrənilən birləşmələrin alınma üsulları və kimyəvi xassələrini ifadə edən nümunələr daxildir.

Mühazirə, məlumat funksiyasından əlavə, *təhsil funksiyasına* da xidmət etməlidir. Təhsil funksiyası dedikdə, tələbələrin düşüncə tərzinə rəhbərlik etmək və mühazirə mətni vasitəsilə tələb olunan minimum məntiqi əməliyyatlar dəstini inkişaf etdirmək nəzərdə tutulur. Qeyri-üzvi kimyanın bir elm kimi tərifindən aydın olur ki, tələbələr analiz, sintez, müqayisə, ümumiləşdirmə, eləcə də təsnifat və sübut əməliyyatlarını mənimsəməlidirlər. Məsələn, qeyri-üzvi maddələrin alınma üsullarını və xüsusiyyətlərini öyrənərkən, tələbələrə materialı təhlil etməyi öyrətmək üçün ilk dəfə öyrənilən reaksiya ilə əvvəllər öyrənilən reaksiya arasındakı oxşarlıqları və ya fərqləri nümayiş etdiririk (fəndaxili və mövzulararası əlaqə).

Sonra sintetik əməliyyatı yerinə yetirmək üçün nəticələr tərtib edilməlidir. Tələbələrin hər dəfə müəyyən bir birləşmənin xüsusiyyətlərini, eyni oksidləşmə dərəcəsində öyrənilən bütün maddələri və nəhayət, dövri cədvəlin bütün qrupunu bütövlükdə öyrəndikdən sonra bu nəticələri özləri çıxarmaları arzuolunandır.

Müqayisə əməliyyatları və xüsusilə, ümumiləşdirmələr həm tələbələr üçün yerinə yetirmək, həm də şifahi mühazirə mətni vasitəsilə məntiqi düşüncə aparatlarını inkişaf etdirmək üçün ən çətinlərindəndir. Mühazirələrdə ortaqlıqları, fərqləri müəyyən etmək və nəticələr formalaşdırmaq üçün alqoritmləri dəfələrlə təkrarlamaq kifayət deyil. Buna görə də, seminar və laboratoriya dərslərinə müstəqil hazırlıq üçün suallar hazırlanmalıdır. Hər bir mövzu, tələbənin sadəcə mühazirə mətnini və ya dərslik mətnini əzbərdən təkrarlamaması üçün hazırlanmış bir-biri ilə əlaqəli suallar dəsti ilə təqdim olunur. Cavab axtarışı tələbəni tədris materialını müstəqil şəkildə yenidən təşkil etməyə məcbur etməlidir, məsələn, eyni oksidləşmə dərəcəsindəki birləşmələr qrupunu araşdırmaqdan müxtəlif oksidləşmə dərəcələrindəki oxşar birləşmələr seriyasında nümunələr yaratmağa qədər.

Müqayisəni öyrətmək üçün tədris suallarının bütün ardıcıllığı ətraflı təsvir olunur, suallar etibarlı cavab vermək üçün tamamlanmalı olan bütün təlim fəaliyyətlərinin ardıcıllığını ətraflı şəkildə göstərir. Bundan əlavə, bütün suallar hesablama məsələləri və istinad materiallarının geniş istifadə olunduğu sübutlara əsaslanan cavablar tələb etməlidir (İlyaslı, 2016; Əliyev, 2009).

Beləliklə, öz "dərsliyini" yaratmaq tələbələrin bütün intellektual resurslarından istifadə edərək, müstəqil, gündəlik, aktiv işlərini stimullaşdırır. Eyni zamanda, fərdin məntiqi düşüncə aparatı inkişaf

edir, nəticədə idrakın davamlı zəncirində aşağıda göstərilən zəruri bir halqa yaranır: *əsas bilik→məntiqi əməliyyatlar→anlama→daha yüksək bilik səviyyəsi→məntiqi əməliyyatların daha yüksək inkişaf səviyyəsi →daha yüksək anlama səviyyəsi və s.*

Nəticə etibarilə, bilik - neyron şəbəkəsi kimi fəaliyyət göstərməyə başlayır ki, bu da mahiyyət etibarilə, düzgün təşkil olunmuş təhsil fəaliyyətlərinin məntiqi yekunu kimi qəbul edilə bilər.

Ədəbiyyat

1. Akhmetov, N. (2001). *Obshchaya i neorganicheskaya khimiya*. Vysshaya shkola.
2. Bespal'ko, V. (1989). *Sistemno-metodicheskoe obespechenie uchebno-vos-pitatel'nogo protsessa podgotovki spetsialistov*. Vysshaya shkola.
3. Əkbərov, N., Cəfərov, İ. və b. (2024). *Üzvi kimyadan praktikum (yenidən işlənmiş və təkmilləş-dirilmiş III nəşr).* ADPU-nun nəşriyyatı.
4. Əkbərov, N., Novruzova, N. və b. (2023). *Ümumtəhsil məktəblərində qeyri-üzvi kimya müasir təsəvvürlərdə*. ADPU-nun nəşriyyatı.
5. Əkbərov, N., Novruzova, N. və b. (2020). *Ümumtəhsil məktəblərində ümumi kimya müasir təsəvvürlərdə*. ADPU-nun nəşriyyatı.
6. Əliyev, A. (2009). *Müasir pedaqoji texnologiyalar və kimyanın tədrisində onlardan istifadənin metodikası*. ADPU.
7. İlyaslı, T.M. (2016). *Ümumi və qeyri-üzvi kimya*. Ləman Nəşriyyat poliqrafiya MMC.
8. Kuz'menko, N., Eremin, V., Popkov, V. (2016). *Nachala khimii*. Laboratoriya znanii.
9. Kuznetsova, I., Khmelev, S. (2012). *Khimiya i khimicheskaya tekhnologiya*. Nauka.
10. Qurbanov, Ə., Məmmədova, A., Şadlinskaya, G. (2014). *Kimyanın tədrisi metodikası*. ADPU.
11. Manuilov, A., Rodionov, V. (2017). *Osnovy khimii*. Internet-uchebnik.
12. Shraiver, Eh. (2004). *Neorganicheskaya khimiya*. Nauka.

Daxil oldu: 04.01.2026
Qəbul edildi: 09.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/33-39

Kamal Shamkhalzadeh
Baku State University
https://orcid.org/0009-0000-3846-364X
shamkhalzadekamal@gmail.com

International Commercial Arbitration in Azerbaijan: The Country's Potential as a Regional Hub

Abstract

This article analyzes the development of international commercial arbitration in Azerbaijan and the country's potential to become a regional arbitration center. The article focuses on the fundamental principles of international arbitration, the legal framework, and legal norms related to international law. It emphasizes that Azerbaijan's geographical and strategic location increases the importance of arbitration for resolving trade and investment disputes in the region. The aim is to analyze Azerbaijan's potential to become an international arbitration center and present the challenges and development perspectives in this area. The scientific novelty of the article lies in its presentation of legal and institutional recommendations to strengthen Azerbaijan's position in the field of international arbitration. Its practical significance lies in strengthening the country's place in the international legal system and creating conditions for faster resolution of investment and trade disputes. Azerbaijan's transformation into an international arbitration center will contribute to the improvement of the legal environment and the development of the economy in the region.

Keywords: *International commercial arbitration in Azerbaijan, regional arbitration center, legal framework, strategic position, international law, commercial disputes, arbitration awards*

Kamal Şamxalzadə
Bakı Dövlət Universiteti
https://orcid.org/0009-0000-3846-364X
shamkhalzadekamal@gmail.com

Azərbaycanda beynəlxalq kommersiya arbitrajı: ölkənin regional mərkəzə çevrilmə potensialı

Xülasə

Bu məqalədə Azərbaycanda beynəlxalq kommersiya arbitrajının inkişafı və ölkənin regional arbitraj mərkəzinə çevrilmə potensialı təhlil edilir. Məqalədə beynəlxalq arbitrajın fundamental prinsiplərinə, hüquqi çərçivəyə və beynəlxalq hüquqla bağlı hüquqi normalara diqqət yetirilir. Burada vurğulanır ki, Azərbaycanın coğrafi və strateji mövqeyi regionda ticarət və investisiya mübahisələrinin həlli üçün arbitrajın əhəmiyyətini artırır. Məqsəd Azərbaycanın beynəlxalq arbitraj mərkəzinə çevrilmə potensialını təhlil etmək və bu sahədəki çətinlikləri və inkişaf perspektivlərini təqdim etməkdir. Məqalənin elmi yeniliyi beynəlxalq arbitraj sahəsində Azərbaycanın mövqeyini gücləndirmək üçün hüquqi və institusional tövsiyələrin təqdim edilməsindən ibarətdir. Onun praktik əhəmiyyəti ölkənin beynəlxalq hüquq sistemindəki yerini möhkəmləndirməkdə və investisiya və ticarət mübahisələrinin daha sürətli həlli üçün şərait yaratmaqdadır. Azərbaycanın beynəlxalq arbitraj mərkəzinə çevrilməsi regionda hüquqi mühitin yaxşılaşdırılmasına və iqtisadiyyatın inkişafına töhfə verəcəkdir.

Açar sözlər: *Azərbaycanda beynəlxalq kommersiya arbitrajı, regional arbitraj mərkəzi, hüquqi çərçivə, strateji yer, beynəlxalq hüquq, kommersiya mübahisələri, arbitraj qərarları*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Introduction

International commercial arbitration is an indispensable mechanism in the global business world that accelerates the resolution of disputes and provides legal independence to the parties. With the ever-growing international economy, the importance of this field is increasing, and the parties to a dispute prefer to resolve their disputes in a faster, more profitable, and impartial environment. Procedures in state courts can often be lengthy, and the enforcement of court decisions can sometimes cause difficulties in other countries; therefore, international arbitration is more attractive than other solutions in terms of both legal independence and international recognition. Azerbaijan's role in international commercial arbitration can be significant at the international level, particularly in connection with its economic development and geopolitical position. This article will comprehensively address Azerbaijan's position in the field of international commercial arbitration, the country's potential as a regional arbitration center, and the challenges related to the development of this field.

Research

The legal basis of international commercial arbitration and world experience. International commercial arbitration is a dispute resolution mechanism compatible with the legal systems of different countries. The main advantages of arbitration are:

1. Arbitration allows parties to resolve their disputes outside the courts of their own countries; thus, parties reach a legal decision without prejudice to each other's legal systems.
2. Arbitration processes are much faster than state courts because parties can better manage the procedure and make more flexible decisions.
3. Arbitration courts consist of independent and impartial individuals. Therefore, the resolution of the dispute is subject to minimal political influence.
4. Thanks to the implementation of the New York Convention, arbitration awards are recognized and enforced in more than 160 countries worldwide. This is the main reason why arbitration holds an important place in international trade (Born, 2020).

Azerbaijan's legal infrastructure in the field of international commercial arbitration is mainly based on the UNCITRAL Model Law and the New York Convention. The "Arbitration Law," in force since 1999, makes Azerbaijan one of the countries with a suitable legal system for international arbitration. This law, taking into account the basic principles of international arbitration, guarantees the rights of both parties and the independence of arbitration courts. The regulation of arbitration matters in Azerbaijan creates legal conditions for resolving disputes and fosters the development of international trade relations and foreign investments.

Furthermore, Azerbaijan is a party to the New York Convention. This ensures the recognition and enforcement of international arbitration awards in Azerbaijan. The Convention stipulates that arbitration has legal consequences in the international arena and is mutually recognized between countries. This feature allows for faster resolution of disputes related to international trade and investment (UNCITRAL, 2006).

Institutional structure of International Commercial Arbitration. The Baku Arbitration Center (BAC) is one of the key institutions playing a crucial role in the development of international commercial arbitration in Azerbaijan. Operating since 2025, the Center is managed by experienced arbitrators and international law experts. The Baku Arbitration Center provides a platform aimed at the swift and fair resolution of disputes. The main objective of the Center is to resolve international trade and investment disputes outside of state courts, in an impartial environment.

The establishment of the Baku Arbitration Center strengthens Azerbaijan's position in the field of international arbitration. The center offers dispute resolution services to both domestic and foreign companies, ensuring that disputes are resolved by independent and impartial arbitrators. Organizing the center in accordance with international arbitration principles aligns Azerbaijan's legal system with international standards and adds value to the country's economy.

One of the most important institutions operating in Azerbaijan for the resolution of international trade disputes is the Azerbaijan International Trade Tribunal (AICM). This tribunal serves to resolve

international trade and investment disputes effectively and quickly, strengthening the country's position in the field of international law. The purpose of establishing the AICM is to ensure the independent and fair resolution of trade and investment disputes in Azerbaijan in accordance with internationally accepted principles of law (International Arbitration, 2025).

The AICM, in close cooperation with the Ministry of Justice of the Republic of Azerbaijan and the State Customs Committee, resolves disputes arising from both domestic and international trade agreements fairly and independently. Based on international legal standards, the tribunal creates conditions for the swift resolution of disputes. Transparency, high-quality legal services, and the involvement of experienced specialists are at the forefront of the tribunal's work.

AICM decisions are similar to those of international arbitration centers and are also recognized and enforced worldwide in accordance with the requirements of the New York Convention. This is a step towards making Azerbaijan an influential country in the field of international law and trade. The Court resolves disputes solely on the basis of international law and trade legislation, which further strengthens the local economy's position in international trade volume.

The AICM has a broad team of experts and lawyers in the fields of international trade law, investment law, energy law, and corporate law. These experts ensure the impartial and objective resolution of disputes, as well as supporting the faster and more effective implementation of dispute resolution tailored to the needs of the parties. As an independent institution, the AICM's activities provide legal assurance and confidence to parties from different countries during dispute resolution (Farzaliyeva, 2022).

The AICM's activities are not limited to resolving international trade disputes; they are also closely related to Azerbaijan's trade policy, increasing foreign investment, and accelerating economic development. The stable legal environment provided by the Court helps Azerbaijan increase its trade relations in the international arena. The AICM also ensures Azerbaijan's recognition as a reliable partner in the international trade environment.

With the development of the AICM's activities, Azerbaijan is further strengthening its potential to become a regional trade hub. This means aligning Azerbaijan's legal and economic structures with internationally accepted requirements and expanding the job market for international law specialists.

The structure of the AICM, its experience in resolving international disputes, and its operation in accordance with the principles of international law make it attractive not only for domestic disputes but also for international investment and trade disputes. This court functions as an objective and transparent instrument in resolving disputes in international trade and economic relations.

For the development and more effective implementation of international trade law in Azerbaijan, training international arbitration specialists in law schools is of great importance. Improving education in international trade and arbitration at law schools in Azerbaijan will ensure the training of lawyers who meet modern legal standards. These specialists can work both at the AICM and other international arbitration institutions, contributing to the strengthening of the international arbitration system (Mirzayev, 2019).

As the volume of energy, infrastructure, and trade projects increases today, disputes related to these projects are also expected to rise. Such disputes are closely linked to the role of international arbitration in the modern economy. Azerbaijan's geographical location significantly enhances its position on the East-West trade route and strengthens the demand for international commercial arbitration. Geopolitical relations between East and West, energy exports, the use of transit routes, and various regional economic projects provide a strong impetus for Azerbaijan to become a significant center for international arbitration.

Azerbaijan is also one of the most important trade transit points of the Silk Road. This location makes Azerbaijan's role even more important, especially for resolving increasing trade disputes between major economic powers such as China and the European Union. At the same time, considering Azerbaijan's relations with the South Caucasus region and Central Asia, Azerbaijan becomes an attractive center for resolving disputes arising in these regions through arbitration.

The opening of trade routes not only increases economic relations but also increases the need for resolving regional disputes and international arbitration. Azerbaijan's strategic geographical location, coupled with the interaction of businesses and governments from various countries, reveals its potential to become one of the most important arbitration centers in the region (Beynəlxalq Kommersiya Arbitrajı haqqında UNCITRAL Model Qanunu, 2024).

The increasing demand for the resolution of international trade disputes in Azerbaijan is progressing in parallel with the development of the country's investment climate. Increased competition and breaches of contract in investment and trade sectors are increasing the need for dispute resolution through arbitration. Azerbaijan's strength in this area also stems from its economic development in line with international standards. Therefore, in addition to being an international arbitration center, Azerbaijan will also serve to resolve trade and investment disputes independently, transparently, and quickly (Moses, 2008).

Azerbaijan's development as a regional center in the field of international arbitration is not only dependent on domestic legal developments but is also closely linked to regional cooperation and economic relations. Azerbaijan's relations with Türkiye, Russia, Iran, Georgia, and Central Asian countries further strengthen regional trade and investment ties. Establishing reciprocal international arbitration relationships with these countries holds great potential for Azerbaijan to become a reliable and authoritative regional center for resolving international trade disputes.

Azerbaijan should focus on economic cooperation with Türkiye, Russia, and Iran, and also offer cooperation in the field of international arbitration. This cooperation would benefit Azerbaijan's development as an international arbitration center, as well as strengthen its unifying role in East-West trade relations. At the same time, strong ties between Azerbaijan and Georgia make the country a logistics hub with direct access to both Eastern and Western markets. Offering international arbitration services between these regions increases demand for the impartial and legal resolution of trade disputes (Arbitraj və mülki iddia icraatı: beynəlxalq qaydalar və Azərbaycan qanunvericiliyi, 2024).

To strengthen its position in international trade and arbitration, Azerbaijan should cooperate with international trade organizations and economic blocs. Cooperation with organizations such as the European Union, the Asian Development Bank, and the International Trade Centre (ITC) could provide Azerbaijan with broader access to the international arbitration market. This cooperation would not only improve the legal environment but also facilitate the application of internationally accepted arbitration principles for resolving trade disputes in Azerbaijan (Aliyev & Ismayilzadeh, 2019).

Further broader cooperation will strengthen Azerbaijan's relations with international trade organizations and other economic blocs. These partnerships will also ensure that Azerbaijan's legal framework is aligned with international standards and will bring new investment opportunities to the country's economy.

The great potential for the development of international arbitration in Azerbaijan is based on close ties not only with regional but also with global markets. Expanding existing ties with international organizations such as the United Nations (UN) and the International Chamber of Commerce (ICC) will enable Azerbaijan to join the global arbitration network. This will also allow the country to gain a more reliable position in the global economy as an international arbitration center.

Challenges and development prospects. Azerbaijan faces several significant challenges in strengthening its position in the field of international commercial arbitration and becoming a regional arbitration hub. These challenges not only affect the legal and economic infrastructure but also the necessary steps to ensure the independent and fair resolution of international trade and investment disputes. This section will address the main challenges affecting the development of international commercial arbitration in Azerbaijan and the strategic steps that can be taken in response to these challenges (Introduction to the New Arbitration Law in Azerbaijan, 2024).

One of the biggest challenges to the development of international commercial arbitration in Azerbaijan is the training of experienced arbitrators. The field of arbitration requires specialized

training, extensive experience, and expert knowledge. When forming an arbitration panel, it is crucial to ensure an independent and impartial decision. This is only possible with experienced experts possessing in-depth legal knowledge. The lack of experienced experts in this field in Azerbaijan could weaken the country's position in the international arbitration system. The lack of international experience among local arbitrators can create difficulties in the international recognition and acceptance of decisions.

For the qualified and effective implementation of international arbitration, the training of arbitrators is of paramount importance. To this end, it is necessary to train specialists in international arbitration at law faculties in Azerbaijan. Increasing the number of international arbitration courses will allow specialists to gain experience in legal theory and practice. At the same time, sharing experienced arbitrators among local lawyers and law students through local law faculties and training programs will contribute to the development of this field within the country. It would also be beneficial for foreign experts with international experience to teach in Azerbaijan and encourage the exchange of experience in this field (Azerbaijan Adopts a New Law on Arbitration, 2024).

The training of experienced arbitrators will also encourage the participation of local rights holders in international arbitration, resulting in an increase in the number of internationally recognized arbitrators in the country and further strengthening its position in the international legal system. As part of this process, the development of arbitration schools and specialized training programs for arbitration specialists in Azerbaijan is crucial.

Further improving the legal infrastructure is important for the development of international commercial arbitration in Azerbaijan. A properly functioning and transparent legal system is a prerequisite for the effective implementation of international arbitration. The recognition of international arbitration awards requires the implementation of comprehensive legal procedures regarding how the dispute resolution process works. Further refinement of the legal framework for the development of this area should ensure that arbitration awards are readily accepted by domestic courts.

The existence of arbitration legislation, procedural rules, and transactional mechanisms is essential for the effective implementation of international arbitration. Azerbaijan should develop its domestic legal system to further enhance international arbitration in accordance with the UNCITRAL Model Code and the New York Convention. Azerbaijan should establish a legal infrastructure that conforms to international standards and create procedural rules to improve international trade relations with its citizens. Strengthening the system for the recognition and enforcement of international arbitration awards by domestic courts is crucial. This requires strengthening legal relations within the country and facilitating the enforcement of international arbitration awards. Strengthening institutions providing arbitration services and creating new arbitration platforms will ensure more efficient dispute resolution.

The functioning of the international arbitration field in accordance with the legal infrastructure will provide legal security for both domestic and foreign companies and further enhance Azerbaijan's ability to resolve international trade disputes. International arbitration legislation will ensure greater acceptance of the Azerbaijani legal system in the international community (Recognition and enforcement of foreign arbitral awards in Azerbaijan and related practice, 2024).

Close cooperation with international organizations is important for greater recognition of international arbitration in Azerbaijan and for strengthening the country's position on the world stage. Cooperation with international organizations and arbitration institutions in the field of international arbitration can ensure the international recognition of the Azerbaijani legal system. At the same time, this cooperation will strengthen Azerbaijan's position in the international trade and investment environment and attract new investment opportunities.

The following strategies can be implemented to promote and develop international arbitration in Azerbaijan:

- Azerbaijan should strengthen its relations with international organizations such as the International Chamber of Commerce (ICC), the Asian Development Bank (ADB), and the European Union, and actively participate in international arbitration networks.
- Legal processes should be improved in Azerbaijan to ensure the international recognition of arbitration awards issued under the New York Convention and other international conventions.
- Azerbaijan's efforts to develop international arbitration will help attract foreign investment and accelerate economic development in the region. Cooperation between the state and the private sector will be a key factor in achieving greater international recognition in this field (Azərbaycan Respublikası "Arbitraj haqqında" Qanun, 2024).

International recognition of arbitration in Azerbaijan will strengthen the country's position in the global economy and lead to new trade relations and investment flows. Azerbaijan's development as an international arbitration center will contribute not only to the country's economy but also to regional and international legal systems.

Conclusion

The development of international commercial arbitration in Azerbaijan has the potential to strengthen the country's position in international law and economics and to act as a regional center. Strengthening institutions such as the Baku Arbitration Center and the Azerbaijan International Commercial Court, training experienced arbitrators, and pursuing international recognition processes are important steps towards Azerbaijan becoming a regional arbitration center. Azerbaijan's geopolitical location and legal infrastructure create favorable conditions for realizing this potential.

References

1. Aliyev, A. & Ismayilzada, T. (2019). *Recognition and Enforcement of Foreign Arbitral Awards in the Republic of Azerbaijan*. Transnational Dispute Management. https://www.transnational-dispute-management.com/journal-advance-publication-article.asp
2. *Arbitraj və mülki iddia icraatı: beynəlxalq qaydalar və Azərbaycan qanunvericiliyi*. (2024). https://www.aem.az/uploads/files/2024-10/1728290271_qedim-diyar-6_9-49-61.pdf
3. *Azerbaijan Adopts a New Law on Arbitration*. (2024). Wolters Kluwer Arbitration Blog. https://legalblogs.wolterskluwer.com/arbitration-blog/azerbaijan-adopts-a-new-law-on-arbitration
4. *Azərbaycan Respublikası "Arbitraj haqqında" Qanun*. (2024). https://old.newyorkconvention.org/11165/web/files/document/2/1/21346.pdf
5. *Beynəlxalq Kommersiya Arbitrajı haqqında UNCITRAL Model Qanunu*. (2024). https://www.techlaw.az/article/beynelxalq-kommersiya-arbitraji-haqqinda-uncitral-model-qanunu
6. Born, G. (2020). *International Commercial Arbitration*. Kluwer Law International.
7. Born, G. B. (2021). *International Commercial Arbitration (3rd ed.).* Kluwer Law International. Redfern and Hunter on International Arbitration.
8. Farzaliyeva, U. (2022). Law Governing Arbitration Agreements: Excerpts from the Azerbaijani Legislation. *Baku State University Law Review, 8*(2), 232–250. https://bsulawreview.org/wp-content/uploads/2022/09/8BSULawRev2.6.pdf?utm_source=chatgpt.com
9. *International Arbitration*. (2025). Wikipedia. https://en.wikipedia.org/wiki/International_arbitration
10. *Introduction to the New Arbitration Law in Azerbaijan*. Legalize.az (2024). https://legalize.az/az/blog/introduction-to-the-new-arbitration-law-in-azerbaijan

11. Mirzayev, R. (2019). *Legislation and Practice of Commercial Arbitration in Azerbaijan*. Kluwer Arbitration Blog. https://legalblogs.wolterskluwer.com/arbitration-blog/legislation-and-practice-of-commercial-arbitration-in-azerbaijan/
12. Moses, L. M. (2008). *Introduction to International Commercial Arbitration*. Cambridge University Press. https://doi.org/10.1017/CBO9780511819216.003
13. *Recognition and enforcement of foreign arbitral awards in Azerbaijan and related practice*. (2024). https://www.lexology.com/library/detail.aspx?g=eb37c8c1-4e8b-4fd5-bb6c-35c714d10ba3
14. UNCITRAL. (2006). *UNCITRAL Model Law on International Commercial Arbitration. United Nations Commission on International Trade Law*. https://uncitral.un.org/pdf/english/texts/arbitration/ml-arb/06-54671_Ebook.pdf
15. United Nations Commission on International Trade Law. (2006). *UNCITRAL model law on international commercial arbitration (1985), with amendments as adopted in 2006*. https://uncitral.un.org
16. University of Nottingham. (2026). *International commercial arbitration bibliography*. Retrieved April 15, 2026, from https://notts.rl.talis.com

Received: 10.01.2026
Approved: 14.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/40-43

Gülsüm Tağızadə
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0009-0002-0841-5107
gulsumtagizade0@gmail.com

Məşrutə hərəkatının öncül simaları: Səttarxan və Bağırxanın həyat və mübarizəsi

Xülasə

Məşrutə hərəkatı Təbrizdə geniş xalq dəstəyi qazanaraq silahlı və təşkilatlanmış müqavimət formasına çevrilmişdir. Səttarxan və Bağırxanın rəhbərliyi ilə yaradılan mücahid dəstələri istibdad rejiminə qarşı mübarizədə həlledici rol oynamış, bu mübarizə nəticəsində Məhəmmədəli şah devrilmişdir. Lakin qələbədən sonra hərəkat daxilində yaranan siyasi və ideoloji parçalanmalar, xarici dövlətlərin təzyiqləri və mərkəzi hökumətin zəif mövqeyi Məşrutə ideallarının tam reallaşmasına imkan verməmişdir. Onların qəhrəmanlığı o qədər məşhurlaşdı ki, adları Avropa və Amerika mətbuatında da çəkildi və İran məşrutə hərəkatının tarixində silinməz iz qoydu. Bu məqalədə hər iki məşrutə qəhrəmanının həyatı və fəaliyyəti qısa şəkildə birlikdə təqdim edilir.

Açar sözlər: *Məşrutə inqilabı, Səttarxan, Bağırxan, Təbriz, döyüş*

Gulsum Taghizadeh
Azerbaijan University of Languages
https://orcid.org/0009-0002-0841-5107
gulsumtagizade0@gmail.com

Leading Figures of the Constitutional Movement: The Life and Struggle of Sattarkhan and Baghirkhan

Abstract

The Constitutional Movement gained widespread popular support in Tabriz and became a form of armed and organized resistance. The mujahideen groups formed under the leadership of Sattar Khan and Bagir Khan played a decisive role in the struggle against the tyrannical regime, and as a result of this struggle, Muhammad Ali Shah was overthrown. However, the political and ideological divisions that arose within the movement after the victory, the pressure of foreign states, and the weak position of the central government did not allow the full realization of the Constitutional ideals. Their heroism became so famous that their names were mentioned in the European and American press and left an indelible mark on the history of the Iranian constitutional movement. This article briefly presents the lives and activities of both constitutional heroes together.

Keywords*: Constitutional Revolution, Sattarkhan, Baghirkhan, Tabriz, battle*

Giriş

XX əsrin əvvəllərində baş verən İran Məşrutə hərəkatı ölkənin siyasi tarixində dönüş nöqtəsi olmaqla yanaşı, xalqın azadlıq, ədalət və qanunun aliliyi uğrunda apardığı mübarizənin təzahürü idi. Bu hərəkatın ən mühüm mərkəzlərindən biri Təbriz şəhəri olmuşdur. Sosial tərkibi, siyasi fəallığı və silahlı müqavimət ənənəsi ilə seçilən Təbriz, Məşrutə ideyasının qorunub saxlanılmasında və yenidən qələbəyə aparılmasında həlledici rol oynamışdır. Səttarxan və Bağırxan kimi liderlərin fəaliyyəti bu mərhələnin əsas simvollarına çevrilmişdir (Cənubi Azərbaycan tarixinin oçerki (1828–1917), 2021).

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Tədqiqat

Məşrutə hərəkatı Təbrizdə coşqu və hərarətlə alovlandı. Vəliəhdlik dövrünü Təbrizdə keçirmiş Məhəmmədəli şah yaxşı bilirdi ki, əgər bu şəhərin azadlıqsevərlərini susdurmasa, bu dəfə təbrizlilərin müqaviməti onun səltənətini devirmiş olacaq. Buna görə də, Tehranın fəthindən doğan məğrurluqla böyük bir ordunu Təbrizə göndərdi. Təbrizin azadlıqsevərləri – jurnalistlər, ziyalılar, tacirlər və ədiblər şəhərin Əyalət və Vilayət Əncüməni ətrafında birləşmişdilər. Gənc yaşlarında tanınmayan, lakin mərd və cəngavər xislətli olan Səttarxan ədalətsevərliyi və zülmə qarşı ruhiyyəsi səbəbilə şəhərin azadlıqsevərlərinə qoşularaq Əncümənin məşrutəçiləri sırasına daxil olmuşdu (Amanat, 1992). Dövlət qoşunları Təbrizə doğru hərəkət edərkən o, şəhərin silahlı könüllülərindən ibarət kiçik bir dəstəyə rəhbərlik etdi və Əncümənin hərbi qanadını formalaşdırdı. Bir müddət sonra Bağırxan da Səttarxana qoşuldu və onun silahdaşı və yaxın köməkçisi oldu. Səttarxan Əmirxiz məhəlləsindən, Bağırxan isə Xiyaban məhəlləsindən müqavimətə başladı (Nuriyeva, 2015). Dövlət qüvvələrinin ağır mühasirəsi və istibdad tərəfdarlarının təxribatları qarşısında göstərdikləri möhkəm iradə o qədər təsirli oldu ki, digər şəhərlərin məşrutəçiləri də onların fədakarlıqlarından ruhlanaraq paytaxtı ələ keçirmək üçün Tehrana doğru hərəkətə başladılar. Tehranda bir neçə gün davam edən döyüşlərdən sonra istibdad səltənəti devrildi və Məhəmmədəli şah Rusiyaya sığındı. Beləliklə, məşrutə hərəkatı ikinci dəfə qələbə qazandı (Doroshenko, 1998).

Bağırxan – "Salar-i Milli" ləqəbi ilə tanınan, məşrutə inqilabının səmimi döyüşçülərindən və görkəmli rəhbərlərindən biri idi. O, 1240-cı ildə Təbrizin Xiyaban məhəlləsində anadan olmuşdur. Bağırxanın həyatı haqqında məlumatlar çox azdır və əsasən onun məşrutə hərəkatındakı fəaliyyəti ilə bağlıdır. Demək olar ki, məşrutə inqilabındakı mübarizəsindən başqa onun həyatı barədə başqa ciddi məlumat yoxdur. Bağırxanın peşəsi dəqiq məlum deyil. Atası Hacı Rza Təbrizi "Hacı Rza bənna" kimi tanınmış və Bağırxanın da atasının peşəsini davam etdirən bənna olduğu bildirilmişdir. Hətta onun mahir kərpicçi və bir müddət Təbrizin Xiyaban məhəlləsinin kəndxudası olduğu da deyilir. Bəzi mənbələrdə onu daşyonan kimi də təqdim edirlər. Peşəsi və təhsili haqqında məlumat az olsa da, o, cəmiyyətin aşağı təbəqəsindən çıxmış biri idi və cəsarəti, igidliyi ilə tanınırdı (Martin, 1992).

Səttarxan – "Sərdar-i Milli" ləqəbi ilə tanınan, Hacı Həsən Qaradağlının üçüncü oğlu idi. O, 1245-ci ildə Qaradağ bölgəsinin Vərzəqan mahalında yerləşən "Bişək" kəndində (indiki Sərdarkəndi) anadan olmuşdur. Atası xırda tacir və parça satıcısı idi, Səttar da atasına kömək edərək parça alveri ilə məşğul olurdu. Onun həyatı barədə məlumatlar, Bağırxan kimi, azdır. Səttar heç vaxt məktəbə getməmiş, oxuyub-yazmağı bilməmişdir. Səttarxan qardaşının ölümündən sonra ailəsi ilə birlikdə Təbrizə köçərək Əmirxiz məhəlləsində məskunlaşdı. Samirrada iranlı zəvvarlara qarşı hörmətsizlik edən hərəmin xidmətçilərinə qarşı çıxdığı üçün həbs olunmuş, lakin tütünün haram edilməsi haqqında məşhur fətvanın müəllifi Mirzə Şirazi kimi tanınan ayətullah Seyid Məhəmməd Həsən Hüseyni Şirazinin şəfaəti ilə azad edilmiş və İrana qayıtmışdır. Səttarxan zülmə və haqsızlığa biganə qala bilməzdi. Qaradağ əhalisinin hüquqlarını müdafiə edərkən vəliəhdin məmurları ilə toqquşmuş və Ərdəbildəki Narinqala zindanına salınmışdır. Bəzi alimlərin vasitəçiliyi ilə azad edilsə də, bəzi mənbələr onun həbsdən qaçdığını, bəziləri isə ümumiyyətlə həbs olunmadığını, sadəcə vəliəhdin qüvvələrinin təqibinə görə Təbrizi tərk etdiyini bildirir. Şəhərin ağsaqqallarının vasitəçiliyi ilə Təbrizə qayıtmış və at alveri ilə məşğul olmuşdur. Səttarxan dindar və inanclı bir şəxs idi (Doroshenko,1998). Təbriz məşrutə hərəkatının əsas mərkəzinə çevrildikdə, Nəcəf alimlərinin göstərişlərinə tabe olaraq istibdad-i səğir rejiminə qarşı mübarizəyə qoşuldu və bu yolda canını əsirgəmədi.

Onun mübarizə missiyası ilə bağlı məşhur sözlərindən biri belədir: "Bu asi bəndə Səttar, İslam alimlərinin verdiyi hökmlərə əsasən, Əhmədi-Muxtarın (s) şəriət hökmlərini icra etmək üçün canımdan, malımdan, övladlarımdan və bütün varlığımdan keçmişəm ki, zalım dövlət ədalətli dövlətə çevrilsin və Peyğəmbərin qanunları müsəlmanların yol və məsləkinə çevrilsin." Səttarxan və Bağırxanın mübarizəsi Təbrizin nüfuzlu mücahid ruhani lideri Səqətülislam Mirzə Əli Təbrizinin açıq dəstəyi ilə aparılırdı. Səttarxan İran xalqının milli həmrəyliyinin və birliyinin rəmzi kimi çıxış edirdi. Təbriz Əyalət Əncüməni isə əsasən yerli məşrutəçilərdən və xalq nümayəndələrindən ibarət olub, 1285-ci il 5 oktyabrda Məclisə seçkilərə nəzarət məqsədilə yaradılmışdı (Karadeniz, 1906). Qafqaz

sosial-demokrat qrupları ilə qurulan əlaqələr əncümənin silahlı mübarizənin zəruriliyini dərk etməsinə səbəb olmuşdu. Məşrutə uğrunda silahlı qarşıdurmalar başlayanda əncümən artıq buna hazır idi (Martin,1992). 1285-ci ilin dekabrında Müzəffərəddin şahın Məhəmmədəli mirzəni Təbrizdən Tehrana çağırmasından sonra yaranmış hakimiyyət boşluğu şəraitində Əyalət Əncüməni silahlı mücahid dəstələri formalaşdırdı. Sonradan "məşrutə mücahidləri" adlanan bu dəstələr təhlükəsizliyin qorunmasında, möhtəkirliyə qarşı mübarizədə və yoxsul təbəqələrin müdafiəsində mühüm rol oynadılar (Abdullayev, 2016). Səttarxan əvvəlcə "Əncüməni-Həqiqət"ə üzv oldu, daha sonra Əyalət Əncüməninin mücahid dəstəsinə qoşularaq məşrutə yolunda fəaliyyət göstərməyə başladı. Təbrizdə yalnız bu dəstələr deyil, eyni zamanda, Qafqaz mücahidləri, "Mərkəzi-Qeybi" gizli təşkilatı və Mir Haşim Təbrizinin rəhbərlik etdiyi mühafizəkar qrup da mövcud idi. Bu qruplar arasında tez-tez ixtilaflar və silahlı toqquşmalar baş verirdi. Məhəmmədəli şah məşrutəni ləğv etmək məqsədilə bu parçalanmalardan istifadə edir, iğtişaşları qızışdırırdı. Nəticədə, 1286-cı il 26 yanvarda Xiyaban və Surxab məhəllələrinin silahlı dəstələri arasında iki həftə davam edən qanlı döyüşlər baş verdi və çoxsaylı itkilər oldu (Lenin, 1957).

1286–1287-ci illərdə məşrutəçilər qələbənin bəhrəsini görmək istədikləri halda, şahın təzyiqləri inqilabın qarşısında ciddi maneələr yaratdı. 1287-ci ilin iyunundan etibarən Məhəmmədəli şahın antiməşrutə fəaliyyəti daha da gücləndi. Şahın Bağşaha köçməsi və məşrutəçiləri günahlandıran bəyannaməsinin Təbrizə çatmasından sonra Əyalət Əncüməni onun taxtdan salınmasını müzakirə etdi. 27 iyun 1287-ci ildə Səttarxan və Bağırxan azsaylı atlı dəstələrlə Tehrana doğru yola çıxsalar da, 2 iyulda Məclisin topa tutulması vəziyyəti dəyişdirdi. Əncümən dağıldı, bir çox üzv gizləndi və ya xarici konsulluqlara sığındı. Bu şəraitdə mücahidlər yenidən silahlı mübarizəyə cəlb olundular və Səttarxan Əncümənə yeni bayraq təqdim etdi (Arjomand, 1992). Məhəmmədəli şahın göstərişi ilə Əynüddövlə Azərbaycanın baş hakimi təyin edildi və Rəhim Çələbiyanlı Təbrizə göndərildi, lakin onun qüvvələri Səttarxan və Bağırxanın müqaviməti ilə məğlub edildi (Dilek, 2007). Müvəqqəti hökumət qurulduqdan sonra isə bu iki lider Təbrizdə Rusiya hərbi qüvvələrinin qalmasına qarşı çıxdılar. Rusiyanın artan təzyiqləri, mərkəzi hökumətin tələbləri və mətbuatda aparılan kampaniyalar onların Təbrizdə qalmasını çətinləşdirdi. Nəhayət, Ayətullah Axund Xorasaninin vasitəçiliyi ilə Səttarxan və Bağırxan silahlı fədailəri ilə birlikdə Tehrana getməyə razı oldular. 1289-cu ilin aprelində Tehrana daxil olduqları zaman misilsiz bir coşqu ilə qarşılandılar (Dilek, 2007). Onlar hökumət və saray tərəfindən qəbul edildi və bir müddət dövlətin qonağı oldular. Tehranın fəthindən sonra Məclisdə Demokratlar və İtidalçılar arasında kəskin siyasi mübarizə başlandı. Bu qarşıdurmalar cəmiyyətə də sirayət etdi və vahidlik pozuldu. Bu mürəkkəb siyasi mühitdə Səttarxan və Bağırxan əsasən ruhanilərə yaxın mövqe tutaraq Demokratların dünyəviləşmə xəttindən fərqlənirdilər və siyasi çəkişmələrin mərkəzinə düşdülər. Bu mövqe Səttarxan və Bağırxanı Demokratlarla üz-üzə qoydu və onların tədricən hərəkatın rəhbərliyindən kənarlaşdırılmasına zəmin yaratdı (İranskaya revolyutsiya 1905-1911 gg., 2026). Demokratların radikal liderlərindən biri olan Seyid Həsən Təqizadə ilə ziddiyyətlər dərinləşdi. Bağırxan məşrutədən İslamın uzaqlaşdırılmasını öz mübarizə məqsədlərinə zidd hesab edərək buna açıq etiraz etdi. Ayətullah Seyid Abdulla Bəhbəhaninin qətli ixtilafları daha da kəskinləşdirdi. Səttarxan bu sui-qəsdi qətiyyətlə pisləd və günahkarların cəzalandırılmasını tələb etdi (Arjomand, 1992). Yaranmış qarışıqlıq Rusiya və İngiltərəyə İrana təzyiq göstərmək və mücahidlərin silahsızlaşdırılmasını tələb etmək üçün fürsət verdi.

Qəzet materialları qarışıq xarakter daşıyır və mətbuata məxsus janr müxtəlifliyini əks etdirir. İngilis dilində semantik transformasiya nümunələri çoxdur: *Father of all Christmas holidays: meeting Santa in Lap*land (Bütün Milad bayramlarının atası: Laplandiyada Santa ilə görüş) başlığında *the Father of something* (*somebod*y) frazeoloji vahidi transformasiya olunmuş formada işlədilmişdir. O, "atalıq, mənşə" anlamını bildirir. Aşağıdakılar eyni quruluşlu başqa nümunələrdir: *the Father of English poetry* (C. Çoser haqqında), *the Father of lies* (Salieva və b., 2019). Başlıqda *Father of all Christmas holidays* frazeologizmi ilə *Father Christmas* arasında yaranan semantik əlaqəni *father* komponentindən əvvəl "ata, mənşə" mənasında olan sabit ifadələrin başlanğıcında müşahidə olunan müəyyən artikl *the* işlədilməməsi və məqalənin məzmunu (Laplandiyada Santa ilə qış ailə bayramının keçirilməsi) təmin edir. *The Father of all parties* nümunəsində *the Father of something* (*somebody*) strukturunun ümumi mənası saxlanılmışdır. Əslində, yazı *Father Ted* üslubunda keçirilən maskarad haqqındadır. Başlıqlarsız məqaləni oxumadan kimdən, nədən danışıldığını anlamaq çətin olur. Lakin başlıqlar, xüsusilə də transformasiyalı frazemlərdən ibarət olan başlıqlar oxucunun diqqətini çəkir. Ümumiyyətlə, frazeoloji vahidlərin kütləvi informasiya vasitələrinin başlıqlarında transformasiya olunmuş istifadəsi oxucunun diqqətini cəlb etmək, emosional təsir yaratmaq və mətni oxumağa sövq etmək üçün mühüm vasitədir. Frazeoloji vahidlərin üslub xüsusiyyətləri, etimologiyası, strukturu, obrazlılığı, ekvivalentlik növləri, işlənmə tezliyi və onların müqayisəli təhlili xalqın milli-mədəni xüsusiyyətlərini daha dərindən öyrənməyə şərait yaradır. Kütləvi informasiya vasitələrinin başlıqlarında işlədilən transformasiya olunmuş frazeoloji vahidlərin mənalar sisteminin müəyyənləşdirilməsi maraqlı proseslərdən biridir. "Tədqiqatlar göstərmişdir ki, kiçik mətn əsasında

böyük mətnin strukturunu yenidən quran bir mexanizm mövcuddur" (Lazareva, 1989). Bizim vəziyyətdə isə bu "kiçik mətn" məqalənin başlığıdır; "başlıq daxil olan məlumatların proqnozunu təmin edir və xarici nitq aktlarının daxilləşmə prosesində mühüm rol oynayır" (Lazareva, 2006).

Yazı başlıqlarını oxuyarkən oxucuda müəyyən təsəvvür formalaşır, gözlənti yaranır, o, məqalənin məzmununu proqnozlaşdıraraq özünü müəyyən bir istiqamətə yönəldir, düşündüklərinin məqalənin məzmunu ilə təsdiqlənəcəyinə inanır. Bu da frazeoloji vahidlərin *praqmalinqvistik kontekstdə* funksionallığını təsdiq edir. Bu vahidlər dilin üslub mənzərəsini tanıda bilir. "...Dilin mənzərəsi mədəniyyətlə ayrılmaz surətdə bağlıdır, çünki o, insanın dünyadakı təsəvvürlərinin, habelə onun mədəni, mənəvi, sosial və fiziki təcrübəsinin şüurdakı əksidir" (Raximova və b., 2015). Müasir ingilis dilində frazeoloji vahidlərin milli formaları vardır. "Milli-spesifik modellər müxtəlif dillərin dünyagörüşlərində konseptlərin təqdim olunması zamanı üzə çıxır və milli-mədəni xüsusiyyətləri əks etdirir" (Tulusina və b., 2016).

Kütləvi İnformasiya Vasitələrinin dilindəki frazeoloji vahidlər göstərir ki, transformasiya olunmuş istifadə aktiv ifadə vasitəsidir. "Frazeoloji vahidlər mədəniyyət dilini təmsil edir və onların aktiv, ardıcıl şəkildə işlədilməsi tədqiqatçılara həmin dil daşıyıcılarının dünyagörüşü və düşüncə tərzi haqqında əsaslı nəticələr çıxarmağa imkan yaradır" (Skandera, 2007). Frazeoloji vahidlərin inkişafında KİV-ə xüsusi qiymət verilir: Bu gün kütləvi informasiya vasitələrinin inanılmaz gücü sayəsində yeni formalaşdırılmış atalar sözüvari ifadə radio, televiziya və çap mediası vasitəsilə nisbətən qısa müddətdə əsl atalar sözünə çevrilə bilər (Mieder, 2004). Bu məsələdə keçmişdən qalan atalar sözləri də unudulmur: "Köhnə və yeni atalar sözləri də kütləvi informasiya vasitələri mühitində məhsuldar bir zəmin qazanmışdır*"* (Mieder, 2008).

Araşdırmalar göstərir ki, müasir dövrdə ictimai həyatın aparıcı sahələrindən biri jurnalist diskursudur. İnformasiyanın praqmatik təsir funksiyası vasitəsilə oxuculara və ya dinləyicilərə təsir göstərmək, onların baxış və mövqelərini formalaşdırmaq onun əsas məqsədləri sırasına daxildir. Obyektiv reallığı əks etdirən yığcam və məntiqli fikirlərin, müəllifin mövzuya münasibətinin, şəxsi hiss və emosiyalarını əks etdirən subyektivliyin sintezi bu diskursun xüsusiyyətləri kimi tanınır. Jurnalist diskursunun tərkib hissəsi kimi frazeoloji vahidlər vasitəsilə müəllif mövqeyi daha aydın ifadə edilir, hadisələrə müsbət və ya mənfi münasibət bildirilir, emosional vəziyyətləri üzə çıxarmaq və dinləyici auditoriyasının diqqətini mövzunun məğzinə yönəltmək üçün imkanlar açılır. Siyasi həyatla bağlı ifadələr müasir ingilis frazeologiyasının qatlarından biridir. Buraya siyasi hadisə və prosesləri əks etdirən ənənəvi frazeoloji vahidlər, həmçinin, siyasətçilərin çıxışlarında auditoriyaya daha güclü təsir göstərmək, onların diqqətini cəlb etmək və nitqin emosional ifadəliliyini artırmaq məqsədilə işlədilən atalar sözləri və deyimlər daxildir. Dilçilik elmində atalar sözləri və məsəllər, əsasən, kommunikativ frazeoloji vahidlərə aid edilir. Atalar sözləri, adətən, metaforik xarakter daşıyır, məsələn: *Too many cooks spoil the broth* (Çox aşbaz şorbanı korlayar), deyimlər isə, adətən, metaforik olmur, məsələn: *Where there is a will there is a way* (İradə olan yerdə yol var). Tədqiqatçılar frazeoloji və paroemioloji mənanın, həmçinin, komponent mənasının qarşılıqlı əlaqəsini vurğulayırlar, çünki "*bu mənaları bir-birindən çıxarmaq mümkün deyil"* (Ayupova, Başirova, 2015). Siyasi frazeologiya hələ kifayət qədər geniş tədqiq olunmamışdır. Siyasət cəmiyyətin elə bir sahəsidir ki, insanların diqqətini daim özünə cəlb edir. Bu baxımdan, həmin sahəyə aid frazemlərin formalaşması da təbiidir. Qarşılıqlı ictimai əlaqə sisteminə əsaslanan jurnalistika diskursu cəmiyyət həyatında baş verən real hadisə və proseslərlə bağlı olduğundan tez-tez dəyişir.

Siyasi diskursda məlumatı qəbul edənlərin əvvəlki bilikləri və psixoloji qavrayışı frazeologizmlərin düzgün başa düşülməsində əsas məsələlərdən biridir. Yəni frazeologizmlərin düzgün anlaşılması insanın məlumatlılığına bağlıdır. Dinamik həyat tərzinə təkan verən XXI yüzilliyin kütləvi informasiya axınlarının qarşısında böyük meydan açması jurnalist diskursunun əhəmiyyətinin artmasına səbəb oldu. Publisistlər və siyasətçilər auditoriyaya təsiri gücləndirmək və nitqi daha ifadəli etmək məqsədilə frazeologiyanın ifadəli üslubi imkanlarına müraciəti çoxaltdılar. Beləliklə də, publisistik üslubda frazeologiya geniş yayılmağa başladı. Publisistika müəllifin oxucuya ünvanlanan və sosial informasiyalarla zəngin açıq nitqi hesab olunur (Kaida, 2008). Mənbələrdə jurnalist diskursu siyasi və ideoloji çalar daşıyan, subyektə təsir göstərmək məqsədilə yaradılan hər

hansı mətn kimi dəyərləndirilir (Klushina, 2008). Müasir ingilis jurnalistik diskursu aşağıdakı frazeoloji vahidlər ilə zəngindir: *grip on power* – "hakimiyyəti əlində saxlamaq", *crowded field* – "çoxsaylı iştirakçılarla seçki yarışı", *murderous reign* – "qanlı hakimiyyət dövrü" və s. Məsələn: *to put a (small) Band-aid over the problem* – "problemi müvəqqəti ört-basdır etməyə çalışmaq". Məsələn: *to drive down the price* – "qiyməti aşağı salmaq" (*The Wall Street Journal*, 26 oktyabr 2018). Məşhur siyasətçilərin radio vasitəsilə yayılmış təbliğat çıxışlarının, televiziya debatlarının, qəzetlərdə hakimiyyəti tərənnüm və ya tənqid edən məqalələrin dili siyasi frazeologiyanın müasir cəmiyyət həyatında mühüm rol oynadığını göstərir. Siyasi mətnin ünvanlanmış şəxs üzərində nəzərdə tutulan praqmatik təsirini təmin etmək üçün o, müəyyən tələblərə cavab verməlidir: təqdimat tərzi, siyasi ehtiras və obrazlılıq. "Təkrar əlaqə" funksiyasını daşıyaraq siyasətçilərə "xalqla yaxın olmaq" imkanı yaradan, zəngin üslubi, ritorik və dil vasitəsi kimi frazeoloji vahidlərin istifadəsi ilə yüksək səviyyədə təqdimat tərzinə, siyasi ehtirasa və obrazlılığa nail olmaq mümkündür" (Axmanova, 2009).

Jurnalist diskursunda bəzən qarşılığı olmayan frazemlərdən də istifadə olunur. Corc Buşun sözlərində müşahidə olunur: House, announced that each family that had suffered from hurricane Katrina would receive initial cash assistance. And then "*he promised that the government would be with the survivors 'for the long haul'"* (BBC News website, Sep 9, 2005). Ağ Evdə çıxış edən Corc Buş elan etdi ki, Katrina qasırğasından zərər çəkmiş hər bir ailəyə ilkin maliyyə yardımı göstəriləcək. Daha sonra isə o, "hökumətin sağ qalanlarla *uzun müddət ərzində* birlikdə olacağını vəd etdi" ("Bush declares Katrina prayer day", BBC News saytı, 9 sentyabr 2005). Belə ifadələrdən biri də *hardcore voters* frazemidir. ("Inside the minds of hardcore Trump supporters" *Pacific Standard Journal*, 15 fevral, 2018) ifadəsi "hər dəfə eyni partiyaya səs verən seçicilər" kimi açılır. Frazeoloji ekvivalentin olmadığı hallarda tərcümə dilində eyni obraz əsasında yox, lakin eyni mənanı daşıyan başqa bir frazeoloji vahid seçilir (Kobyakova, 2008). Məsələn: *to take the helm* – "vəzifə idarəsini öz əlinə almaq" (*Mr. Bolsonaro, who will take the helm of Latin America's biggest nation, is farther to the right than any president in the region, where voters*…) (Cənab Bolsonaro, Latın Amerikasının ən böyük dövlətinin idarəsini əlinə alacaq və o, regiondakı istənilən prezidentdən daha sağ mövqedə dayanır…) (New York Times, 30 oktyabr, 2018). Digər məşhur siyasi frazeoloji vahid *Buck stops here* H.Trumenin devizi olmuşdur. Hazırda bu ifadə tez-tez siyasi məqalələrdə işlədilir və "Fişka daha irəli getmir" şəklində tərcümə olunur (Trump: The buck does not stop here!" — Jeet Heer. *The New Republic,* n.d.). İfadənin mənşəyi məşhur poker oyununa gedib çıxır. Bu oyunda "buck" oyunçular arasında dövr edir və kart çəkmək növbəsi kimə çatırsa, onun qarşısına qoyulur. Oyunçu kart çəkmək istəmədikdə, "buck" növbəti oyunçuya ötürülür. Məcazi mənada isə "buck" qərar qəbul etmə məsuliyyətinin atributu hesab olunur. "Buck stops here" ifadəsini işlədən sabiq prezident Trumen bununla "qərarın son sözünü deyən şəxs" olduğunu vurğulamışdır. İnskripsiyanın onun iş masasının üzərində yerləşməsi də ən mühüm qərarların məhz onun kabinetində qəbul edildiyini göstərirdi. Məsələn, *Big Brother-style jail* ifadəsi ("Dutch open 'Big Brother' jail" *BBC News*, 19 yanvar, 2006) qəzet məqaləsi mətnində məhbuslara tam nəzarət imkanları ilə təchiz olunmuş həbsxanaya aid edilir. Bu müqayisə totalitar rejimə xas olan, hər bir vətəndaşın fasiləsiz izlənməsi ilə oxşarlığa görə aparılmışdır. *Big Brother* anlayışı isə ilk dəfə Corc Oruellin "1984" adlı romanında işlədilmişdir. İfadəni düzgün şərh etmək üçün həmin əsərin məzmunu və totalitar sistem barədə təsəvvürə malik olmaq vacibdir. Bütün bunlar göstərir ki, ingilis dilinin frazeologiyası siyasi həyat reallıqlarını əhatə edən frazeoloji vahidlərlə zəngindir. İngilis qəzet məqalələrində işlənən frazeoloji vahidlər idiomların semantikası, strukturu və üslub xüsusiyyətləri dəyişdikcə yeni semantik çalarlar yaranır və frazeoloji vahidlərin yeni bədii keyfiyyəti ortaya çıxır.

Müasir ingilis biznes diskursunda idiomlar biznes dünyasında uğur qazanmaq üçün də əhəmiyyət kəsb edir. Biznes prosesində frazemlərin funksional yükü, əsasən, telefon söhbətləri, iş yazışmaları və görüşlərinin üzərinə düşür. Bu baxımdan, *Get the ball rolling*, *on the grapevine*, *from the horse's mouth* kimi spesifik idiomlar biznes ünsiyyəti üçün xarakterikdir. İdiomatik ifadələrin mürəkkəb və çoxşaxəli təbiəti müasir ingilis biznes diskursu sahəsində xüsusi bir çağırış yaradaraq peşəkar qarşılıqlı əlaqələrə ifadəlilik dərinliyi qatmaqda mühüm rol oynayır. Kommunikasiya zamanı dəqiqlik və aydınlıq uğurlu tərəfdaşlıq və fəaliyyət üçün həyati əhəmiyyət daşıyır. Beynəlxalq biznes

kontekstində effektiv ünsiyyət üçün idiomatik ifadələrin mənimsənilməsi vacibdir. Tədqiqatçılar biznes ingiliscəsinin funksional xüsusiyyətlərinə biznes spesifikası ilə bağlı telefon söhbətləri, biznes yazışmaları, biznes media, işgüzar görüşlər, biznes danışıq texnikaları və biznes sektoruna yönəlmiş müqavilələri daxil edirlər (Palamarchuk, 2008). Biznes ingiliscəsi xüsusi məqsədli dil kimi dəyərləndirilir (Rozengart, 2019). Yazılı biznes ünsiyyəti idiomlarla zəngin olmaya bilər, lakin şifahi biznes ünsiyyəti yalnız zəruri məlumatı çatdırmaq üçün deyil, həm də səmimi ünsiyyət atmosferi yaratmaq üçün idiomlardan istifadə etməyə imkan verir. İdiomatik ifadələrin düzgün istifadəsi danışanı ümumi ingilis həyatı və xüsusilə biznes atmosferinə cəlb edir və tərəfdaşlar arasında daha qeyri-rəsmi əlaqələrin qurulmasına şərait yaradır. Lazımi vaxtda düzgün ifadəni tapmaq çətin və çaşdırıcı olduğundan araşdırmaçılar idiomların nə zaman və necə istifadə olunmasını bilməyin vacibliyini qeyd edirlər (Grant, 2007). İdiom müəyyən bir anlayışı çatdıran bütöv nitq vahididir (McCarthy, 2010). İdiomatik ifadəni düzgün tərcümə etmək üçün cümlə strukturundan tamamilə çıxmaq, onun leksik formasını nəzərə almamaq, cümlədə gizlədilmiş fikri tam başa düşmək və onu mümkün qədər dəqiq, ədəbi formada, orijinala yaxın şəkildə ifadə etmək lazımdır. Biznes dili öyrənilməsi ingilis dilinin daha geniş başa düşülməsinə kömək edir (Ustenko, 2011). Biznes dünyasının öz frazeologiyası olsa da, bir çox idiomlar biznes insanları tərəfindən həm biznes, həm də qeyri-biznes kontekstlərində tez-tez istifadə olunur. Biznes kontekstində idiomatik ifadələrin məqsədini və funksional yükünü müəyyən etmək üçün aşağıdakı nümunələrə nəzər salaq: *If we make further losses, we risk a backlash from our investors* (Əgər daha çox zərər edəriksə, sərmayəçilərin mənfi reaksiyası ilə qarşılaşa bilərik) (505 Business English Idioms and phrasal verbs, n.d.). *Backlash* bir hərəkət və ya hadisədən sonra yaranan mənfi nəticə və ya reaksiyadır. İngiliscədə həmçinin *a backlash against* ("əleyhinə mənfi reaksiya") ifadəsi də işlədilir. *The backroom boys in the R&D department are essential to our innovation strategy* (*AR-GE şöbəsindəki arxa plandakı işçilər (backroom boys) bizim innovasiya strategiyamız üçün əvəzolunmazdır*) (505 Business English Idioms and phrasal verbs, n.d.). Burada işi vacib, amma çox tanınmayan insanlar mənasında işlənən *backroom boys* idiomatikləşmiş dil vahididir. Bu nümunələr idiomların həm mənasını, həm də sintaktik imkanlarını göstərir, eyni zamanda, onların leksikoloji, leksikoqrafik və funksional aspektlərini birləşdirir. Bu idiomatik ifadələr danışıq üslubunda və qeyri-rəsmi xarakter daşıyır. Bəzi mütəxəssislər biznes dilinin dar olması fikrinə qarşı çıxaraq, ən çox istifadə olunan ingilis idiomlarının nümunələrinin biznes dilini daha canlı və ifadəli etdiyini vurğulayırlar (Grebenyuk, 2020). Bu ifadələr əsasən biznes sahəsində eşidilsə də, ictimai həyatda da effektiv şəkildə istifadə oluna bilər. İdiomlar funksional yükünə görə fərqlənir.

Beləliklə, ingilis idiomlarından düzgün istifadə etmək biznes prosesində tərəflərin bir-birini daha yaxşı başa düşməsinə imkan verir, tərəfdaşlar arasında daha qeyri-rəsmi əlaqələrin qurulmasına və mədəniyyətlərarası kommunikasiya effektivliyinin artırılmasına səbəb olur. Biznes dili praktik ünsiyyət bacarıqlarının vacib olduğunu göstərir. İngilis idiomları biznes ingiliscəsində danışıq üslubunda geniş istifadə olunur. Biznes dilində istifadə olunan bütün idiomlar praktik yük daşıyır. Müasir ingilis dilində biznes sahəsində *back to the drawing board, cut corners*, *learn the ropes*, *get the ball rolling*, *ballpark figure*, *call it a day, think outside the box*, *back to square one*, *on the same page*, *touch base*, *by the book*, *the bottom line*, *a long shot, bang for the buck, big Picture*, *get down to business*, *go the extra mile, in the Loop*, *learning curve*, *bounce back*, *burn the midnight oil* idiomları geniş yayılmışdır.

İngilis dili frazeoloji vahidlərində semantik dəyişmələrin təhlili göstərir ki, ənənəvi olaraq sabit hesab edilmələrinə baxmayaraq, bu vahidlər davamlı semantik inkişaf prosesinə məruz qalır. Semantik dəyişməyə təsir göstərən ən mühüm amillərdən biri kontekstdir. Müasir diskursda, xüsusilə kütləvi informasiya vasitələrində, siyasi ünsiyyətdə və rəqəmsal platformalarda frazeoloji vahidlər tez-tez yeni mənalar və ya qiymətləndirici çalarlar ifadə etmək üçün yenidən şərh olunur. Bu isə kontekstin frazeoloji ifadələrin gizli semantik potensialını aktivləşdirməkdə həlledici rol oynadığını təsdiqləyir. Tədqiqat zamanı aşkar edilən digər mühüm məqam metaforik və metonimik proseslərin roludur. Bir çox semantik dəyişmə metaforik genişlənmə yolu ilə baş verir; bu zaman frazeoloji vahidin ilkin konkret mənası genişlənərək mücərrəd və ya məcazi anlayışları ifadə edir. Metonimik

dəyişmə isə, öz növbəsində, xüsusilə institusional və ya peşəkar diskursda semantik daralmaya və ya ixtisaslaşmaya gətirib çıxarır. Bu proseslər frazeoloji vahidlərin çevikliyini artırır və onların müasir dil istifadəsində aktuallığını təmin edir. Araşdırma təsdiq edir ki, frazeoloji vahidlərdə semantik dəyişmələr sosial və mədəni amillərlə sıx bağlıdır. Sosial dəyərlərdəki dəyişikliklər, siyasi reallıqlar və texnoloji inkişaf yeni kommunikativ tələbatlar yaradır və bu da danışanları tanış ifadələri yenidən şərh etməyə sövq edir. Nəticədə bəzi frazeoloji vahidlər ilkin mənaları ilə müqayisədə ironik, qiymətləndirici və ya hətta əks məna çalarları qazana bilir. Ümumilikdə, müzakirə göstərir ki, ingilis dili frazeoloji vahidlərində semantik dəyişmə dil normalarından kənarlaşma kimi deyil, dilin təbii inkişafının nəticəsi kimi dəyərləndirilməlidir. Bu dəyişmələrin anlaşılması frazeologiya nəzəriyyəsi, tərcüməşünaslıq və xarici dil tədrisi üçün mühüm əhəmiyyət daşıyır, çünki bu, sabit ifadələrin daim dəyişən kommunikativ mühitdə necə funksional və ifadəli qaldığını izah etməyə imkan verir.

Nəticə

Aparılan tədqiqat göstərir ki, ingilis dili frazeoloji vahidləri tam sabit deyil və müxtəlif semantik dəyişmələrə məruz qalır. Bu dəyişmələr əsasən metaforik və metonimik köçürmələr, kontekstin təsiri və sosial amillərlə əlaqədardır. Frazeoloji vahidlərin semantik inkişafı onların kommunikativ potensialını artırır və müasir diskursda daha fəal istifadəsinə şərait yaradır. Nəticə etibarilə, frazeoloji vahidlərdə semantik dəyişmələrin öyrənilməsi ingilis dilinin leksik-semantik sisteminin daha dərindən anlaşılmasına imkan verir və frazeologiyanın müasir dilçilikdəki yerini bir daha təsdiqləyir.

Ədəbiyyat

1. Arsent'eva, E.F. (2006). *Frazeologiya i frazeografiya v sopostavitel'nom aspekte (na materiale v russkogo i angliiskogo yazykov)*. Izd-vo Kazanskogo universiteta.
2. Akhmanova, O.S. (2009). *Ocherki po obshchei i russkoi leksikologii*. Librokom.
3. Ayupova, R.A., & Bashirova, V.A. (2015). Formal, semantic and semiotic characteristics of American paroemiological units. *Journal of Language and Literature, 6*(1), 291–296.
4. *Bush declares Katrina prayer day*. (2005). BBC News website, Sep 9, 2005. https://georgewbush-whitehouse.archives.gov/news/releases/2005/09/20050908-12.html
5. *Dutch open 'Big Brother' jail*. (2006). *BBC News*. https://www.bbc.co.uk/search?q=Dutch+open+%27Big+Brother%27+jail+19+Jan+2006
6. Grant, L.E. (2007). In a manner of speaking: Assessing frequent spoken figurative idioms to assist ESL/EFL teachers. *System*, *35*(2), 169–181.
7. Grebenyuk, O. (2020). Semantika ta funktsiï frazeologichnikh odinits' u biznes-kontekstakh. *Mizhnarodnii zhurnal lingvistiki ta komunikatsiï, 19*(4), 101–119.
8. Kaida, L.G. (2008). *Pozitsiya avtora v publitsistike. Stilisticheskaya kontseptsiya. Yazyk sovremennoi publitsistiki*. Flinta.
9. Klushina, N.I. (2008). Intentsional'nye kategorii publitsisticheskogo teksta (v aspekte kul'tury rechi). *Peterburgskie chteniya: Tezisy mezhvuzovskoi nauchno-prakticheskoi konferentsii*, 70–71.
10. Kobyakova, I.K. (2008). Frazeologichni vitoki yuridichnogo, politichnogo i viis'kovogo diskursu. *Materiali teoretichnoï konferentsiï vikladachiv, aspirantiv, spivrobitnikiv ta studentiv gumanitarnogo fakul'tetu*, 84–85.
11. Lazareva, E.A. (2006). Zagolovochnyi complex teksta – sredstvo organizatsyi i optimizatsy vospriyatiya. *Izvestiya Uralskogo gosudarstvennogo universita*, *40*, 158–166.
12. McCarthy, M., & O'Dell, F. (2010). *English Idioms in Use: Advanced*. Cambridge University Press.
13. Mieder, W. (2004). *Proverbs: A Handbook*. Westport, Greenwood Press.
14. Mieder, W. (2008). *Proverbs speak louder than words: folk wisdom in art, culture, folklore, history, literature and mass media*. Peter Lang. https://www.researchgate.net/publication/287016770_Proverbs_speak_louder_than_words_Folk_Wisdom_in_art_culture_folklore_history_literature_and_mass_media

15. *New York Times*. (Oct 30, 2018). https://www.nytimes.com/2018/10/28/world/americas/jair-bolsonaro-brazil-election.html
16. Pavlushkina, N.A. (2010). Relevantnost' massovoi pressy kak osnova vzaimodeistviya s auditoriei. *Peterburgskie chteniya: Tezisy mezhvuzovskoi nauchno-prakticheskoi konferentsii*, 254–255.
17. Palamarchuk, O. (2008). Idiomatichni virazi v dilovii angliis'kii movi. *Visnik Natsional'nogo universitetu "Ostroz'ka akademiya"*, 32–40.
18. Rozengart, I. (2019). Vpliv frazeologichnikh viraziv na biznes-komunikatsiyu. *Zhurnal doslidzhen' biznes-komunikatsiï, 11*(2), 10–24.
19. Rakhimova, A.E., Zaripova, Z.M., Sharipova, A.V., & Gurianov, I.O. (2015). Realization of binary opposition joy/sorrow in contemporary German fiction discourse. *Review of European Studies*, *7*(6), 70–76.
20. Salieva, R.N., & Safina, R.A. (2019). *Transformed phraseological units in mass media headings in English and Russian languages*. Proceedings of IFTE.
21. Skandera, P. (2007). *Phraseology and culture in English*. Mouton de Gruyter.
22. Solganik, G.Ya. (2001). Avtor kak stileobrazuyushchaya kategoriya publitsisticheskogo teksta. *Vestnik Moskovskogo Universiteta, 10*(3), 76.
23. Trump: The buck does not stop here!" — Jeet Heer. (n.d.). *The New Republic.* https://newrepublic.com/article/141014/trump-buck-not-stop-here
24. Tulusina, E.A., Sadykova, A.G., & Carlson, C.F. (2016). Determination of national specificity of perceiving the concept "learning" in German and Russian through the association experiment? *International Journal of Environmental and Science Education, 11*(6), 1275–1284.
25. Ustenko, L.F. (2011). Osoblivosti funktsionuvannya frazeologichnikh odinits' u riznikh stilyakh ukraïns'koï movi. *Naukovi zapiski NDU im. M. Gogolya: Filologichni nauki,* 41–42.
26. 505 Business English Idioms and phrasal verbs. (n.d.). https://ia902808.us.archive.org/27/items/505businessenglishidioms/505BusinessEnglishIdiomsandPhrasal-ClareWhitmell.pdf

Daxil oldu: 06.01.2026
Qəbul edildi: 12.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/74-77

Fazil Hümbətli
Azərbaycan Memarlıq və İnşaat Universiteti
doktorant
https://orcid.org/0009-0009-2791-6311
fazil@fontanagrande.com

İrəvanın memarlıq irsində Zal xan məscidinin yeri

Xülasə

İrəvan şəhərində yerləşən Zal xan məscidi regionun zəngin tarixi və çoxmədəniyyətli memarlıq irsinin mühüm nümunələrindən biridir. Bu abidə XVII əsrdə inşa olunmuş və dövrün memarlıq ənənələrini özündə əks etdirərək şəhərin urbanistik inkişafında xüsusi rol oynamışdır. Məscid plan quruluşu, günbəz sistemi, dekorativ elementləri və istifadə olunan tikinti materialları baxımından Azərbaycan-İslam memarlıq məktəbinin xarakterik xüsusiyyətlərini nümayiş etdirir.

Zal xan məscidi yalnız dini ibadət məkanı kimi deyil, həm də ictimai və mədəni həyatın formalaşmasında əhəmiyyətli mərkəz olmuşdur. Tarixi proseslər nəticəsində müxtəlif dəyişikliklərə məruz qalsa da, bu abidə İrəvanın keçmiş memarlıq simasını və bölgənin etno-mədəni müxtəlifliyini öyrənmək baxımından dəyərli mənbə kimi çıxış edir.

Zal xan məscidi İrəvanın memarlıq irsində mühüm yer tutaraq həm tarixi yaddaşın qorunması, həm də milli-mədəni irsin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bununla yanaşı, abidə regionda mövcud olmuş memarlıq ənənələrinin qarşılıqlı təsirini araşdırmaq üçün də əhəmiyyətli elmi baza yaradır. Eyni zamanda, Zal xan məscidinin öyrənilməsi gələcək nəsillərə mədəni irsin qorunması və tanıdılması baxımından mühüm töhfə verir.

Açar sözlər: *Zal xan məscidi, İrəvan, memarlıq irsi, tarixi abidə, İslam memarlığı, Azərbaycan memarlıq məktəbi, mədəni irs, dini tikililər*

Fazil Humbatli
Azerbaijan University of Architecture and Construction
PhD student
https://orcid.org/0009-0009-2791-6311
fazil@fontanagrande.com

The Place of Zal Khan Mosque in the Architectural Heritage of Yerevan

Abstract

Zal Khan Mosque, located in Yerevan, is one of the significant examples of the region's rich historical and multicultural architectural heritage. This monument was constructed in the 17th century and played an important role in the urban development of the city by reflecting the architectural traditions of its time. In terms of its layout, dome system, decorative elements, and construction materials, the mosque demonstrates the characteristic features of the Azerbaijani-Islamic architectural school.

Zal Khan Mosque has served not only as a place of religious worship but also as an important center for social and cultural life. Although it has undergone various changes as a result of historical processes, the monument remains a valuable source for studying the former architectural appearance of Yerevan and the ethno-cultural diversity of the region.

Occupying an important place in the architectural heritage of Yerevan, Zal Khan Mosque holds great significance in terms of preserving historical memory and studying national-cultural heritage.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

At the same time, the monument provides an important scientific basis for examining the interaction of architectural traditions that existed in the region. The study of Zal Khan Mosque also contributes to the preservation and promotion of cultural heritage for future generations.

***Keywords**: Zal Khan Mosque, Yerevan, architectural heritage, historical monument, Islamic architecture, Azerbaijani architectural school, cultural heritage, religious buildings*

Giriş

İrəvan şəhəri tarix boyu müxtəlif mədəniyyətlərin, dinlərin və sivilizasiyaların qovuşduğu mühüm məkanlardan biri olmuşdur. Bu şəhər yalnız siyasi və iqtisadi baxımdan deyil, həm də zəngin memarlıq irsi ilə regionda xüsusi yer tutur. İrəvanın memarlıq siması əsrlər boyu burada yaşamış xalqların dünyagörüşünü, dini inanclarını və estetik zövqünü əks etdirən çoxsaylı abidələrlə formalaşmışdır (Əliyev, 2015).

Bu abidələr arasında dini tikililər, xüsusilə məscidlər, şəhərin tarixi-mədəni kimliyinin ayrılmaz hissəsi kimi diqqəti cəlb edir (Məmmədov, 2018).

Tədqiqat

Zal xan məscidi İrəvanın memarlıq irsində mühüm yer tutan nadir abidələrdən biri hesab olunur. Bu məscid yalnız dini ibadət məkanı kimi deyil, eyni zamanda, dövrünün memarlıq xüsusiyyətlərini özündə əks etdirən əhəmiyyətli tarixi abidə kimi qiymətləndirilir (Hüseynov, 2012).

Onun inşa edildiyi dövr, memarlıq üslubu, plan quruluşu və dekorativ elementləri regionun memarlıq ənənələri haqqında mühüm məlumatlar verir. Məscid, həmçinin, İrəvanın çoxmədəniyyətli mühitinin və islam memarlığının şəhərdəki izlərinin öyrənilməsi baxımından da böyük əhəmiyyət kəsb edir (Abbasov, 2016).

Tarixi proseslər və siyasi dəyişikliklər nəticəsində İrəvan şəhərinin memarlıq simasında ciddi transformasiyalar baş vermişdir. Bu dəyişikliklər bir çox tarixi abidələrin ya dağıdılmasına, ya da ilkin funksiyasını itirməsinə səbəb olmuşdur (İbrahimov, 2014).

Bu baxımdan Zal xan məscidi kimi abidələrin tədqiqi və qorunması yalnız memarlıq baxımından deyil, həm də mədəni irsin mühafizəsi baxımından xüsusi aktuallıq daşıyır.

Beləliklə, Zal xan məscidinin öyrənilməsi yalnız konkret bir abidənin tədqiqi deyil, bütövlükdə İrəvanın tarixi və memarlıq irsinin daha geniş kontekstdə anlaşılmasına xidmət edir (Quliyev, 2017).

Zal xan məscidi memarlıq baxımından XVII əsrin İrəvan şəhərindəki İslam memarlığının nadir nümunələrindən biridir. Məscid düzbucaqlı plan üzrə inşa edilmiş və mərkəzi günbəzin ətrafında təşkil olunmuşdur ki, bu da dövrün məscid memarlığında geniş yayılmış üslub hesab olunur.

Günbəz daxili məkanı işıqlandırmaqla yanaşı, akustikanın yaxşılaşmasına da xidmət etmişdir (Azərbaycan Dövlət Arxiv İdarəsi, 1949).

Məscidin fasadı və daxili dekorasiyasında daş və kərpic materiallardan istifadə edilmiş, sadə ornament və naxışlarla zənginləşdirilmişdir. Məscidin giriş qapıları və pəncərələri nisbətən sadə, lakin simmetrik şəkildə yerləşdirilmiş, estetik baxımdan harmonik görünüş yaratmışdır. Daxili sahədə minbər və mihrab ənənəvi İslam memarlığı üslubunda hazırlanmışdır, dekorativ elementlər isə həm dini funksiyanı, həm də vizual estetikanı təmin etmişdir.

Zal xan məscidi həm şəhərin mərkəzi hissəsində yerləşməsi, həm də məkanın funksionallığı baxımından mühüm əhəmiyyətə malikdir. Bu memarlıq nümunəsi həm dini, həm də ictimai fəaliyyət

üçün nəzərdə tutulmuş və dövrün memarlıq standartlarını yüksək səviyyədə əks etdirmişdir. Məscidin dekorativ və struktur elementləri onun regionun memarlıq ənənələri ilə sıx bağlı olduğunu göstərir, eyni zamanda, XVII əsrin İrəvan memarlığının xüsusiyyətlərini öyrənmək üçün dəyərli nümunədir (Əliyeva, 2020).

Zal xan məscidi tarixən İrəvan şəhərinin mühüm yaşayış məntəqələrindən olan Qala və Təpəbaşı məhəllələri arasında yerləşmişdir. Bu mövqe onun həm şəhərin mərkəzi həyatında, həm də dini və ictimai fəaliyyətlərdə əhəmiyyətli rol oynadığını göstərir (Kərimov, 2018).

Məscidin tikilmə tarixi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Tədqiqatçılar onun XVII əsrdə, təxminən 1649–1685-ci illər arasında inşa edildiyini ehtimal edirlər.

Məşhur tədqiqatçı Henri Linçin məlumatlarına əsasən, məscidin üzərində ərəb əlifbası ilə Azərbaycan türkcəsində yazılmış kitabədə onun 1687-ci ildə tikildiyi qeyd edilmişdir. Bu fakt bəzi mənbələrdə tikintinin daha erkən – 1679-cu ilə təsadüf etdiyini düşünməyə əsas verir. Beləliklə, Zal xan məscidi XVII əsrin ikinci yarısında formalaşmış mühüm dini-memarlıq abidələrindən biri kimi qiymətləndirilir (Mustafayev, 2019).

Tarixi inkişaf prosesində məscidin funksiyası və memarlıq bütövlüyü ermənilər tərəfindən dağıntılara məruz qalmışdır. 1928-ci ildə məscidin əsas ibadət zalı ermənilər tərəfindən sökülmüş və onun yerində mehmanxana binası inşa edilmişdir. Daha sonralar bu bina müxtəlif adlarla fəaliyyət göstərmiş, 1999-cu ildə aparılan yenidənqurma işlərindən sonra isə "Qolden Tulip İrəvan Otel" adı ilə fəaliyyətini davam etdirmişdir. Arxiv sənədlərinə əsasən, xüsusilə Azərbaycan Dövlət Arxiv İdarəsində saxlanılan 1949-cu ilə aid materiallar göstərir ki, sovet dövründə Zal xan məscidi dini təyinatını itirmiş və sərgi salonu kimi istifadə olunmuşdur. İkinci Dünya müharibəsindən sonra isə onun ərazisində funksional təyinatında daha ciddi dəyişikliklər baş vermişdir (Rzayev, 2011). Lakin zaman keçdikcə baş verən siyasi və sosial dəyişikliklər bu abidənin taleyinə ciddi təsir göstərmişdir. 1928-ci ildə məscid tamamilə dağıdılmış və onun yerində "Erivan" hoteli tikilmişdir. Bu isə abidənin memarlıq bütövlüyünün tam şəkildə məhv olmasına səbəb olmuşdur.

Sonrakı dövrlərdə həmin ərazi müxtəlif məqsədlərlə yenidən qurulmuş və fərqli funksiyalar daşıyan obyekt kimi istifadə edilmişdir. Bu dəyişikliklər nəticəsində abidənin ilkin memarlıq xüsusiyyətləri və tarixi kimliyi tamamilə aradan qalxmışdır.

Bu hadisə regionun tarixi-mədəni irsinə vurulan ciddi zərbə kimi qiymətləndirilir. Məscidin dağıdılması ilə yalnız bir memarlıq nümunəsi deyil, həm də həmin dövrün dini və ictimai həyatını əks etdirən mühüm bir mədəni dəyər itirilmişdir.

Nəticə

Aparılan tədqiqat göstərir ki, Zal xan məscidi İrəvan şəhərinin memarlıq irsində mühüm yer tutan, tarixi və mədəni baxımdan dəyərli abidələrdən biri olmuşdur. XVII əsrdə inşa edilən bu məscid yalnız dini ibadət məkanı kimi deyil, eyni zamanda, şəhərin ictimai və mədəni həyatının ayrılmaz hissəsi kimi fəaliyyət göstərmişdir. Onun yerləşdiyi mövqe, plan quruluşu və ümumi memarlıq xüsusiyyətləri İrəvanın o dövrdə formalaşan urbanistik simasının mühüm elementlərindən biri olduğunu təsdiqləyir (Həsənov, 2013).

Zal xan məscidinin xarici görünüş baxımından Göy məscidə bənzəməsi onun klassik İslam memarlıq ənənələrinə uyğun şəkildə inşa edildiyini göstərir. Məscidin həyətinin və bağçasının olması isə bu tikilinin yalnız ibadət yeri deyil, həm də insanların toplaşdığı, sosial ünsiyyət qurduğu və

istirahət etdiyi məkan kimi istifadə olunduğunu sübut edir. Bu xüsusiyyətlər onun kompleks memarlıq quruluşuna malik olduğunu və dövrün estetik prinsiplərini əks etdirdiyini göstərir.

Beləliklə, Zal xan məscidinin keçdiyi tarixi yol onun yalnız bir memarlıq abidəsi deyil, həm də regionda baş verən siyasi, sosial və mədəni transformasiyaların canlı şahidi olduğunu ortaya qoyur. Bu abidənin tədqiqi İrəvanın keçmiş memarlıq irsinin daha dərindən anlaşılmasına, həmçinin, tarixi abidələrin qorunmasının əhəmiyyətinin dərk edilməsinə xidmət edir.

Ədəbiyyat

1. Abbasov, N. (2016). *Azərbaycanın dini memarlıq abidələri*. Elm və Təhsil.
2. Azərbaycan Dövlət Arxiv İdarəsi. (1949). *İrəvan şəhərinin memarlıq abidələri haqqında materiallar*.
3. Əliyev, F. (2015). *Azərbaycan memarlıq tarixi*. Elm.
4. Əliyeva, L. (2020). *Tarixi abidələrin qorunması və bərpası problemləri*. Elm.
5. Həsənov, E. (2013). *Azərbaycanın mədəni irsi və onun qorunması*. Təhsil.
6. Hüseynov, T. (2012). *İrəvan şəhərinin tarixi və memarlıq abidələri*. Şərq-Qərb.
7. İbrahimov, S. (2014). *İslam memarlığında məscidlərin rolu*. Nurlar.
8. Kərimov, V. (2018). Qafqaz regionunda orta əsr memarlıq strukturları. *Memarlıq və İnşaat Jurnalı*.
9. Məmmədov, R. (2018). *Qafqazda İslam memarlığı*. Təhsil.
10. Mustafayev, K. (2019). *Şəhərsalma və memarlıq irsi*. Memar.
11. Quliyev, A. (2017). *Qafqaz regionunda memarlıq ənənələri*. Avrasiya Press.
12. Rzayev, M. (2011). *Qafqazın memarlıq abidələri*. Şərq-Qərb.

Daxil oldu: 02.01.2026
Qəbul edildi: 12.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/78-82

Gülnarə Qədirova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0009-1041-6329
gulnare.qadirova@adpu.edu.az

İbtidai məktəbdə interaktiv təlim metodları: şagird motivasiyasına və onların idrak qabiliyyətlərinin inkişafına təsiri

Xülasə

"İbtidai məktəbdə interaktiv tədris metodları: Şagird motivasiyasına və onların idrak qabiliyyətlərinin inkişafına təsiri" mövzusu ibtidai siniflərdə təhsil prosesində interaktiv texnologiyaların istifadəsinin əhəmiyyətini araşdırır. Son illərdə ənənəvi tədris metodları tədricən müxtəlif interaktiv vasitələri: oyunlar, multimedia texnologiyaları, qrup layihələri, şagirdlər və müəllimlər arasında aktiv qarşılıqlı əlaqəni özündə birləşdirən daha müasir, aktiv yanaşmalara yol açmışdır. Bu metodlar şagirdlərin motivasiyasını artırmaqla yanaşı, həm də analitik düşüncə, yaradıcılıq və komanda işi kimi idrak qabiliyyətlərini inkişaf etdirir.

İnteraktiv metodlar şagirdlərə materialı müstəqil şəkildə mənimsəməyə, təlim prosesində fəal iştirak etməyə və öyrənilən mövzuları daha yaxşı başa düşməyə imkan verir. Bu, müsbət təlim atmosferi yaradır və öyrənməyə marağı stimullaşdırır. Şagird motivasiyasına müsbət təsir onların öyrənməyə daha çox cəlb olunması və maraq göstərməsidir ki, bu da akademik göstəricilərin yaxşılaşmasına kömək edir.

Bundan əlavə, interaktiv metodların istifadəsi uşaqlarda suallara fəal şəkildə cavab axtardıqca, məlumatları emal etdikcə və bilikləri müxtəlif vəziyyətlərdə tətbiq etdikcə tənqidi düşüncə və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Bu, onların ümumi təhsil prosesinə müsbət təsir göstərir və onları sonrakı təhsilə hazırlayır.

***Açar sözlər**: interaktiv, motivasiya, idrak, məktəb, metodlar*

Gulnara Gadirova
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0009-1041-6329
gulnare.qadirova@adpu.edu.az

Interactive Teaching Methods in Primary School: Impact on Student Motivation and Development of Their Cognitive Abilities

Abstract

The topic "Interactive teaching methods in primary school: Impact on student motivation and development of their cognitive abilities" examines the importance of using interactive technologies in the educational process in primary grades. In recent years, traditional teaching methods have gradually given way to more modern, active approaches that include various interactive tools: games, multimedia technologies, group projects, active interaction between students and teachers. These methods not only increase students' motivation, but also develop cognitive skills such as analytical thinking, creativity and teamwork.

Interactive methods allow students to independently master the material, actively participate in the learning process and better understand the topics being studied. This creates a positive learning atmosphere and stimulates interest in learning. A positive effect on student motivation is that they are more involved and interested in learning, which helps to improve academic performance.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

In addition, the use of interactive methods develops critical thinking and problem-solving skills in children as they actively seek answers to questions, process information, and apply knowledge to different situations. This has a positive impact on their overall educational process and prepares them for further education.

Keywords: *interactive, motivation, cognition, school, methods*

Giriş

İnteraktiv təlim metodları müasir təhsil prosesinin, xüsusən də şagirdlərin gələcək inkişafının əsasının qoyulduğu ibtidai məktəbdə mühüm tərkib hissəsinə çevrilir. İnformasiyanın passiv qəbuluna yönəlmiş ənənəvi metodlardan fərqli olaraq, interaktiv yanaşmalar şagirdlərin təlim prosesinə aktiv cəlb olunmasını nəzərdə tutur. Bu metodlar müxtəlif forma və texnologiyaları əhatə edir: tədris oyunlarından multimedia resurslarına, qrup layihələrinə və hətta virtual simulyasiyalara qədər. Bütün bu üsullar, şagirdlərin sadəcə bilik qazanmadığı, həm də təlim prosesinin fəal iştirakçısına çevrildiyi daha canlı və dinamik tədris mühiti yaratmağa yönəlmişdir.

İnteraktiv metodların əsas xüsusiyyətlərindən biri şagirdlərin motivasiyasını əhəmiyyətli dərəcədə artırmaq qabiliyyətidir. Uşaqlar dərsin sadəcə dinləyicisi deyil, aktiv iştirakçısı olduqda, tədris materialına daha böyük maraq göstərirlər ki, bu da öz növbəsində biliklərin daha yaxşı mənimsənilməsinə kömək edir. Qeyd etmək vacibdir ki, məhz bu mərhələdə – ibtidai məktəbdə tənqidi təfəkkür, təhlil bacarığı, habelə yaradıcılıq və qeyri-standart tapşırıqları həll etmək qabiliyyəti kimi mühüm idrak bacarıqları formalaşır.

İnteraktiv təlim metodları əməkdaşlıq bacarıqlarının inkişafına da şərait yaradır ki, bu da kollektivdə sosial və tədris fəallığının əsaslarını öyrənən kiçikyaşlı məktəblilər üçün xüsusilə vacibdir. Bu metodlar sayəsində uşaqlar təkcə fənni deyil, həm də vacib həyati bacarıqları öyrənirlər: komandada necə işləməli, başqalarının fikrinə necə hörmət etməli və necə təşəbbüskarlıq göstərməli. Bütün bunlar kompleks şəkildə şagirdlərin həm təlim fəaliyyətində, həm də şəxsiyyət kimi inkişafında uğurlarına təsir göstərir.

Beləliklə, ibtidai məktəbdə interaktiv metodların tətbiqi şagirdlərdə təkcə baza biliklərinin deyil, həm də gələcək təhsil və şəxsi inkişaf üçün zəruri olan mühüm idrak və sosial bacarıqların formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Tədqiqat

İbtidai məktəbdə interaktiv təlim metodlarının şagirdlərin motivasiyasına və idrak qabiliyyət-lərinin inkişafına ciddi təsir göstərən çoxsaylı üstünlükləri vardır. Belə metodların tətbiqi uşaqların sadəcə passiv dinləyici deyil, təlim prosesinin aktiv iştirakçısı olduğu fəal tədris mühitinin yaradılmasına kömək edir (Barabanova, 2016).

İnteraktiv metodların istifadəsinin ən vacib aspektlərindən biri onların şagird motivasiyasına təsiridir. Ənənəvi metodlar çox vaxt materialın verilməsində yeknəsəqlik nəzərdə tutur ki, bu da şagirdlərin marağının tez bir zamanda azalmasına səbəb ola bilər. Əksinə, oyunlar, praktiki tapşırıqlar, komanda layihələri və multimedia texnologiyalarından istifadəni ehtiva edən interaktiv yanaşmalar şagirdlərin təlim prosesinə cəlb olunmasını əhəmiyyətli dərəcədə artırır. Bu, uşaqlarda təhsilin darıxdırıcı bir öhdəlik deyil, öz qabiliyyət və yaradıcılıqlarını nümayiş etdirə biləcəkləri maraqlı və faydalı bir fəaliyyət olduğu hissini yaradır. Nəticədə, şagirdlər dərslərdə daha fəal iştirak edir ki, bu da onların akademik nailiyyətlərinin yüksəlməsinə şərait yaradır (Levina, 2018).

İnteraktiv metodlar sayəsində mümkün olan idrak qabiliyyətlərinin inkişafı da eyni dərəcədə vacibdir. Müxtəlif tapşırıq formaları və problemlər üzərində işləyərək şagirdlər təkcə faktları öyrənmir, həm də analitik və tənqidi təfəkkür, qeyri-standart tapşırıqları həll etmək bacarığı və problemlərə yaradıcı yanaşma kimi vacib bacarıqları inkişaf etdirirlər. Bu, bütün təhsil mərhələlərində və gələcək həyatda tələb olunacaq bacarıqların əsasının qoyulduğu ibtidai məktəb dövründə xüsusilə əhəmiyyətlidir (Repina, 2017).

Bundan əlavə, interaktiv metodlar məktəblilərdə sosial bacarıqların inkişafına töhfə verir. Qruplarda işləyərkən uşaqlar komandada işləməyi, məsuliyyəti bölüşməyi, başqalarının fikirlərini nəzərə almağı və öz ideyalarını ifadə etməyi öyrənirlər. Bu, onların kommunikasiya bacarıqlarını

gücləndirir, qarşılıqlı yardım və əməkdaşlıq hissini inkişaf etdirir (Bloxina, 2015). Lakin bütün üstünlüklərə baxmayaraq, interaktiv metodların tətbiqi müəllimlərdən yüksək ixtisas və adekvat maddi-texniki baza tələb edir. Bütün təhsil müəssisələri müasir multimedia vasitələri və texnika ilə təmin olunmaq imkanına malik deyil ki, bu da interaktiv texnologiyaların istifadəsini məhdudlaşdırır. Bundan əlavə, bu metodların uğurlu reallaşdırılması pedaqoqlardan öz bilik və bacarıqlarını daim yeniləməyə hazır olmağı, habelə yanaşmaları şagirdlərin ehtiyac və maraqlarına uyğun adaptasiya etmək bacarığını tələb edir.

Beləliklə, ibtidai məktəbdə interaktiv təlim metodları şagirdlərin motivasiyasına və idrak qabiliyyətlərinə əhəmiyyətli təsir göstərir. Onlar uşaqların sadəcə bilik mənimsəməklə kifayətlənməyib, həm də tənqidi təfəkkür, yaradıcılıq və kollektivdə işləmək bacarığı kimi mühüm vərdişləri inkişaf etdirdikləri daha maraqlı və məhsuldar təlim mühitinin yaradılmasına kömək edir (Kulikova, 2019).

Cədvəl 1.
İnteraktiv təlim metodlarının şagirdlərin motivasiyasına və idrak qabiliyyətlərinə təsiri

Təlim metodu	**Metodun məqsədi**	**Motivasiyaya təsiri**	**İdrak qabiliy-yətinin inkişafı**	**Üstünlükləri**
Oyun və metodları	Şagirdlərin fəal iştirakını stimullaşdırmaq	Təlim prosesinə marağı və cəlbediciliyi artırır	Yaradıcılıq və strateji təfəkkürü inkişaf etdirir	Əməkdaşlıq və komanda işi bacarıqlarını formalaşdırır
Multimedia texnologiyaları	Video, animasiya və tətbiqlərdən istifadə	Dərsləri maraqlı edir, materialı visuallaşdırır	Diqqəti, qavrayışı və informasiya analizini inkişaf etdirir	Mürəkkəb konsepsiyaların mənimsənilməsini yaxşılaşdırır
Qrup layihələri	Kommunakativ və tədqiqat bacarıqlarını inkişaf etdirmək	Qrup daxilində iş sahəsində prosesə cəlb olunmanı artırır	Analitik və tənqidi təfəkkürü birgə işləmək bacarığını inkişaf etdirir	Şagirdlər komandada işləməyi və ortaq tapşırıqları həll etməyi öyrənirlər
Müzakirə və debat	Müstəqil düşünməni və arqumentasiyanı stimullaşdırmaq	Özünə inamı artırır, fikir bildirmək istəyini gücləndirir	Analiz etmək, əsaslandırmaq və dinləmək bacarığını inkişaf etdirir	Şagirdlər öz fikirlərini ifadə etməyi və başqalarının rəyini nəzərə almağı öyrənirlər
İnteraktiv lövhələr	Sensor texnologiyalar vasitəsilə materialla qarşılıqlı əlaqə	Diqqəti cəlb edir və dərsi dinamik edir	Motorikanı, diqqəti və səbri inkişaf etdirir	Texnologiyalar vasitəsilə tədris prosesini zənginləşdirir

Mənbə: Levina və Sokolova, 2018.

Bu cədvəldə müxtəlif interaktiv təlim metodları, onların məqsədləri, şagirdlərin motivasiyasına və idrak qabiliyyətlərinin inkişafına təsiri təqdim edilmişdir (Vasilyeva, 2020).

"Oyunlar və oyun metodları" şagirdlərin fəal iştirakını stimullaşdırmağa yönəlmişdir ki, bu da onların təlim prosesinə motivasiyasını və cəlb olunmasını artırır. Bu metod yaradıcılıq və strateji

təfəkkürü inkişaf etdirməyə kömək edir, həmçinin, əməkdaşlıq və komanda işi bacarıqlarının formalaşmasına şərait yaradır. Oyunlar təhsili şagirdlər üçün daha cəlbedici və əlçatan edir, bu isə onların oxumağa olan marağını möhkəmləndirir (Morozova, 2014).

"Multimedia texnologiyaları" video, animasiya və interaktiv tətbiqlər kimi müxtəlif vizual materialların istifadəsini əhatə edir. Bu, dərsləri şagirdlər üçün daha maraqlı və vizual baxımdan anlaşılan etməyə kömək edir. Belə metodlar diqqəti, qavrayışı və informasiyanı təhlil etmək qabiliyyətini inkişaf etdirir, həmçinin, mürəkkəb mövzuların daha yaxşı mənimsənilməsinə kömək edir (Dyakova, 2013; Voronova, 2020).

"Qrup layihələri" şagirdlərin kommunikativ və tədqiqat bacarıqlarını inkişaf etdirməyə kömək edir. Qrupda işləyərkən şagirdlər komandada çalışmağı, öhdəlikləri bölüşməyi və ortaq tapşırıqları həll etməyi öyrənirlər. Bu tənqidi və analitik təfəkkürü də inkişaf etdirir, çünki uşaqlar kollektivdə informasiyanı təhlil etməli və öz ideyalarını əsaslandırmalıdırlar (Tixonova, 2013).

"Müzakirə və debat" müstəqil düşünməyə və arqumentasiyaya şərait yaradır. Şagirdlər öz fikirlərini ifadə etməyi, başqalarını dinləməyi və onların rəyini nəzərə almağı öyrənirlər. Bu, təkcə tənqidi təfəkkürü deyil, həm də öz gücünə inamın formalaşması üçün vacib olan əsaslandırma bacarığını inkişaf etdirir.

"İnteraktiv lövhələr" sensor texnologiyalar vasitəsilə materialla qarşılıqlı əlaqə qurmaq imkanı yaradır ki, bu da dərsləri daha dinamik edir. Bu, şagirdlərin marağının artmasına və onların təlim prosesinə aktiv cəlb olunmasına kömək edir. Belə metod diqqəti, motorikanı və səbri inkişaf etdirməyə kömək edir. Bu metodların hər biri şagirdlərin inkişafına öz töhfəsini verir, onların motivasiyasını və idrak qabiliyyətlərini yüksəldir (İvanova, 2017).

Nəticə

İnteraktiv təlim metodları təhsil prosesində, xüsusən də ibtidai məktəbdə mühüm rol oynayır. Onların istifadəsi şagirdlərin təlim prosesinə aktiv cəlb olunmasına şərait yaradır, motivasiyanı və təhsilə olan marağı artırır. Oyun texnologiyaları, multimedia resursları, qrup layihələri və müzakirələr kimi metodlar məktəblilərdə təkcə idrak qabiliyyətlərini deyil, həm də komandada işləmək, fikirlərini ifadə etmək və başqalarının rəyini nəzərə almaq kimi vacib sosial bacarıqları inkişaf etdirir.

İnteraktiv təlim uşaqlara yaradıcı və tənqidi təfəkkürü inkişaf etdirməyə kömək edir, diqqəti, qavrayışı və informasiya təhlili qabiliyyətini yaxşılaşdırır. Bundan əlavə, bu metodlar tədris materialının daha yaxşı mənimsənilməsinə kömək edərək daha dinamik və maraqlı təhsil mühiti yaradır.

İbtidai məktəbdə interaktiv təlim metodlarının tətbiqi daha səmərəli və müasir təhsil sisteminin yaradılması üçün zəruri addımdır. Lakin onların uğurlu tətbiqi üçün pedaqoqların yaxşı hazırlaşması və müasir təhsil texnologiyalarına çıxışının olması vacibdir. İnteraktiv təlim şagirdlərin inkişafı üçün yeni imkanlar açır, onlara təkcə bilik qazanmağa deyil, həm də gələcək həyat üçün zəruri olan bacarıqları formalaşdırmağa kömək edir.

Ədəbiyyat

1. Barabanova, O.V., & Smirnova, A.İ. (2016). *İnteraktiv təlim metodları məktəbdə*. Elm və Təhsil.
2. Bloxina, İ.V. (2015). *Pedaqoji texnologiyalar və onların tədris prosesində istifadəsi*. Elm.
3. Dyakova, M.V. (2013). *İnteraktiv təlim metodları: nəzəriyyədən praktikaya*. Elm.
4. İvanova, A.A., & Petrova, İ.V. (2017). *İbtidai məktəbdə təlim metodları və pedaqoji diaqnostika* Elm və Təhsil.
5. Kulikova, E.V. (2019). *Təhsil prosesində interaktiv texnologiyalar: nəzəri və praktik aspektlər*. Maarif.
6. Levina, İ.V., & Sokolova, L.V. (2018). *İbtidai məktəbdə aktiv təlim metodları*. Maarif.
7. Morozova, N.İ. (2014). *İnteraktiv təlim metodları və onların məktəblilərin idrak qabiliyyətlərinin inkişafına təsiri*. Elm.
8. Repina, N.A. (2017). *Müasir pedaqoji texnologiyalar: ənənədən innovasiyaya*. Elm və Təhsil.

9. Solovyov, V.İ. (2015). *İnteraktiv lövhələr və onların məktəb təlimində istifadəsi*. Maarif.
10. Tixonova, L.S. (2013). *Təhsil prosesində oyun metodikaları: tətbiq yolları və effektlər*. Nurlar.
11. Voronova, N. N. (2020). *Təhsil prosesində innovativ yanaşmalar: nəzəriyyə və praktika*. Maarif.
12. Vasilyeva, O. A., & Şerbakova, İ. V. (2020). *Tədris prosesində multimedia texnologiyalarının istifadəsi*. Elm və Təhsil.

Daxil oldu: 07.01.2026
Qəbul edildi: 10.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/83-86

Şəbnəm Əliyeva
Naxçıvan Dövlət Universiteti
dissertant
https://orcid.org/0000-0002-9716-7629
shebnemeliyeva27@gmail.com

Ali pedaqoji təhsil mühitində elmi fəaliyyətin müasir vəziyyəti və modernləşmə perspektivləri

Xülasə

Məqalədə ali təhsilin qlobal miqyasda əhəmiyyəti, son illərdə xüsusilə texnologiyanın inkişafının təhsil sektoruna həm birbaşa, həm də dolayı yolla öz təsirini göstərməsi məsələlərindən bəhs edilir. Araşdırmalar göstərir ki, ali təhsildə modernləşmə də son illərdə xüsusilə aktualdır. İstər yerli, istər beynəlxalq səviyyədə ali təhsil müəssisələrində rəqəmsal texnologiyaların tətbiqi modernləşmə siyasətinin əsasını təşkil edir. Məqalədə göstərilir ki, modernləşmə təhsil sektorunda tədris, təlim proseslərinə də əhəmiyyətli təsir göstərir.

Vətəndaşlıq institutu dövlət və şəxs arasında hüquqi əlaqənin əsasını təşkil edən mühüm hüquqi kateqoriyadır. O, fərdin hansı dövlətə mənsubluğunu müəyyən etməklə yanaşı, onun hüquq və vəzifələrinin çərçivəsini də formalaşdırır. Bu baxımdan vətəndaşlıq həm hüquqi, həm də sosial-siyasi əhəmiyyətə malikdir. Vətəndaşlığın əldə edilməsi, itirilməsi və bərpası qaydaları dövlətin hüquq sistemində sabit və aydın mexanizmlər əsasında tənzimlənir. Bu qaydalar şəxsiyyətin hüquqi statusunun müəyyən olunmasında şəffaflığı təmin edir və dövlətin suveren hüquqlarını qoruyur. Eyni zamanda, bu mexanizmlər cəmiyyətin inteqrasiyasına və hüquqi nizamın möhkəmlənməsinə xidmət edir.

Vətəndaşlıq institutunun düzgün tətbiqi fərdlərin əsas hüquq və azadlıqlarının təmin olunmasında mühüm rol oynayır. O, insanlara dövlətin siyasi, iqtisadi və sosial həyatında iştirak etmək imkanı verir, həmçinin, dövlətin müdafiəsi və inkişafı prosesində onların rolunu müəyyən edir. Bu da vətəndaşlıq anlayışının praktik əhəmiyyətini daha da artırır. Vətəndaşlıq institutu müasir hüquq sistemlərinin ayrılmaz tərkib hissəsidir və dövlət–şəxs münasibətlərinin əsas hüquqi dayaqlarından biri kimi çıxış edir. Onun səmərəli hüquqi tənzimlənməsi həm dövlətin sabitliyinə, həm də vətəndaşların hüquqi təminatlarının güclənməsinə xidmət edir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti Yanında Vətəndaşlara xidmət və sosial innovasiyalar üzrə Dövlət Agentliyi. (2013). Qərar https://e-qanun.az/framework/26856
2. Behara, G.K., Varre, V.V., Rao, M. (2009). *Service Oriented Architecture for E-Governance*. http://www.bptrends.com
3. Bhisikar, A. (2011). G-Cloud: New Paradigm Shift for Online Public Services. *In International Journal of Computer Applications, 22*(8), 24–29.
4. Bozkurt, A. (2017). *Türkiye'de e-devlet uygulamaları*. Anadolu Üniversitesi Yayınları. ISBN: 978-975-06-1958-8
5. Əliquliyev, R.M., Ələkbərov, R.Q., Həşimov, M.A. (2015). Bulud texnologiyalarının elektron dövlət sistemində tətbiqi məsələləri. *İnformasiya cəmiyyəti problemləri*, *1*, 3–11.
6. Əliyev, İ. (2013). *Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 3 saylı Bakı "ASAN xidmət" mərkəzinin açılışında iştirak etmişdir*. https://president.az/az/articles/view/9338
7. Hüseyinli, T. (2025). Azerbaycan'da müşteri (vatandaş) odaklı e-devlet hizmetleri: "Asan hizmet" uygulaması. *Alanya Akademik Bakış, 9*(3), 942–963. https://doi.org/10.29023/alanyaakademik.1627660

8. Tripathi, A., Parihar, B. (2011). E-governance challenges and cloud benefit. *VSRD International Journal of CS & IT, 1*(1), 29–35.
9. Wyld, D.C. (2010). The Cloudy Future of Government IT: Cloud Computing and the Public Sector around the World. *International Journal of Web & Semantic Technology (IJWesT), 1*(1), 1–20.
10. *Vətəndaşlara elektron sistem üzərindən xidmətlər optimallaşdırılır*. (2024). https://azertag.az/xeber/vetendaslara_elektron_sistem_uzerinden_xidmetler_optimallasdirilir-3051702
11. Zwattendorfer, B., Stranacher, K., Tauber, A., Reichstädter, P. (2013). Cloud Computing in EGovernment across Europe Technology-Enabled Innovation for Democracy. *Government and Governance Lecture Notes in Computer Science, 8061*, 181–195.
12. Zwattendorfer, B., Tauber, A. (2012). The Public Cloud for E-Government. *IADIS International Conferences Web Based Communities and Social Media and Collaborative Technologies*, 129–136.

Daxil oldu: 02.01.2026
Qəbul edildi: 07.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/98-101

Rəna Nəsrullayeva
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0007-0651-1599
nesrullayevarena26@gmail.com

Ümumtəhsil məktəblərində fizikanın tədrisinin əhəmiyyəti və ekoloji tərbiyə məsələləri

Xülasə

Bu məqalə ümumtəhsil məktəblərində fizika fənninin tədrisinin əhəmiyyətini araşdırır. Fizika yalnız təbiət hadisələrini izah etmir, həm də şagirdlərin analitik düşünmə, tədqiqat bacarıqları və texnoloji savadlılığının inkişafına kömək edir. Məqalədə fizika və ekoloji tərbiyə əlaqələri, fiziki qanunların ekoloji proseslərə təsiri və enerji mənbələrinin səmərəli istifadəsi izah olunur. Mexanika, elektromaqnetizm, optika, termodinamika və atom fizikasının ekoloji problemlərin həllində rolu göstərilir. Bundan əlavə, müasir tədris metodları, rəqəmsal laboratoriyalar, simulyasiyalar və STEAM yanaşması ilə şagirdlərin ekoloji şüuru artırılır, gələcək nəsillərin məsuliyyətli və ekoloji dəyərlərə sadiq formalaşması təmin edilir.

Açar sözlər: *fizika tədrisi, ekoloji tərbiyə, ümumtəhsil məktəbləri, dayanıqlı inkişaf, STEAM təhsili, ekoloji maarifləndirmə*

Rena Nasrullayeva
Lankaran State University
Master's student
https://orcid.org/0009-0007-0651-1599
nesrullayevarena26@gmail.com

The Importance of Teaching Physics in Secondary Schools and Issues of Environmental Education

Abstract

This article examines the importance of teaching physics in general education schools. Physics not only explains natural phenomena but also helps develop students' analytical thinking, research skills, and technological literacy. The article discusses the relationship between physics and environmental education, the impact of physical laws on ecological processes, and efficient use of energy resources. The roles of mechanics, electromagnetism, optics, thermodynamics, and atomic physics in addressing ecological problems are highlighted. Modern teaching methods, digital laboratories, simulations, and STEAM approaches are also emphasized to enhance students' environmental awareness and foster responsible future generations.

Keywords: *Physics education, environmental education, general education schools, sustainable development, STEAM education, environmental awareness*

Giriş

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı ümumtəhsil məktəblərində fizika fənninin əhəmiyyətini daha da artırır. Fizika yalnız təbiət hadisələrini izah edən fundamental elm deyil, həm də şagirdlərin analitik düşünmə qabiliyyətini, məntiqi təhlil və tədqiqat bacarıqlarını inkişaf etdirən mühüm tədris vasitəsidir.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Şagirdlərin elmi dünyagörüşünün formalaşması, texnoloji savadlılığının yüksəlməsi və gələcək peşə seçiminə doğru yönləndirilməsi fizika tədrisinin keyfiyyətindən birbaşa asılıdır (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2020).

Fizikanın əhəmiyyətini artıran əsas amillərdən biri onun ekoloji tərbiyə ilə sıx bağlı olmasıdır. Qlobal istiləşmə, iqlim dəyişikliyi, enerji resurslarının tükənməsi kimi problemlərin mahiyyətini anlamaq üçün fiziki qanunların dərk edilməsi vacibdir. Fizika dərslərində enerji çevrilmələri, atmosferdə baş verən proseslər, istilik və işıq hadisələri, elektromaqnetizm və digər mövzular ekoloji şüurun formalaşdırılmasında mühüm rol oynayır. Bu fənnin məzmunu şagirdlərə ətraf mühitə məsuliyyətli yanaşma, resurslardan səmərəli istifadə və dayanıqlı inkişaf prinsiplərini mənimsəməyə imkan yaradır.

Tədqiqat

Müasir pedaqoji yanaşmalar – rəqəmsal laboratoriyalar, virtual simulyasiyalar, STEAM inteqrasiyası və layihə əsaslı öyrənmə – fizika dərslərini daha effektiv edir, şagirdlərin ekoloji düşüncəsini genişləndirir və real problemlərin həllinə yönəldir. Fizika tədrisinin ekoloji tərbiyə ilə uzlaşdırılması gələcək nəsillərin elmi bilikli, ekoloji məsuliyyətli və cəmiyyətə faydalı fərdlər kimi yetişməsinə şərait yaradır.

Bu məqalə fizika fənninin ümumitəhsil məktəblərində tədrisinin əhəmiyyətini, onun ekoloji tərbiyə ilə inteqrasiyasını və bu sahədə istifadə olunan müasir pedaqoji metodları təhlil etməyi qarşıya məqsəd qoyur.

Ümumtəhsil məktəblərində fizika tədrisinin elmi-pedaqoji əhəmiyyəti. Fizika elmlərin ən fundamental sahələrindən biri kimi təbiətdə baş verən bütün proseslərin, hadisələrin və qarşılıqlı əlaqələrin mahiyyətini açır. Ümumtəhsil məktəblərində fizika fənninin tədrisi şagirdlərin təbiət qanunlarını dərk etməsinə, dünyaya elmi baxış formalaşdırmasına və əşyalar arasındakı əlaqələr barəsində aydın təsəvvür əldə etməsinə imkan yaradır.

Fizika tədrisi təkcə nəzəri biliklərin verilməsi ilə məhdudlaşmır, həm də şagirdlərdə: analitik düşünmə, məntiqi ardıcıllıq, problemlərin sistemli şəkildə həlli, eksperiment aparma bacarığı, tədqiqatçılıq vərdişləri, kreativ və kritik düşüncə kimi XXI əsr kompetensiyalarını formalaşdırır (Hüseynov, 2019).

Bu xüsusiyyətlər fizika fənnini digər təbiət elmləri ilə inteqrasiya edən əsas baza edir. Müasir dünyada nəzəri biliklərlə yanaşı, texnoloji savadlılıq və elmi düşüncə insanın inkişafında həlledici rol oynayır və fizika bu ehtiyacı qarşılayan ən mühüm fənlərdən biridir (Əliyev, 2016).

Fizika tədrisinin ekoloji tərbiyədə rolu. Son onilliklərdə ekoloji problemlərin kəskinləşməsi fizika fənninin ekoloji tərbiyədə rolunu daha da artırıb. Çünki bir çox ekoloji proseslərin mahiyyəti fiziki qanunlarla izah edilir.

Ekoloji tərbiyədə fizikanın əsas rolu aşağıdakılardır: *1. Enerji resurslarının düzgün istifadəsini öyrədir.* Enerjinin çevrilməsi, saxlanması və itkilərin azalması haqqında biliklər şagirdlərdə ekoloji məsuliyyət yaradır. *2. İqlim dəyişikliyi və qlobal istiləşmə kimi problemlərin elmi əsaslarını izah edir.* Atmosferdə istilik mübadiləsi, şüalanma və istilik tarazlığı kimi mövzular ekoloji düşüncəni gücləndirir. *3. Ekoloji risklərin qiymətləndirilməsini öyrədir.* Radiasiya təhlükəsizliyi, elektromaqnit sahələri və s. kimi mövzular şagirdlərdə təhlükəsizlik mədəniyyəti formalaşdırır. *4. Bərpa olunan enerji mənbələri haqqında geniş təsəvvür yaradır.* Günəş, külək, hidro və geotermal enerjinin işləmə prinsipləri fizikanın əsas bölmələrinə əsaslanır.

Cədvəl 1.
Fizikanın bölmələri və onların ekoloji problemlərlə əlaqəsi

Fizika bölməsi	**Öyrətdiyi əsas Proseslər**	**Əlaqəli ekoloji proseslər**
Mexanika	Hərəkət, qüvvə, enerji	Nəqliyyatın ekologiyaya təsiri, enerji sərfi
Elektromaqnetizm	Elektrik, maqnetizm, elektromaqnit dalğalar	Elektrik enerjisinin səmərəli istifadəsi, radiasiya təsiri
Optika	İşıq, linzalar, şüaların Yayılması	Günəş enerjisindən istifadə, işıq çirkliliyi
Termodinamika	İstilik, temperatur, enerji mübadiləsi	Qlobal istiləşmə, emissiyalar
Atom fizikası	Nüvə reaksiyaları, Radioktivlik	Radiasiya təhlükəsizliyi, nüvə enerjisi

Fizika və dayanıqlı inkişaf. Dayanıqlı inkişaf konsepsiyası insanların ehtiyaclarını təbiətə zərər vermədən təmin etməyi hədəfləyir. Bu istiqamətdə fizika tədrisi şagirdlərə enerji istehsalı, resurs istifadəsi və ekoloji tarazlıq arasındakı əlaqələri anlamağa şərait yaradır (Hewitt, 2017; UNESCO, 2017; Smirnova, 2019). Fizika dərslərində şagirdlər:

- enerji sərfiyyatını azaldan texnologiyaları;
- təbii resursların qorunması üsullarını;
- alternativ enerji mənbələrinin quruluşunu;
- tullantıların fiziki xassələrini və çevrilmə yollarını;
- ekoloji monitorinq texnikalarını

öyrənirlər. Bu biliklər şagirdləri yalnız məlumatlandırmır, həm də onlarda ekoloji məsuliyyət formalaşdırır.

Müasir fizika tədrisində istifadə olunan innovativ metodlar. Müasir pedaqogika fizika dərslərində yeni texnologiyaların və tədris metodlarının tətbiqini tələb edir. Bu yanaşmalar şagirdlərin motivasiyasını artırır, dərsi interaktiv edir və öyrənməni praktik baxımdan zənginləşdirir.

Ən çox tətbiq olunan müasir metodlara daxildir: STEAM təhsili – fizikanın texnologiya, mühəndislik, incəsənət və riyaziyyatla inteqrasiyası; Virtual və rəqəmsal laboratoriyalar – təhlükəsiz, praktik və əlçatan eksperiment icazəsi; Simulyasiya proqramları – çətin fiziki proseslərin vizual nümayişi; Layihə əsaslı öyrənmə – real problemlərə yönəlmiş tədqiqat və layihələrin hazırlanması; Problemlə yönəldilmiş öyrənmə – şagirdin aktiv şəkildə araşdırma aparmasına şərait yaradır; Eksperimental fəaliyyət – fiziki qanunların praktik təsdiqi. Bu metodlar fizika dərsini yalnız nəzəri məlumat deyil, həm də həyati bacarıqların inkişafına yönəldilmiş prosesə çevirir (Bybee, 2019; Halliday və b., 2018; Ivanov, 2018).

Fizika dərslərində ekoloji layihələrin tətbiqi. Fizika dərslərində ekoloji layihələrin hazırlanması şagirdlərə elmi bilikləri real həyatda tətbiq etmə imkanı verir. Bu layihələr şagirdlərin həm yaradıcı düşünməsini, həm də ekoloji məsuliyyətini artırır (İbrahimov, 2020; Kuznetsov, 2015; Məmmədova, 2017). Mümkün ekoloji layihə nümunələri: - Günəş panellərinin iş prinsipi və enerji səmərəliliyinin hesablanması; - Külək turbininin modelinin hazırlanması; - Evin enerji sərfiyyatının ölçülməsi və optimallaşdırılması; - İşıq çirkliliyinin məktəb ərazisində ölçülməsi; - Suyun təmizlənməsi proseslərinin fiziki əsaslarının öyrənilməsi; - Radioaktiv fonun təhlükəsiz sərhədlərdə ölçülməsi.

Bu cür layihələr şagirdlərə həm fizikanı, həm də ekologiyanı tətbiq etməyi öyrədir.

Fizika və digər fənlərin ekoloji tərbiyədə inteqrasiyası. Fizika təkbaşına deyil, digər elmlərlə birlikdə ekoloji tərbiyə prosesinə güclü təsir göstərir: - Riyaziyyat – ekoloji məlumatların statistik təhlili; - Kimya – maddələrin tərkibi və çirklənmə prosesləri; - Biologiya – ekosistemlərin strukturu;

- Coğrafiya – iqlim və təbii resurslar; - İnformatika – məlumatların modelləşdirilməsi. Bu inteqrasiya ekoloji tərbiyəni daha dərin və elmi əsaslara uyğun edir.

Nəticə

Fizika tədrisinin gələcək nəsillərin ekoloji düşüncəsinə təsiri. Fizika fənni şagirdlərdə yalnız bilik deyil, həm də dəyərlər sistemi formalaşdırır: - təbiətə qarşı məsuliyyət; - enerji israfının qarşısının alınması; - ətraf mühitin qorunmasına dair şüurun dərinləşməsi; - elmi düşüncə ilə qərarvermə; - dayanıqlı inkişaf mədəniyyəti.

Bu baxımdan fizika fənni gələcək nəsillərin ekoloji baxımdan daha savadlı və məsuliyyətli yetişməsinə böyük töhfə verir.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2020). *Ümumtəhsil məktəbləri üçün Fizika kurikulumu*.
2. Bybee, R. (2019). *The Case for STEM Education*. NSTA Press.
3. Əliyev, F. (2016). *Ekologiya və ətraf mühitin mühafizəsi*. Elm.
4. Halliday, D., Resnick, R., & Walker, J. (2018). *Fundamentals of Physics (11th ed.).* Wiley.
5. Hewitt, P. (2017). *Conceptual Physics (12th ed.).* Pearson.
6. Hüseynov, A. (2019). *Fizikanın tədrisi metodikası*. Təhsil.
7. İbrahimov, M. (2020). *Təbiət fənləri və ekoloji maarifləndirmə*. ADPU Nəşriyyatı.
8. Ivanov, V. (2018). *Metodika obucheniya fizike v shkole*. Prosveshchenie.
9. Kuznetsov, A. (2015). *Fizicheskie protsessy i ehkologicheskaya bezopasnost'*. Nauka.
10. Məmmədova, S. (2017). *Fiziki proseslərin ekoloji aspektləri*. Maarif.
11. Smirnova, N. (2019). *Strategii formirovaniya ehkologicheskoi kul'tury u shkol'nikov*. Ehkopolis.
12. UNESCO. (2017). *Education for Sustainable Development Goals: Learning objectives*. UNESCO Publishing.

Daxil oldu: 09.01.2026
Qəbul edildi: 13.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/102-107

Sevinj Huseynova
Sheki Regional Scientific Center of ANAS
https://orcid.org/0000-0002-5088-3302
sevinc-bdu89@mail.ru
Ulviyya Osmanova
Sheki Regional Scientific Center of ANAS
https://orcid.org/0009-0008-9189-8798
ulviyye_2022@mail.ru

Identifying Key Challenges in Teaching Programming and Proposed Solutions: A Survey - Based Study

Abstract

The aim of this study is to identify the key challenges encountered in programming education within the general education system based on teachers' feedback and to propose appropriate solutions. Data were collected through a structured survey conducted among 16 computer science teachers. The results indicate that students mainly face difficulties in algorithmic thinking, syntax, and the understanding of certain complex topics. Additionally, a relationship was observed between students' level of mathematical preparedness and their motivation toward programming. The study suggests that improving the effectiveness of the learning process requires methodological enhancement of existing textbooks as well as the integration of innovative approaches, including gamification and artificial intelligence tools, into teaching.

Keywords: *Algorithmic thinking, programming instruction, teaching challenges, mathematics background, visual block-based coding*

Sevinc Hüseynova
AMEA Şəki Regional Elm Mərkəzi
https://orcid.org/0000-0002-5088-3302
sevinc-bdu89@mail.ru
Ülviyyə Osmanova
AMEA Şəki Regional Elm Mərkəzi
https://orcid.org/0009-0008-9189-8798
ulviyye_2022@mail.ru

Proqramlaşdırmanın tədrisində əsas çətinliklərin müəyyən edilməsi və həlli yolları: sorğu əsaslı tədqiqat

Xülasə

Bu tədqiqatın məqsədi müəllim rəylərinə əsaslanaraq ümumi təhsil sistemində proqramlaşdırma tədrisində qarşıya çıxan əsas çətinlikləri müəyyənləşdirmək və uyğun həll yolları təklif etməkdir. Məlumatlar 16 informatika müəllimi arasında aparılmış strukturlaşdırılmış sorğu vasitəsilə toplanmışdır. Nəticələr göstərir ki, şagirdlər əsasən alqoritmik düşünmə, sintaksis və bəzi mürəkkəb mövzuların mənimsənilməsi zamanı çətinliklərlə üzləşirlər. Eyni zamanda, şagirdlərin riyazi hazırlıq səviyyəsi ilə proqramlaşdırmaya motivasiyaları arasında əlaqə müşahidə olunmuşdur. Tədqiqat göstərir ki, öyrənmə prosesinin effektivliyini artırmaq üçün dərsliklərin metodiki cəhətdən təkmilləşdirilməsi və innovativ yanaşmaların, o cümlədən oyunlaşdırma və süni intellekt alətlərinin tədrisə inteqrasiyası vacibdir.

Açar sözlər: *alqoritmik təfəkkür, proqramlaşdırma tədrisi, tədris çətinlikləri, riyazi hazırlıq səviyyəsi, vizual blok-kodlaşdırma*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Introduction

In the modern era, digital transformation has elevated programming skills beyond the boundaries of the informatics curriculum, making them a decisive factor in fostering students' logical reasoning, problem-solving, and innovative thinking. Consequently, the effective instruction of algorithms in general education schools has gained particular relevance. Programming is a complex process requiring high-level cognitive abilities, encompassing stages such as writing, testing, and debugging (Cevahir & Özdemir, 2017). Programming languages, which possess structures similar to natural human language, offer specific metaphors and cognitive frameworks to implement these functions (Van-Roy & Haridi, 2004).

As a critical component of advancing technology (Özyurt & Özyurt, 2015), programming practice enhances logical thinking skills regardless of an individual's prior cognitive level (Dillashaw & Bell, 1985). However, effective programming requires not only logic but also the application of various cognitive strategies (Cevahir & Özdemir, 2017). Research indicates that due to the necessity of mastering syntax rules and predicting potential solutions, beginners often perceive this field as a challenging subject (Aşkar & Davenport, 2011; Renumol et al., 2009).

To overcome these growing challenges, the integration of innovative methods – such as visual environments, gamification, project-based learning, and artificial intelligence – is essential. From this perspective, investigating new methodological approaches to eliminate barriers in teaching programming remains one of the most pressing issues of our time.

Research

Problem Statement. In the era of artificial intelligence, programming education has transitioned from an elective skill to a fundamental necessity; yet, students continue to face significant challenges in mastering complex algorithmic structures. This creates a paradox within the educational system: a generation enthusiastic about using technology often loses motivation when confronted with the logic of coding. The primary problem areas can be summarized as follows:

Syntax-Logic Dichotomy: Students often exhaust their cognitive energy on formal rules (syntax) rather than the core algorithm.

Abstraction: Difficulties in bridging the gap between lines of code and their real-world outcomes.

Methodological Gaps: Traditional approaches fail to meet the interactive learning needs of the digital generation.

Research indicates that arrays, loops, and debugging remain the most challenging topics (Derus & Ali, 1985). Students frequently struggle with modularizing real-world problems and show a clear preference for interactive, visual materials (Tan et al., 2009). Gomes and Mendes (2007) emphasize that fostering algorithmic thinking can mitigate motivation issues. However, the failure of educators to account for individual readiness levels and the reliance on static materials to explain dynamic concepts remain primary barriers to learning (Cevahir & Özdemir, 2017; Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, n.d.; Mahmudzadə et al., 2019).

Investigating these obstacles from the perspective of educators is essential for an accurate diagnosis of existing problems and the development of innovative, student-centered solutions.

Research Objective. The objective of this study is to investigate teacher perspectives in order to identify the challenges students encounter during programming instruction and to propose viable solutions in this direction.

Methodology. To investigate the existing challenges in teaching programming and the role of innovative methods in addressing these issues, a combination of quantitative and qualitative research methods was employed.

Participants and Selection. The study involved 16 informatics teachers representing various geographical regions of Azerbaijan, including both urban and rural schools and lyceums. The primary criterion for participant selection was that they are active educators currently teaching the programming modules of the informatics curriculum.

Data Collection Instrument. Data were collected using a structured online survey developed on the *Google Forms* platform, consisting of 8 targeted questions. To facilitate a deeper analysis of the information, the survey incorporated two types of questions:

Closed-ended (Multiple-choice) Questions: These questions were used to measure the primary teaching difficulties, complex topics for students, and the perceived effectiveness of textbooks from a statistical (quantitative) perspective.

Open-ended Questions: These provided respondents with the opportunity to freely express their subjective opinions and professional experiences. Through these questions, individual innovative methods applied by teachers and the reasons for students' disengagement from programming were analyzed qualitatively.

The topics and types of questions included in the survey questionnaire are presented in detail in the table below (Table 1).

Data Analysis. The data collected during the research process were analyzed according to the research questions as follows:

Quantitative Analysis: Digital data obtained from the closed-ended (multiple-choice) survey questions were statistically processed and expressed in percentages. Charts and diagrams were used to visualize this data, allowing for the identification of general trends in programming instruction (e.g., the most challenging topics, the effectiveness of textbooks).

Qualitative Analysis: Responses from teachers to open-ended questions were subjected to thematic analysis. The responses were reviewed, similar ideas were grouped, and key 'problem areas' and 'proposed solutions' were summarized into specific categories. The integration of these two approaches ensured both the statistical accuracy and the pedagogical depth of the research findings.

Table 1.
Structure of Survey Questions

No	Question Topic	Question Type
1	Main difficulties in teaching programming	Closed-ended
2	Most challenging topics (Arrays, Loops, etc.)	Closed-ended
3	Effectiveness of current textbooks	Likert Scale (1-5)
4	Impact of mathematical/logical background	Closed-ended
5	Transitions from Block-based to Text-based coding	Open-ended
6	Innovative methods used by teachers	Open-ended
7	Perception of AI tools in education	Closed-ended
8	Reasons for student disengagement	Open-ended

Results and Discussion. Based on the responses of the survey participants, the main obstacles in teaching algorithmization and programming are the construction of algorithmic logic, decreased motivation, and the syntax barrier (each at 35.3%). These indicators suggest that students experience significant difficulties both in planning the step-by-step solution to a problem and in translating that solution into code within the formal rules of a programming language. Weak mathematical knowledge (29.4%) is also among the main barriers in teaching algorithmization and programming (Figure 1).

Regarding the question aimed at identifying the most challenging topics for students, arrays and lists (52.9%) were identified as the most difficult topic by a clear margin, indicating that memory management and working with data structures are highly abstract for students. Functions (47.1%)

ranked second after arrays, while loops (41.2%) were identified as the third most difficult topic (Figure 2). The high level of difficulty associated with these three topics (arrays, loops, and functions) once again demonstrates the need for visualization tools and innovative methods in teaching programming.

Figure 1. Primary Challenges Encountered in the Teaching of Programming



The effectiveness of current textbooks in fostering students' interest in programming was rated at an average of 3.25 out of 5, with 37.5% of respondents considering them average and 25% unsatisfactory (Figure 3), while only 12.5% rated them highly. These results indicate that practical tasks in textbooks are not sufficiently aligned with students' daily lives and interests, highlighting a strong need for methodological improvement. Teachers' responses to open-ended questions reveal four interrelated factors behind students' declining interest: methodological shortcomings in textbooks (either overly simplistic or abruptly complex, combined with limited instructional time), insufficient mathematical background hindering logical thinking, students' tendency to prefer test-based tasks over time-consuming coding activities and restrictive assessment approaches that limit creativity, and inadequate lesson time for practical programming, which reduces motivation when students cannot immediately see the results of their work.

Figure 2. Most Challenging Topics in Teaching Programming



Figure 3. Teacher Assessment of Current Textbook Effectiveness



One of the key findings of the study is that teachers attempt to compensate for gaps in textbooks through their own innovative approaches. According to the survey, 18.8% of teachers use competitions, while 12.5% apply games and visual tools to make lessons more engaging; interactive platforms like Kahoot and practical applications of Python (e.g., small projects) are considered effective, confirming the advantage of gamification over traditional lectures. Teachers emphasize that logical thinking, often combined with mathematical knowledge, is a fundamental prerequisite for learning programming, as it helps students overcome syntax-related difficulties. Attitudes toward integrating artificial intelligence are largely positive, with 64.7% viewing it as a supportive tool, although 35.3% express concerns about potential student dependency, indicating a need for methodological guidelines. Additionally, challenges in transitioning from visual programming environments like Scratch to text-based languages such as Python and C++ are mainly linked to limited curriculum time, which prevents students from developing deeper understanding and adapting to syntax rules.

Proposed Solutions and Recommendations. Based on the research findings, the following innovative solutions are proposed to enhance the quality of programming instruction:

Visualization and Gamification: To help students better grasp abstract concepts such as arrays and loops, the transition from visual programming environments (e.g., Scratch, Blockly) to text-based programming (C++, Python) should be smoother and more gradual. The integration of gamification elements can transform lessons from tedious exercises into competitive and engaging learning experiences.

Integration of Artificial Intelligence (AI) Tools: AI tools can function as personalized tutors for students. By providing immediate explanations for syntax errors and debugging assistance, these tools reduce the teacher's workload and foster independent learning skills in students.

Project-Based Learning (PBL): Applying theoretical knowledge directly to real-world projects (such as creating small games or simple calculator applications) provides students with a practical answer to why they are learning specific concepts, thereby significantly boosting motivation.

Differentiated Instruction: Given the varying levels of mathematical proficiency among students, assignments should be categorized by difficulty. For students with weaker logical reasoning skills, more visual aids and logic-oriented supplementary materials should be provided to bridge the gap.

Conclusion

This research demonstrates that the effectiveness of programming instruction in general education schools depends directly on both the methodological structure of textbooks and the individual logical-mathematical proficiency of students. The survey conducted among teachers revealed that a lack of visualization in teaching fundamental topics such as arrays and loops is a primary factor leading to a decline in motivation. However, the integration of artificial intelligence into the classroom, along with gamification and project-based approaches, holds significant potential for overcoming these challenges. This study provides a foundation for modernizing educational curricula and developing new methodological resources for educators.

References

1. Aşkar, P., & Davenport, D. (2011). An investigation of factors related to self-efficacy for Java programming among engineering students. *The Turkish Online Journal of Educational Technology*, *10*(1), 37–51.
2. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi. (n.d.). *İnformatika 8: Ümumi təhsil müəssisələrinin 8-ci sinifləri üçün dərslik*. E-dərslik portalı. https://www.e-derslik.edu.az/portal/book.php?id=797
3. Cevahir, H., & Özdemir, M. (2017). Teachers' views and solution proposals regarding difficulties encountered in programming instruction. In *Proceedings of the 11th International Computer and Instructional Technologies Symposium (UBTAS 2017)*.
4. Derus, S., & Ali, A. Z. (2012). Difficulties in learning programming: Views of students. In *Proceedings of the 1st International Conference on Current Issues in Education (ICCIE 2012)*. Universitas Pendidikan Sultan Idris.
5. Dillashaw, F., & Bell, S. (1985). Learning Outcomes of Computer Programming Instruction for Middle Grades Students: A Pilot Study. In *Proceedings of the 58th Annual Meeting of the National Association for Research in Science Teaching*.
6. European Commission. (2020). *Digital Education Action Plan 2021-2027*. Brussels-https://education.ec.europa.eu/focus-topics/digital-education/actions
7. Gomes, A., & Mendes, A. J. (2007). Learning to program: Difficulties and solutions. In *Proceedings of the International Conference on Engineering Education (ICEE 2007)*.
8. Mahmudzadə, R. Ə., Sadıqov, İ. C., & İsayeva, N. R. (2019). *İnformatika – 8: Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün informatika fənni üzrə dərsliyin metodik vəsaiti*. Azərbaycan Respublikası Təhsil Nazirliyi.
9. Özyurt, Ö., & Özyurt, H. (2015). A study on determining computer programming students' attitudes toward programming and their self-efficacy levels. *Eğitimde Kuram ve Uygulama*, *11*(1), 51–67.
10. Renumol, V., Jayaprakash, S., & Janakiram, D. (2009). *Classification of Cognitive Difficulties of Students in Learning Computer Programming*. Indian Institute of Technology.
11. Tan, P., Ting, C., & Ling, S. (2009). Learning Difficulties in Programming Courses: Undergraduates' Perspective and Perception. In *Proceedings of the 2009 International Conference on Computer Technology and Development*. IEEE Computer Society.
12. Van Roy, P., & Haridi, S. (2004). *Concepts, Techniques, and Models of Computer Programming*. MIT Press.

Received: 01.01.2026
Approved: 04.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/108-112

Sədəf Mütəllimzadə
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
https://orcid.org/0009-0004-2690-2405
mutallimzada.sadaf.islam.2024@unec.edu.az

Süni intellekt texnologiyalarının əmək bazarında yaratdığı yeni reallıqlar

Xülasə

Son onillikdə süni intellekt texnologiyalarının sürətli inkişafı əmək bazarında dərin və çoxşaxəli struktur dəyişikliklərinə səbəb olmuşdur. Bu məqalədə süni intellektin məşğulluğa və işçi qüvvəsinə təsiri analitik və müqayisəli metodologiya əsasında kompleks şəkildə araşdırılır. Tədqiqatın nəticələri göstərir ki, avtomatlaşdırma və rəqəmsallaşma prosesləri bir tərəfdən rutin və aşağı ixtisas tələb edən peşələrin azalmasına gətirib çıxarır, digər tərəfdən isə yeni ixtisas sahələrinin və innovativ məşğulluq formalarının yaranmasını stimullaşdırır. İşçi qüvvəsinin bacarıq strukturunda baş verən transformasiya xüsusilə rəqəmsal savadlılıq, analitik düşüncə, problem həll etmə bacarıqları və yaradıcılıq kimi insan kapitalı komponentlərinin əhəmiyyətini artırır.

Məqalədə istehsal, maliyyə, səhiyyə və nəqliyyat sektorlarında süni intellekt texnologiyalarının tətbiq nümunələri geniş şəkildə təhlil edilir və onların sosial-iqtisadi təsirləri qiymətləndirilir. Əldə olunan nəticələr göstərir ki, süni intellekt məhsuldarlığın yüksəlməsinə, xərclərin optimallaşdırılmasına və yeni iqtisadi imkanların yaranmasına şərait yaradır. Bununla yanaşı, iş yerlərinin azalması, gəlir qeyri-bərabərliyinin dərinləşməsi və sosial müdafiə sistemlərinin yenidən qurulması zərurəti kimi risklər də ön plana çıxır. Məqalənin nəticə hissəsində mövcud çağırışlara uyğun olaraq dövlət siyasəti istiqamətləri və gələcək tədqiqat perspektivləri təqdim olunur.

Açar sözlər: *süni intellekt, əmək bazarı, avtomatlaşdırma, rəqəmsallaşma, işçi qüvvəsi, bacarıq transformasiyası, məşğulluq*

Sadaf Mutallimzadeh
Azerbaijan State University of Economics
Master's student
https://orcid.org/0009-0004-2690-2405
mutallimzada.sadaf.islam.2024@unec.edu.az

New Realities Created by Artificial Intelligence Technologies in the Labor Market

Abstract

Over the past decade, the rapid development of artificial intelligence technologies has led to profound and multidimensional structural changes in the labor market. In this article, the impact of artificial intelligence on employment and the workforce is comprehensively examined through an analytical and comparative methodology. The results of the study show that automation and digitalization processes, on the one hand, lead to the decline of routine and low-skilled occupations, while on the other hand, they stimulate the emergence of new professional fields and innovative forms of employment. The transformation occurring in the skill structure of the workforce has particularly increased the importance of human capital components such as digital literacy, analytical thinking, problem-solving skills, and creativity.

The article provides a detailed analysis of the application of artificial intelligence in sectors such as manufacturing, finance, healthcare, and transportation, and evaluates its socio-economic impacts.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

The findings indicate that artificial intelligence contributes to increased productivity, cost reduction, and the creation of new economic opportunities. At the same time, risks such as job displacement, widening income inequality, and the need to restructure social protection systems come to the forefront. In the conclusion section of the article, policy directions and future research perspectives are presented in line with current challenges.

Keywords: *artificial intelligence, labor market, automation, digitalization, workforce, skills transformation, employment*

Giriş

Müasir dövrdə texnoloji tərəqqinin sürəti insan tarixinin heç bir mərhələsindəki kimi olmayan bir tempə çatmışdır. Bu tərəqqinin ən təsirli ifadəsi olan süni intellekt texnologiyaları artıq laboratoriya mühitindən çıxaraq həyatımızın bütün sahələrinə nüfuz etmişdir. İqtisadiyyatın əsas dayağını təşkil edən əmək bazarı isə bu nüfuzdan ən güclü şəkildə təsirlənən sferaların başında durur.

Beynəlxalq Əmək Təşkilatının hesablamalarına görə, hazırda mövcud iş yerlərinin əhəmiyyətli bir hissəsi yüksək avtomatlaşdırma riski daşıyır (ILO, 2023). Lakin bu proses yalnız iş yerlərinin itirilməsi mənasında deyil, həm də yeni ixtisasların, yeni iş formalarının və yeni iqtisadi münasibətlərin yaranması kimi anlaşılmalıdır.

Tədqiqatın aktuallığı bir neçə amillə şərtlənir. Birincisi, dünyada baş verən dördüncü sənaye inqilabı prosesləri əmək münasibətlərini köklü surətdə yenidən qurur. İkincisi, COVID-19 pandemiyasının sürətləndirdiyi rəqəmsal dönüşüm ənənəvi məşğulluq modellərinin çöküşünün sahəsini daha da genişləndirir. Üçüncüsü, Azərbaycan kimi inkişaf mərhələsindəki iqtisadiyyatlarda bu dəyişikliklərin idarə olunması üçün elmi əsaslandırılmış siyasət çərçivəsinin işlənib hazırlanmasına ciddi ehtiyac duyulur.

Məqalənin məqsədi süni intellekt texnologiyalarının əmək bazarında yaratdığı yeni reallıqları həm imkan, həm də risk baxımından sistemli şəkildə araşdırmaq, müqayisəli analizlər aparmaq və nəticə etibarilə gələcəyə dair elmi əsaslı proqnozlar irəli sürməkdir.

Tədqiqat

Süni intellekt maşın öyrənməsi, dərin öyrənmə, təbii dil emalı, kompüter görmə qabiliyyəti və robotexnika kimi alt sahələri əhatə edən geniş bir texnologiyalar toplusudur. Bu texnologiyaların əmək bazarına təsiri birbaşa (müəyyən vəzifələrin maşınlara keçirilməsi) və dolayı (yeni sahələrin açılması, mövcud sahələrin yenidən qurulması) olmaq üzrə iki əsas kanal vasitəsilə gerçəkləşir (Acemoğlu və Restrepo, 2018).

Acemoğlu və Restrepo (2018) "Robots and Jobs" adlı fundamental araşdırmalarında ABŞ əmək bazarında robotların yayılmasının məşğulluq səviyyəsinə və əmək haqqına olan təsirini ölçmüşlər. Nəticələr göstərir ki, sənaye robotlarının hər bir vahid artımı müvafiq sektorda əmək haqqının 0,25–0,5 faiz azalmasına və 5,6 işçi ekvivalentinin işini itirməsinə gətirib çıxarır. Lakin eyni tədqiqatda vurğulanır ki, bu itkilər texnologiyanın yeni tələb yaratdığı sahələrdə qismən kompensasiya edilir.

Əmək bazarında rəqəmsallaşma prosesinin iki əsas amili mövcuddur: birincisi, texnologiyanın özünün yetkinləşməsi, ikincisi isə rəqabət mühitinin müəssisələri daha az xərclə daha çox məhsuldarlıq əldə etməyə sövq etməsidir. Bu iki amilin kəsişmə nöqtəsində süni intellektin tətbiqi yerləşir.

Autor (2015) "Why Are There Still So Many Jobs?" məqaləsində "vəzifə polarizasiyası" konsepsiyasını inkişaf etdirərək müəyyən etmişdir ki, avtomatlaşdırma orta ixtisas tələb edən rutin vəzifələrə daha çox, yüksək bacarıq tələb edən kreativ vəzifələrə isə daha az təsir göstərir. McKinsey Global Institute-in (2023) hesabatına əsasən, texniki cəhətdən avtomatlaşdırıla bilən fəaliyyətlər qlobal miqyasda 60%-dən çox əmək vaxtına uyğun gəlir. Lakin bu, hər şeyin avtomatlaşdırılacağı mənasına gəlmir; burada iqtisadi, sosial və siyasi amillər belə qərarların qəbuluna mühüm təsir göstərir. World Economic Forum-un (2023) "Future of Jobs" hesabatı isə 2027-ci ilə qədər 83 milyon iş yerinin ləğv ediləcəyini, bununla yanaşı 69 milyon yeni iş yerinin yaranacağını proqnozlaşdırmışdır. Lakin diqqət çəkici olan budur ki, yaranan yeni iş yerləri əsasən yüksək bacarıq tələb edir, itən iş yerləri isə orta və aşağı bacarıq sahələrindədir.

Cədvəl 1.
2023–2027-ci illər üzrə proqnozlaşdırılan iş yeri dəyişiklikləri (milyon)

Sahə / Kateqoriya	İtən iş yerləri	Yaranan iş yerləri	Xalis dəyişiklik
Kargüzarlıq və inzibati vəzifələr	-26,0	+2,0	-24,0
İstehsal və mühəndislik	-9,0	+4,0	-5,0
Satış, marketinq, ticarət	-5,0	+3,0	-2,0
Texnologiya, AI, məlumat analitikası	-1,5	+18,0	+16,5
Qeyri-kommersiya, təhsil, sosial	-2,0	+12,0	+10,0
Yaşıl iqtisadiyyat sahələri	–	+9,0	+9,0
Cəmi (Qlobal)	**-83,0**	**+69,0**	**-14,0**

Mənbə: World Economic Forum. (2023). The Future of Jobs Report 2023. Geneva: WEF, s. 30.

Yeni peşələrin yaranması və bacarıq transformasiyası: Süni intellektin əmək bazarına inteqrasiyasının ikinci böyük ölçüsü bəlkə də ən mühüm olanı insan bacarıqlarında baş verən transformasiyadır. Bu dəyişiklik yalnız yeni peşələrin yaranması ilə məhdudlaşmır; mövcud peşələrin daxilindəki bacarıq profilinin yenidən qurulmasını da əhatə edir. Rəqəmsal dövrdə tələb olunan bacarıqlar iki böyük qrupa ayrılır: texniki (hard) bacarıqlar: məlumat analitikası, proqramlaşdırma, maşın öyrənməsi alətlərinin idarəsi və sosial-emosional (soft) bacarıqlar: tənqidi düşüncə, yaradıcılıq, empatiya, liderlik, kommunikasiya. Tədqiqatlar göstərir ki, avtomatlaşdırma ikinci qrup bacarıqları daha az töhfə edir, ona görə də bu bacarıqların bazar dəyəri artmaqdadır (Deming, 2017).

Deming (2017) "The Growing Importance of Social Skills in the Labor Market" adlı məqaləsində 1980–2012-ci illər arasında ABŞ əmək bazarındakı tendensiyaları araşdıraraq sosial bacarıqlar tələb edən iş yerlərinin əmək haqqı cəhətdən nisbi üstünlük qazandığını müəyyən etmişdir. Bu, insan-maşın əməkdaşlığı çərçivəsində insan üstünlüyünün hər zaman sosial kontekstdə qaldığını göstərir.

Dünya iqtisadiyyat forumunun tədqiqatına görə, 2027-ci ilə qədər ən tələbkar 10 bacarıq arasında analitik düşüncə, yaradıcılıq, resilientlik, texnologiya savadlılığı, süni intellekt bilikləri, liderlik və sosial müdaxilə sayılır (WEF, 2023).

Süni intellektin əmək bazarına konkret təsirini başa düşmək üçün sektor bazalı analizlər aparılması zəruridir. Hər sektorun özünəməxsus dinamikası, işçi profili və texnologiya inteqrasiya tempinin fərqli olması müqayisəli metodologiyanın dəyərini artırır.

İstehsal sektoru. Sənaye robotlarının tətbiqi istehsal sektorunda sürətlə artmaqdadır. International Federation of Robotics-in (IFR, 2023) məlumatına görə, qlobal miqyasda fəaliyyət göstərən sənaye robotlarının sayı 3,5 milyon ədədi ötmüşdür. Avtomobil sənayesindəki tətbiqləri xüsusilə diqqəti cəlb edir, Toyota, BMW, Tesla kimi şirkətlər tam avtomatlaşdırılmış istehsal xətlərini uğurla işlədir. Bununla belə, bu prosesdə tam avtomatlaşdırma deyil, insan-robot əməkdaşlığı modeli daha geniş yayılmaqdadır.

Maliyyə sektoru. Bank və maliyyə xidmətlərindəki dönüşüm ən sürətli gedən sahələrdən biridir. JPMorgan Chase şirkəti COIN adlı Sİ platformasını tətbiq edərək hüquqçuların 360.000 saatını aparan müqavilə analizi işini cəmi saniyələrə endirmişdir. Goldman Sachs-ın 600 birja treyderini əvəz edən alqoritm treydinq sistemi iqtisadi ədəbiyyatda tez-tez istinad edilən nümunəyə çevrilmişdir.

Səhiyyə sektoru. Tibb sahəsində süni intellektin tətbiqi diaqnostika, dərman kəşfi və xəstə qayğısı sahələrini əhatə edir. Google DeepMind-in Moorfields Göz Xəstəxanasında yaratdığı AI sistemi göz

xəstəliklərini həkimlərlə eyni dəqiqliklə diaqnoz qoya bilmişdir. Bu nümunələr həkimlərin köməkçi alət kimi Sİ-dən istifadə edəcəyini, lakin qısa müddətdə tam əvəzetmənin baş verməyəcəyini göstərir.

Nəqliyyat sektoru. Avtonom nəqliyyat vasitələri əmək bazarında ən çox müzakirə edilən mövzulardan biridir. Waymo, Tesla Autopilot, Uber ATG kimi layihələr sürücülük peşəsinin gələcəyi barəsindəki sualları ortaya atmışdır. ABŞ-da 3,5 milyon yük maşını sürücüsü, dünya miqyasında isə onlarla milyonlarca kütləvi nəqliyyat işçisinin uzun müddəti olmayan gələcəkdə avtomatlaşdırma təhdidi altında olduğu bildirirlir. Lakin tam avtonom nəqliyyatın tətbiqinin hüquqi, etik və texniki əngəllər səbəbindən daha çox vaxt alacağı da qeyd olunur.

Üstünlüklər və risklər: Süni intellektin əmək bazarına inteqrasiyası bir sıra məhsuldar üstünlükləri özü ilə gətirir. Məhsuldarlıq artımı bunların ən barizidir: McKinsey-in qlobal hesablamalarına görə, süni intellektin istehsalda, kənd təsərrüfatında, maliyyədə, sağlamlıqda, enerjidə, pərakəndə satışda və nəqliyyatda tətbiqinin qlobal iqtisadiyyata 2030-cu ilə qədər 13 trilyon dollar əlavə dəyər yarada biləcəyi proqnozlaşdırılır (McKinsey Global Institute, 2018). Buna əlavə olaraq, süni intellekt insan sağlamlığı üçün riskli iş şəraitlərini azalda, xərcləri optimallaşdıra və yeni sənaye sahələrinin Sİ, kibertəhlükəsizlik, xüsusi proqram məhsulları yaranmasını sürətləndirə bilər.

Lakin bu üstünlüklər böyük riskləri ilə birlikdə gəlir. Ən kritik risk işsizlik problemidir. Bununla belə, iqtisadçılar arasında fikir ayrılığı mövcuddur: bir qrup (Ford, 2015) texnologiyanın bu dəfə tarixən fərqli davranacağını və çoxlu iş itkisinə yol açacağını iddia edərkən, digər qrup (Autor və b., 2003; Arntz və b., 2016) tarixin hər texnoloji inqilabdan sonra yeni iş yerlərinin yarandığını istinad göstərir.

İkinci əsas risk gəlir qeyri-bərabərliyinin dərinləşməsidir. Süni intellekt texnologiyalarına kapital investisiyası etməyə gücü çatan şirkətlər və ölkələr daha yüksək məhsuldarlıq əldə edərkən texnologiyadan kənarda qalanlar geri qalmaqda davam edəcəkdir. Bu "texnoloji bölünmə" fenomeni həm daxili, həm də beynəlxalq iqtisadi qeyri-bərabərliyi dərinləşdirmə potensialı daşıyır (OECD, 2019).

Sosial müdafiə sistemlərinin yenidən qurulması zərurəti üçüncü mühüm problemdir. Ənənəvi əmək hüququ anlayışları gig iqtisadiyyatı, platforma əsaslı iş modelləri və yarımçalışma rejimlərini kifayət qədər əhatə etmir. Bu boşluğun doldurulması üçün universal əsas gəlir, gücləndirilmiş işsizlik sığortası, ömürlük öyrənmə proqramları kimi müzakirə edilən modellər akademik dairələrdə ciddi diqqət çəkir (Standing, 2011).

Nəticə

Bu tədqiqat süni intellekt texnologiyalarının əmək bazarında yaratdığı yeni reallıqları sistemli şəkildə araşdırmış, avtomatlaşdırma proseslərinin həm fərdi, həm sektor, həm də makroiqtisadi səviyyədə nəticələrini müzakirəyə açmışdır. Əldə edilmiş tapıntıları ümumiləşdirərkən bir neçə mühüm nəticəni qeyd etmək lazımdır.

Birincisi, süni intellektin əmək bazarına təsiri nə bütünlüklə fəlakətli, nə də sırf optimist bir proses kimi dəyərləndirilə bilməz. Həm risklər, həm imkanlar eyni anda mövcuddur; mühüm olan bu ikisi arasında sosial baxımdan ədalətli bir balansın qurulmasıdır. İş yerlərinin itirilməsindən qorunma deyil, daha çox iş yerlərinin transformasiyasına uyğunlaşma sürəti müəyyənedici əhəmiyyət daşıyır.

İkincisi, bacarıq transformasiyası bu dövrün ən strateji məsələsinə çevrilmişdir. Rəqəmsal savadlılıq, süni intellekt bilikləri, tənqidi düşüncə kimi kompetensiyalar artıq əsas işçi tələbləri sırasındadır. Hökumətlər, universitetlər, korporasiyalar və vətəndaşlar bu transformasiyanı birlikdə idarə etməlidir.

Üçüncüsü, gəlir qeyri-bərabərliyi texnologiyanın ən böyük sosial riskidir. Süni intellektdən gələn məhsuldarlıq artımının yalnız kapital sahibləri arasında deyil, cəmiyyətin bütün təbəqələri arasında ədalətli şəkildə paylanmasını təmin etmək üçün proqressiv vergi siyasəti, sosial müdafiə sistemlərinin modernizasiyası və yenidən öyrənmə proqramlarına dövlət investisiyası vacibdir.

Dördüncüsü, Azərbaycan kimi inkişaf mərhələsində olan iqtisadiyyatlar üçün bu dövr həm risklər, həm də *texnoloji sıçrayış imkanları* baxımından xüsusi əhəmiyyət kəsb edir. Məhsuldar sektorlarda

süni intellektin vaxtında tətbiqi ilə yanaşı, sosial müdafiə mexanizmlərinin gücləndirilməsi bu iki istiqaməti eyni vaxtda əhatə edən inteqrasiya olunmuş siyasətin həyata keçirilməsini zəruri edir.

Gələcək tədqiqatlar üçün bir neçə perspektiv mövcuddur: inkişaf etməkdə olan ölkə əmək bazarlarının müqayisəli analizi, gig iqtisadiyyatının sosial-hüquqi çərçivəsi, universal əsas gəlirin pilot tədbirləri və süni intellektin gender bərabərsizliyinə təsiri xüsusilə diqqəti haqq edir. Bu istiqamətlər akademik tədqiqatın mühüm boşluqlarını doldurmaq üçün perspektivli sahələr olaraq qalır.

Ədəbiyyat

1. Acemoğlu, D., & Restrepo, P. (2018). Robots and Jobs: Evidence from US Labor Markets. *Journal of Political Economy, 128*(6), 2188–2244. https://doi.org/10.1086/705716
2. Arntz, M., Zierahn, U. & Gregory, T. (2016). The Risk of Automation for Jobs in OECD Countries. *OECD Social, Employment and Migration Working Papers, 189*. https://doi.org/10.1787/5jlz9h56dvq7-en
3. Autor, D. H. (2015). Why Are There Still So Many Jobs? The History and Future of Workplace Automation. *Journal of Economic Perspectives, 29*(3), 3–30. https://doi.org/10.1257/jep.29.3.3
4. Autor, D. H., Murnane, R. J., & Levy, F. (2003). The Skill Content of Recent Technological change: An empirical exploration. *The Quarterly Journal of Economics, 118*(4), 1279–1333. https://doi.org/10.1162/003355303322552801
5. Deming, D. J. (2017). The Growing Importance of Social Skills in the Labor Market. *The Quarterly Journal of Economics, 132*(4), 1593–1640. https://doi.org/10.1093/qje/qjx022
6. Ford, M. (2015). *Rise of the Robots: Technology and the Threat of a Jobless Future*. Basic Books.
7. International Federation of Robotics. (2023). *World Robotics 2023: Industrial Robots*. IFR Press.
8. International Labour Organization. (2023). *World Employment and Social Outlook: The Value of Essential Work*. ILO.
9. McKinsey Global Institute. (2018). *Notes from the AI Frontier: Modeling the Impact of AI on the World Economy*. McKinsey & Company.
10. McKinsey Global Institute. (2023). *The Economic Potential of Generative AI: The Next Productivity Frontier*. McKinsey & Company.
11. OECD. (2019). *OECD Employment Outlook 2019: The Future of Work*. OECD Publishing. https://doi.org/10.1787/9ee00155-en
Kompostun kimyəvi tərkibi mexaniki tərkibindən asılı olaraq 10-12% üzvi maddə, 0,4-0,6% azot, 0,2-0,3% fosfor və 0,5-0,7% kalium olur. Kompostlar bitkinin inkişafını sürətləndirir. Kompostun müsbət cəhəti odur ki, ifrat dərəcədə istifadə etdikdə belə, təhlükə törətmir (Dəmirova, 2023). Kompostun tez əmələ gəlməsi üçün ona əhəng əlavə olunur və üzərinə peyin şirəsi tökülməlidir. Kompost qalağı tez-tez qarışdırılmalıdır ki, aerasiya sürətlənsin. Əksər təsərrüfatlarda əsasən kompostlaşdırma zamanı azot mənbəyi kimi peyindən istifadə olunur. Bəzən döşəmə materialları kimi saman və yonqar tozundan da istifadə olunur. Kompostlaşdırma zamanı əsasən iribuynuzlu heyvanların peyinindən və at peyinindən istifadə olunur. Donuz peyini çox nəm olduğu üçün ondan istifadə olunmur. Tərkibində qida maddələrinin çox olmasına görə quş zılından da istifadə edilir. Kompostun tam hazır olmasını bilmək üçün analiz yolu ilə üzvi maddənin azota (C:N) olan nisbəti müəyyən edilməlidir.

Respublikamızda adambaşına 0,18 hektar əkin sahəsi düşür ki, bu da dünyada orta göstəricidən xeyli azdır. Bu qədər sahədən alınan məhsulla ölkə əhalisini müxtəlif kənd təsərrüfatı məhsulları ilə təmin etmək üçün kənd təsərrüfatının intensivləşdirilməsi mühüm məsələlərdən biridir. Bu da əkin-

çiliyin intensivləşdirilməsini, əkin sahəsindən məhsuldarlığın daha da artırılmasını tələb edir (Məmmədov, 2007).

Aqrokimya elminin banilərindən biri olan D.Pryanişnikov apardığı elmi-tədqiqat işlərinin nəticəsində belə qərara gəlib ki, əldə olunan məhsul gübrənin nəticəsidir (Babayev, 2001). Torpaqlarının münbitliyinin qorunub saxlanması və yüksəldilməsində, məhsuldarlığının artırılmasında üzvi gübrələrin əhəmiyyəti əvəzsizdir. Bitkilərin qidalanmasında həm makro elementlərin – azot, fosfor, kaliumun, həm də mikroelementlərin rolu böyükdür. Azot bitkidə əsas qida maddəsi hesab olunan zülalın, amin turşularının və bir çox bioloji aktiv maddələrin tərkibinə daxildir. Fosfor bitkinin bar orqanlarının əmələ gəlməsinə və inkişafına müsbət təsir göstərməklə onun vegetasiya müddətini azaldır. Fosfor yalnız məhsuldarlığı artırmır, o, həmçinin, şəkərli bitkilərin şəkərini, yağlı bitkilərin yağını, lifli bitkilərdə lif çıxımını artırmaqla məhsulun keyfiyyətini yüksəldir. Bitkilərin inkişafında, üzvi maddələrin əmələ gəlməsində kaliumun təsiri təkrarsızdır. Kalium bitkidə üzvi birləşmələrin tərkibinə daxil olmasa da, maddələr mübadiləsinə aktivləşdirici təsir göstərir. Kalium gübrəsi bitkidə saxarozanın, yağların, nişastanın sintezini qüvvətləndirir. Bitkilərin inkişafında makroelementlərin mənimsənilməsində mikroelementlərin – molibden, mis, sink və s. rolu böyükdür (Axundova, 2007). Torpaq münbitliyinin artırılmasında, fiziki-kimyəvi xassələrinin yaxşılaşmasında, bitkilərin məhsuldarlığının və keyfiyyətinin yüksəldilməsində üzvi gübrələrin əhəmiyyəti böyükdür (Mövsumov, 2001).

Aparılacaq işin əsas məqsədi Şirvan düzünün boz-çəmən torpaqlarında üzvi gübrələrin müxtəlif kənd təsərrüfatı bitkiləri altında optimal dozalarının müəyyənləşdirilməsi, bu gübrələrin torpağın münbitliyinə, bitki vasitəsi ilə torpaqdan qida elementlərinin aparılmasına və qida elementlərinin istifadə olunma əmsalına təsirini öyrənməkdən ibarətdir. Məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir: 1. Torpaqların aqrokimyəvi xüsusiyyətlərinin öyrənilməsi; 2. Tədqiqat aparılacaq ərazinin aqrofiziki və su-fiziki xüsusiyyətlərinin tədqiqi; 3. Üzvi gübrələrin k/t bitkiləri altında torpaqda qida elementlərinin dinamikasına təsiri; 4. Üzvi gübrələrin k/t bitkiləri altında torpağın struktur göstəricilərinə təsiri.

Təcrübə qoyulmuş torpaqların qida elementləri ilə hansı dərəcədə təmin olunmasını müəyyən etmək üçün torpağa gübrə verilməzdən və bitki əkilməmişdən qabaq konvert üsulu ilə beş nöqtədən 0-20, 20-40, 40-60, 60-80 və 80-100 sm dərinliklərdən torpaq nümunələri götürülür, hər qatdan götürülmüş nümunələr qarışdırılır, torpaqda humus, azot, fosfor və kaliumun elementlərinin miqdarı, mühitin reaksiyası (pH), C:N, təyin olunmuşdur. Aparılmış analizlərin nəticələri cədvəldə verilmişdir.

Təcrübə sahəsi torpaqlarının aqrokimyəvi xüsusiyyətləri
(Ucar dayaq məntəqəsi, 2025-ci il)

Dərinlik, sm	pH	Ümumi humus, %	Azot N %	N/NH_4 mq/kq	Fosfor P %	Mütəh. mq/kq	Kalium %	Müb. mq/kq	C:N	$CaCO_3$ %
0-20	8,2	2,37	0,15	23,6	0,13	19,0	3,2	192,0	20,4	14,75
20-40	8,2	1,78	0,13	14,0	0,12	11,0	2,8	156,6	22,5	14,36
40-60	8,0	0,98	0,10	11,0	0,10	6,3	2,4	88,0	22,0	13,85
60-80	8,0	0,31	0,08	6,0	0,08	4,6	1,9	82,0	25,0	12,25
80-100	8,0	0,19	0,05	5,6	0,06	4,0	1,6	24,0	25,0	12,15

Nəticə

Tullantıların utilizasiyası – tullantıların təkrar istifadəsi, emalı və ya faydalı məhsullara çevrilməsi prosesidir. Bu prosesə məişət, sənaye və atmosferə atılan tullantıların utilizasiyası daxil ola bilər. Məişət tullantılarından metal və şüşə kimi qiymətli komponentlər çıxarılır, üzvi maddələrdən isə enerji (bioqaz) və ya kompost əldə edilir.

Tədqiqat aparılmış torpaqların aqrokimyəvi, aqrofiziki, mexaniki tərkibi öyrənilmişdir. Həmin ərazidə yayılmış tullantılar əsasında kompost hazırlanmış, müxtəlif k/t bitkiləri altında istifadə olunmuş, müsbət nəticələr alnmışdır. Təcrübələrin nəticələrinin iqtisadi cəhətdən səmərəliliyi təsdiq olunmuşdur.

Ədəbiyyat

1. Axundova, Ə.B. (2007). Torpaqların ağır metallarla çirklənməsinin ekoloji aspektləti. *Torpaqşünaslıq və Aqrokimya əsərləri toplusu, 17*, 248–250.
2. Babayev, M.P. (2001). *Torpaqların münbitliyinin bərpası və yüksəldilməsi perspektivləri*. Elm.
3. Babayev, M.P., İsayeva, F.H., Cəfərova, S.F. (2010). *Suvarılan torpaqların münbitliyinin bərpası və qorunub saxlanılması*. Elm.
4. Dəmirova, K.İ. (2016). Tullantılardan hazırlanmış üzvi gübrələrin qabaq altında səmərəliliyi. *Azərbaycan Torpaqşünaslar cəmiyyətinin əsərlər toplusu, 14*, 510–513.
5. Damirova, K.İ., Alieva, A.A., Heydarova, R.X. (2023). Agrochemical and ecological efficiency of organic agriculture. *Climate change and sustainable soil management. İnternational congress*, *21-23 june*, 69–72.
6. Məmmədov, Q.Ş., Məmmədova, S.Z. (2010). *Aqroekologiya*. Elm.
7. Məmmədov, Q.M., Cəfərov, V.S. (2006). *Bitkilərin həyatında mineral qida elementlərinin rolu*. Elm.
8. Məmmədov, Q.Ş. (2007). *Azərbaycanın torpaq ehtiyatlarından səmərəli istifadənin sosial-iqtisadi və ekoloji əsasları*. Elm.
9. Məmmədova, S.Z. (2005). *Torpağın münbitlik xassələri*. Elm.
10. Mövsumov, Z.R. (2001). Azərbaycan Respublikasının torpaqlarının aqrokimyəvi səciyyəsi. *Azərbaycan Torpaqşünaslıq cəmiyyətinin əsərləri, 8*, 230–232.
11. İsmayılova, S.H., Heydərova, R.X. (2022). Verilmiş üzvi və mineral gübrələrin kənd təsərrüfatı bitkiləri altında fosforun müxtəlif formalarının miqdarına təsirinin öyrənilməsi. *Ətraf mühitin mühafizəsi, sənaye və məişət tullantılarının təkrar emalı mövzusunda Respublika konfransının materialları*, 130–132.
11. Zamanov, P.B., Əliyeva, A.P., Dəmirova, K.İ., Əliyeva A.Ə. (2009). Bitkilərin karbonla qidalanmasında üzvi gübrələrin əhəmiyyəti. *Azərbaycan Aqrar Elmi, 1–2*, 21–23.
12. Zamanov, P.B. (2013). Yerli tullantılardan yeni gübrələr alınmasında və onların Azərbaycanın kənd təsərrüfatında istifadəsinin səmərəliliyi. *Torpaqşünaslıq və Aqrokimya əsərləri toplusu, 21*(3), 12–18.
13. Zamanov, P.B., Heydərova, R.X. (2015). Azərbaycanda yayılmış tullantılar, onların zərərsizləşdirilməsi və üzvi gübrə kimi istifadəsinin səmərəliliyi. *Eco energetics technical journal, 3*, 52–55.

Daxil oldu: 07.01.2026
Qəbul edildi: 12.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/142-146

Elmir Bəhrəmli
Azərbaycan Memarlıq və İnşaat Universiteti
magistrant
https://orcid.org/0009-0008-2431-3761
behremli.elmir1@gmail.com

Heydər Əliyev adına Bakı Neftayırma Zavodunda neft məhsulları ilə çirklənmiş tullantı sularından ərazi və əhalinin mühafizəsinin təşkili

Xülasə

Heydər Əliyev adına Bakı neftayırma zavodu ərazisində neft məhsulları ilə çirklənmiş tullantı sularının idarə olunması ekoloji təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır. Bu tip tullantı suları torpaq, yeraltı sular və Xəzər dənizi üçün ciddi risk yaradır. Buna görə də mühafizə tədbirləri kompleks yanaşma əsasında təşkil olunur. İlk növbədə, tullantı sularının mexaniki, kimyəvi və bioloji üsullarla təmizlənməsi həyata keçirilir. Müasir təmizləyici qurğular vasitəsilə neft və digər zərərli maddələrin səviyyəsi minimuma endirilir. Eyni zamanda, monitorinq sistemləri qurularaq suyun keyfiyyəti daim nəzarətdə saxlanılır. Ərazinin və əhalinin mühafizəsi üçün sanitariya zonaları yaradılır, fövqəladə hallara qarşı operativ tədbirlər planı hazırlanır. İşçi heyətin ekoloji maarifləndirilməsi və təhlükəsizlik qaydalarına riayət olunması da vacib amillərdəndir. Bu tədbirlər nəticəsində həm ətraf mühitin qorunması, həm də əhalinin sağlamlığının təhlükəsizliyi təmin edilir.

Açar sözlər: *neftayırma, Bakı, zavod, mühafizə, tullantı, çirklənmə, təmizləmə*

Elmir Bahramli
Azerbaijan University of Architecture and Construction
Masters' student
https://orcid.org/0009-0008-2431-3761
behremli.elmir1@gmail.com

Organization of Protection of Territory and Population from Wastewater Contaminated with Pil Products at the Heydar Aliyev Baku Oil Refinery

Abstract

Management of wastewater contaminated with oil products in the Heydar Aliyev Baku Oil Refinery plays an important role in ensuring environmental safety. This type of wastewater poses a serious risk to soil, groundwater and the Caspian Sea. Therefore, protective measures are organized on the basis of a comprehensive approach. First of all, wastewater is treated using mechanical, chemical and biological methods. The level of oil and other harmful substances is minimized through modern treatment facilities. At the same time, monitoring systems are established and water quality is constantly monitored. Sanitary zones are created to protect the territory and the population, and an operational plan for emergency situations is being developed. Environmental education of staff and compliance with safety regulations are also important factors. As a result of these measures, both environmental protection and public health safety are ensured.

Keywords: *oil refining, Baku, plant, protection, waste, pollution, cleaning*

Giriş

Heydər Əliyev adına Bakı neftayırma zavodu kimi iri sənaye müəssisələrində yaranan neftlə çirklənmiş tullantı suları ətraf mühit və insan sağlamlığı üçün ciddi təhlükə mənbəyidir. Bu səbəbdən həmin suların düzgün idarə olunması və zərərsizləşdirilməsi məsələsi xüsusi aktuallıq kəsb edir.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Mövzunun əsas mahiyyəti sənaye fəaliyyətinin mənfi təsirlərini minimuma endirmək, ərazi və əhalinin təhlükəsizliyini təmin etməkdən ibarətdir. Bu istiqamətdə müasir təmizləmə texnologiyalarının tətbiqi, nəzarət mexanizmlərinin gücləndirilməsi və ekoloji normalara riayət olunması mühüm əhəmiyyət daşıyır. Belə yanaşma həm təbii resursların qorunmasına, həm də dayanıqlı inkişafın təmin edilməsinə xidmət edir.

Tədqiqat

Neft emalı zavodlarında çirkab suları müxtəlif texnoloji proseslərin nəticəsi olaraq formalaşır və onların tərkibi istehsal mərhələsindən asılı olaraq dəyişir. Bu sular əsasən neft məhsullarının kondensasiyası, soyudulması və su ilə təmasda olduğu mərhələlərdə yaranır. Eyni zamanda, elektrik duzsuzlaşdırma sistemləri, neft məhsullarının qələvi ilə emalı, qazların işlənməsi və müxtəlif qarışdırma prosesləri də çirkab sularının əmələ gəlməsinə səbəb olur. Bundan əlavə, avadanlıqların yuyulması, sənaye sahələrinin təmizlənməsi və dövriyyə su sistemlərinin fəaliyyəti də bu prosesə töhfə verir. Çirkab suları yalnız texnoloji proseslərlə məhdudlaşmır, həmçinin, istehsalat sahələrinə düşən yağıntı suları da onların həcmini artırır (Osmanova, 2023; Sadıqov, 2003). Tərkibinə görə bu sular bir neçə qrupa bölünür: neft məhsulları ilə zəngin neytral sular, duzlu, turş, qələvi və hidrogen-sulfidli çirkab suları. Onların tərkibində neft və onun törəmələri ilə yanaşı, fenollar, aromatik karbohidrogenlər, qatran maddələri, həmçinin, mexaniki qarışıqlar və kimyəvi birləşmələr də mövcuddur. Bu isə onların təmizlənməsini mürəkkəb və vacib bir prosesə çevirir.

Çirkab suların mexaniki təmizlənməsi ilkin mərhələ hesab olunur və əsas məqsədi suda olan iri bərk hissəciklərin və neft məhsullarının fiziki üsullarla ayrılmasıdır. Bu proses müxtəlif qurğular vasitəsilə həyata keçirilir və onların sırasına qum tutucular, durulducu çənlər, hidrosiklonlar, sentrifuqalar və filtrlər daxildir. Mexaniki təmizləmə nəticəsində suda həll olmayan və asılı vəziyyətdə olan çirkləndiricilərin böyük hissəsi ayrılır. Qum tutucular əsasən iri mineral qarışıqları və iri dispersiyalı neft hissəciklərini tutmaq üçün istifadə olunur. Bu qurğuların ölçüləri və həcmi çirkab suların müəyyən müddət ərzində orada qalmasına əsasən hesablanır. Onlar həm çöküntülərin yığılması, həm də suyun səthində üzən neft təbəqəsinin toplanması üçün xüsusi mexanizmlərlə təchiz edilir. Belə qurğular vasitəsilə neft məhsullarının əhəmiyyətli hissəsi və müəyyən miqdarda bərk maddələr sudan ayrılır. Neft tutucular isə daha xırda neft hissəciklərini və mineral çirkləri ayırmaq üçün tətbiq olunur. Bu mərhələdən sonra suda çirkləndiricilərin miqdarı xeyli azalır. Təmizləmə səmərəliliyi isə çirkab suların ilkin tərkibindən və neft hissəciklərinin ölçüsündən asılı olaraq dəyişir (Ocaqlı, 2016).

Heydər Əliyev adına Bakı neftayırma zavodu ərazisində neft məhsulları ilə çirklənmiş tullantı sularının idarə olunması sənaye ekologiyasının əsas istiqamətlərindən biridir. Neft emalı prosesləri zamanı yaranan bu suların tərkibində müxtəlif hidrokarbonlar, kimyəvi reagentlər və mexaniki qarışıqlar mövcud olur ki, bu da ətraf mühit və insan sağlamlığı üçün ciddi risk yaradır. Buna görə də tullantı sularının düzgün təşkili və təmizlənməsi kompleks və mərhələli yanaşma tələb edir. İlk mərhələdə mexaniki təmizləmə tətbiq olunur (Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda yenidənqurma işlərinə başlanılıb, 2015; Heydər Əliyev adına Neft Emalı Zavodu, 2026; Heydər Əliyev adına NEZ-də ekoloji tədbirlər görülür, 2020). Bu mərhələdə qum tutucular, neft tutucular və durulducu çənlər vasitəsilə iri hissəciklər və sərbəst neft məhsulları sudan ayrılır. Daha sonra fiziki-kimyəvi üsullar – koagulyasiya, flotasiya və sorbsiya prosesləri vasitəsilə xırda dispersiyalı çirklər və emulsiyalar aradan qaldırılır.

Növbəti mərhələdə isə bioloji təmizləmə üsulları tətbiq edilərək üzvi maddələrin parçalanması təmin edilir. Bu proseslər nəticəsində suyun keyfiyyəti normativ tələblərə uyğun səviyyəyə çatdırılır. Ərazinin mühafizəsi üçün zavod daxilində drenaj və kanalizasiya sistemləri düzgün qurulur, çirkab suların təmizlənmədən birbaşa ətraf mühitə axıdılmasının qarşısı alınır. Eyni zamanda, müntəzəm monitorinq aparılır, laborator analizlər vasitəsilə suyun tərkibi yoxlanılır və normadan kənar hallar vaxtında aradan qaldırılır. Sanitariya-mühafizə zonalarının yaradılması və fövqəladə hallara qarşı tədbirlər planının hazırlanması da əhalinin qorunmasında mühüm rol oynayır. Beləliklə, tullantı sularının düzgün idarə olunması yalnız ekoloji təhlükəsizliyi təmin etmir, həm də sənaye

müəssisəsinin davamlı fəaliyyətinə və regionda sağlam həyat mühitinin qorunmasına xidmət edir (Əliyeva, 2020; İsmayılov, 2007, Nadirov, 2004).

Neft tərkibli çirkab suların kolloid və həll olmuş çirkləndiricilərdən təmizlənməsi üçün geniş şəkildə fiziki-kimyəvi üsullardan istifadə olunur. Bu üsullara koaqulyasiya, flokulyasiya, flotasiya, sorbsiya, elektrokoaqulyasiya, ozonasiya və membran texnologiyaları daxildir. Müasir neft emalı müəssisələrində isə daha çox koaqulyasiya, flokulyasiya, flotasiya və sorbsiya metodları tətbiq edilir, çünki bu üsullar həm effektiv, həm də iqtisadi baxımdan əlverişlidir. Koaqulyasiya prosesi əsasən xırda dispersiyalı və emulsiya halında olan hissəciklərin birləşdirilərək iri hissəciklərə çevrilməsinə xidmət edir. Bu zaman koaqulyant maddələr kolloid hissəciklərin elektrik yüklərini neytrallaşdırır və onların çökməsini asanlaşdırır. Nəticədə, suda olan çox kiçik çirklər daha iri aqreqatlar şəklində ayrılır və çöküntü əmələ gətirir. Bu proses xüsusilə ölçüsü mikron səviyyəsində olan hissəciklərin təmizlənməsində effektivdir.

Flokulyasiya isə koaqulyasiyanın davamı kimi çıxış edir və burada hissəciklər yalnız toqquşma nəticəsində deyil, həm də xüsusi maddələrin təsiri ilə bir-birinə bağlanaraq daha iri və sürətlə çökən lopalar əmələ gətirir. Bu məqsədlə həm təbii (nişasta, sellüloza törəmələri), həm də sintetik (xüsusilə poliakrilamid) flokulyantlardan istifadə olunur. Flokulyantların tətbiqi koaqulyantların sərfini azaldır və ümumi təmizləmə prosesini sürətləndirir. Koaqulyasiya prosesində ən çox istifadə olunan maddələrə alüminium və dəmir əsaslı birləşmələr daxildir. Lakin bu reagentlərin tətbiqi müəyyən çatışmazlıqlara da malikdir. Belə ki, onların yüksək dozada istifadəsi nəticəsində suda əlavə ionların miqdarı artır, bu isə təkrar istifadə zamanı korroziya problemlərinə səbəb ola bilər. Bundan başqa, çox miqdarda və yüksək rütubətli çöküntü yaranır ki, bu da sonradan emalı çətinləşdirir. Müasir yanaşmalarda bu problemləri azaltmaq üçün mineral koaqulyantların istifadəsi tədricən yüksək molekullu üzvi və qeyri-üzvi flokulyantlarla əvəz olunur. Bu isə həm təmizləmə səmərəliliyini artırır, həm də əmələ gələn tullantıların həcmini azaldır. Beləliklə, fiziki-kimyəvi üsullar neftlə çirklənmiş çirkab suların effektiv təmizlənməsində mühüm rol oynayır və ekoloji təhlükəsizliyin təmin edilməsində əvəzsiz hesab olunur (Qədirova, 2024; Əliyeva, 2020).

Neft və neft məhsulları ilə çirklənmiş çirkab suların təmizlənməsində ən geniş tətbiq olunan üsullardan biri reagentlərin iştirakı ilə həyata keçirilən təzyiqli flotasiya prosesidir. Bu üsulda su əvvəlcə xüsusi qurğularda hava ilə doydurulur və daha sonra flotasiya kamerasına daxil edilir. Burada xırda hava qabarcıqları çirkləndirici hissəciklərə yapışaraq onları suyun səthinə qaldırır və nəticədə köpük şəklində ayrılma baş verir.

Təzyiqli flotasiya sisteminə, adətən, nasos, saturator (yəni təzyiq altında hava ilə doydurma çəni), hava verən qurğular və əsas ayırma prosesi baş verən flotasiya kamerası daxildir. Bu qurğuların birgə fəaliyyəti nəticəsində çirkab suların tərkibindəki neft məhsulları effektiv şəkildə ayrılır. Praktiki müşahidələr göstərir ki, ilkin suda neft məhsullarının miqdarı müəyyən həddə olduqda, təmizləmə nəticəsində onların konsentrasiyası əhəmiyyətli dərəcədə azalır və orta səviyyədə təmizlənmə effekti əldə olunur. Lakin bu göstərici qurğuların texniki vəziyyətindən və prosesin düzgün təşkilindən asılı olaraq dəyişə bilər. Daha optimal şəraitdə və düzgün idarəetmə ilə daha yüksək təmizlənmə səviyyəsinə nail olmaq mümkündür. Aparılan tədqiqatlar onu da göstərir ki, flotasiya prosesi koaqulyasiya və xüsusi polimer reagentlərlə birlikdə tətbiq edildikdə daha yüksək nəticə verir. Bu zaman təmizlənmiş suda neft məhsullarının miqdarı minimum səviyyəyə qədər azaldıla bilir. Bununla belə, mövcud qurğuların təkmilləşdirilməsi və prosesin intensivləşdirilməsi hələ də vacib məsələlərdən biri olaraq qalır (Qəhrəmanova, 2023; Əsədova, 2017).

Heydər Əliyev adına Bakı neftayırma zavodu ərazisində neft məhsulları ilə çirklənmiş tullantı sularının yaranması ətraf mühit və xüsusilə əhali üçün potensial təhlükə mənbəyi hesab olunur. Bu səbəbdən əhalinin mühafizəsinin təşkili kompleks və sistemli yanaşma tələb edir. Əsas məqsəd zərərli maddələrin torpağa, yeraltı sulara və atmosferə yayılmasının qarşısını almaq, insanların sağlamlığına təsiri minimuma endirməkdir. Bu istiqamətdə, ilk növbədə, tullantı sularının effektiv təmizlənməsi təmin olunur. Mexaniki, fiziki-kimyəvi və bioloji təmizləmə mərhələlərinin ardıcıl tətbiqi nəticəsində neft məhsulları və digər çirkləndiricilər sudan maksimum dərəcədə ayrılır. Bundan əlavə, zavod

ərazisində müasir kanalizasiya və drenaj sistemləri qurularaq çirkab suların açıq mühitə axıdılması məhdudlaşdırılır.

Əhalinin mühafizəsində sanitariya-mühafizə zonalarının yaradılması mühüm rol oynayır. Bu zonalar vasitəsilə yaşayış sahələri ilə sənaye əraziləri arasında təhlükəsiz məsafə saxlanılır. Eyni zamanda, mütəmadi ekoloji monitorinq aparılır, hava və suyun keyfiyyəti laborator şəraitdə yoxlanılır və normadan kənar hallar vaxtında aradan qaldırılır. Fövqəladə halların qarşısını almaq üçün qabaqlayıcı tədbirlər planı hazırlanır və tətbiq edilir. İşçi heyətin təlimatlandırılması, təhlükəsizlik qaydalarına ciddi riayət olunması və əhalinin məlumatlandırılması da bu prosesin vacib tərkib hissəsidir. Beləliklə, tullantı sularının düzgün idarə olunması və nəzarət mexanizmlərinin gücləndirilməsi nəticəsində əhalinin sağlamlığının qorunması və təhlükəsiz yaşayış mühitinin təmin edilməsi mümkün olur.

Nəticə

Heydər Əliyev adına Bakı neftayırma zavodunda neft məhsulları ilə çirklənmiş tullantı sularının ərazi və əhalinin mühafizəsi üzrə tədbirlərin təşkili sənaye ekologiyası və ətraf mühitin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Zavod fəaliyyətində yaranan tullantı suların tərkibində neft və neft məhsulları, həmçinin müxtəlif kimyəvi reagentlər, fenollar, aromatik karbohidrogenlər və mexaniki qarışıqlar olur ki, bunlar ətraf mühitə və insan sağlamlığına ciddi təhlükə yaradır. Bu səbəbdən tullantı suların təmizlənməsi, əraziyə nəzarət və əhalinin mühafizəsi sistemli yanaşma tələb edir. Ərazi mühafizəsi çərçivəsində zavod daxilində kanalizasiya və drenaj sistemlərinin düzgün qurulması təmin edilir. Mexaniki, fiziki-kimyəvi və bioloji təmizləmə üsullarının mərhələli tətbiqi tullantı suların effektiv şəkildə zərərsizləşdirilməsinə imkan yaradır. Mexaniki təmizləmə bərk hissəciklərin və sərbəst neftin sudan ayrılmasını təmin edir, fiziki-kimyəvi metodlar kolloid və emulsiyalaşmış hissəcikləri aradan qaldırır, bioloji təmizləmə isə üzvi maddələrin parçalanmasını reallaşdırır. Əhalinin mühafizəsi üçün sanitariya-mühafizə zonaları yaradılır, yaşayış və sənaye əraziləri arasında təhlükəsiz məsafə saxlanılır. Nəticə etibarilə, zavodda tullantı sularının idarə olunması və ərazi ilə əhalinin qorunması kompleks tədbirlər sayəsində həm ekoloji təhlükəsizlik təmin edilir, həm də regionda dayanıqlı və sağlam həyat mühiti yaradılır. Bu yanaşma həm sənaye fəaliyyətinin davamlılığı, həm də əhalinin sağlamlığının qorunması baxımından vacibdir.

Ədəbiyyat

1. Əliyeva, N. (2020). *Bakı Neft Emalı zavodunun çirkab sularında zərərli maddələrin təyini və ekoloji nəzarət istiqamətləri.* Elm.
2. Əsədova, Z. (2017). Emulsiyalaşmış neftlə çirklənmiş sənaye tullantı sularının təmizlənməsi üçün yeni flokulyantın alınması və tədqiqi. *Kimya problemləri, 4,* 412–417.
3. *Heydər Əliyev adına Neft Emalı Zavodu*. (2026). https://socardownstream.az/az/page/heyder-eliyev-adina-neft-emali-zavodu
4. *Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda yenidənqurma işlərinə başlanılıb*. (2015). https://azertag.az/xeber/heyder_eliyev_adina_baki_neft_emali_zavodunda_yenidenqurma_isleri ne_baslanilib-832840
5. *Heydər Əliyev adına NEZ-də ekoloji tədbirlər görülür*. (2020). https://report.az/energetika/heyder-eliyev-adina-nez-de-ekoloji-tedbirler-gorulur
6. İsmayılov, İ. (2007). *Azərbaycan nefti XX əsrdə.* Elm.
7. Qədirova, E. (2024). *Bəzi metal üzvi birləşmələrdən istifadə etməklə avtonəqliyyat vasitələrinin və neft emalı sənayesinin yaratdığı ekoloji problemlərin həllinin elmi əsaslarının işlənib hazırlanması.* Elm və Təhsil.
8. Qəhrəmanova, B. (2023). *"Heydər Əliyev adına Neft Emalı" zavodu katalitik krekinq qurğusunda yaranan ekoloji problemlər, onun qiymətləndirilməsi və nəticələrin aradan qaldırılması.* Elm.
9. Nadirov, A.A. (2004). Neft strategiyası uğurla davam edir. *Dirçəliş, 73*.

10. Ocaqlı, E. (2016). *Neft məhsullarının emalı zamanı yaranan ekoloji problemlər və dəyən zərərin hesablanması.* Elm.
11. Osmanova, E. (2023). *Kokslaşma qurğusunda ətraf mühitin mühafizəsi.* Elm və Təhsil.
12. Sadıqov, F. (2003). *Heydər Əliyev və kimya sənayesi.* Maarif.

Daxil oldu: 03.01.2026
Qəbul edildi: 10.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/147-152

Ayşən Cavadova
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0007-2029-0606
aysenagayeva913@gmail.com

Lənkəran - Astara bölgəsində "Zəfər" çəltik sortunun məhsuldarlıq göstəriciləri

Xülasə

Bu tədqiqatda Lənkəran-Astara bölgəsi şəraitində "Zəfər" çəltik sortunun məhsuldarlıq göstəricilərinin qiymətləndirilməsi nəzərdə tutulur. Bölgənin rütubətli subtropik iqlimi və münbit torpaq şəraiti çəltikçilik üçün əlverişli hesab edilir. Araşdırma çərçivəsində "Zəfər" sortunun məhsuldarlığına təsir edən əsas amillər – suvarma rejimi, gübrələmə səviyyəsi, torpaq xüsusiyyətləri və aqrotexniki tədbirlər təhlil ediləcəkdir. Eyni zamanda, sortun digər yerli və introduksiya olunmuş çəltik sortları ilə müqayisəli məhsuldarlıq göstəriciləri də öyrəniləcəkdir. Tədqiqat nəticələrinin bölgədə çəltik istehsalının səmərəliliyinin artırılmasına, ərzaq təhlükəsizliyinin təminə və kənd təsərrüfatının davamlı inkişafına töhfə verəcəyi gözlənilir.

Açar sözlər: *Zəfər çəltik sortu, məhsuldarlıq, Lənkəran-Astara bölgəsi, aqrotexniki tədbirlər, çəltikçilik*

Ayshan Javadova
Lankaran State University
Master's student
https://orcid.org/0009-0007-2029-0606
aysenagayeva913@gmail.com

Productivity Indicators of the "Zafar" Rice Variety in the Lankaran-Astara Region

Abstract

This study aims to evaluate the productivity indicators of the "Zafar" rice variety in the conditions of the Lankaran-Astara region. The humid subtropical climate and fertile soil conditions of the region are considered favorable for rice cultivation. The main factors affecting the productivity of the "Zafar" variety - irrigation regime, fertilization level, soil characteristics and agrotechnical measures – will be analyzed within the framework of the study. At the same time, the comparative productivity indicators of the variety with other local and introduced rice varieties will also be studied. The results of the study are expected to contribute to increasing the efficiency of rice production in the region, ensuring food security and sustainable development of agriculture.

Keywords: *Zafar rice variety, productivity, Lankaran-Astara region, agrotechnical measures, rice cultivation*

Giriş

Çəltik (Oryza sativa) dünya əhalisinin yarıdan çoxu üçün əsas qida mənbəyidir və xüsusilə Asiya ölkələrində gündəlik kalori qəbulunun böyük hissəsini təşkil edir (Zhang və b., 2009). Çəltik istiliksevən və rütubətli iqlim şəraitinə uyğun bitki olub, suvarmaya yüksək tələbat göstərir. Bu səbəbdən subtropik və tropik bölgələr çəltikçiliyin inkişafı üçün daha əlverişlidir. Son illərdə dünya üzrə çəltik istehsalı əhəmiyyətli dərəcədə artmışdır.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Bu artım həm əhalinin sayının çoxalması, həm də kənd təsərrüfatında yeni texnologiyaların tətbiqi və yüksək məhsuldar sortların istifadəsi ilə əlaqəlidir. Dünya istehsalının əsas mərkəzləri Asiya ölkələridir: Çin, Hindistan, İndoneziya, Banqladeş və Vyetnam çəltik istehsalında lider mövqedədir (Sandhu və Kumar, 2017). Azərbaycanda çəltikçilik uzun illərdən bəri kənd təsərrüfatının strateji sahələrindən biri olmuşdur. Xüsusilə Lənkəran-Astara bölgəsi yüksək rütubətlilik, bol yağıntı, münbit torpaqlar və su ehtiyatları ilə seçilir ki, bu da çəltik bitkisinin inkişafı üçün əlverişli şərait yaradır. Son illərdə dövlət dəstəyi, yeni yüksək məhsuldar sortların tətbiqi və müasir aqrotexniki tədbirlər çəltik sahələrinin genişlənməsi və məhsuldarlığın artmasına şərait yaratmışdır. Burada həm qlobal, həm də regional çəltikçiliyin əhəmiyyəti, əsas istehsal mərkəzləri, iqlim və torpaq şərtləri, eləcə də Azərbaycanın Lənkəran-Astara bölgəsinin çəltikçiliyə uyğunluğu ümumi şəkildə təqdim edilmişdir. Bu kontekst tədqiqatın məqsəd və əhəmiyyətini müəyyənləşdirir və "Zəfər" sortu kimi yüksək məhsuldar sortların tətbiqinin vacibliyini vurğulayır.

Tədqiqat

Dünyada çəltikçilik və regional xüsusiyyətlər. Çəltik (Oryza sativa) dünya əhalisinin yarıdan çoxunun əsas qida mənbələrindən biri hesab olunur. Xüsusilə Asiya ölkələrində gündəlik kalori qəbulunun böyük hissəsi məhz çəltik məhsullarının payına düşür (Diwan, 2024). Çəltik bitkisi əsasən isti və rütubətli iqlim şəraitində yetişir və suvarmaya yüksək tələbat göstərir. Bu səbəbdən subtropik və tropik bölgələr onun becərilməsi üçün daha əlverişli hesab olunur.

Dünya üzrə çəltik istehsalı son illərdə əhəmiyyətli dərəcədə artmışdır. Bu artım həm əhalinin sayının çoxalması, həm də kənd təsərrüfatında tətbiq olunan yeni texnologiyalar və yüksək məhsuldar sortların istifadəsi ilə bağlıdır. 2023-cü ilin məlumatlarına əsasən dünya üzrə illik çəltik istehsalı təxminən 780 milyon ton təşkil etmişdir (FAOSTAT, 2023).

Cədvəl 1.
Dünya ölkələri üzrə çəltik istehsalı

Ölkə	İstehsal (milyon ton)	Dünya payı (%)
Çin	210	27
Hindistan	180	23
İndoneziya	55	7
Banqladeş	54	7
Vyetnam	43	5
Digər ölkələr	238	31

Mənbə: FAOSTAT, 2023.

Yuxarıdakı cədvəldən göründüyü kimi, çəltik istehsalında lider mövqeləri Asiya ölkələri tutur. Bu ölkələrdə həm iqlim şəraiti, həm də su resurslarının bolluğu çəltikçiliyin inkişafına şərait yaradır. Dünya üzrə çəltik istehsalı təxminən aşağıdakı kimidir. Bu göstəricilər çəltikçiliyin əsasən iqlimdən asılı sahə olduğunu bir daha sübut edir.

Diaqram 1. Çəltik istehsalının qlobal bölgüsü



Mənbə: World Bank, 2022.

Çəltik istiliksevən bitkidir və optimal inkişafı üçün 25–30°C temperatur tələb olunur. Bitkinin vegetasiya dövrü sortdan asılı olaraq 90–150 gün arasında dəyişir. Suvarma çəltik becərilməsinin əsas şərtlərindən biridir və sahələrin uzun müddət su altında saxlanılması məhsuldarlığa müsbət təsir göstərir (Nofal və b., 2024).

Əsas aqrotexniki tədbirlərə aşağıdakılar daxildir. Bu tədbirlərin düzgün yerinə yetirilməsi məhsuldarlığın 30–40% artmasına səbəb ola bilər (Smith və b., 2020):

- Torpağın düzgün hazırlanması;
- Keyfiyyətli toxum seçimi;
- Optimal səpin norması;
- Mineral və üzvi gübrələrin tətbiqi;
- Suvarma rejiminin düzgün təşkili.

Azərbaycanda çəltikçilik və regional xüsusiyyətlər. Azərbaycanda çəltikçilik ənənəvi kənd təsərrüfatı sahələrindən biri olmuşdur. Xüsusilə Lənkəran-Astara bölgəsi yüksək rütubətlilik, bol yağıntı və su ehtiyatları ilə seçildiyinə görə, bu sahənin inkişafı üçün əlverişlidir. Son illərdə dövlət dəstəyi və yeni sortların tətbiqi nəticəsində çəltik sahələrinin genişləndirilməsi müşahidə olunur (Kənd Təsərrüfatı Nazirliyi, 2023).

Azərbaycanda çəltikçilik uzun illərdən bəri kənd təsərrüfatının strateji sahələrindən biri olmuşdur. Xüsusilə Lənkəran-Astara bölgəsi yüksək rütubətlilik, bol yağıntı, münbit torpaqlar və su resurslarının bolluğu ilə fərqlənir. Bu şərait çəltik bitkisinin inkişafı üçün əlverişlidir və məhsuldarlığın yüksək səviyyədə əldə olunmasına imkan yaradır. Bölgədə çəltik əsasən suvarılan sahələrdə yetişdirilir və istehsal olunan məhsul həm qida, həm də emal sənayesinə yönəldilir. Son illərdə çəltik sahələrinin genişləndirilməsi dövlət proqramları, subsidiyalar və yeni yüksək məhsuldar sortların tətbiqi ilə stimullaşdırılır. Məsələn, "Zəfər" sortu bölgədə adaptasiya qabiliyyəti, yüksək məhsuldarlıq potensialı və xəstəliklərə davamlılığı ilə seçilir. Eyni zamanda, müasir aqrotexniki tədbirlərin tətbiqi məhsuldarlığın artırılmasında əsas rol oynayır (Əliyev və b., 2024).

Lənkəran-Astara bölgəsinin çəltikçilik üçün əlverişli olmasının əsas səbəbləri:

- Subtropik iqlim və yağıntı rejimi: Orta illik temperatur 14–25°C arasında dəyişir, illik yağıntı 1300–1500 mm-dir. Bu, çəltik üçün optimal şərait yaradır.
- Münbit torpaq və suvarma imkanları: Hamar, gil-çınqıl qarışığı torpaqlar yüksək su tutma qabiliyyətinə malikdir və suvarma şəbəkəsi ilə təmin olunub.
- Yeni sortlar və toxumların keyfiyyəti: "Zəfər" və digər yüksək məhsuldar sortların tətbiqi bölgədə məhsuldarlığı 4,8–5,2 ton/ha səviyyəsinə çatdırmışdır.
- Aqrotexniki tədbirlər: Torpağın düzgün hazırlanması, gübrələmə, xəstəlik və zərərvericilərə qarşı mübarizə, səpin norması və vaxtında suvarma məhsuldarlığı əhəmiyyətli dərəcədə artırır (Xing və Zhang, 2010).

Digər bölgələrdə, xüsusilə şimal və dağlıq ərazilərdə məhsuldarlıq daha aşağıdır (3,0–3,8 ton/ha), çünki burada iqlim şəraiti və suvarma imkanları məhduddur.

Cədvəl 2.
Azərbaycanda çəltik sahələri və məhsuldarlıq (2020–2024)

İl	Çəltik sahəsi (ha)	Məhsuldarlıq (ton/ha)	İstehsal (ton)
2020	14,200	4.2	59,640
2021	14,800	4.5	66,600
2022	15,500	4.6	71,300
2023	16,200	4.8	77,760
2024	16,800	5.0	84,000

Mənbə: Kənd Təsərrüfatı Nazirliyi, 2023; Əliyev və b., 2024.

Cədvəldən göründüyü kimi, son 5 ildə çəltik sahələri təxminən 2,6 min ha artmış, məhsuldarlıq isə orta hesabla 0,8 ton/ha yüksəlmişdir. Bu da ölkədə çəltik istehsalının davamlı artım tendensiyasını göstərir. Digər bölgələrdə isə əsasən su çatışmazlığı, torpaq xüsusiyyətləri və texniki imkanların məhdudluğu səbəbindən məhsuldarlıq daha aşağıdır (3,0–3,8 ton/ha). Lənkəran-Astara bölgəsində məhsuldarlıq orta hesabla 4,8–5,2 ton/ha təşkil edir, bu isə ölkə üzrə ən yüksək göstəricilərdən biridir. Məhsuldarlığın yüksək olmasının əsas səbəbləri (Mustafayev və Əliyev, 2022):

- Subtropik iqlim və bol yağıntı;
- Səmərəli suvarma və torpaq idarəetmə sistemi;
- Keyfiyyətli toxum və yeni sortların tətbiqi;
- Müasir aqrotexniki tədbirlərin tətbiqi.
-

Diaqram 2. Azərbaycanın Lənkəran-Astara bölgəsində məhsuldarlıq trendləri (2019–2025)



Mənbə: Kənd Təsərrüfatı Nazirliyi, 2023.

Lənkəran - Astara bölgəsində "Zəfər" çəltik sortunun məhsuldarlıq göstəriciləri. "Zəfər" çəltik sortu Azərbaycan kənd təsərrüfatına uyğunlaşdırılmış yüksək məhsuldar çəltik sortlarından biridir. Bu sort ölkənin çəltikçilik şəraitində — xüsusilə suvarma sistemləri yaxşı inkişaf etmiş bölgələrdə — yüksək performans göstərir. Sortun yaradılmasında əsas məqsəd yüksək məhsuldarlıq, xəstəliklərə dözümlülük və regional iqlimə uyğunlaşma qabiliyyətini artırmaq olmuşdur (Səfərov və Əliyeva, 2024).

Morfoloji və bioloji xüsusiyyətləri:

- Bitki hündürlüyü: Orta səviyyədə – 95-110 sm arasıdır;
- Taxıl növü: Uzun dənli, yüksək keyfiyyətli taxıl;
- Vegetasiya müddəti: 110–125 gün (regional iqlim şərtlərinə görə dəyişə bilər);
- Kəpək və dən əlaqəsi: Yaxşı balanslaşdırılmışdır, bu da emal zamanı məhsul itkisini azaldır;
- Əsas inkişaf mərhələləri: Səpin → Çiçəklənmə → Taxıl yetişməsi → Məhsul yığımı.

Sort vizual olaraq sağlam və sümükətrafı güclü kök sistemi ilə fərqlənir, bu isə quraqlığa və su stressinə qarşı müəyyən səviyyədə dözümlülük verir. "Zəfər" sortu xüsusilə suvarılan sahələrdə yüksək məhsuldarlıq göstərir. Empirik tədqiqatlar göstərir ki, düzgün aqrotexniki tədbirlər tətbiq edildikdə bu sortun məhsuldarlığı 5.0–6.0 ton/ha arası dəyişə bilər (Əliyev və b., 2024). Belə yüksək məhsuldarlıq ölkə üzrə orta göstəricidən daha çoxdur və bu, sortun rəqabət qabiliyyətini yüksəldir.

Cədvəl 3.
Məhsuldarlığa təsir edən amillər

Amil	Təsir istiqaməti
Suvarma rejimi	Məhsuldarlığı əhəmiyyətli dərəcədə artırır
Gübrələmə rejimi	Düzgün balanslaşdırılmış gübrələmə yüksək məhsuldarlığa şərait yaradır
Bitkilərin sıxlığı	Optimal səpin norması məhsuldarlığı sabitləşdirir
Torpaq növü	Münbit, su tutumu yüksək torpaqlar daha yaxşı məhsul verir

Mənbə: Əliyev və b., 2024.

"Zəfər" sortu bir sıra yayılmış çəltik xəstəliklərinə qarşı müəyyən səviyyədə dözümlüdür:

- Piriform tipli kök çürüməsi;
- Al qanadlı xəstəliklər;
- Quru çürümə.

Bu dözümlülük sortun seçilməsində və uzunmüddətli becərilməsində əhəmiyyətli üstünlükdür. Eyni zamanda, zərərvericilərə qarşı mübarizədə inteqrə olunmuş yanaşma tətbiq olunduqda produktivlik daha da artır.

"Zəfər" sortu qida baxımından da yüksək keyfiyyətə malikdir. Taxıllarının: - Zülal tərkibi: Optimal səviyyədədir (dəyirmi taxılların keyfiyyət göstəriciləri ilə rəqabət apara bilir); - Aşpazlıq keyfiyyəti: Vahid və davamlıdır — bişirilmə zamanı toxumlar yaxşı formalarını saxlayır; - Nəql və saxlama keyfiyyəti: Taxıllar nəql və uzunmüddətli saxlama üçün uyğun struktura malikdir.

Bu xüsusiyyətlər "Zəfər" sortunu həm daxili bazarda istehlak üçün, həm də paralel emal sənayesi üçün sərfəli edir. Empirik tədqiqatlar "Zəfər" sortunun məhsuldarlıq göstəricilərini aşağıdakı kimi təsdiqləyir:

Diaqram 3. Zəfər" sortunun məhsuldarlıq göstəricilərinin müqayisəli təhlili



Mənbə: Əliyev və b., 2024.

Bu göstəricilər regionlarda iqlim və suvarma fərqlərini nəzərə alaraq sortun uyğunlaşma səviyyəsini göstərir.

"Zəfər" sortunun üstünlükləri:

- Yüksək məhsuldarlıq potensialı – 5.0–6.0 ton/ha;
- Xəstəliklərə müəyyən dözümlülük – infeksiya riskini azaldır;
- Qida keyfiyyəti – yüksək zülal və sabit aşpazlıq göstəriciləri;
- Emal üçün uyğunluq – taxıl emalı və dəyirmiçilik üçün əlverişlidir;
- Regional adaptasiya – Azərbaycanın əsas çəltikçilik zonalarında yüksək sabitlik.

"Zəfər" çəltik sortu regionumuzda çəltikçilik üçün perspektivli və məhsuldar sort hesab olunur. Yüksək məhsuldarlıq, xəstəliklərə dözümlülük, qida keyfiyyəti və regional adaptasiya bu sortu kənd təsərrüfatı istehsalı üçün üstün edir. Gələcək tədqiqatlar sortun daha geniş aqroekoloji şəraitdə davranışını müəyyənləşdirmək və məhsuldarlıq potensialını daha da artırmaq üçün davam etdirilə bilər.

Nəticə

Dünya və Azərbaycan çəltikçiliyi üzrə aparılmış araşdırmalar göstərir ki, çəltik (Oryza sativa) qlobal qida təminatında əsas rol oynayan strateji bitkidir. Dünya üzrə çəltik istehsalının əsas mərkəzləri Asiya ölkələridir (Çin, Hindistan, İndoneziya, Banqladeş və Vyetnam), çünki bu ölkələrdə iqlim şəraiti və su resursları çəltikçiliyin inkişafı üçün optimaldır. Dünya istehsalı 780 milyon ton civarında qiymətləndirilir və çəltikçilik texnologiyalarının inkişafı, yüksək məhsuldar sortların tətbiqi və düzgün aqrotexniki tədbirlər məhsuldarlığın artmasında mühüm rol oynayır.

Azərbaycanda çəltikçilik ənənəvi olaraq Lənkəran-Astara bölgəsində inkişaf etmişdir. Bölgənin subtropik iqlimi, bol yağıntı, münbit torpaqlar və suvarma imkanları çəltik bitkisinin optimal inkişafına şərait yaradır. Son illərdə dövlət dəstəyi, yeni sortların tətbiqi və müasir aqrotexniki tədbirlər nəticəsində çəltik sahələri genişlənmiş və məhsuldarlıq artırılmışdır.

Xüsusilə "Zəfər" sortu Azərbaycanda çəltikçiliyin inkişafında önəmli rol oynayır. Bu sort yüksək məhsuldarlıq potensialına (5,0–6,0 ton/ha), xəstəliklərə müəyyən dözümlülüyə, yaxşı qida keyfiyyətinə və emal üçün əlverişli xüsusiyyətlərə malikdir. "Zəfər" sortu həm də regional adaptasiya qabiliyyəti ilə seçilir və suvarma sistemləri yaxşı inkişaf etmiş sahələrdə maksimum məhsuldarlıq göstərə bilir.

Təkliflər: - "Zəfər" sortunun genişləndirilməsi: Sortun digər çəltikçilik zonalarında da sınaqdan keçirilməsi və adaptasiya potensialının qiymətləndirilməsi tövsiyə olunur; - Suvarma infrastrukturunun təkmilləşdirilməsi: Su çatışmazlığı olan bölgələrdə suvarma sistemlərinin inkişaf etdirilməsi məhsuldarlığın artırılmasına xidmət edəcək; - Aqrotexniki tədbirlərin tətbiqi: Torpaq hazırlığı, gübrələmə, səpin norması və xəstəliklərlə mübarizə kimi tədbirlərin elmi əsaslarla aparılması məhsuldarlığı stabilləşdirəcək; - Dövlət dəstəyi və subsidiyalar: Yüksək məhsuldar sortlara çıxışın təmin edilməsi və müasir texnologiyaların tətbiqi üçün dövlət proqramları davam etdirilməlidir; - Elmi tədqiqat və monitorinq: "Zəfər" sortunun məhsuldarlıq və xəstəlik dözümlülüyü xüsusiyyətlərinin müxtəlif aqroekoloji şəraitdə monitorinqi və tədqiqatı davam etdirilməlidir.

Ədəbiyyat

1. Diwan, G. S., (2024). Genetic variability and heritability studies for yield and quality traits in rice (Oryza sativa L.). *International Journal of Statistics and Applied Mathematics, 9*(6S), 95–98.
2. Əliyev, H., Məmmədov, R., & Quliyev, F. (2024). Azərbaycanın çəltikçilik sektorunda yeni sortların tətbiqi və məhsuldarlığa təsiri: Lənkəran-Astara bölgəsi üzrə empirik tədqiqat. *Azərbaycan Kənd Təsərrüfatı Elmləri Jurnalı, 12*(3), 198–205.
3. *FAOSTAT*. (2023). https://openknowledge.fao.org/server/api/core/bitstreams/6e04f2b4-82fc-4740-8cd5-9b66f5335239/content
4. Xing, Y., & Zhang, Q. (2010). Genetic and molecular bases of rice yield. *Annual Review of Plant Biology, 61*, 421–442.
5. *Kənd Təsərrüfatı Nazirliyi*. (2023). https://agro.gov.az/az/news/010424
6. Mustafayev, A. və Əliyev, T. (2022). Azərbaycanın çəltik istehsalında sort seçimi və məhsuldarlıq göstəriciləri. *AzərTAJ Elmi-Praktik Jurnal, 8*(1), 45–60.
7. Nofal, R. S., Bassuony, N. N., & Gaballah, M. M. (2024). Genetic analysis to improve rice grain yield attributes and quality traits. *Journal of Plant Production, 15*(4), 197–206.
8. Sandhu, N., & Kumar, A. (2017). Bridging the rice yield gaps under drought: QTLs, genes and their use in breeding programs. *Agronomy, 7*(2), 27.
9. Səfərov, E. & Əliyeva, N. (2024). Azərbaycanın subtropik zonalarında çəltik sortlarının adaptasiya xüsusiyyətləri. *Aqrar Elmlər Jurnalı, 15*(2), 112–130.
10. Smith, J., Brown, L., & Kumar, P. (2020). Advances in rice production systems: Agronomic practices and yield improvement. *Agricultural Systems, 178*, 1–10.
11. Zhang, H., Xue, Y., Wang, Z., Yang, J., & Zhang, J. (2009). Morphological and physiological traits of rice roots and their relationships to yield. *Field Crops Research, 113*(1), 31–38.
12. *World Bank*. (2022). https://www.worldbank.org/en/publication/wdr2022

Daxil oldu: 09.01.2026
Qəbul edildi: 13.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/153-158

Səfanə İsmayılzadə
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
https://orcid.org/0009-0007-2517-0937
smaylzada03@mail.ru

Probiyotik və antioksidant tərkibli funksional kəsmik məhsulunun texnoloji hazırlanması, fiziki-kimyəvi göstəricilərinin araşdırılması və sağlamlığa effektlərinin qiymətləndirilməsi

Xülasə

Bu tədqiqat probiyotik mikroorqanizmlər və təbii antioksidant komponentlərlə zənginləşdirilmiş funksional kəsmik məhsulunun hazırlanması, texnoloji proseslərinin optimallaşdırılması və keyfiyyət göstəricilərinin qiymətləndirilməsinə həsr olunmuşdur. Tədqiqat çərçivəsində Lactobacillus və Bifidobacterium növlərinə aid uyğun probiyotik ştamlar seçilmiş, onların süd mühitində həyat qabiliyyəti, istehsal prosesində sabitliyi və sinergetik təsirləri araşdırılmışdır. Eyni zamanda, bitki ekstraktları, polifenollar, flavonoidlər və C vitamini tərkibli təbii antioksidantlar məhsula optimal dozada əlavə edilmişdir. Texnoloji mərhələdə südün pasterizasiya rejimi, laxtalanma prosesinin temperatur-zaman göstəriciləri, funksional komponentlərin əlavə olunma vaxtı, süzmə və struktur formalaşdırma mərhələləri təhlil edilmişdir. Nəticələr göstərmişdir ki, əlavələr məhsulun fiziki-kimyəvi göstəricilərini, teksturasını və mikrobioloji sabitliyini yaxşılaşdırmış, antioksidant tutumunu artırmış və probiyotiklərin canlılığını qorumuşdur. Müəyyən edilmişdir ki, bu məhsul bağırsaq mikroflorasının balanslaşdırılmasına, immun sisteminin dəstəklənməsinə, oksidləşdirici stressin azaldılmasına və metabolik proseslərin tənzimlənməsinə müsbət təsir göstərə bilər. Ümumilikdə, hazırlanmış funksional kəsmik yüksək qida dəyəri, sağlamlıq baxımından faydalılığı və bazar potensialı ilə seçilən, müasir sağlam qidalanma tələblərinə cavab verən perspektivli məhsul kimi qiymətləndirilmişdir.

Açar sözlər: *funksional qida, probiyotik, antioksidant, kəsmik, texnoloji proses*

Safana Ismayilzadeh
Azerbaijan State University of Economics
Master`s student
https://orcid.org/0009-0007-2517-0937
smaylzada03@mail.ru

Technological Preparation of Functional Cuisine Product with Probiotics and Antioxidants, Research of Physical-Chemical Indicators and Assessment of Health Effects

Abstract

This study is devoted to the development of a functional cottage cheese product enriched with probiotic microorganisms and natural antioxidant components, as well as to the optimization of its technological processes and the evaluation of its quality indicators. Within the framework of the study, suitable probiotic strains belonging to Lactobacillus and Bifidobacterium species were selected, and their viability in the milk environment, stability during production, and synergistic effects were investigated. At the same time, natural antioxidants, including plant extracts, polyphenols, flavonoids, and vitamin C-containing components, were added to the product in optimal doses.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

At the technological stage, the milk pasteurization regime, temperature–time parameters of the coagulation process, timing of functional ingredient addition, as well as straining and structure-forming stages were analyzed. The results showed that these additives improved the physicochemical properties, texture, and microbiological stability of the product, increased its antioxidant capacity, and preserved probiotic viability. It was determined that this product may contribute positively to balancing intestinal microflora, supporting the immune system, reducing oxidative stress, and regulating metabolic processes. Overall, the developed functional cottage cheese was evaluated as a promising product with high nutritional value, health benefits, and strong market potential, meeting the requirements of modern healthy nutrition.

Keywords: *functional food, probiotic, antioxidant, cottage cheese, technological process*

Giriş

Müasir qida sənayesi insanların sağlamlıq tələblərinə cavab verən funksional qidaların yaradılmasına artan maraq göstərir. Bu kontekstdə probiyotik və antioksidant tərkibli süd məhsulları xüsusilə diqqət mərkəzindədir, çünki onlar həm yüksək qida dəyəri, həm də sağlamlıq üzərində çoxvektorlu müsbət təsirləri ilə seçilir (Abadía-García və b., 2013; Pereira və b., 2016). Süd məhsulları arasında kəsmik – zülal, kalsium, amin turşuları və bioaktiv komponentlərlə zəngin olması səbəbilə – funksional komponentlərin daşıyıcısı kimi ən perspektivli məhsullardan biri hesab olunur (Araujo və b., 2023).

Probiyotiklərlə zənginləşdirilmiş süd məhsullarının sağlamlıq təsirləri geniş şəkildə elmi ədəbiyyatda sübut edilmişdir. Probiyotiklər bağırsaq mikroflorasının balanslaşdırılmasında, immun sisteminin gücləndirilməsində, həzm proseslərinin normallaşdırılmasında və bəzi metabolik xəstəliklərin riskinin azaldılmasında mühüm rol oynayır (Balthazar və b., 2025; Fardet & Rock, 2018). Digər tərəfdən, antioksidant komponentlər – xüsusilə bitki mənşəli polifenollar – orqanizmdə sərbəst radikallarla mübarizə apararaq oksidləşmə stressini azaldır, hüceyrə səviyyəsində qoruyucu təsir göstərir və xroniki xəstəliklərin inkişaf riskini aşağı salır (Fadhlurrohman və b., 2023). Bu iki funksional komponentin sinerjisi həm məhsulun qida dəyərini artırır, həm də texnoloji və bioloji xüsusiyyətlərini daha sabit edir (Kariyawasam və b., 2019; Abdeen və b., 2024).

Funksional kəsmik məhsulunun hazırlanması zamanı tətbiq olunan texnologiya məhsulun final keyfiyyətinə birbaşa təsir göstərən əsas amildir. Laxtalanma prosesi, istifadə olunan probiyotik suşlar, antioksidant mənbəyinin növü, qarışdırma, istilik rejimləri, fermentasiya müddəti və saxlanma şəraiti kimi faktorlar kəsmiyin teksturasını, turşuluğunu, su tutma qabiliyyətini, rəngini və mikrobial stabilliyini müəyyənləşdirir.

Son illərdə aparılan tədqiqatlar göstərir ki, probiyotik + antioksidant kombinasiyalı süd məhsulları istehlakçıların marağını daha çox cəlb edir və bazarda genişlənən funksional qida seqmentində xüsusi yer tutur. Xüsusilə təbii bitki ekstraktlarının, polifenol mənbələrinin və effektiv probiyotik suşların kəsmiklə sintezi nəticəsində həm məhsulun saxlama müddəti artırılır, həm də onun sensor xüsusiyyətləri – dad, aroma və tekstura – yaxşılaşdırılır (Ünal və b., 2024; Songisepp və b., 2004).

Bu baxımdan, probiyotik və antioksidant tərkibli funksional kəsmik məhsulunun hazırlanması, onun texnoloji mərhələlərinin optimallaşdırılması, fiziki-kimyəvi xüsusiyyətlərinin kompleks şəkildə araşdırılması və əldə edilən məhsulun sağlamlığa təsirlərinin qiymətləndirilməsi həm nəzəri, həm də praktiki baxımdan aktual elmi problem kimi çıxış edir (Yang, 2024; Asefa, 2025).

Tədqiqat

Funksional kəsmik məhsulunun keyfiyyətinin elmi əsaslarla qiymətləndirilməsi üçün onun fiziki-kimyəvi parametrlərinin müəyyən edilməsi xüsusi önəm daşıyır. Probiyotik mikroorqanizmlərin kəsmik mühitində yasaqlılığı, antioksidant komponentlərin stabil qalması və məhsulun tekstura xüsusiyyətlərinin qorunması bu göstəricilərlə sıx bağlıdır.

Sxem 1
Pendir İstehsalı Prosesi və Südaltı Mayenin (Whey) Emal Axını



Mənbə: https://www.researchgate.net/figure/Flow-chart-of-a-cheese-making-process-in-which-concentrated-whey-proteins-and-whey_fig3_251570430

Tədqiqat zamanı kəsmik nümunələrinin pH, titrlənən turşuluq, quru maddə, zülal miqdarı, su tutma qabiliyyəti (WHC), antioksidant tutum (DPPH metodu ilə) və ümumi fenolik maddə miqdarı (Folin–Ciocalteu metodu ilə) müəyyən edilir. Bu göstəricilər məhsulun həm texnoloji, həm də funksional keyfiyyətini təsdiqləyən əsas parametrlərdir.

Aşağıdakı cədvəldə probiyotik və antioksidant tərkibli kəsmik nümunəsinin ilkin analiz nəticələri ümumiləşdirilir:

Cədvəl 1
Funksional kəsmik məhsulunun əsas fiziki-kimyəvi göstəriciləri

Göstərici	Ölçü vahidi	Analiz nəticəsi	Qısa izah
pH	-	4.45 ± 0.02	Fermentasiya prosesinin stabil olduğunu göstərir
Titrlənən turşuluq	% laktik turşu	0.74 ± 0.03	Probiyotik aktivliyin normal səviyyəsini göstərir
Quru maddə	%	21.5 ± 0.40	Kəsmiyin struktur və teksturasına təsir edən əsas parametr
Zülal miqdarı	%	16.2 ± 0.25	Kəsmiyin yüksək bioloji dəyərə malik olmasını göstərir
Su tutma qabiliyyəti (WHC)	%	58.4 ± 1.2	Məhsulun parçalanmaya qarşı müqavimətini artırır
Antioksidant tutum (DPPH)	% inhibisiya	68.7 ± 2.5	Antioksidant əlavələrin kəsmikdə yüksək aktivliyini göstərir
Ümumi fenolik maddə	mg GAE/100 g	92.4 ± 1.8	Bitki tərkibli antioksidant komponentlərin səviyyəsi yüksəkdir
Probiyotiklərin canlılığı	KOB/g	1.2×10^8	Funksional məhsul üçün tələb olunan minimum səviyyədən yüksəkdir

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir

Cədvəl 1-də göstərilən nəticələr funksional kəsmik nümunəsinin yüksək texnoloji və bioloji dəyərə malik olduğunu göstərir. pH səviyyəsinin 4.4–4.5 intervalında olması probiyotiklərin fermentasiya fəaliyyətinin stabil və təhlükəsiz olduğunu göstərir. Titrlənən turşuluğun optimal səviyyədə olması məhsulun həm dadına, həm saxlama müddətinə, həm də mikrobioloji sabitliyinə müsbət təsir göstərir.

Antioksidant tutumun yüksək çıxması (təxminən 69 % inhibisiya) kəsmik matrisinə əlavə olunan polifenol və təbii antioksidant komponentlərin effektiv şəkildə fəaliyyət göstərdiyini sübut edir. Ümumi fenolik maddə miqdarının yüksək olması isə oksidləşmə stressinin azaldılması baxımından məhsulun potensial funksional təsirlərini gücləndirir.

Probiyotiklərin canlılığı ($\geq 10^8$ KOB/g) funksional süd məhsulları üçün beynəlxalq standartlara uyğundur və məhsulun bağırsaq mikroflorasına müsbət təsir göstərə biləcəyini göstərir. Su tutma qabiliyyətinin yüksək olması kəsmiyin parçalanma meylini azaldır və məhsulun teksturasını daha stabil edir.

Funksional kəsmik məhsulunun keyfiyyətini müəyyən edən əsas parametrlərdən biri probiyotik mikroorqanizmlərin saxlanma müddəti ərzindəki yaşaqlılığıdır. Probiyotiklərin məhsul matrisində stabil şəkildə mövcudluğu həm funksional dəyərin qorunmasına, həm də məhsulun bioloji aktivliyinə birbaşa təsir edir. Bu məqsədlə, hazırlanmış kəsmik nümunələrində probiyotiklərin ümumi canlı hüceyrə sayı (CFU/g) 1-ci gün, 7-ci gün və 14-cü gün olmaqla üç mərhələdə qiymətləndirildi.

Fermentasiya prosesindən dərhal sonra müəyyən olunan 1.2×10^8 CFU/g göstəricisi probiyotik tərkibli funksional süd məhsulları üçün tələb olunan minimal səviyyədən yüksəkdir. Saxlanma müddəti ərzində CFU dəyərlərinin kəskin azalmaması kəsmik matrisinin probiyotiklər üçün qoruyucu mühit yaratdığını göstərir. Kəsmiyin yüksək zülal konsentrasiyası və yağsız strukturu probiyotik hüceyrələrin turşu stressindən qorunmasına və metabolik aktivliyin davam etməsinə şərait yaradır.

Cədvəl 2
Saxlanma dövründə probiyotiklərin canlılıq göstəriciləri

Saxlanma müddəti	Probiyotik sayı (CFU/g)	Dəyişmə (%)	Qısa izah
1-ci gün	1.2×10^8	–	Optimal fermentasiya nəticəsi
7-ci gün	9.4×10^7	–21.6 %	Normal azalmanın elmi normativ çərçivəsində
14-cü gün	7.2×10^7	–40.0 %	Hələ də funksional məhsul üçün tələb olunan səviyyədən yüksəkdir

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir

Təhlil: - 14 günün sonunda göstəricinin 7×10^7 CFU/g səviyyəsində qalması funksional kəsmik məhsulunun stabil probiyotik daşıyıcısı olduğunu təsdiqləyir; - Qlobal standartlara görə minimum 10^6–10^7 CFU/g funksional təsir üçün kifayətdir; nəticələr bu meyarı təmin edir; - Saxlanma müddəti uzandıqca probiyotiklərin metabolik aktivliyinin azalması gözlənilən dir, lakin azalma dərəcəsi təhlükəsizlik və funksionallıq üçün qəbul edilən çərçivədədir.

Antioksidant aktivliyin təhlili. Antioksidant komponentlərin kəsmik matrisində davranışı məhsulun oksidləşmə stabilliyini və sağlamlıq faydalarını müəyyən edir. Bitki mənşəli ekstraktların əlavə olunması antioksidant tutumu əhəmiyyətli dərəcədə yüksəldir. DPPH metodu ilə ölçülən antioksidant aktivlik məhsulda sərbəst radikalların inhibisiya səviyyəsini müəyyən edir.

İlkin nəticələr 68-70 % inhibisiya dərəcəsi göstərmişdir ki, bu da antioksidant maddələrin kəsmik matrisində yüksək stabil qaldığını sübut edir. Saxlanma müddəti ərzində bu göstəricinin azalması aydın müşahidə olunur, lakin azalma dinamikası məhsulun stabil funksional xüsusiyyətlərini qoruduğunu göstərir.

Cədvəl 3
Antioksidant tutumun saxlanma dövründə dəyişməsi (DPPH % inhibisiya)

Saxlanma müddəti	Antioksidant tutum (%)	Dəyişmə	Açıqlama
1-ci gün	68.7 ± 2.5	–	Yüksək aktivlik
7-ci gün	63.1 ± 2.1	–8.1 %	Polifenolların qismən oksidləşməsi
14-cü gün	57.4 ± 1.9	–16.4 %	Yenə də funksional səviyyə yüksəkdir

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir

Təhlil: - Antioksidant aktivliyin yavaş azalması məhsulda polifenol komponentlərinin yaxşı stabilizə olunduğunu göstərir; - Kalsium-zülal matrisinin polifenolları adsorbsiya etməsi onların oksidləşmə sürətini zəiflədir; - 14 günün sonunda belə 50%+ inhibisiya dəyəri yüksək funksional potensial deməkdir.

Ümumi fenolik maddələrin təhlili: Fenolik maddələr antioksidant aktivliyin əsas mexanizmini təşkil etdiyi üçün onların miqdarının dinamikası kəsmiyin funksional dəyərini həssas şəkildə əks etdirir. Folin–Ciocalteu metodu ilə aparılan analizlər göstərdi ki, fenolik maddələrin miqdarı saxlanma müddətinin ilk həftəsində nisbi stabillik nümayiş etdirir.

Cədvəl 4
Ümumi fenolik maddə miqdarının dinamikası (mg GAE/100 g)

Saxlanma müddəti	Fenolik maddə miqdarı	Dəyişmə	Elmi izah
1-ci gün	92.4 ± 1.8	–	Bitki ekstraktlarının yüksək tərkibi
7-ci gün	88.1 ± 2.0	–4.6 %	Polifenolların hidrolizi
14-cü gün	81.5 ± 1.7	–11.8 %	Oksidləşmə proseslərinin güclənməsi

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir

Təhlil: **-** Fenolik maddə miqdarının tədricən azalması mexaniki, fermentativ və oksidləşmə prosesləri ilə əlaqəlidir, lakin bu azalma məhsulun funksional dəyərini aşağı salmır; - Bitki mənşəli antioksidantlar zülallarla komplekslər yaratdığı üçün kəsmikdə daha stabil qala bilir; **-** Fenolik səviyyə funksional məhsullar üçün zəruri olan 50–80 mg GAE/100 g diapazonundan yüksəkdir.

Nəticə

Aparılan fiziki-kimyəvi və mikrobioloji analizlər göstərdi ki, probiyotik və antioksidant tərkibli funksional kəsmik məhsulu yüksək texnoloji stabilliyə və geniş funksional potensiala malikdir. Məhsulun pH, turşuluq, quru maddə, zülal və su tutma qabiliyyəti üzrə göstəriciləri optimal diapazonda olmuş, probiyotik mikroorqanizmlərin canlılığı 14 günlük saxlanma müddətində belə funksional təsir üçün tələb olunan minimum həddən yüksək səviyyədə qalmışdır. Antioksidant tutumun və ümumi fenolik maddələrin yüksək olması məhsulun oksidləşmə stressinə qarşı güclü qoruyucu xüsusiyyətlərə malik olduğunu təsdiqləmişdir.

Ümumilikdə, əldə olunan nəticələr funksional kəsmik məhsulunun həm bioloji dəyərinə, həm də sağlamlığa müsbət təsir potensialına malik olduğunu göstərir. Bu tip məhsulların istehsalı qida sənayesində funksional qida kateqoriyasının genişləndirilməsi üçün perspektivli istiqamət hesab edilə bilər.

Ədəbiyyat

1. Abadía-García, L., Cardador, A., Martín del Campo, S. T., Arvízu, S. M., Castaño-Tostado, E., Regalado-González, C., García-Almendarez, B., & Amaya-Llano, S. L. (2013). Influence of probiotic strains added to Cottage cheese on generation of potentially antioxidant peptides, anti-Listerial activity, and survival of probiotic microorganisms in simulated gastrointestinal conditions. *International Dairy Journal, 33*(2), 191–197.
2. Abdeen, E. S. M., Hamed, A. M., & Ismail, H. A. (2024). Production and evaluation of novel functional cream cottage cheese fortified with bovine colostrum and probiotic bacteria. *Journal of Food Science and Technology, 61*, 1457–1469.
3. Araujo, H. C. S., Carvalho, A. F. C., Costa, M. C. d., & Sant'Ana, A. S. (2023). Functional cheeses: Updates on probiotic preservation and innovations in cheese technology. *Fermentation, 10*(1), 8.
4. Asefa, Z., Tesfaye, A., Desalegn, A., et al. (2025). Formulation and evaluation of probiotic starter culture: impact on Ethiopian cottage cheese "Ayib" safety, stability, sensory acceptability and antioxidant potential. *One Health Outlook, 7*, 17.
5. Balthazar, C. F., Gentès, M.-C., Mikhaylin, S., Da Cruz, A. G., Sant'Ana, A. S., Turgeon, S. L., & Chamberland, J. (2025). Functionality and bioactivity of probiotic semi-hard cheese made from milk treated by pulsed electric field. *Food and Bioprocess Technology, 18*, 7131–7148.
6. Fadhlurrohman, I., Setyawardani, T., & Sumarmono, J. (2023). Development of cheese as an antioxidant functional food with the addition of orthodox black tea. *Tropical Animal Science Journal, 46*(3), 367–374.
7. Fardet, A., & Rock, E. (2018). In vitro and in vivo antioxidant potential of milks, yoghurts, fermented milks and cheeses: A narrative review of evidence. *Nutrition Research Reviews, 31*(2), 284–302.
8. Kariyawasam, K. M. G. M. M., Jeewanthi, R. K. C., Lee, N.-K., & Paik, H.-D. (2019). Characterization of cottage cheese using Weissella cibaria D30: Physicochemical, antioxidant, and antilisterial properties. *Journal of Dairy Science, 102*(5), 3887–3893.
9. Pereira, E. P. R., Furtado, A. P., & Hernandez, H. (2016). Effect of incorporation of antioxidants on the chemical and sensory properties of cheese. *Journal of Dairy Science, 99*(3), 1849–1860.
10. Songisepp, E., Kullisaar, T., Hütt, P., Elias, M., Brilene, T., Zilmer, M., & Mikelsaar, M. (2004). A new probiotic cheese with antioxidative and antimicrobial activity. *International Journal of Food Microbiology, 94*(3), 309–316.
11. Ünal, G., Akyıl, D. E., & Akalın, A. S. (2024). Evaluation of the Functional and Sensory Properties of Probiotic Whey Cheese with Herbs in Vacuum or Modified Atmosphere Packaging. *Food Technology and Biotechnology, 62*(2), 230–241.
12. Yang, W. (2024). *Evaluation of the antioxidant activity and identification of potential antioxidant peptides in commercially available probiotic Cheddar cheese*. LWT, 205, 116486.

Daxil oldu: 02.01.2026
Qəbul edildi: 05.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/159-162

İsmayıl Rzayev
Azərbaycan Memarlıq və İnşaat Universiteti
magistrant
https://orcid.org/0009-0000-2993-6126
rismayil300@gmail.com

Bakı şəhərində yaşıl infrastrukturun inkişaf perspektivləri və şəhər davamlılığına təsiri

Xülasə

Bakı şəhərində yaşıl infrastrukturun inkişafı, şəhər davamlılığının təmin edilməsi və ekosistem xidmətlərinin artırılması baxımından önəmli bir mövzudur. Şəhər inkişafı ilə yanaşı, təbii sərvətlərin qorunması, iqlim dəyişikliyinə qarşı tədbirlər və vətəndaşların həyat keyfiyyətinin artırılması məqsədilə yaşıl infrastrukturun tətbiqi mühüm rol oynayır. Yaşıl infrastruktur, ağacların, yaşıllıqların, parkların, bağların və təbii ekosistemlərin birləşdiyi, şəhər məkanda ekoloji balansın qorunmasına və təbii resurslardan səmərəli istifadə edilməsinə yönələn bir yanaşmadır.

Bakı üçün bu cür infrastrukturun inkişafı, şəhərin artan əhalisinin ehtiyaclarına cavab vermək, hava keyfiyyətini yaxşılaşdırmaq, suyun idarə olunması və təbii fəlakətlərin qarşısını almaq kimi məsələlərə müsbət təsir edəcəkdir. Şəhər ərazilərindəki yaşıllıqların artırılması, vətəndaşların sağlam həyat tərzini sürmələrinə kömək etməklə yanaşı, şəhərin estetik cəhətdən gözəlləşməsini təmin edir.

Yaşıl infrastruktur, həmçinin, iqtisadi baxımdan da faydalıdır, çünki belə layihələr yeni iş yerləri yaradır, turizm sektorunu inkişaf etdirir və yerli iqtisadiyyata töhfə verir. Şəhər davamlılığına təsir edən bu amillər, yalnız ekoloji deyil, həm də sosial və iqtisadi sferada müsbət dəyişikliklərə gətirib çıxarır. Bakı şəhərində yaşıl infrastrukturun inkişafı ilə bağlı perspektivlər, həmçinin, yerli icmaların fəal iştirakı və dövlətin tərəfdaşlığı ilə daha da güclənə bilər.

Acar sözlər: *yaşıl, şəhər, ekosistem, iqlim, təbii, Bakı, ekoloji, hava, su*

Ismayil Rzayev
Azerbaijan University of Architecture and Construction
Master's student
https://orcid.org/0009-0000-2993-6126
rismayil300@gmail.com

Development Prospects of Green Infrastructure in Baku City and Impact on Urban Sustainability

Abstract

The development of green infrastructure in Baku city is an important issue in terms of ensuring urban sustainability and increasing ecosystem services. Along with urban development, the application of green infrastructure plays an important role in protecting natural resources, taking measures against climate change and improving the quality of life of citizens. Green infrastructure is an approach that combines trees, greenery, parks, gardens and natural ecosystems, aimed at preserving the ecological balance in urban space and efficiently using natural resources.

For Baku, the development of such infrastructure will have a positive impact on issues such as meeting the needs of the city's growing population, improving air quality, water management and preventing natural disasters. Increasing greenery in urban areas, in addition to helping citizens lead a healthy lifestyle, ensures the aesthetic beauty of the city.

Green infrastructure is also economically beneficial, as such projects create new jobs, develop the tourism sector and contribute to the local economy.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

These factors affecting urban sustainability leads to positive changes not only in the environmental, but also in the social and economic spheres. The prospects for the development of green infrastructure in Baku can also be further strengthened with the active participation of local communities and the partnership of the state.

Keywords: *Green, city, ecosystem, climate, natural, Baku, ecological, air, water*

Giriş

Bakı şəhəri müasir urbanizasiya prosesləri və sürətlə artan əhali ilə qarşı-qarşıyadır. Bu inkişafın nəticəsi olaraq, şəhərin ekoloji balansı və davamlılıq məsələləri böyük əhəmiyyət kəsb edir. Şəhər infrastrukturunun, xüsusilə yaşıl infrastrukturun inkişafı, bu problemin həlli yolunda mühüm addım kimi çıxış edir. Yaşıl infrastruktur, təbii resursların qorunması, ekosistem xidmətlərinin gücləndirilməsi və ekoloji tarazlığın təmin olunması məqsədini güdür. Bu yanaşma, şəhər mühitinin daha yaşıl, sağlam və davamlı olmasına yönələn bir strateji yanaşmadır. Yaşıl infrastrukturun tətbiqi, xüsusilə iqlim dəyişikliyi, hava keyfiyyətinin pisliyi və şəhər ərazilərindəki təbii fəlakətlərin artması kimi qlobal problemlərə qarşı effektiv bir həll yoludur. Bakı şəhəri, artan urbanizasiya və sənayeləşmə ilə əlaqədar olaraq, yaşıl infrastruktur vasitəsilə şəhər mühitindəki təbii ekosistemləri bərpa etmək və inkişaf etdirmək potensialına malikdir.

Yaşıl infrastruktur, həmçinin, şəhər sakinlərinin həyat keyfiyyətinin yüksəldilməsi, sosial və iqtisadi inkişafın təşviqi, və ekoloji problemlərin həlli üçün mühüm bir vasitədir. Bu işdə, Bakı şəhərində yaşıl infrastrukturun inkişaf perspektivləri və onun şəhər davamlılığına təsiri araşdırılacaqdır. Yaşıl infrastruktura dair mövcud yanaşmalar, bu sahədə atılacaq addımlar və nəticədə əldə ediləcək faydalar ətraflı şəkildə nəzərdən keçiriləcəkdir. Yaşıl infrastruktur, şəhər mühitində təbii elementlərin, o cümlədən ağaclar, parklar, bağlar, yaşıllıqlar və ekosistem xidmətlərinin artırılmasına yönələn bir yanaşmadır. Bu yanaşma, şəhərlərin davamlı inkişafını dəstəkləmək və şəhər sakinlərinin həyat keyfiyyətini yaxşılaşdırmaq məqsədini güdür. Bakı şəhəri, xüsusilə son illərdə, ekologiya və davamlılıq sahəsində bir sıra irəliləyişlərə imza atmışdır. Şəhərdəki yaşıllıq sahələrinin artırılması, təbii fəlakətlərin qarşısını almaq, hava keyfiyyətini yaxşılaşdırmaq və şəhər sakinlərinə daha sağlam yaşam şəraiti təqdim etmək məqsədilə yaşıl infrastruktur layihələri gündəmdədir.

Tədqiqat

Bakı şəhərində yaşıl infrastrukturun inkişafı, şəhər mühitindəki ekoloji və sosial problemlərin həllinə yönəlmiş mühüm bir yanaşmadır. Şəhər inkişafının artması ilə paralel olaraq, əhalinin sağlamlığı, ətraf mühitin qorunması və şəhər ekosistemlərinin davamlılığı məsələləri daha da aktuallaşıb. Bu baxımdan, yaşıl infrastruktur tətbiqi Bakı şəhərinin ekosistem xidmətlərini artırmağa, təbii sərvətləri qorumağa və şəhər davamlılığını təmin etməyə imkan yaradır. Yaşıl infrastruktur, həmçinin ekoloji, sosial və iqtisadi sahələrdə mühüm təsirlər yaradır (Ashinze və b., 2024). Yaşıl çatıların, ağacların və parkların artırılması, karbon dioksid və digər zərərli maddələrin atmosferə qarışmasını azaldaraq hava keyfiyyətini yaxşılaşdırmağa xidmət edir. Bununla yanaşı, ictimai parklar, bağlar və təbii məkanlar sakinlərin psixoloji və fiziki sağlamlığını təşviq edir və yeni iş imkanları yaradır (Pamukcu-Albers, 2021; Rayan və b., 2022; Zuraidi, 2025).

Bakı şəhəri, iqlim dəyişikliyinin təsirlərindən ən çox təsirlənən şəhərlərdən biri ola bilər. Yaşıl infrastrukturun tətbiqi, şəhərin iqlim dəyişikliklərinə qarşı dözümlü olmasına kömək edir və daşqınların qarşısını almağa, istilik dalğalarının təsirlərini azaltmağa yönəlir. Bununla yanaşı, yaşıl infrastrukturun inkişafı ilə bağlı çətinliklər də mövcuddur. Mövcud urbanizasiya səviyyəsi və sıx binalar, təbii sahələrin artırılmasına məhdudiyyətlər təqdim etsə də, bu çətinliklərin həlli üçün dövlət və özəl sektor arasında sıx əməkdaşlıq tələb olunur (EPA, 2015). Yaşıl infrastrukturun Bakı şəhərində genişlənməsi, şəhərin davamlı inkişafını təmin edəcək və şəhər sakinlərinə daha sağlam və dayanıqlı bir mühit yaradacaqdır.

Cədvəl 1
Bakı Şəhərində Yaşıl İnfrastrukturun İnkişafı və Şəhər Davamlılığına Təsirinin Təhlili

Mövzu	**Təsir Sahəsi**	**Təsirlər**	**Mümkün Faydalar**
Yaşıl İnfrastrukturun Tətbiqi	Ekoloji	Təbii ekosistemlərin bərpası, ekosistem xidmətlərinin artması, hava keyfiyyətinin yaxşılaşdırılması	Ekosistem balansının bərpası, su resurslarının qorunması
Təbiət Resurslarının Qorunması	Ətraf Mühit	Yaşıllıqların artırılması, təbii sərvətlərin qorunması, karbon dioksidin azaldılması	İqlim dəyişikliyinə qarşı dözümlülük, təbii fəlakətlərin azaldılması
Sosial Təsirlər	Cəmiyyət	İctimai parklar, bağlar və təbii sahələrin yaradılması, sağlam həyat tərzinin təşviqi	Cəmiyyətin rifahı, sosial həyatın canlanması
İqtisadi Təsirlər	İqtisadiyyat	Yaşıl infrastruktura sərf olnan investisiyalar, yeni iş yerlərinin yaradılması	İş yerləri, turizm və daşınmaz əmlak sektorunun inkişafı
Su və Enerji İdarəetməsi	Su və Enerji İdarəetməsi	Yağış sularının idarə edilməsi, suvarma sistemlərinin optimallaşdırılması, enerjiyə qənaət	Resursların səmərəli istifadəsi, enerji və su qənaəti
Şəhər Ekosistemi və Sağlamlıq	Sağlamlıq	Yaşıllıqların artması, ətraf mühitin təmizliyi, istilik adası effektinin azaldılması	Xəstəliklərin azaldılması, həyat keyfiyyətinin yüksəlməsi
Fəlakət Risklərinin Azaldılması	Təbii Fəlakətlər	Daşqınların qarşısının alınması, istilik dalğalarının tənzimlənməsi	Fəlakət risklərinin azaldılması, şəhər təhlükəsizliyinin artırılması

Mənbə: Bakı Şəhər İcra Hakimiyyəti (2021). Bakı şəhərində yaşıl infrastruktur və ekoloji davamlılıq: Strateji yanaşmalar. Bakı Şəhər İcra Hakimiyyətinin Nəşriyyatı.

Cədvəl 1-də Bakı şəhərində yaşıl infrastrukturun inkişaf perspektivləri və şəhər davamlılığına təsiri müxtəlif aspektlər üzrə təhlil edilmişdir. İlk sırada, yaşıl infrastrukturun ekoloji sahədəki təsirləri yer alır. Bu təsirlər arasında təbii ekosistemlərin bərpası, ekosistem xidmətlərinin artması və hava keyfiyyətinin yaxşılaşdırılması kimi müsbət nəticələr ön plandadır. Bu tədbirlər şəhərin ekosistem balansını qorumağa və təbii sərvətləri səmərəli istifadə etməyə kömək edir (Ashinze və b., 2024; Alanbari, 2022; Herath, 2024; Jia, 2025). İkinci sırada sosial təsirlər yer alır. Yaşıl infrastrukturun tətbiqi, ictimai parklar və bağlar yaratmaqla, şəhər sakinlərinin sosial həyatını canlandırır, sağlam həyat tərzinin təşviqinə dəstək olur. Bu, cəmiyyətin rifahına və sosial həyatın inkişafına müsbət təsir göstərir. Eyni zamanda, bu addımlar yeni iş imkanlarının yaranmasına da töhfə verə bilər (Azerbaijan Republic Presidential Administration, 2023).

Üçüncü sırada iqtisadi təsirlər mövcuddur. Yaşıl infrastruktur layihələri, iqtisadi baxımdan şəhərin inkişafına müsbət təsir göstərir. Bu, həm də turizm sektorunun inkişafı və daşınmaz əmlakın qiymətinin artması ilə əlaqələndirilir. Yaşıl sahələrin artırılması, şəhər ərazisində həyat keyfiyyətini yüksəltməklə yanaşı, ekoturizmin inkişafına da imkan yaradır (Qardaşxanova, 2024). Növbəti sırada, su və enerji idarəetməsi mövzusunda yaşıl infrastrukturun təsirləri qeyd olunub. Yağış sularının idarə edilməsi, suvarma sistemlərinin optimallaşdırılması və enerjiyə qənaət, şəhərin resurslardan səmərəli istifadəsini təmin edir. Bu, həmçinin, su və enerji məsələlərində davamlılığı təmin edir. Son olaraq, yaşıl infrastrukturun fəlakət risklərini azaltma funksiyası vurğulanıb. Şəhər ərazisində daşqınların qarşısını almaq və istilik dalğalarının tənzimlənməsi, şəhər sakinlərinin təhlükəsizliyini artırır və

fəlakət risklərini azaldır. Bu tədbirlər şəhərin iqlim dəyişikliyinə qarşı dözümlülüyünü artırır və sakinlərin həyatını qorumağa yönəlir (Hüseynov, 2022).

Nəticə

Bakı şəhərində yaşıl infrastrukturun inkişafı, şəhərin davamlılığına mühüm təsir göstərir və ekoloji, sosial, iqtisadi, və təhlükəsizlik sahələrində müsbət nəticələrə gətirib çıxarır. Yaşıl infrastrukturun tətbiqi, şəhər ekosistemlərini bərpa etməyə, təbii sərvətləri qorumağa və hava keyfiyyətini yaxşılaşdırmağa kömək edir. Bu yanaşma, həmçinin, şəhər sakinlərinin həyat keyfiyyətini yüksəldir, sağlam həyat tərzini təşviq edir və sosial rifahı artırır.

Yaşıl sahələrin artırılması, yeni iş imkanlarının yaranmasına, ekoturizmin inkişafına və daşınmaz əmlak sektorunun böyüməsinə səbəb olur. Su və enerji idarəetməsindəki inkişaflar, şəhərin resurslardan daha səmərəli istifadə etməsini təmin edir, enerji qənaətini artırır və təbii fəlakətlərin qarşısını almağa kömək edir.

Əlavə olaraq, yaşıl infrastrukturun fəlakət risklərini azaltma funksiyası, şəhərin iqlim dəyişikliyinə qarşı dözümlülüyünü artırır. Daşqınların qarşısını almaq və istilik dalğalarını tənzimləmək, Bakı şəhərində sakinlərin təhlükəsizliyini təmin etmək və daha dayanıqlı bir şəhər mühiti yaratmaq məqsədini güdür.

Ədəbiyyat

1. Ashinze, U. K., Edeigba, B. A., Umoh, A. A., Biu, P. W., & Daraojimba, A. I. (2024). *Urban green infrastructure and its role in sustainable cities: A comprehensive review*. *World Journal of Advanced Research and Reviews, 21*(2), 928–936. https://doi.org/10.30574/wjarr.2024.21.2.0519
2. Alanbari, D. H. A. (2022). Green infrastructure to enhance urban sustainability*:* Conceptual review. *International Journal of Humanities and Sustainability*.
3. Ashinze, U. K., Edeigba, B. A., et al. (2024). *Urban green infrastructure components and ecosystem services*. *World Journal of Advanced Research and Reviews, 21*(2), 929–934.
4. Azerbaijan Republic Presidential Administration. (2023). *Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncam*. Prezident.az.
5. EPA (United States Environmental Protection Agency). (2015). *Green Infrastructure: Municipal Handbook*. EPA.
6. Herath, P. (2024). *Benefits and co-benefits of urban green infrastructure for sustainability*. *Sustainable Cities and Society, 19*, 1039.
7. Hüseynov, S. (2022). Davamlı inkişaf, yaşıl iqtisadiyyat, "ağıllı şəhər" konsepsiyası. *Dövlət və Din Jurnalı, 01*(72), 100–110.
8. Jia, Y., Smith, et al. (2025). Climate, Health, and Urban Green Infrastructure. *International Journal of Environmental Research and Public Health, 22*(12), 1842.
9. Qardaşxanova, Ə. (2024). *Bakı "yaşıl şəhər"ə çevrilir*. Təhsil.
10. Pamukcu-Albers, P. (2021). *Building green infrastructure to enhance urban resilience to climate change*. PMC, Environmental Health Insights.
11. Rayan, M., Gruehn, D., & Khayyam, U. (2022). *Frameworks for Urban Green Infrastructure (UGI) indicators for climate-resilient cities*. *Sustainability, 14*(13), 7966.
12. Zuraidi, E. (2025). *Agile cities: Prospects and challenges of green infrastructure implementation*. *Planning Malaysia Journal, 23*(1), 45–59.

Daxil oldu: 06.01.2026
Qəbul edildi: 11.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/163-166

Cavidan Məmmədov
Azərbaycan İdman Akademiyası
magistrant
https://orcid.org/0009-0008-6399-7190
cavidan.mammadov.2024@sport.edu.az

Futbolçularda diz oynağı zədələrindən sonra reabilitasiya prosesində tətbiq edilən fizioterapiya prosedurlarının bərpa dinamikasına təsiri

Xülasə

Bu tədqiqat I–II dərəcəli medial kollateral bağ (MCL) zədəsi keçirmiş 18–25 yaş arası 20 futbolçuda reabilitasiya prosesində fizioterapiya prosedurlarının effektivliyini qiymətləndirmək məqsədilə aparılmışdır. Tədqiqat iştirakçıları iki qrupa bölünmüşdür: birinci qrup (n=10) standart fizioterapiya prosedurları, ikinci qrup (n=10) isə həmin prosedurlarla yanaşı izometrik məşqlər almışdır. Müalicə proqramı 10 gün davam etmişdir. Nəticələr göstərmişdir ki, hər iki qrupda ağrı intensivliyi azalmış, diz oynağının hərəkət həcmi artmış və ümumi funksional bərpa göstəriciləri yaxşılaşmışdır. Lakin fizioterapiya ilə yanaşı, izometrik məşqlər tətbiq olunan qrupda bərpa dinamikası daha üstün olmuşdur. Bu qrupda ağrının azalması daha sürətli qeydə alınmış, 10-cu gündə göstəricilər daha yüksək olmuş, 90-cı gündə diz fleksiya bucağı daha yaxşı bərpa edilmişdir. Eyni zamanda, yüngül qaçışa, tam həcmli məşqlərə və rəsmi oyunlara qayıdış müddəti daha qısa olmuşdur. Alınmış nəticələr göstərir ki, fizioterapiya prosedurları ilə birlikdə izometrik məşqlərin tətbiqi gənc futbolçularda MCL zədələrindən sonra reabilitasiya prosesini əhəmiyyətli dərəcədə sürətləndirir və funksional bərpanın keyfiyyətini artırır.

Açar sözlər: *medial kollateral bağ, MCL zədələnməsi, futbolçular, fizioterapiya, izometrik məşqlər, reabilitasiya, ağrı sindromu*

Javidan Mammadov
Azerbaijan Sports Academy
Master's student
https://orcid.org/0009-0008-6399-7190
cavidan.mammadov.2024@sport.edu.az

The Impact of Physiotherapy Procedures Used on the Rehabilitation Process after Knee Injuries in Football Players on the Dynamics of Recovery

Abstract

This study was conducted to evaluate the effectiveness of physiotherapy procedures in the rehabilitation process of 20 football players aged 18-25 who had sustained grade I-II medial collateral ligament (MCL) injuries. The participants were divided into two groups: the first group (n=10) received standard physiotherapy procedures, while the second group (n=10) received isometric exercises in addition to the same physiotherapy treatment. The treatment program lasted 10 days. The results showed that pain intensity decreased, knee joint range of motion increased, and overall functional recovery improved in both groups. However, the recovery dynamics were more favorable in the group that received isometric exercises alongside physiotherapy. In this group, pain reduction was observed more rapidly, the indicators on the 10th day were better, and knee flexion angle was restored more effectively by the 90th day. At the same time, the time required to return to light running, full training, and official matches was shorter.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

The findings indicate that combining physiotherapy procedures with isometric exercises significantly accelerates rehabilitation and improves the quality of functional recovery in young football players after MCL injuries.

Keywords: *Medial collateral ligament, MCL injury, football players, physiotherapy, isometric exercises, rehabilitation, pain syndrome*

Giriş

Futbol dünyada ən geniş yayılmış idman növlərindən biri olmaqla yanaşı, yüksək zədələnmə riski daşıyan idman sahələrindən biridir. Oyunun dinamik xarakteri, kəskin istiqamət dəyişiklikləri, sprintlər, tullanmalar və rəqiblə təmaslı mübarizə idmançıların dayaq-hərəkət aparatına, xüsusilə də aşağı ətrafların oynaqlarına böyük yük düşməsinə səbəb olur.

Diz oynağı insan orqanizmində ən mürəkkəb quruluşa malik oynaqlardan biri olmaqla birlikdə, ən çox zədələnən oynaqlar sırasında birinci yerdədir (Samuelsson, 2024; Lundblad və b., 2019). Futbolçularda bütün zədələnmələrin təxminən 15-20%-i diz oynağı nahiyyəsində baş verir. Medial kollateral bağ (MCL) diz oynağının ən həssas strukturlarından biridir. MCL-nin əsas funksiyası diz oynağını valgus (xaricə açılma) stressindən qorumaq, daxili rotasiya hərəkətlərini məhdudlaşdırmaq və oynaq stabilliyini təmin etməkdir (Chauhan və b., 2024; Vosoughi və b., 2021). MCL zədələnmələri üç əsas dərəcəyə bölünür: I dərəcəli (yüngül) zədələnmələrdə bağ liflərinin mikroskopik səviyyədə qopması baş verir; II dərəcəli (orta) zədələnmələrdə bağ liflərinin əhəmiyyətli bir hissəsi qopur; III dərəcəli (ağır) zədələnmələrdə isə bağın tam qopması baş verir. I və II dərəcəli zədələnmələrdə konservativ müalicə əsas müalicə üsulu olaraq qəbul edilir (LaPrade və Chahla, 2021). Reabilitasiya prosesi zədələnmiş idmançının sağalmasında ən vacib mərhələlərdən biridir. Maqnitoterapiya, ultrasəs terapiya və lazer terapiya kimi fizioterapiya üsulları toxuma səviyyəsində regenerasiyanı stimullaşdırır, mikrosirkulyasiyanı yaxşılaşdırır, iltihab prosesini azaldır və ağrı sindromunu aradan qaldırır (Lundblad, 2019; Riemann və Lephart, 2002). Bununla yanaşı, izometrik məşqlər əzələ atrofiyasının qarşısını alır, oynaq ətrafında dinamik stabilizasiyanı təmin edir və proprioseptiv funksiyanı bərpa edir (Vosoughi, 2021; Lephart və b., 1997; Thomson və b., 2002).

Bu tədqiqatın əsas məqsədi I-II dərəcəli MCL zədəsi olan gənc futbolçularda reabilitasiya prosesində fizioterapiya prosedurlarının tətbiqinin effektivliyini qiymətləndirmək, habelə izometrik məşqlərin bərpa dinamikasına təsirini müqayisəli şəkildə araşdırmaqdır (Putra və Anggiat, 2023; Qarayev, 2005).

Tədqiqat

Tədqiqatın təşkili və iştirakçılar. Tədqiqat 2024-2025-ci illər ərzində AFFA-nın Təhsil və Reabilitasiya Mərkəzinin bazasında aparılmışdır. Tədqiqata klinik və instrumental (MRT) müayinələrlə təsdiqlənmiş I-II dərəcəli MCL zədəsi olan 20 gənc futbolçu cəlb edilmişdir (yaş aralığı 19-24 il, orta yaş 21.4±1.8 il). İdmançılar iki bərabər qrupa bölünmüşdür. Birinci qrup (n=10) standart fizioterapiya (maqnitoterapiya, ultrasəs terapiya, lazer terapiya) almışdır. İkinci qrup (n=10) isə eyni fizioterapiya prosedurları ilə yanaşı, əlavə olaraq xüsusi hazırlanmış izometrik məşqlər proqramına cəlb edilmişdir. Hər iki qrupda müalicə kursu 10 gün ərzində həyata keçirilmişdir.

Cədvəl 1.
Tədqiqata cəlb edilmiş futbolçuların ümumi xarakteristikası

Göstərici	Birinci qrup (n=10)	İkinci qrup (n=10)
Yaş (il)	21.2±1.7	21.6±1.9
Boy (sm)	175.6±4.8	176.1±5.1
Bədən çəkisi (kq)	73.4±3.9	72.8±4.2
İdman stajı (il)	6.3±1.2	6.1±1.4
I dərəcə zədə (n)	6	5
II dərəcə zədə (n)	4	5

Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur

Ağrı intensivliyinin dinamikası. Müalicədən əvvəl birinci qrupda ağrı intensivliyinin orta göstəricisi 7.1±0.3 bal, ikinci qrupda isə 7.2±0.3 bal təşkil etmişdir. Qruplar arasında başlanğıc fərq statistik cəhətdən etibarlı olmamışdır ($p>0.05$).

Cədvəl 2.
Ağrı intensivliyinin (VAS) müalicə dövrlərində dəyişmə dinamikası (bal, M±m)

Müalicə dövrü	**Birinci qrup (n=10)**	**İkinci qrup (n=10)**
Müalicədən əvvəl	7.1±0.3	7.2±0.3
10-cu gün	4.2±0.3	3.1±0.2
30-cu gün	2.8±0.2	1.8±0.2
90-cı gün	1.1±0.2	0.6±0.1

Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur

Müalicənin 10-cu günündə birinci qrupda ağrı intensivliyi 40.8%, ikinci qrupda isə 56.9% azalmışdır. Qruplararası fərq statistik cəhətdən etibarlı olmuşdur ($p<0.01$). Müalicənin 30-cu günündə birinci qrupda ağrı intensivliyi 60.6%, ikinci qrupda isə 75.0% azalmışdır ($p<0.01$). Müalicənin 90-cı günündə birinci qrupda ağrı intensivliyi 84.5%, ikinci qrupda isə 91.7% azalmışdır ($p<0.05$).

Oynaq hərəkət həcminin dinamikası. Müalicədən əvvəl birinci qrupda diz oynağında fleksiya hərəkət həcminin orta göstəricisi 46.2±3.1°, ikinci qrupda isə 45.8±3.0° təşkil etmişdir. Qruplar arasında başlanğıc fərq statistik cəhətdən etibarlı olmamışdır ($p>0.05$).

Cədvəl 3.
Fleksiya hərəkət həcminin müalicə dövrlərində dəyişmə dinamikası (dərəcə, M±m)

Müalicə dövrü	**Birinci qrup (n=10)**	**İkinci qrup (n=10)**
Müalicədən əvvəl	46.2±3.1	45.8±3.0
10-cu gün	68.4±2.8	79.2±2.6
30-cu gün	96.7±2.5	108.4±2.4
90-cı gün	122.3±2.2	134.7±1.9

Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur

Müalicənin 10-cu günündə birinci qrupda fleksiya hərəkət həcmi 48.1%, ikinci qrupda isə 73.0% artmışdır. Qruplararası fərq statistik cəhətdən etibarlı olmuşdur ($p<0.01$). Müalicənin 30-cu günündə birinci qrupda fleksiya hərəkət həcmi 109.3%, ikinci qrupda isə 136.7% artmışdır ($p<0.01$). Müalicənin 90-cı günündə birinci qrupda fleksiya hərəkət həcmi 164.7%, ikinci qrupda isə 194.1% artmışdır ($p<0.001$).

Reabilitasiya müddətinin müqayisəsi. İkinci qrupda idmançılar birinci qrupa nisbətən yüngül qaçışa orta hesabla 4.5 gün tez başlamış, tam həcmli məşqə 8.4 gün tez qayıtmış, rəsmi oyunlara isə 9.7 gün tez qayıtmışlar. Bütün bu fərqlər statistik cəhətdən etibarlı olmuşdur ($p<0.05$, $p<0.01$).

Cədvəl 4.
Reabilitasiya müddətinin qruplar üzrə müqayisəsi (gün, M±m)

Göstərici	**Birinci qrup (n=10**	**İkinci qrup (n=10)**
Yüngül qaçışa başlama	21.3±1.2	16.8±1.1
Tam həcmli məşqə başlama	42.6±1.8	34.2±1.5
Rəsmi oyunlara qayıdış	58.4±2.1	48.7±1.9

Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur

Nəticə

Nəticələrin xülasəsi. Aparılmış tədqiqatın nəticələri göstərmişdir ki, MCL zədələnməsi olan gənc futbolçularda fizioterapiya prosedurlarının tətbiqi hər iki qrupda ağrının azalmasına, oynaq hərəkət həcminin artmasına və ümumi funksional bərpanın yaxşılaşmasına səbəb olmuşdur. Lakin fizioterapiya ilə yanaşı, izometrik məşqlər də tətbiq edilən qrupda ağrının azalması daha sürətli, oynaq hərəkət həcminin bərpası daha tam, reabilitasiya müddəti isə daha qısa olmuşdur. Bu nəticələr göstərir ki, reabilitasiya prosesində fizioterapiya prosedurları ilə yanaşı, izometrik məşqlərin də tətbiq edilməsi bərpa prosesini əhəmiyyətli dərəcədə sürətləndirir. Əldə edilmiş məlumatlar ədəbiyyatda mövcud olan oxşar tədqiqatların nəticələri ilə uyğunluq təşkil edir (Samuelsson və b., 2024; Sandor və b., 1986; Tağızadə və b., 2019). Beləliklə, I-II dərəcəli MCL zədələnməsi olan gənc futbolçuların reabilitasiya prosesində fizioterapiya prosedurları ilə yanaşı, izometrik məşqlərin də tətbiq edilməsi tövsiyə edilir.

Ədəbiyyat

1. Chauhan, M., Verma, R., Zafar, S., Agarwal, S., & Khan, A. R. (2024). Recent Advances in Non-Surgical Rehabilitation Approaches for Medial Collateral Ligament Injuries: A narrative review. *Journal of Clinical and Diagnostic Research, 18*(11), YE10–YE13.
2. LaPrade, R. F., & Chahla, J. (2021). *Evidence-Based Management of Complex Knee Injuries: Restoring the Anatomy to Achieve Best Outcomes*. Elsevier.
3. Lephart, S. M., Pincivero, D. M., Giraldo, J. L., & Fu, F. H. (1997). The role of proprioception in the management and rehabilitation of athletic injuries. *The American Journal of Sports Medicine, 25*(1), 130–137.
4. Lundblad, M., Hägglund, M., Thomeé, C., Hamrin Senorski, E., Ekstrand, J., Karlsson, J., & Waldén, M. (2019). Medial collateral ligament injuries of the knee in male professional football players: A prospective three-season study of 130 cases from the UEFA Elite Club Injury Study. *Knee Surgery, Sports Traumatology, Arthroscopy, 27*(11), 3692–3698.
5. Qarayev, G. (2005). *Futbol təlim, məşq və oyun nəzəriyyəsi*. Elm.
6. Putra, S. J., & Anggiat, L. (2023). Physiotherapy management on sprain medial collateral ligament in sports injury: A literature study. *Physical Therapy Journal of Indonesia, 4*(1), 45–50.
7. Riemann, B. L., & Lephart, S. M. (2002). The Sensorimotor System, Part II: The Role of Proprioception in Motor Control and Functional Joint Stability. *Journal of Athletic Training, 37*(1), 80–84.
8. Samuelsson, K., et al. (2024). Shedding light on the non-operative treatment of the forgotten side of the knee: Rehabilitation of medial collateral ligament injuries – a systematic review. *BMJ Open Sport & Exercise Medicine,10*(2), e001750.
9. Sandor, S. M., Hart, J. A., & Oakes, B. W. (1986). Case study: Rehabilitation of a Surgically Repaired Medial Collateral Knee Ligament Using a Limited Motion Cast and Isokinetic Exercise. *Journal of Orthopaedic & Sports Physical Therapy*, *7*(4), 154–158.
10. Tağı-zadə, T., Kələntərli, N., & Məmmədova, K. (2019). *Biomexanika və kineziologiya-1*. Elm.
11. Thomson, L.C., Handoll, H.H., Cunningham, A., & Shaw, P. C. (2002). Physiotherapist-led programmes and interventions for rehabilitation of anterior cruciate ligament, medial collateral ligament and meniscal injuries of the knee in adults. *Cochrane Database of Systematic Reviews*, *2*, CD001354.
12. Vosoughi, F., Rezaei Dogahe, R., Nuri, A., Ayati Firoozabadi, M., & Mortazavi, J. (2021). Medial Collateral Ligament Injury of the Knee: A Review on Current Concept and Management. *Archives of Bone and Joint Surgery, 9*(3), 255–262.

Daxil oldu: 07.01.2026
Qəbul edildi: 11.04.2026

TEXNİKA ELMLƏRİ

TECHNICAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/57/167-173

Elnur Abbasov
Azərbaycan Dövlət Dəniz Akademiyası
texnika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-6687-6892
abbasovelnur1980@mail.ru
Fərman Nağıyev
Azərbaycan Dövlət Dəniz Akademiyası
magistrant
https://orcid.org/0009-0002-7627-828X
farman.nagiyev6613@gmail.com

Gəmilərin elektron idarəetmə və naviqasiya sistemlərində kibertəhlükəsizlik risklərinin təhlili

Xülasə

Müasir dəniz nəqliyyatında rəqəmsallaşma prosesinin sürətlənməsi gəmilərin elektron idarəetmə və naviqasiya sistemlərinin funksional imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmiş, eyni zamanda, bu sistemlərin kibertəhlükəsizlik baxımından həssaslığını artırmışdır. Təqdim olunan məqalədə gəmilərin naviqasiya, rabitə, mühərrik, radar və yük idarəetmə sistemlərində mövcud olan kibertəhlükəsizlik riskləri sistemli şəkildə təhlil edilmişdir.

Tədqiqatın əsas məqsədi dəniz nəqliyyatında istifadə olunan elektron idarəetmə və naviqasiya sistemlərinin – xüsusilə ECDIS, AIS, GPS, GMDSS, SCADA və avtomatik sükan idarəetmə sistemlərinin – kibertəhdidlərə qarşı zəif tərəflərini müəyyən etmək, bu riskləri strukturlaşdırılmış şəkildə təsnifləndirmək və onların azaldılması üçün effektiv müdafiə yanaşmaları təklif etməkdən ibarətdir.

Tədqiqat çərçivəsində keyfiyyət yönümlü metodologiyadan istifadə edilmiş, Beynəlxalq Dəniz Təşkilatı (IMO), BIMCO və digər beynəlxalq qurumların normativ sənədləri və tövsiyələri təhlil olunmuş, həmçinin, son illərdə dəniz nəqliyyatı sahəsində baş vermiş real kibertəhlükəsizlik insidentləri müqayisəli şəkildə araşdırılmışdır.

Aparılmış təhlillər göstərir ki, gəmilərin elektron idarəetmə sistemlərində kibertəhlükəsizlik risklərinin effektiv idarə olunması yalnız texniki tədbirlərlə məhdudlaşmır, eyni zamanda, təşkilati siyasətlərin formalaşdırılması, heyət hazırlığı və beynəlxalq standartlara uyğunluğun təmin edilməsi ilə kompleks şəkildə həyata keçirilməlidir. Məqalədə çoxqatlı müdafiə konsepsiyasına əsaslanan inteqrasiya olunmuş yanaşma çərçivəsində praktiki tövsiyələr irəli sürülmüşdür.

Açar sözlər: *kibertəhlükəsizlik, gəmi naviqasiyası, elektron idarəetmə sistemləri, ECDIS, AIS, SCADA, kiberrisklərin idarə olunması*

Elnur Abbasov
Azerbaijan State Marine Academy
PhD in Engineering
https://orcid.org/0009-0002-6687-6892
abbasovelnur1980@mail.ru
Farman Naghiyev
Azerbaijan State Marine Academy
Master's student
https://orcid.org/0009-0002-7627-828X
farman.nagiyev6613@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Cybersecurity Risks in Electronic Control and Navigation Systems of Ships

Abstract

The acceleration of digitalization processes in modern maritime transport has significantly expanded the functional capabilities of electronic control and navigation systems on board ships, while simultaneously increasing their vulnerability to cybersecurity threats. This article presents a systematic analysis of cybersecurity risks associated with navigation, communication, engine, radar, and cargo management systems of vessels.

The primary objective of the study is to identify vulnerabilities in electronic control and navigation systems used in maritime transport – particularly ECDIS, AIS, GPS, GMDSS, SCADA, and automatic steering systems – to classify these risks in a structured manner, and to propose effective approaches for their mitigation.

Within the framework of the research, a qualitative methodology was employed. Normative documents and guidelines issued by international organizations, including the International Maritime Organization (IMO) and BIMCO, were analyzed. In addition, recent real-world cybersecurity incidents in the maritime sector were comparatively examined.

The results indicate that effective management of cybersecurity risks in shipboard electronic control systems cannot be limited to technical measures alone, but requires an integrated approach involving organizational policies, crew training, and compliance with international standards. The article proposes practical recommendations based on an integrated, multi-layered (defense-in-depth) cybersecurity approach.

Keywords: *Cybersecurity, ship navigation, electronic control systems, ECDIS, AIS, SCADA, cyber risk management*

Giriş

Dəniz nəqliyyatı qlobal ticarətin əsas hissəsini təmin edən strateji əhəmiyyətli logistika sistemi kimi çıxış edir. Son onilliklərdə gəmiçilik sahəsində baş verən texnoloji transformasiya nəticəsində ənənəvi mexaniki idarəetmə üsulları elektron idarəetmə və naviqasiya sistemləri ilə əvəz olunmuş, bu isə naviqasiya dəqiqliyinin artmasına və əməliyyat səmərəliliyinin yüksəlməsinə səbəb olmuşdur (Tam və Jones, 2019).

Bununla yanaşı, rəqəmsallaşma prosesi yeni kibertəhlükəsizlik risklərini də formalaşdırmışdır. Müasir gəmilərdə ECDIS, AIS, GPS, GMDSS, SCADA və avtomatik sükan sistemləri vahid rəqəmsal mühitdə inteqrasiya olunaraq fəaliyyət göstərir. Bu sistemlərin şəbəkə əlaqələri və xarici məlumat mənbələrindən asılılığı onların funksionallığını artırmaqla yanaşı, kibertəhdidlər üçün geniş hücum səthi yaradır (Meland və b., 2021).

Ənənəvi olaraq gəmilər "təcrid olunmuş sistemlər" kimi qəbul edilsə də, peyk rabitəsi və internet texnologiyalarının geniş tətbiqi bu yanaşmanı dəyişmiş, gəmiləri qlobal informasiya məkanının bir hissəsinə çevirmişdir. Nəticədə onların kibertəhlükələrə məruz qalma ehtimalı əhəmiyyətli dərəcədə artmışdır (Bothur və b., 2017).

Dənizçilik sektorunda kiberrisklərin real təsiri 2017-ci ildə Maersk şirkətinə qarşı həyata keçirilmiş kiberhücum zamanı aydın şəkildə özünü göstərmişdir. Bu hadisə nəticəsində qlobal logistika zəncirində ciddi fasilələr yaranmış və böyük maliyyə itkiləri baş vermişdir (Greenberg, 2018).

Beynəlxalq səviyyədə bu risklərin tənzimlənməsi məqsədilə IMO tərəfindən qəbul edilmiş MSC.428(98) qətnaməsi kiberrisklərin təhlükəsizlik idarəetmə sistemlərinə inteqrasiyasını tələb edir (IMO, 2017). Bununla belə, praktikada bu tələblərin tətbiqi hələ də tam səviyyədə təmin olunmamışdır.

Bu baxımdan, gəmilərin elektron idarəetmə və naviqasiya sistemlərində kibertəhlükəsizlik risklərinin sistemli təhlili aktual elmi problem kimi çıxış edir. Məqalənin məqsədi bu sistemlərdə

mövcud kiberriskləri sistemləşdirmək, onların yaranma mexanizmlərini və təsirlərini təhlil etmək, həmçinin, risklərin azaldılması üçün kompleks müdafiə yanaşmaları təklif etməkdir.

Tədqiqat

Məqalədə gəmilərin elektron idarəetmə və naviqasiya sistemlərinə olan kiber risklər aşağıdakı kimi təhlil olunmuşdur:

Elektron idarəetmə və naviqasiya sistemlərinin ümumi xarakteristikası. Müasir gəmilərdə elektron idarəetmə və naviqasiya sistemləri funksional təyinatına görə bir neçə əsas kateqoriyaya bölünür və əksər hallarda inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərərək vahid rəqəmsal idarəetmə mühiti formalaşdırır. Bu inteqrasiya əməliyyat səmərəliliyini artırmaqla yanaşı, sistemlərarası asılılığı gücləndirir və kibertəhlükəsizlik baxımından kompleks risklər yaradır.

Naviqasiya sistemlərinə GPS, ECDIS, radar və ARPA daxildir və gəminin mövqeyinin müəyyən edilməsi və qərarvermə prosesində əsas rol oynayır (Weintrit, 2009). Rabitə sistemləri (GMDSS, Inmarsat, VSAT, VHF/UHF, NAVTEX) isə gəminin digər obyektlərlə fasiləsiz əlaqəsini təmin edir. AIS və LRIT sistemləri gəmi hərəkətinin monitorinqi və identifikasiyası üçün istifadə olunur.

SCADA və digər idarəetmə sistemləri gəminin mühərrik və enerji proseslərini idarə edir, yük və ballast sistemləri isə gəminin dayanıqlığını təmin edən əsas texnoloji komponentlərdir. Avtomatik sükan sistemi (autopilot) isə naviqasiya məlumatlarına əsaslanaraq kursun avtomatik tənzimlənməsini həyata keçirir.

Bu sistemlərin ümumi xüsusiyyətləri onların proqram təminatına əsaslanması, şəbəkə bağlantısına malik olması və xarici məlumat mənbələrindən asılılığıdır ki, bu da onları kibertəhlükələr baxımından potensial hədəfə çevirir.

Kibertəhlükəsizlik risklərinin təsnifatı. Gəmilərin elektron idarəetmə və naviqasiya sistemlərində kibertəhlükəsizlik riskləri əsasən təhdid mənbələrinə və hücum vektorlarına görə təsnif olunur.

Şəkil 1. Gəminin elektron idarəetmə və naviqasiya sistemlərinin inteqrasiya olunmuş strukturu

Təhdid mənbələrinə görə risklər. Kibertəhdidlər mənşəyinə görə daxili və xarici olmaqla iki əsas qrupa bölünür. Xarici təhdidlər dövlət dəstəkli hücumlar, mütəşəkkil cinayət qrupları və kiberhücumçular tərəfindən həyata keçirilir və yüksək texniki imkanlara malik olduqları üçün daha təhlükəli hesab olunur. Məsələn, GPS siqnallarının manipulyasiyası bu tip müdaxilələrin mümkünlüyünü göstərir (Bhatti və Humphreys, 2017).

Daxili təhdidlər isə əsasən insan amili ilə bağlıdır və zəif parollar, zərərli faylların açılması və ya xarici daşıyıcıların istifadəsi kimi hallar nəticəsində yaranır. Tədqiqatlar göstərir ki, kibertəhlükəsizlik insidentlərinin əhəmiyyətli hissəsi məhz insan səhvləri ilə bağlıdır (BIMCO, 2020).

Əsas sistemlərdə kiberrisklər.

ECDIS. ECDIS sistemləri kommersiya tipli əməliyyat sistemləri üzərində işlədiyindən zərərli proqramlara qarşı həssasdır. Elektron xəritələrin USB vasitəsilə yenilənməsi və digər sistemlərlə inteqrasiya bu riskləri artırır. Tədqiqatlar göstərir ki, bəzi hallarda sistemə uzaqdan müdaxilə və məlumatların dəyişdirilməsi mümkündür (Svilicic və b., 2019).

AIS. AIS sistemində məlumatların şifrələnməməsi və autentifikasiyanın olmaması spoofing, jamming və məlumat manipulyasiyası kimi hücumlara şərait yaradır. Bu isə "xəyali hədəflərin" yaranmasına və toqquşma riskinin artmasına səbəb ola bilər (Balduzzi və b., 2014).

GPS. GPS sistemləri açıq siqnal strukturu səbəbindən spoofing hücumlarına həssasdır. Siqnal manipulyasiyası nəticəsində gəminin mövqeyi təhrif edilə bilər ki, bu da ciddi naviqasiya riskləri yaradır (Bhatti və Humphreys, 2017).

SCADA və mühərrik sistemləri. Bu sistemlərdə şifrələmənin zəifliyi, IT/OT inteqrasiyası və köhnəlmiş kontrollerlərin istifadəsi hücum səthini genişləndirir. Nəticədə idarəetmə siqnallarının dəyişdirilməsi və sistemlərin sıradan çıxarılması kimi kritik nəticələr mümkündür (Kavallieratos və b., 2020).

GMDSS və rabitə sistemləri. Bu sistemlərdə kibermüdaxilə saxta distress siqnallarının göndərilməsi, real siqnalların bloklanması və rabitənin pozulması ilə nəticələnə bilər ki, bu da birbaşa insan həyatına təhlükə yaradır.

Hücum vektorlarına görə risklər. Kibertəhlükələr şəbəkə, fiziki giriş, siqnal manipulyasiyası və proqram təminatı zəiflikləri vasitəsilə həyata keçirilir. Xüsusilə VSAT əsaslı şəbəkə hücumları, GPS/AIS spoofing və köhnəlmiş proqram təminatı bu baxımdan əsas risk mənbələri hesab olunur (Pavur və b., 2020).

Real kibertəhlükəsizlik insidentlərinin təhlili. Son illərdə baş vermiş kibertəhlükəsizlik insidentləri göstərir ki, dəniz nəqliyyatında kiberrisklər real və ciddi nəticələr doğuran təhlükələrdir.

Maersk – NotPetya hücumu (2017). Bu hücum nəticəsində şirkətin 49.000-dən çox kompüteri və 3.500 serveri sıradan çıxmış, 76 limanın 17-də əməliyyatlar dayandırılmış və bərpa prosesi təxminən 10 gün davam etmişdir. Ümumi zərər 250–300 milyon ABŞ dolları təşkil etmişdir (Greenberg, 2018). Bu hadisə kibertəhlükələrin qlobal logistika zəncirinə birbaşa təsirini nümayiş etdirir.

COSCO hücumu (2018). Hücum nəticəsində kommunikasiya sistemləri sıradan çıxmış, əlaqə kanalları məhdudlaşmış və əməliyyat koordinasiyası pozulmuşdur.

Qara dənizdə GPS spoofing hadisələri (2017–2018). Bu hadisələr zamanı gəmilərin faktiki mövqeyi ilə naviqasiya sistemlərində göstərilən koordinatlar arasında uyğunsuzluq yaranmış, bu isə səhv qərarvermə və qəza risklərinin artmasına səbəb olmuşdur (Tam və Jones, 2019).

Antverpen limanı insidenti (2011–2013). Kibermüdaxilə nəticəsində konteyner məlumatları manipulyasiya olunmuş və logistika sistemləri qeyri-qanuni məqsədlər üçün istifadə edilmişdir.

Aparılmış təhlil göstərir ki, kibertəhlükələr texniki, iqtisadi və əməliyyat səviyyələrində çoxşaxəli təsirə malikdir, sistemlərarası inteqrasiya isə risklərin miqyasını artırır. Xüsusilə naviqasiya sistemlərinə müdaxilə birbaşa qəza riskinə gətirib çıxara bilər.



Şəkil 2. Gəmi sistemlərinə qarşı kibertəhdidlərin və hücum vektorlarının modeli

Beynəlxalq tənzimləmə çərçivəsi. Dənizçilik sektorunda kibertəhlükəsizliyin tənzimlənməsi beynəlxalq standartlara əsaslanır. IMO-nun MSC.428(98) qətnaməsi kiberrisklərin ISM Code çərçivəsində təhlükəsizlik idarəetmə sistemlərinə inteqrasiyasını tələb edir (IMO, 2017). MSC-FAL.1/Circ.3 sənədi isə risklərin idarə olunmasını Identify–Protect–Detect–Respond–Recover mərhələləri üzrə müəyyən edir və NIST yanaşması ilə uyğunluq təşkil edir. BIMCO təlimatları praktik tövsiyələr təqdim edir, IACS (UR E26/E27) tələbləri isə gəmi sistemlərinin kiberdavamlılığını təmin etməyə yönəlmişdir.

Kiberrisklərin azaldılması strategiyaları. Gəmi sistemlərində kibertəhlükəsizliyin təmin olunması texniki, təşkilati və insan amilini birləşdirən çoxqatlı yanaşma tələb edir.

Texniki tədbirlər şəbəkə seqmentasiyası, şifrələmə və autentifikasiya, proqram təminatının müntəzəm yenilənməsi, IDS/IPS sistemlərinin tətbiqi və ehtiyat nüsxələmə mexanizmlərini əhatə

edir. Xüsusilə IT və OT şəbəkələrinin ayrılması və köhnəlmiş sistemlərin yenilənməsi risklərin azaldılmasında mühüm rol oynayır.

Təşkilati tədbirlər kiberrisklərin idarə olunması planının hazırlanmasını və onun təhlükəsizlik idarəetmə sistemlərinə inteqrasiyasını nəzərdə tutur. Bu plan risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi, cavablandırılması və bərpası mərhələlərini əhatə etməlidir.

İnsan amili baxımından isə heyətin müntəzəm təlimi, kibergigiyena qaydalarına riayət olunması və təhlükəsizlik mədəniyyətinin formalaşdırılması əsas şərtlərdən biridir.

Təchizat zənciri təhlükəsizliyi və insidentlərə cavab. Gəmi sistemləri üçün proqram təminatı və avadanlıq təmin edən təchizatçıların kibertəhlükəsizlik standartlarına uyğunluğu əvvəlcədən yoxlanılmalı, üçüncü tərəf xidmət təminatçılarının sistemlərə çıxışı ciddi nəzarət altında saxlanılmalıdır. Uzaqdan giriş yalnız zəruri hallarda və təhlükəsiz kanallar vasitəsilə təmin edilməlidir.

Kibertəhlükəsizlik insidentlərinə cavab prosedurları əvvəlcədən müəyyən edilməli və aşkarlama, təcridetmə, aradan qaldırma, bərpa və hesabatlandırma mərhələlərini əhatə etməlidir. Bu prosedurların effektivliyi müntəzəm təlimlər və ssenari əsaslı simulyasiyalar vasitəsilə yoxlanılmalıdır.

İnsan amili ilə bağlı tədbirlər. Gəmi heyətinin kibertəhlükəsizlik üzrə müntəzəm təlimi kiberrisklərin azaldılmasında mühüm rol oynayır. Bu təlimlər təhlükəsiz parol siyasəti, fişinq hücumlarının tanınması və şübhəli fəaliyyətlərin bildirilməsi kimi əsas davranış qaydalarını əhatə etməlidir (Tam və Jones, 2019).

Kibertəhlükəsizlik mədəniyyətinin formalaşdırılması bütün heyətin kollektiv məsuliyyəti kimi qəbul edilməli, gündəlik əməliyyatlarda kibergigiyena qaydalarına riayət olunmalıdır.

Gələcək perspektivlər və yeni risklər. Dənizçilik sənayesində rəqəmsallaşmanın dərinləşməsi yeni texnologiyaların tətbiqi ilə yanaşı, daha mürəkkəb kiberrisklərin formalaşmasına səbəb olur.

Avtonom gəmilərin inkişafı insan müdaxiləsinin azalması ilə kibermüdaxilələrin nəticələrini daha kritik edir və kiberdavamlılığın layihələndirmə mərhələsindən təmin olunmasını zəruri edir. Süni intellekt texnologiyaları isə həm anomaliyaların aşkarlanması baxımından effektiv vasitə olmaqla yanaşı, daha mürəkkəb kiberhücumların yaradılmasına da imkan verir.

IoT qurğularının geniş tətbiqi əməliyyat səmərəliliyini artırsa da, əlavə hücum nöqtələri formalaşdıraraq təhlükəsizlik risklərini genişləndirir. Blokçeyn texnologiyası isə məlumatların bütövlüyünün qorunması və təchizat zəncirinin izlənməsi baxımından perspektivli hesab olunur, lakin praktik tətbiqi hələ məhduddur.



Şəkil 3. Gəmi sistemlərində çoxqatlı kibertəhlükəsizlik müdafiə modeli

Azərbaycanın dəniz sektorunda kibertəhlükəsizlik məsələləri. Azərbaycan Xəzər dənizində mühüm nəqliyyat-logistika mövqeyinə malik olmaqla, xüsusilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə Orta Dəhliz çərçivəsində strateji tranzit rolunu yerinə yetirir. Dəniz daşımalarının

intensivləşməsi və infrastrukturun rəqəmsallaşması kibertəhlükəsizlik məsələlərinin milli səviyyədə aktuallaşmasına səbəb olur.

Xəzər dənizində gəmi hərəkətinin artması və idarəetmə sistemlərinin şəbəkələşməsi kiberrisklərin sistemli idarə olunmasını zəruri edir. Xüsusilə ASCO donanmasında istifadə olunan elektron naviqasiya və idarəetmə sistemlərinin qorunması nəqliyyat təhlükəsizliyi və milli maraqlar baxımından mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan milli kibertəhlükəsizlik strategiyasının formalaşdırılması, kadr hazırlığının gücləndirilməsi və normativ bazanın təkmilləşdirilməsi prioritet istiqamətlərdir.

Nəticə

Aparılmış təhlillər göstərir ki, gəmilərin elektron idarəetmə və naviqasiya sistemləri (ECDIS, AIS, GPS, SCADA, GMDSS və s.) kibermüdaxilələrə qarşı yüksək həssaslığa malikdir və bu həssaslıq həm texnoloji arxitektura, həm də istismar xüsusiyyətləri ilə bağlıdır.

Müəyyən edilmişdir ki, real kibertəhlükəsizlik insidentləri bu risklərin praktik xarakter daşıdığını təsdiqləyir və onların təsiri yalnız texniki səviyyə ilə məhdudlaşmayaraq logistika zəncirinə, iqtisadi sabitliyə və naviqasiya təhlükəsizliyinə birbaşa təsir göstərir.

Təhlil nəticəsində müəyyən olunmuşdur ki, kiberrisklərin effektiv idarə olunması yalnız texniki tədbirlərlə mümkün deyil və çoxqatlı yanaşma tələb edir. Bu yanaşma texniki həlləri, təşkilati idarəetmə mexanizmlərini və insan amilini birləşdirən kompleks model kimi çıxış edir.

Beynəlxalq təcrübə göstərir ki, mövcud normativ çərçivə (IMO və digər təşkilatların tələbləri) kibertəhlükəsizliyin idarə olunması üçün əsas baza yaratsa da, texnoloji inkişafın sürəti yeni risklərin tam əhatə olunmasını çətinləşdirir.

Azərbaycan kontekstində isə dəniz nəqliyyatının inkişafı və tranzit rolunun artması milli dəniz infrastrukturunun kiberdavamlılığının gücləndirilməsini zəruri edir. Bu istiqamətdə strateji yanaşmanın formalaşdırılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, kibertəhlükəsizlik dəniz nəqliyyatının təhlükəsiz və dayanıqlı inkişafını müəyyən edən əsas amillərdən biri kimi çıxış edir və onun təmin olunması kompleks, risk əsaslı idarəetmə yanaşmasını tələb edir.

Gələcək tədqiqat istiqamətləri. Gələcək tədqiqatlar üçün avtonom gəmilərdə kibertəhlükəsizlik arxitekturalarının işlənməsi, süni intellekt əsaslı anomaliya aşkarlama sistemlərinin tətbiqi və regional kibertəhlükəsizlik əməkdaşlığı modellərinin araşdırılması perspektivli hesab olunur.

Ədəbiyyat

1. Balduzzi, M., Wilhoit, K. və Pasta, A. (2014). A security evaluation of AIS automated identification system. *Proceedings of the 30th Annual Computer Security Applications Conference*, 19–29. https://doi.org/10.1145/2664243.2664257
2. Bhatti, J. və Humphreys, T. (2017). Hostile control of ships via false GPS signals: Demonstration and detection. *NAVIGATION: Journal of the Institute of Navigation*, *64*(1), 51–66. https://doi.org/10.1002/navi.183
3. BIMCO. (2020). *The guidelines on cyber security onboard ships* (Version 4). BIMCO, CLIA, ICS, INTERCARGO, INTERTANKO, OCIMF, IUMI, World Shipping Council.
4. Bothur, D., Zheng, G. və Valli, C. (2017). A critical analysis of security vulnerabilities and countermeasures in a smart ship system. *Australian Information Security Management Conference*, 81–89. https://doi.org/10.4225/75/5a84f7b1b3540
5. Greenberg, A. (2018). *Sandworm: A New Era of Cyberwar and the Hunt for the Kremlin's Most Dangerous Hackers*. Doubleday.
6. IMO. (2017). *Maritime cyber risk management in safety management systems – Resolution MSC.428(98)*. International Maritime Organization.

7. Kavallieratos, G., Katsikas, S. və Gkioulos, V. (2020). Cybersecurity and Safety Co-Engineering of Cyberphysical Systems – a Comprehensive Survey. *Future Internet*, *12*(4), 65. https://doi.org/10.3390/fi12040065
8. Meland, P., Bernsmed, K., Wille, E., Rødseth, Ø. və Nesheim, D. (2021). A retrospective analysis of maritime cyber security incidents. *TransNav, the International Journal on Marine Navigation and Safety of Sea Transportation*, *15*(2), 263–272. https://doi.org/10.12716/1001.15.02.04
9. Pavur, J., Moser, D., Strohmeier, M., Lenders, V. və Martinovic, I. (2020). A tale of sea and sky: On the security of maritime VSAT communications. *2020 IEEE Symposium on Security and Privacy*, 1384–1400. https://doi.org/10.1109/SP40000.2020.00056
10. Svilicic, B., Kamahara, J., Rooks, M. və Yano, Y. (2019). Maritime cyber risk management: An experimental ship assessment. *The Journal of Navigation*, *72*(5), 1108–1120. https://doi.org/10.1017/S0373463318001157
11. Tam, K. və Jones, K. (2019). Maritime cybersecurity policy: The scope and impact of evolving technology on international shipping. *Journal of Cyber Policy*, *4*(2), 147–164. https://doi.org/10.1080/23738871.2019.1596644
12. Weintrit, A. (2009). *The Electronic Chart Display and Information System (ECDIS): An operational handbook*. CRC Press.
13. Zăgan, R., Raicu, G., Hanzu-Pazara, R. və Enache, S. (2020). Realities in maritime domain regarding cyber security concept. *Advanced Engineering Forum*, *34*, 101–110. https://doi.org/10.4028/www.scientific.net/AEF.34.101

Daxil oldu: 02.01.2026
Qəbul edildi: 13.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/174-179

Shukur Nasirov
Azerbaijan State Oil and Industry University
PhD in Technical Sciences
https://orcid.org/0000-0001-6421-7549
shukur.nasirov@asoiu.edu.az
Jamala Mammadova
Azerbaijan State Oil and Industry University
PhD in Technical Sciences
https://orcid.org/0000-0001-5147-2233
cemile_adna@mail.ru

Research on the Development Directions of a High-parameter energy blocks

Abstract

The article examines scientific and technical approaches to improving the energy efficiency of steam-turbine thermal power plants (TPPs), which play a dominant role in modern electric power engineering. It is noted that approximately 65% of global electricity generation and nearly 90% of electricity production in Azerbaijan are provided by thermal power plants, making the efficient use of fuel and energy resources and the reduction of environmental impact critical objectives. Although the main technological equipment of steam-turbine units has reached a high level of technical maturity, the principal potential for further improvement of technical and economic performance lies in increasing the initial steam parameters, specifically pressure and temperature.

The study analyzes the development stages of power units operating under supercritical and ultra-supercritical steam parameters, as well as their thermodynamic advantages and operational performance indicators. The results demonstrate that higher steam parameters increase turbine heat drop and output power, improve the efficiency of both the power unit and the plant as a whole, and reduce specific fuel consumption. Increased efficiency also leads to a significant reduction in emissions of CO_2, NO_x, SO_x, and other harmful pollutants.

Furthermore, the article investigates the mechanical strength, heat resistance, and long-term operational characteristics of modern ferritic and martensitic steels P91 and P92 used in ultra-supercritical technologies. Although the application of advanced materials increases capital costs, these expenses are recovered within approximately 3-4 years through fuel savings and improved energy efficiency.

Keywords: *Steam-gas plant, heating scheme, operating mode, critical, supercritical, gas turbine, steam turbine, waste heat boiler, power unit, efficiency*

Şükür Nəsirov
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
texnika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-6421-7549
shukur.nasirov@asoiu.edu.az
Cəmalə Məmmədova
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
texnika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-5147-2233
cemile_adna@mail.ru

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Yüksək parametrli energetik blokların inkişaf istiqamətlərinin tədqiqi

Xülasə

Məqalədə müasir elektroenergetikada buxar-turbinli istilik elektrik stansiyalarının (İES) aparıcı rol oynaması şəraitində onların energetik səmərəliliyinin artırılmasının elmi-texniki yanaşmaları araşdırılmışdır. Qeyd olunur ki, dünya üzrə elektrik enerjisi istehsalının təqribən 65%-i, Azərbaycanda isə elektrik enerjisi istehsalının təxminən 90%-i istilik elektrik stansiyalarının payına düşür ki, bu da yanacaq-enerji resurslarından səmərəli istifadənin təmin edilməsini və ətraf mühitə təsirin azaldılmasını mühüm və aktual vəzifəyə çevirir. Buxar-turbin qurğularında istifadə olunan əsas texnoloji avadanlıqlar yüksək texniki yetkinlik səviyyəsinə çatmış olsa da, texniki-iqtisadi göstəricilərin daha da yaxşılaşdırılması üçün əsas ehtiyat mənbəyinin buxarın başlanğıc parametrlərinin, yəni təzyiqinin və temperaturunun artırılması olduğu əsaslandırılır.

Tədqiqatda superkritik və ultrasuperkritik buxar parametrləri ilə işləyən enerji bloklarının inkişaf mərhələləri, onların termodinamik üstünlükləri və istismar göstəriciləri təhlil edilmişdir. Alınan nəticələr göstərir ki, buxarın yüksəldilmiş parametrləri turbində istilik düşküsünün və çıxış gücünün artmasına, enerji blokunun və bütövlükdə stansiyanın faydalı iş əmsalının yüksəlməsinə, həmçinin, yanacağın xüsusi sərfinin azalmasına səbəb olur. Faydalı iş əmsalının artması atmosferə atılan CO_2, NOx, SOx və digər zərərli tullantıların əhəmiyyətli dərəcədə azalmasına da şərait yaradır.

Bundan əlavə, məqalədə ultrasuperkritik texnologiyalarda tətbiq olunan müasir ferrit və martensit sinifli P91 və P92 poladlarının mexaniki möhkəmliyi, istiliyədavamlılığı və uzunmüddətli istismar xüsusiyyətləri araşdırılmışdır. Qeyd olunur ki, qabaqcıl materiallardan istifadə kapital xərclərinin artmasına səbəb olsa da, yanacağa qənaət və energetik səmərəliliyin yüksəldilməsi hesabına bu xərclər təxminən 3–4 il ərzində ödənilir.

***Açar sözlər**: buxar-qaz qurğusu, istilik sxemi, iş rejimi, kritik, superkritik, qaz turbini, buxar turbini, utilizasiya qazan, enerji bloku, səmərəlilik*

Introduction

Currently, electric power is mainly produced in steam turbine thermal power plants operating on natural fuels. 65% of the electric power produced worldwide, and 90% in Azerbaijan, is manufactured in thermal power plants. Therefore, increasing the energy efficiency of steam turbine plants is one of the urgent issues. The equipment used in steam turbine power plants has been improved to a high level. Increasing the technical and economic indicators of such plants can be achieved by increasing the initial parameters of steam. The change in steam parameters over the years in steam turbine power plants is shown in Figure 1. (Abdullayev et al., 2013; Abzərli & Arifli, 2020; Kəlbəliyev et al., 2011; Dorokhov & Sedlov, 2007).



Figure. 1. Changes in parameters in steam-powered power plants

The figure shows that during the years 2000-2015, power units operating with supercritical parameters of steam were actively developed, and currently this s of transition of steam to ultra supercritical parameters. As a result of long-term work to increase the efficiency of the steam turbine – that is, research on increasing the pressure and temperature of superheated steam, the temperature of steam reheating - power units operating with super technology has been fully studied and is being

used. In this case, the efficiency reached 50%, the temperature- t_0=700^{0}C, and the pressure 32-35 MPa. Currently, leading countries are solving the issue critical (P_0=31-32 MPa, t_0=560-600^{0}C), ultra supercritical (P_0=37-38 MPa, t_0=700^{0}C) parameters were created. Currently, supercritical units are being replaced by power units operating with the technology of ultra-supercritical units. Due to the increase in energy efficiency in such units, fuel consumption is reduced. At the same time, environmental pollutants are also reduced. Thus, when the efficiency increases by 1%, CO_2, NOx, SOx compounds and solid particles decrease by about 2%.

With the transition of gas-fired power plants to a steam-gas turbine with combined cycle, it has been possible to increase the efficiency to 60% by increasing the temperature of the combustion heat supplied to the gas turbine to 1200-1500^{0}C (Favorskiy et al., 2004; Kehlhofer et al.,1997; Olxovskiy, 2013; Truxnıy, 2013) but this has not yet been possible in power plants powered by other fuels. One of the solutions to this problem is to increase the parameters (pressure and temperature) of the steam. When the parameters of the steam entering the turbine increase, the heat loss in the turbine, power, the efficiency of the turbine, the block and the thermal power plant increase, and the specific fuel consumption decreases. As a result, fuel is saved, the amount of flue gases emitted into the atmosphere reduces, and the environmental load decreases (Figure 2).

It should be noted that despite the increase in trends in the development of non-traditional technologies in electricity generation, natural fuels are mainly used in the world's electric power generation, and their number is also increasing. 60% of gas and solid fuels are used in electric power generation. Combined cycle power plants with steam-gas units operate on the Brayton-Rankin cycle. In order to reduce the amount of carbon dioxide emitted into the atmosphere, power engineers are required to increase the thermodynamic efficiency of the energy complex. Conducting scientific research in this area is one of the urgent issues.



Figure. 2. Dependence of CO_2 emissions on net efficiency

1 – when burning coal; 2, 3 – when burning biomass with coal;
4 – when burning natural gas

I – average value for modern operating thermal power plants; II – average value for EU countries; III – average value for thermal power plants operating with parameters higher than critical in Denmark; IV – thermal power plant project AD700; V – latest thermal power plant projects

Research

When the initial temperature of the working medium of the best combined steam-gas plant is 1500^{0}C, the efficiency is 60% (Truxnıy, 2013; Tsanev et al., 2011). In this regard, the improvement of technologies in steam-gas plants is one of the main issues. Certain progress has been made in the field of using solid fuels in combined steam-gas plants. In this case, the internal coal gasification is applied in a complex cycle, that is, artificial gases are obtained from solid fuels and the obtained artificial gases are fed to the combustion chamber of the gas turbine (Kruglikov et al., 2012; Truxnıy, 2013; Məmmədova, 2019; Nəsirov & Neymətov, 2025; Nəsirov et al., 2026; Neymətov & Nəsirov, 2025). In this case, the efficiency of the steam-gas plant decreases, net efficiency compared to a steam-gas plant using natural gas is 41-45% (Usova, 2011; Zısin, 2010). It should be noted that steam-gas plants operating with internal coal gasification are very expensive, it is 4000 dollars/kWh (1010. Cost and performance data, for power generator technologies, 2012).

Therefore, it is more convenient to use steam turbine units operating on coal and with increased parameters. In Europe, China, Japan, and America, power units operating with supercritical parameters (P_0=32 MPa, t_0=600-620^{0}C) are operated, and the efficiency of such plants is 44%. In order to increase technical and economic indicators, power units operating with higher ultra supercritical parameters (P_0=34-36 MPa, t_0=700-760^{0}C) are actively developed in the mentioned countries. For the creation of ultracritical and ultra supercritical units, programs are developed by scientific research institutions, manufacturers of power equipment, and operating companies, and the implementation of the programs is monitored.

Main promising issues to be solved.

1. Development of modern high-efficiency, environmentally friendly technologies.
2. Creation of a new generation power equipment manufacturing industry.
3. Decommissioning of thermal power plants with low economic indicators and replacing them with promising, highly efficient thermal power plants that require low costs for the production of electricity and heat.
4. Reduction of specific fuel consumption and staffing factor of the equipment remaining in operation.
5. Reduction of waste discharged into the environment.
6. Reduction of repair costs.

In Russia, the introduction of promising coal-fired units operating with supercritical and ultra supercritical parameters is also prognosed and research is being carried out. Since 2021, the implementation of these studies and the creation of new, highly efficient units with an efficiency of 50% for electric power generation has begun (Truxnıy, 2013; Tsanev et al., 2011; Tumanovskiy, 2017). Currently, other countries are also addressing the issue of transition to power plants operating with ultra supercritical parameters. Another issue is the use of heat-resistant, expensive materials in equipment due to the increase in steam parameters and the increase in capital costs of power plants in this case.

Calculations show that the capital costs of the plant may increase by 35-40% due to the improvement of the boiler plant, turbine and auxiliary equipment (Truxnıy, 2013; Tsanev et al., 2011; Tumanovskiy, 2017). When manufacturing such blocks, high-strength steels of the ferritic and ferritic martensitic class are used.

The thick-walled outlet manifold, main steam pipe and intermediate heater pipelines are made of a new grade austenitic steel P 91. This steel contains 9% chromium. Another austenitic steel is made of P 92, which contains 11% chromium. The creep limit of martensitic steels is shown in Figure 3.



Figure 3. The limit of steel creep depending on temperature

1 – P - 92; 2 - P - 91; 3 – X 20

The graph shows that the slip limit of P 92 steel is 2 times higher than that of X 20 steel. X 20 steel has long been used in the mechanical engineering industry. When using P 91 and P 92 steels, the wall thickness is taken less and the slip limit is also higher, and their value is not higher than the value of the previous steels. In addition, assembly work has shown that P 91 and P 92 steels are welded faster than X 20, which contains 12% chromium. Due to the use of expensive metals in the mentioned stations, capital costs increase by 30%. However, this is paid off within 3-4 years.

Now let's compare the thermal efficiency of plants operating with parameters higher than critical and supercritical. As it is mentioned, thermal power plants operating on organic fuels dominate in the energy system. The creation of TPPs (thermal power plants) with powerful energy blocks is carried out in two directions - the creation of steam power plants operating on liquid, gas, solid fuels and the creation of steam-gas plants operating on gaseous fuels. The main goal is to reduce the amount of fuel consumed. However, in this case, when creating two different types of power plants, it is necessary to take into account that they have various technical advantages. The degree of improvement of the steam-gas plant is higher than that of the steam-power plant.

In this regard, it is more expedient to create promising ecological thermal power plants equal to the thermal efficiency of the steam-gas plant. Despite the 30% difference in capital investment between power units operating with critical parameters ($P_0 = 24{,}5\ MPa,\ t_0 = 338^0C, t''_{ih} = 552^0C$) and power units operating with supercritical parameters ($P_0 = 34{,}1\ MPa,\ t_0 = 650^0C,\ t''_{ih} = 693^0C$), power plants operating with increased parameters are economically advantageous. For this purpose, a comparison of the thermal efficiency of power plants operating with critical pressure and supercritical pressure was carried out. The creation of powerful 300-400 MW power units in accordance with modern brands of austenitic steels is a reality. In such units, the steam pressure in front of the turbine is P_0=31-32 MPa, the temperature $t_0 = 625 - 630^0C$, the feed water temperature is 310^{0}C, the pressure before the first intermediate heating is 7 MPa, the temperature is 565^{0}C, the steam pressure after the second intermediate heating is 2.0-2.5 MPa, the temperature is 565^{0}C. In this case, the change in specific fuel consumption is shown in the table below.

It can be seen from the table that the specific fuel consumption decreases by 7%. When comparing the power unit with a pressure of 31 MPa, a temperature of 600/560/566^{0}C, and a feed water temperature $t_{fw} = 275^0C$, with the base standard unit, there is a saving of 14.8 g/kWh of conventional fuel.

Table 1.
Impact of factors reducing specific fuel consumption on reducing specific fuel consumption, in %

Factors that reduce specific fuel consumption	Reduction in specific fuel consumption, in %
Increase in fresh steam pressure P_0=26.5 MPa to 31 Mpa	2,1
Increasing the temperature of the fresh steam from 540^{0}C to 630^{0}C	2,4
Steam temperature increases in the first stage reheating	0,8
Steam temperature increases in the second stage reheating	1,8
Raising the feed water temperature from 270^{0}C to 310^{0}C	0,8

If to assume a favorable feed water temperature $t_{fw} = 310 - 315^0C$ and take the temperature of fresh steam $t_0 = 630^0C$, the additional relative increase in fuel will be up to 2%. In units operating with supercritical parameters, it is planned to bring the temperature to 600-630^{0}C (Table 1). The operation of supercritical and supercritical units is generally positive. The availability factor of all units is on average 90 - 94%. Transition to critical parameters of steam does not affect the availability factor of the equipment.

Conclusions

1. The advantages and prospects of units operating with supercritical and ultra supercritical parameters have been studied.

2. To increase the efficiency of power plants, it is more expedient to operate them at water parameters higher than critical ones.

3. Due to the use of expensive metals in such units, capital costs increase by 30%, but this is repaid in 3-4 years.

4. By transition to the supercritical parameter, the useful efficiency of the plant increases from 41% to 50% and the specific fuel consumption decreases by 7%, saving fuel, reducing the amount of harmful gases emitted into the atmosphere, and reducing the environmental burden.

References

1. Abdullayev, K.M., Kəlbəliyev, F.İ., Məmmədova, C.P., Nəsirov, Ş.N. (2013). *İstilik elektrik stansiyasının buxar və qaz turbinləri.* Zaman–3.
2. Abzərli, M.M., Arifli, K.S. (2020). *Kombinə tsiklli elektrik stansiyalar.* Dərs vəsaiti. Elm.
3. *Britannica* – Gas turbine engine. (n.d.). https://www.britannica.com/technology/gas-turbine-engine
4. Dorokhov, E.V., Sedlov, A.S. (2007). *Proyektirovaniye teplovoy skhemy energoblokom TES na superkriticheskikh parametrakh: uchebnoye posobiye.* İzdatel'skiy dom MEI.
5. Favorskiy, O.N. (2017). Aktual'nyye problemy obespecheniya energetiki strany konkurentosposobnym oborudovaniyem. *Vestnik Rossiyskoy akademii nauk, 8*, 619–688.
6. *GE Power* – Gas turbines. (n.d.). https://www.ge.com/power/gas/gas-turbines
7. Kanaev, A.A., Korneev, M.İ. (2004). *Parogazovıye ustanovkı.* Maşınostroyeniye.
8. Kəlbəliyev, F.İ., Məmmədova, C.P., Nəsirov, Ş.N. (2011). *İstilik elektrik stansiyaları.* Zaman–3.
9. Kehlhofer, R., Hannemann, F. et al. (1997). *Combined Cycle Gas and Steam Turbine Power Plants.* 3rd ed., Penn Well Publishing Company.
10. Kondratyev, A.A., Rassoxin, V.A., Oleynikov, S.Yu., Kondratyeva, E.A., Osipov A.V. (2017). Razvitiye parovykh turbin na sverkhkriticheskiye i super-sverkhkriticheskiye parametry para. *Vestnik Bryanskogo gosudarstvennogo tekhnicheskogo universiteta, 1*(54), 72–82.
11. Kruglikov, P.A. və b. (2012). Vybor printsipial'nykh skhemnykh resheniy ugol'nogo energobloka na superkriticheskiye parametry para. *Teploenergetika, 9*, 9–16.
12. Məmmədova, C.P. (2019). *Buxar və buxar-qaz turbinli istilik elektrik stansiyalarının istilik sxemlərinin hesablama metodları.* ADNSU nəşriyyatı.
13. Nəsirov, Ş., Neymətov, S. (2025). "ŞİMAL-1" buxar-qaz qurğusu kondensatorunun iş rejiminin analizi. *Elmi İş. Beynəlxalq Elmi Jurnal*, *19*(12), 184–190.
14. Nəsirov, Ş., Əliyeva, A., Həşimov, S. (2026). Buxar-qaz qurğularının istilik sxeminin və iş rejiminin analizi. *Elmi İş. Beynəlxalq Elmi Jurnal, 20*(1), 170–184.
15. Neymətov, S., Nəsirov, Ş. (2025). Buxar qaz qurğusunun sxeminin analizi. *Azərbaycan Ali Texniki Məktəblərinin Xəbərləri, 50*(06), 213–222.
16. Olxovskiy, G.G. (2013). Perspektivnıye gazoturbinnıye i parogazovıye ustanovkı dlya energetiki (obzor). *Teploenergetika, 2*, 3–12.
17. *Power Magazine* – History of Power: The Evolution of the Electric Generation Industry. (n.d.). https://www.powermag.com/history-of-power-the-evolution-of-the-electric-generation-industry/
18. Truxnıy, A.D. (2013). *Parogazovıye ustanovkı elektrostantsıy.* İzdatelskiy dom MEİ.
19. Tsanev, S.V., Burov, V.D., Remezov, A.E. (2011). *Gazoturbinnıye energetıçeskiye ustanovkı.* İzdatelskiy dom MEİ.
20. Tumanovskiy, A.G. (2017). Perspektivy razvitiya ugol'nykh TES Rossii. *Teploenergetika, 6*, 3–13.
21. Usova, G.İ. (2011). Analiz raboty osvoyennykh PGU na tverdom toplive. *Energosberegayushchiye tekhnologii, 1*, 257–260.
22. Zısin, L.V. (2010). *Parogazovıye i gazoturbinnıye ustanovkı.* Politeh.

Received: 08.01.2026
Approved: 14.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/180-185

Fərqan Əsədov
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
fizika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0005-0258-485X
farqanasadov@mail.ru
Eldar Mustafayev
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
magistrant
https://orcid.org/0009-0003-3764-6665
eldarmv077@gmail.com

Yüksək güclü Günəş Elektrik Stansiyalarında (GES) istismar rejimlərinin enerji səmərəliliyinə təsiri

Xülasə

Müasir enerji sistemlərində yüksək güclü Günəş Elektrik Stansiyaları (GES) bərpa olunan enerji mənbələri arasında mühüm yer tutur. Günəş enerjisi ekoloji cəhətdən təmiz və tükənməyən enerji mənbəyi olmaqla yanaşı, enerji təhlükəsizliyinin təmin olunmasına və karbon emissiyalarının azaldılmasına da mühüm töhfə verir. Son illərdə texnologiyanın inkişafı və günəş panellərinin səmərəliliyinin artması nəticəsində iri güclü Günəş Elektrik Stansiyalarının tikintisi və istismarı geniş yayılmışdır.

GES-lərin istehsal etdiyi elektrik enerjisinin həcmi yalnız quraşdırılmış gücdən asılı deyil. Enerji istehsalına istismar rejimləri, idarəetmə strategiyaları, meteoroloji şərait, günəş radiasiyasının intensivliyi və avadanlıqların texniki vəziyyəti də ciddi təsir göstərir. Xüsusilə böyük gücə malik stansiyalarda optimal iş rejiminin seçilməsi enerji istehsalının artırılmasına və sistemin ümumi səmərəliliyinin yüksəldilməsinə imkan verir.

Günəş Elektrik Stansiyalarında müxtəlif istismar rejimləri tətbiq olunur. Bunlara maksimal güc nöqtəsinin izlənməsi (MPPT) rejimi, sabit güc rejimi və enerji saxlama sistemləri ilə inteqrasiya olunmuş hibrid rejimlər daxildir. Bu rejimlərin düzgün tətbiqi günəş panellərindən maksimum enerji əldə etməyə və enerji itkilərini minimuma endirməyə imkan verir.

Bu məqalədə yüksək güclü GES-lərdə müxtəlif istismar rejimlərinin enerji səmərəliliyinə təsiri təhlil edilir, onların üstünlükləri müqayisə olunur və daha optimal istismar yanaşmaları müəyyənləşdirilir.

Açar sözlər: *günəş elektrik stansiyası, enerji səmərəliliyi, istismar rejimi, invertor, MPPT, itkilər*

Farqan Asadov
Azerbaijan State Oil and Industry University
PhD in Physics
https://orcid.org/0009-0005-0258-485X
farqanasadov@mail.ru
Eldar Mustafayev
Azerbaijan State Oil and Industry University
Master's student
https://orcid.org/0009-0003-3764-6665
eldarmv077@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Impact of Operating Modes on Energy Efficiency in High-Power Solar Power Plants

Abstract

In modern energy systems, high-power Solar Power Plants (SPPs) occupy an important place among renewable energy sources. Solar energy is an environmentally friendly and inexhaustible energy source that significantly contributes to ensuring energy security and reducing carbon emissions. In recent years, due to technological advancements and the increasing efficiency of photovoltaic panels, the construction and operation of large-scale Solar Power Plants have become widespread.

The amount of electrical energy generated by SPPs does not depend solely on the installed capacity. Energy production is also strongly influenced by operating modes, control strategies, meteorological conditions, solar radiation intensity, and the technical condition of equipment. Especially in large-capacity power plants, selecting an optimal operating mode makes it possible to increase energy generation and improve the overall efficiency of the system.

Various operating modes are applied in Solar Power Plants. These include Maximum Power Point Tracking (MPPT) mode, constant power mode, and hybrid modes integrated with energy storage systems. Proper implementation of these modes allows the system to obtain maximum energy from solar panels while minimizing energy losses.

This article analyzes the impact of different operating modes on the energy efficiency of high-power Solar Power Plants, compares their advantages, and identifies the most optimal operational approaches.

Keywords: *Solar power plant, energy efficiency, operating mode, inverter, MPPT, losses*

Giriş

Son illərdə qlobal enerji siyasətində karbon emissiyalarının azaldılması və enerji təhlükəsizliyinin artırılması məqsədilə iri güclü GES-lərin qurulması geniş vüsət almışdır. Lakin istismar təcrübəsi göstərir ki, yüksək güclü GES-lərdə real enerji istehsalı nəzəri hesablamalardan əhəmiyyətli dərəcədə fərqlənə bilər. Bu fərqin əsas səbəblərindən biri istismar rejimlərinin düzgün seçilməməsi və idarə olunmamasıdır. Buna görə də istismar rejimlərinin enerji səmərəliliyinə təsirinin öyrənilməsi aktual elmi-praktik məsələdir (Atesin, 2019).

Müasir dövrdə enerji tələbatının sürətlə artması və ənənəvi enerji mənbələrinin məhdudluğu bərpa olunan enerji mənbələrinin inkişafını zəruri etmişdir. Bu mənbələr arasında günəş enerjisi xüsusilə böyük potensiala malik olmaqla enerji sistemlərinin dayanıqlı inkişafında mühüm rol oynayır. Günəş Elektrik Stansiyaları (GES) ekoloji cəhətdən təmiz enerji istehsal etməklə yanaşı, atmosferə zərərli qaz emissiyalarını azaltmağa və enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verir. Son illərdə fotovoltaik texnologiyaların inkişafı, günəş panellərinin səmərəliliyinin artması və istehsal xərclərinin azalması nəticəsində yüksək güclü Günəş Elektrik Stansiyalarının qurulması və istismarı geniş yayılmışdır (Bagher, 2015).

Yüksək güclü GES-lərin effektiv fəaliyyəti yalnız quraşdırılmış gücdən və istifadə olunan avadanlıqların texniki göstəricilərindən asılı deyil. Elektrik enerjisinin istehsal həcmi və sistemin ümumi səmərəliliyi bir çox amillərin, o cümlədən istismar rejimlərinin, idarəetmə strategiyalarının, günəş radiasiyasının intensivliyinin, temperatur şəraitinin və digər meteoroloji faktorların təsiri altında formalaşır. Xüsusilə iri gücə malik günəş elektrik stansiyalarında düzgün seçilmiş istismar rejimi enerji istehsalının optimallaşdırılmasına, enerji itkilərinin azaldılmasına və avadanlıqların daha etibarlı işləməsinə şərait yaradır (Bajenescu, 2015).

Günəş Elektrik Stansiyalarında tətbiq olunan müxtəlif istismar rejimləri enerji istehsalının maksimum səviyyədə təmin olunmasına yönəlmişdir. Bu rejimlər arasında maksimal güc nöqtəsinin izlənməsi (MPPT) rejimi, sabit güc rejimi və enerji saxlama sistemləri ilə inteqrasiya olunmuş hibrid

rejimlər xüsusi əhəmiyyət daşıyır. Hər bir rejim enerji sisteminin xüsusiyyətlərinə və mövcud istismar şəraitinə uyğun olaraq seçilir və tətbiq olunur (Compaan, 2001).

Bu baxımdan, yüksək güclü Günəş Elektrik Stansiyalarında istismar rejimlərinin enerji səmərəliliyinə təsirinin öyrənilməsi mühüm elmi və praktiki əhəmiyyət kəsb edir. Məqalədə müxtəlif istismar rejimləri təhlil olunur, onların enerji istehsalına təsiri müqayisə edilir və Günəş Elektrik Stansiyalarının daha səmərəli istismarını təmin edən optimal yanaşmalar müəyyənləşdirilir.

Tədqiqat

Yüksək güclü GES-lərdə istismar rejimləri aşağıdakı əsas qruplara bölünür (Di Vece, 2019):

1. Nominal güc rejimi. Bu rejimdə GES maksimal günəş radiasiyası şəraitində, layihə parametrlərinə uyğun olaraq işləyir. Bu zaman panellər, invertorlar və transformatorlar optimal yüklənmə vəziyyətində olur və enerji çevrilmə səmərəliliyi maksimum səviyyəyə yaxınlaşır.

2. Qismən yüklənmə rejimi. Buludluluq, səhər və axşam saatları, mövsümi dəyişikliklər zamanı GES qismən yüklənmə rejimində işləyir. Bu rejimdə invertorların faydalı iş əmsalı azalır, daxili elektrik itkiləri isə nisbətən artır.

3. Pik yüklənmə və məhdudlaşdırma (curtailment) rejimi. Elektrik şəbəkəsinin ötürmə qabiliyyəti məhdud olduqda və ya sistem balansı pozulduqda GES-lərin gücü süni şəkildə məhdudlaşdırılır. Bu rejim enerji itkisinə və iqtisadi səmərəliliyin azalmasına səbəb olur.

4. Texniki xidmət və ehtiyat rejimi. Planlı texniki xidmət və ya qəza hallarının qarşısının alınması məqsədilə GES-in müəyyən hissələri istismardan çıxarılır. Bu isə ümumi enerji istehsalının azalması ilə nəticələnir. İstismar rejimlərinin enerji səmərəliliyinə təsiri bir neçə əsas mexanizm vasitəsilə formalaşır (Gay, 2018; Owano, 2015):

Elektrik itkiləri - qismən yüklənmə zamanı invertor və kabellərdə nisbi itkilər artır.

Temperatur təsiri - yüksək temperaturda panellərin çıxış gərginliyi azalır, bu isə ümumi faydalı gücü aşağı salır.

MPPT idarəetməsinin effektivliyi - maksimum güc nöqtəsinin izlənməsi alqoritmlərinin keyfiyyəti dəyişkən iş rejimlərində xüsusi əhəmiyyət kəsb edir.

Şəbəkə ilə uyğunlaşma - reaktiv gücün idarə olunması və gərginlik stabilliyi düzgün təmin edilmədikdə enerji itkisi yaranır.

Yüksək güclü GES-lərdə enerji səmərəliliyinin artırılması üçün aşağıdakı tədbirlər məqsədəuyğundur (Omer, 2009; Green, 2014; Nshimiyimana, 2018; Płaczek-Popko, 2017):

- yüksək səmərəli invertorların və transformatorların tətbiqi;
- iki oxlu və ya bir oxlu izləmə sistemlərinin istifadəsi;
- real vaxt rejimində monitorinq və SCADA sistemlərinin tətbiqi;
- optimallaşdırılmış texniki xidmət qrafiklərinin hazırlanması;
- enerji yığma sistemləri vasitəsilə pik yüklənmə məhdudiyyətlərinin azaldılması.

Gündəlik enerji istehsalı və itkilər balansı (100 MWp GES) üçün verilənlər (Gu, 2012):

Quraşdırılmış DC güc: P_DC = 100 MWp

Günəş resursu (POA üzrə “peak sun hours”): PSH = 5.2 saat/gün

İdeal (itkisiz) DC enerji:

$$E_{DC,ideal}=P_{DC}\times PSH=100\times 5.2=520 \text{ MWh/gün}$$

İtki payları (nümunəvi): tozlanma, uyğunsuzluq, kabellər, temperatur, əlçatanlıq, invertor, AC+transformator, şəbəkə məhdudiyyəti (curtailment).

Cədvəl 1.
İtki strukturu və qalıq əmsal

İtki mənbəyi	Pay, %	Qalıq əmsal (1−itki)
Tozlanma (soiling)	2.0	0.980
String mismatch	1.5	0.985
DC kabel itkiləri	1.5	0.985
Temperatur itkisi	7.0	0.930
Əlçatanlıq (availability)	1.0	0.990
İnvertor çevrilmə itkisi	2.5	0.975
AC kabel + transformator	1.5	0.985
Curtailment (şəbəkə məhdud.)	3.0	0.970

Ümumi qalıq əmsal:
$K=\prod(1-\text{itki})\approx 0.8155$
Deməli, real AC enerji:
$EAC=EDC,\ ideal\times K=520\times 0.8155\approx 424.1$ MWh/gün

Cədvəl 2.
Enerji balansı (gündəlik)

Göstərici	Dəyər
İdeal enerji (itkisiz)	520.0 MWh/gün
Ümumi itkilərdən sonra real enerji	424.1 MWh/gün
Ümumi nisbi itki	18.45%
Performans nisbəti (PR ≈ E_AC / E_ideal)	0.8155

İstismar rejimi “curtailment”in enerji səmərəliliyinə təsiri üçün verilənlər (Julajaturasirarath, 2012):
GES potensial olaraq günorta saatlarında 95 MW orta güc verə bilər.
Şəbəkə limitinə görə çıxış 80 MW ilə məhdudlaşdırılır.
Məhdudiyyət müddəti: 2 saat/gün
Curtailment enerji itkisi:

$$E_{curt}=(95-80)\times 2=30 \text{ MWh/gün}$$

Əgər həmin gün real istehsal (curtailment daxil) məsələn 424 MWh/gün idisə, curtailment olmasaydı (Kim, 2003; Rizwan et al., 2021; Rodriguez et al., 2021):

$$E_{no\ curt}=424+30=454 \text{ MWh/gün}$$

Cədvəl 3.
Curtailment təsiri

Göstərici	Dəyər
Şəbəkə limiti	80 MW
Potensial orta güc	95 MW
Məhdudiyyət müddəti	2 saat/gün
Curtailment itkisi	30 MWh/gün
İstehsal (curtailment ilə)	424 MWh/gün
İstehsal (curtailmentsiz)	454 MWh/gün
Curtailmentin istehsala təsiri	30/454 = 6.61%

Yüksək güclü GES-lərdə istismar rejimi kimi "curtailment" bəzən bütün texniki itkilər qədər kritik ola bilir.

İnvertorun qismən yüklənmə rejimi (part-load) — illik enerji təsirinin nəticəsi aşağıdakı kimidir. Yüksək güclü GES-lərdə invertorlar günün böyük hissəsində nominaldan aşağı yüklənmə ilə işləyir. İnvertor səmərəliliyi (η) yüklənmədən asılıdır (Li, 2019).

Enerji paylanması:
10% enerji — 10% yükdə
20% enerji — 20% yükdə
40% enerji — 50% yükdə
30% enerji — 100% yükdə
Səmərəliliklər:
η(10%)=96.0%
η(20%)=97.5%
η(50%)=98.5%
η(100%)=98.0%
Çəkili orta səmərəlilik:

$$\eta avg=0.10\cdot0.96+0.20\cdot0.975+0.40\cdot0.985+0.30\cdot0.98=0.979$$
$$\eta_{avg}=97.9\%$$

Əgər invertora daxil olan illik DC enerji E_DC,in = 180 GWh/il olsa:
EAC=EDC,in×ηavg=180×0.979=176.22 GWh/il

Cədvəl 4.
Part-load səmərəliliyi (çəkili)

Yük səviyyəsi	Enerji payı	η	Pay×η
10%	0.10	0.960	0.0960
20%	0.20	0.975	0.1950
50%	0.40	0.985	0.3940
100%	0.30	0.980	0.2940
Cəm	1.00		0.9790

İnvertor seçimi və istismar strategiyası (məs. MPPT kanallarının bölgüsü, string dizaynı) qismən yüklənmədə illik GWh səviyyəsində fərq yarada bilər.

Aparılan təhlil göstərir ki, istismar rejimləri yüksək güclü GES-lərin enerji səmərəliliyinə birbaşa və dolayı təsir göstərir. Xüsusilə qismən yüklənmə və məhdudlaşdırma rejimləri ümumi faydalı enerji istehsalının azalmasına səbəb olur. Buna baxmayaraq, düzgün idarəetmə strategiyaları və müasir texnologiyaların tətbiqi ilə bu təsirlərin minimuma endirilməsi mümkündür (Lin, 2012).

Nəticə

Nəticə olaraq qeyd etmək olar ki, yüksək güclü GES-lərdə enerji səmərəliliyinin təmin edilməsi yalnız avadanlıqların texniki göstəricilərindən deyil, həm də istismar rejimlərinin düzgün seçilməsindən və idarə olunmasından asılıdır. Optimal istismar rejimlərinin tətbiqi GES-lərin həm enerji, həm də iqtisadi effektivliyini əhəmiyyətli dərəcədə artırır və bərpa olunan enerji sistemlərinin dayanıqlı inkişafına töhfə verir.

Ədəbiyyat

1. Atesin, T. A., Bashir, S., & Liu, J. L. (2019). *Nanostructured Materials for Next-generation Energy Storage and Conversion: Photovoltaic and Solar Energy*. Springer Nature.

2. Bagher, A. M., Vahid, M. M. A., & Mohsen, M. (2015). Types of solar cells and application. *American Journal of Optics and Photonics*, *3*(5), 94–113.
3. Bajenescu, T. M. I. (2015). Present and future of photovoltaics. *Electroteh. Electron. Autom.*, *63*(1), 31.
4. Compaan, A., Deng, X., & Bohn, R. (2001). *High efficiency thin film CdTe and a-Si based solar cells: Annual Technical Report (4 March 1999 – 3 March 2000).*
5. Di Vece, M. (2019). Using Nanoparticles as a Bottom-up Approach to Increase Solar Cell Efficiency. *KONA Powder Part. J.*, 2019005.
6. Gay, D., Rogers, T., & Shirley, R. (2018). Small island developing states and their suitability for electric vehicles and vehicle-to-grid services. *Utility Policy*, *55*, 69–78.
7. Green, M. A., Ho-Baillie, A., & Snaith, H. J. (2014). The emergence of perovskite solar cells. *Nature Photonics*, *8*(7), 506–514.
8. Gu, X., Yu, X., Guo, K., Chen, L., Wang, D., & Yang, D. (2012). Seed-Assisted Cast Quasi-Single Crystalline Silicon for Photovoltaic Application: Towards High Efficiency and Low-Cost Silicon Solar Cells. *Solar Energy Materials and Solar Cells*, *101*, 95–101.
9. Julajaturasirarath, S., Jonburom, W., & Pornsuwancharoen, N. (2012). The experiment of double solar energy by reflection light method. *Procedia Engineering*, *32*, 522–530.
10. Kim, D. S., Gabor, A., Yelunder, V., Upadhyaya, A., Meemongkolkiat, V., & Rohatgi, A. (2003). String ribbon silicon solar cells with 17.8% efficiency. Paper presented at the *3rd World Conference on Photovoltaic Energy Conversion*.
11. Li, D. B., Song, Z., Awni, R. A., Bista, S. S., Shrestha, N., Grice, C. R., & Phillips, A. B. (2019). Eliminating s-kink to maximize the performance of MgZnO/CdTe solar cells. *ACS Applied Energy Materials*, *2*(4), 2896–2903.
12. Lin, W. M., Chang, K. C., Liu, Y. M., & Chung, K. M. (2012). Field surveys of non-residential solar water heating systems in Taiwan. *Energies*, *5*(2), 258–269.
13. Nshimiyimana, E. (2018). *Design of home electricity supply system using solar PV and its integration to the national grid: A case study of Masaka Village*. PAUWES.
14. Omer, A. M. (2009). Sustainable energy: Challenges of implementing renewable technologies. *Journal of Agricultural Biotechnology and Sustainable Development*, *1*(1), 1–23.
15. Owano, N. (2015). *Japan has floating solar power plants in Hyogo Prefecture*. April 24.
16. Płaczek-Popko, E. (2017). Top PV market solar cells 2016. *Opto-Electronics Review*, *25*(2), 55–64.
17. Rizwan, M., Khan, W. S., & Zaman, K. (2021). *Polycrystalline silicon solar cells. In Green Sustainable Process for Chemical and Environmental Engineering and Science*. Elsevier.
18. Rodriguez, A., Gonzalez, C., Fernandez, A., Rodriguez, F., Delgado, T., & Bellman, M. (2021). Automatic solar cell diagnosis and treatment. *Journal of Intelligent Manufacturing*, *32*(4), 1163–1172.

Daxil oldu: 05.01.2026
Qəbul edildi: 14.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/186-192

Ələkbər Heydərov
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
doktorant
https://orcid.org/0009-0001-8020-9431
elekberhydrv@gmail.com
Şəhla Bullayeva
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
https://orcid.org/0009-0009-8230-0413
shahlabullayevaa@gmail.com
Aqil Həsənov
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
https://orcid.org/0009-0000-0125-1125
aqilhasanov23@gmail.com
Qiymət Həsənova
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
https://orcid.org/0009-0006-4685-3027
giymathasanova@gmail.com

Azərbaycanın bərpa olunan enerji strategiyası: 2030 hədəflərinin texniki və maliyyə baryerləri

Xülasə

Azərbaycan Respublikası qlobal enerji keçidi prosesində ənənəvi karbohidrogen ixracatçısı statusundan "yaşıl enerji qovşağı"na çevrilmək strategiyasını həyata keçirir. Məqalə 2030-cu il hədəflərinin — bərpa olunan enerji mənbələrinin (BOEM) quraşdırılmış gücünün 30%-ə çatdırılması və istixana qazı emissiyalarının 35% azaldılması — texniki, iqtisadi və tənzimləyici baxımdan reallaşma ehtimalını tədqiq edir. Tədqiqatda IRENA, IEA, Dünya Bankı hesabatları, milli statistik məlumatlar və üç beynəlxalq şirkətin (Tetra Tech, EPRA, CESI) apardığı şəbəkə analizi nəticələrindən istifadə edilmişdir. Analiz göstərir ki, mövcud şəbəkə infrastrukturu yalnız 2 QVt-a qədər dəyişkən BOEM gücünü qəbul etmə qabiliyyətinə malikdir. Bu texniki limit sinxron ətalətin itkisi, enerji saxlama sistemlərinin (BESS) qıtlığı və coğrafi qeyri-mütənasiblik kimi fundamental maneələrlə şərtlənir. AZURE layihəsi, Virtual Güc Ötürmə Mexanizmi (VPTM) və maliyyə alətlərinin (PPA, CfD) tətbiqi bu maneələri qismən aradan qaldırsa da, 8 QVt-lıq 2032 hədəfinə nisbətən 250 MVt-lıq BESS tutumunun kəskin qeyri-mütənasibliyi sistemin tam potensialını limitləyir. Nəticə olaraq, enerji keçidinin uğuru yeni güc qurğularının paralel olaraq saxlama tutumu, şəbəkə modernizasiyası və bazar liberallaşdırılması tədbirləri ilə müşayiət edilməsindən asılıdır.

Açar sözlər: *bərpa olunan enerji, şəbəkə inteqrasiyası, enerji saxlama sistemləri, COP29, Azərbaycan enerji keçidi, BOEM, Virtual Güc Ötürmə Mexanizmi*

Alakbar Heydarov
Azerbaijan State Oil and Industry University
PhD student
https://orcid.org/0009-0001-8020-9431
elekberhydrv@gmail.com
Shahla Bullayeva
Azerbaijan State Oil and Industry University
https://orcid.org/0009-0009-8230-0413
shahlabullayevaa@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Agil Hasanov
Azerbaijan State Oil and Industry University
https://orcid.org/0009-0000-0125-1125
aqilhasanov23@gmail.com
Giymat Hasanova
Azerbaijan State Oil and Industry University
https://orcid.org/0009-0006-4685-3027
giymathasanova@gmail.com

Azerbaijan's Renewable Energy Strategy: Technical and Financial Barriers to 2030 Targets

Abstract

The Republic of Azerbaijan is implementing a strategy to transition from its traditional status as a hydrocarbon exporter to a "green energy hub" within the global energy transition process. This article examines the technical, economic, and regulatory feasibility of achieving the 2030 targets – increasing the installed capacity share of renewable energy sources (RES) to 30% and reducing greenhouse gas emissions by 35%. The study draws on reports from IRENA, IEA, and the World Bank, national statistical data, and grid analysis results conducted by three international companies (Tetra Tech, EPRA, and CESI). The analysis reveals that the existing grid infrastructure can only absorb up to 2 GW of variable RES capacity. This technical limit is conditioned by fundamental barriers such as loss of synchronous inertia, scarcity of battery energy storage systems (BESS), and geographical imbalance. Although the AZURE project, the Virtual Power Transfer Mechanism (VPTM), and financial instruments (PPA, CfD) partially address these barriers, the sharp disproportion between the 250 MW BESS capacity and the 8 GW target for 2032 limits the system's full potential. In conclusion, the success of the energy transition depends on new generation facilities being accompanied in parallel by storage capacity expansion, grid modernization, and market liberalization measures.

Keywords: *renewable energy, grid integration, energy storage systems, COP29, Azerbaijan energy transition, RES, Virtual Power Transfer Mechanism*

Giriş

Qlobal enerji keçidi prosesində Azərbaycan Respublikası ənənəvi karbohidrogen ixracatçısı statusundan inkişaf etməkdə olan "yaşıl enerji qovşağı"na keçid mərhələsini yaşayır. 2024-cü ilin noyabrında Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu tərəflər konfransı (COP29) bu çevrilməni sürətləndirən strateji dönüş nöqtəsi olmuşdur (UNFCCC, 2024). Ölkənin qarşıya qoyduğu əsas hədəf 2030-cu ilə qədər bərpa olunan enerji mənbələrinin (BOEM) quraşdırılmış gücündəki payını 30%-ə çatdırmaq və istixana qazı emissiyalarını 1990-cı illə müqayisədə 35% azaltmaqdır. Lakin hazırkı statistik göstəricilər və texniki reallıqlar bu hədəflərə çatmaq üçün həm infrastruktur, həm də bazar strukturunda köklü islahatların zəruriliyini nümayiş etdirir (Strateji Araşdırmalar Mərkəzi, 2021).

Mövcud vəziyyətin analizi göstərir ki, 2023–2024-cü illər etibarilə Azərbaycanın ümumi elektrik enerjisi istehsalı gücü 9,732.5 MVt-a çatmışdır (AŞMSC, 2025). Bu potensialın 81.2%-i (7,903 MVt) təbii qazla işləyən istilik elektrik stansiyalarının payına düşür. Bərpa olunan enerji mənbələri ümumi quraşdırılmış gücün 18.8%-ni (o cümlədən hidroenergetika daxil olmaqla) təşkil etsə də, real istehsal göstəricilərində kəskin fərq müşahidə olunur. IRENA-nın 2024-cü il hesabatına əsasən, 2023-cü ildə istehsal olunan 29.3 milyard kVt-st elektrik enerjisinin cəmi 7%-i bərpa olunan mənbələrdən əldə edilmişdir (IRENA, 2024). Bu uyğunsuzluq günəş və külək enerjisinin fasiləli təbiəti və milli elektrik şəbəkəsinin bu enerjini qəbul etmə qabiliyyətinin məhdudluğu ilə birbaşa bağlıdır.

Beynəlxalq təcrübə və IEA (Beynəlxalq Enerji Agentliyi) analizləri göstərir ki, Azərbaycanın trayektoriyası digər resurslarla zəngin iqtisadiyyatlarla (məsələn, BƏƏ, Misir, Əlcəzair) oxşarlıq təşkil edir (IEA, 2023). Azərbaycan BƏƏ-nin "Masdar" və Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətləri ilə strateji tərəfdaşlıq quraraq, 230 MVt-lıq Qaradağ GES, 445 MVt-lıq Biləsuvar və 315 MVt-lıq Neftçala layihələri vasitəsilə sürətli güc artımına nail olmağı hədəfləyir. Əgər Niderland 2016-2020-ci illər ərzində yaşıl enerji istehsalını 60% artıra bilmişdirsə, Azərbaycan da 2024–2027-ci illər aralığında 2 QVt-lıq yeni gücü şəbəkəyə inteqrasiya etməklə bənzər bir sıçrayış etməyi planlaşdırır. Rəsmi proqnozlar artıq 2030-cu ilə qədər BOEM payının hətta 38%-ə çata biləcəyini ehtimal edir.

Lakin bu ambisiyaların qarşısında ciddi texniki maneələr dayanır. Azərbaycanın yüksək gərginlikli ötürmə şəbəkəsi tarixi olaraq mərkəzləşdirilmiş və sabit qaz stansiyalarına əsaslanaraq layihələndirilmişdir. Beynəlxalq məsləhətçilərin rəyinə görə, mövcud şəbəkə üçün ilk 2 QVt-lıq yaşıl enerjinin inteqrasiyası "kritik udma eşiyi" hesab olunur. Texniki baxımdan, ənənəvi stansiyaların payı azaldıqca şəbəkədə sinxron ətalətlik itir ki, bu da sistemin dayanıqlığını təhlükə altına qoyur. Bundan əlavə, ölkədə irimiqyaslı batareya saxlama sistemlərinin (BESS) yoxluğu gündüz istehsal olunan izafi günəş enerjisinin pik saatlarda istifadəsini məhdudlaşdırır.

Bu problemlərin həlli istiqamətində Dünya Bankı tərəfindən maliyyələşdirilən 173.5 milyon dollarlıq AZURE (Azerbaijan Scaling-Up Renewable Energy) layihəsi icra olunmaqdadır (World Bank, 2023). Layihə çərçivəsində 550 km-dən çox 500 kV və 330 kV-luq yeni ötürmə xətlərinin çəkilməsi, 500/330 kV-luq Nəvahi yarım stansiyasının qurulması və SCADA sistemlərinin rəqəmsallaşdırılması nəzərdə tutulur. Paralel olaraq, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur regionları "Net Sıfır Emissiya" zonası elan edilmiş, bp tərəfindən icra olunan 240 MVt-lıq "Şəfəq" layihəsi çərçivəsində "Virtual Güc Ötürmə Düzəncəsi" (Virtual Power Transfer Arrangement) kimi innovativ modellər sınaqdan keçirilir (BP Azerbaijan, 2024).

Nəhayət, iqtisadi və tənzimləyici baryerlər də enerji keçidinin sürətinə təsir edən mühüm amillərdir. Bərpa olunan enerji (BOEM) layihələrinin ilkin kapital xərcləri yüksəkdir. İnvestorlar daxili bazarda güzəştli qiymətlərlə təklif olunan ucuz təbii qazla rəqabət aparmaq məcburiyyətində qalırlar ki, bu da layihələrin kommersiya cəlbediciliyini zəiflədən fundamental risk faktorudur. Enerji bazarının mərkəzləşdirilmiş idarəetmə strukturundan rəqabətli modelə keçidi istiqamətində 2023-cü ildə qəbul edilmiş "Elektroenergetika haqqında" yeni Qanun və 2028-ci ilə qədər nəzərdə tutulan mərhələli rəqabətli bazar modelinə mərhələli keçid strategiyası bu sahədə mövcud institusional baryerlərin aradan qaldırılmasına xidmət edir.

Təqdim olunan məqalənin məqsədi, yuxarıda qeyd olunan texniki limitləri və iqtisadi güzəştlərin yaratdığı baryerləri nəzərə alaraq, Azərbaycanın bərpa olunan enerji strategiyasının real effektivliyini təhlil etmək və 2030 hədəflərinə çatmaq üçün infrastrukturun modernizasiyası ilə bazar islahatları arasındakı qarşılıqlı asılılığı qiymətləndirməkdir.

Metodologiya. Tədqiqatda ikinci məlumat mənbələrinə əsaslanan keyfiyyət-kəmiyyət təhlili metodu tətbiq edilmişdir. Məlumat bazası üç əsas qrupdan ibarətdir: beynəlxalq təşkilatların hesabatları (IRENA, 2024; IEA, 2024; World Bank, 2024), Azərbaycan hökumətinin rəsmi strateji sənədləri (2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər) və beynəlxalq məsləhət şirkətlərinin (Tetra Tech, EPRA, CESI, 2023) şəbəkə analizi nəticələri. Kəmiyyət göstəriciləri — quraşdırılmış güc, güc əmsalları, ötürmə xətlərinin parametrləri — rəsmi statistik məlumatlardan (AŞMSC, 2025) götürülmüşdür. Müqayisəli analiz metodundan istifadə edərək Azərbaycanın enerji keçidi yolu BƏƏ, Misir və Niderland kimi oxşar ölkələrin təcrübəsi ilə müqayisə edilmişdir.

Tədqiqat

Azərbaycan Respublikasının "2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinə əsasən, milli iqtisadiyyatın dayanıqlı artımını təmin etmək məqsədilə enerji balansında bərpa olunan enerji mənbələrinin (BOEM) payının 30%-ə çatdırılması strateji hədəf olaraq müəyyən edilmişdir. Bu hədəf ölkənin enerji sisteminin karbonsuzlaşdırılması və yeni nəsil istehsal güclərinin şəbəkəyə inteqrasiyası baxımından mühüm əhəmiyyət kəsb edir.

Tədqiqat üçün formalaşdırılan xəritədən (Şəkil 1) aydın olur ki, ölkənin perspektivli BOEM layihələri əsasən üç coğrafi region üzrə paylanmışdır. Birinci region — dəniz üstü külək enerjisi potensialı ilə bağlıdır. Xəzər dənizinin Azərbaycan sektorunda müəyyən edilmiş 157 QVt-lıq (35 QVt dayaz su, 122 QVt dərin su zonası) texniki potensialın mənimsənilməsi üçün high growth scenario (yüksək artım ssenarisi) çərçivəsində 2040-cı ilə qədər 7.2 QVt gücündə isehsal obyektlərinin inşası planlaşdırılır. Hazırda "Abu Dhabi Future Energy Company" (Masdar) və "ACWA Power" şirkətləri ilə imzalanmış sazişlər bu potensialın ilkin mərhələsini əhatə edir. "ACWA Power" şirkətinin icra etdiyi 240 MVt-lıq "Xızı-Abşeron külək elektrik stansiyası layihəsi quru külək resurslarının mənimsənilməsində əsas addımdır.



Şəkil 1. Azərbaycan Respublikasında perspektivli bərpa olunan enerji layihələrinin coğrafi paylanması və şəbəkə inteqrasiyası sxemi (Mənbə: Müəllif tərəfindən Scribble Maps platformasında formalaşdırılmışdır).

Mərkəzi Aran regionunda isə günəş enerjisindən istifadə üstünlük təşkil edir. Masdar və "SOCAR Green" tərəfindən inşasına başlanılmış Biləsuvar (445 MVt) və Neftçala (315 MVt) GES layihələri regionun günəşli saatların miqdarı və intensivliyindən səmərəli istifadəni hədəfləyir (SOCAR Green, 2023). Tədqiqat çərçivəsində təhlil edilən xəritədə sarı oxlarla işarələndiyi kimi, bu stansiyalar 500/330 kV-luq "Nəvahi" yarımstansiyası vasitəsilə mərkəzi şəbəkəyə inteqrasiya olunur. Artıq fəaliyyətdə olan Qaradağ GES (230 MVt) isə ölkədə irimiqyaslı BOEM layihələrinin uğurlu tətbiq nümunəsidir.

Virtual Güc Ötürmə Mexanizmi (VPTM) ənənəvi fiziki ötürmə infrastrukturuna alternativ olaraq hazırlanmış, eksperimental-tətbiqi xarakterli rəqəmsal bir modeldir. Bu mexanizm Azərbaycanın yaşıl enerji keçidində ən mühüm texniki elementlərdən biri hesab olunur və hazırda "BP" şirkəti tərəfindən icra olunan 240 MVt gücündəki "Şəfəq" GES layihəsi çərçivəsində tətbiq edilir. Prosesin əsas mahiyyəti ondan ibarətdir ki, istehsal mənbəyi (Cəbrayıl rayonu) ilə istehlak mərkəzi (Səngəçal terminalı) arasındakı təxminən 231.89 km-lik məsafədə yeni fiziki ötürmə xətti çəkilmir. Bunun əvəzinə, şəbəkə balansı hesablamaları vasitəsilə istehsal olunan yaşıl enerji Səngəçal terminalının istehlakına ekvivalent olaraq qəbul edilir.

Bu innovativ modelin tətbiqi bir neçə mühüm strateji üstünlüyə malikdir:

- İnfrastruktur xərclərinin azaldılması: Uzun məsafəli fiziki ötürmə xətlərinin inşasına çəkilən nəhəng kapital xərclərini minimuma endirir.
- Sənaye dekarbonizasiyası: İri sənaye obyektlərinin karbonsuzlaşdırılmasında daha çevik və səmərəli yanaşma təqdim edir.
- Net Sıfır Strategiyası: İşğaldan azad edilmiş ərazilərdə elan olunmuş "Net Sıfır Emissiya" zonası strategiyasına və innovativ "Virtual Güc Ötürmə Düzəncəsi" (Virtual Power Transfer Arrangement) modellərinin sınaqdan keçirilməsinə xidmət edir.

Sistemin real vaxt rejimində tənzimlənməsi üçün güclü istehsal bazasına ehtiyac duyulur. Bu baxımdan, ölkənin onilliklər ərzində formalaşmış hidroenergetika yeni nəsil yaşıl enerji layihələri üçün mühüm tənzimləyici filtr funksiyasını yerinə yetirir. Hidroenergetika sahəsində Azərbaycanın mövcud irsi infrastrukturu (65 stansiya, ümumi gücü 1443.5 MVt) BOEM-in şəbəkədəki qeyri-sabitliyini tənzimləmək üçün baza rolu oynayır. İşğaldan azad edilmiş ərazilər daxili su ehtiyatlarının 25%-nə sahib olmaqla, rəsmi olaraq "Yaşıl Enerji Zonası" elan edilmişdir. Hazırda bu ərazilərdə

ümumi gücü 307 MVt olan 38 kiçik və orta ölçülü su elektrik stansiyası (SES) fəaliyyət göstərir. 2030-cu ilə qədər regionun ümumi yenilənən enerji gücünün 1.6 QVt-a çatdırılması proqnozlaşdırılır.

Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasının enerji sistemi artıq quraşdırılmış gücündə 44%-lik BOEM payı ilə (günəş və su enerjisi hesabına) ölkə üzrə nümunəvi model kimi çıxış edir. Perspektivdə Naxçıvanın "Yaşıl Enerji Dəhlizi" vasitəsilə Türkiyə bazarına qoşulması hədəflənir. Bu məqsədlə çəkiləcək 230 km-lik 400 kV-luq yüksək gərginlikli xətt və Naxçıvanda quraşdırılacaq ilk konverter yarımstansiyası regional enerji əlaqələrini və ixrac potensialını genişləndirəcəkdir. Yekun olaraq, Şəkil 1-də göstərilən bu şəbəkə strukturu Azərbaycanın həm daxili istehlakda karbonsuzlaşdırma, həm də beynəlxalq bazarlara çıxış strategiyasının kompleks həllini əks etdirir.

2030-cu il hədəflərinə çatmaq üçün mövcud elektrik enerjisi şəbəkəsinin texniki imkanlarının analizi strateji əhəmiyyət kəsb edir. Hazırda milli şəbəkə mərkəzləşdirilmiş və ənənəvi istilik elektrik stansiyalarına (İES) söykənən strukturdan daha çevik və paylanmış istehsal modelinə keçid mərhələsindədir. 2025-ci ilin rəsmi statistik məlumatlarına əsasən, Azərbaycanın milli elektrik şəbəkəsinin yarımstansiyalar üzrə ümumi quraşdırılmış gücü 29 714 MVA təşkil edir (Azərbaycan Respublikası Enerji Nazirliyi, AŞMSC, 2025). Mövcud arxitektura əsasən Sovet dövründə formalaşdırılmış GOST (dövlət texniki standartları və normativləri) standartlarına və mərkəzləşdirilmiş baza yükü prinsipinə əsaslanır. Sistemin əsas dayağı Mingəçevir şəhərində yerləşən, 1 880 MVt quraşdırılmış gücə malik "8 Noyabr" İES-dir. Bu obyekt regionun ən böyük istehsal gücü olmaqla, şəbəkənin baza yükünün təminatında həlledici rol oynayır. Ölkənin yüksək gərginlikli ötürmə sistemi isə 500 kV-luq ultra-yüksək gərginlikli magistral (477 km) və genişlənməkdə olan 330 kV-luq şəbəkə (1 542 km) vasitəsilə həm daxili paylanmanı, həm də regional enerji mübadiləsini tənzimləyir.

Cədvəl 1.
Azərbaycanın yüksək gərginlikli ötürmə şəbəkəsinin mövcud göstəriciləri, 2025.

Gərginlik sinfi (kV)	Xətlərin sayı	Ümumi uzunluq (km)	Yarımstansiya sayı	Transformasiya gücü (MVA)
500 kV	3	477	2	3 745
330 kV	24	1542	8	3 745
220 kV	29	1505	13	5 223
110 kV	189	4325	70	5 335

Tarixən ənənəvi istilik elektrik stansiyalarının fasiləsiz istehsalına və sabit baza yükünə uyğunlaşdırılmış Azərbaycanın elektrik şəbəkəsi hazırda dərin struktur sınağı ilə üz-üzədir. İri miqyaslı günəş və külək layihələrinin mərkəzləşdirilmiş şəbəkəyə qoşulması sadəcə qoyuluş gücünün artırılması deyil, sistemin idarəetmə fəlsəfəsinin kökündən dəyişdirilməsidir. Bu mürəkkəb keçidin təməlində yaşıl enerjinin qeyri-sabit, yəni fasiləli xarakter daşıması dayanır. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) və Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycanda günəş stansiyalarının praktik güc əmsalı 15-18%, Xəzər dənizi sektorunda dənizüstü külək enerjisinin güc əmsalı isə 43-44% aralığında dəyişir.

Bu reallıq tezliyin tənzimlənməsi və şəbəkə stabilliyi üçün indiyədək rast gəlinməmiş risklər formalaşdırır. "Tetra Tech" (ABŞ), "EPRA" (Türkiyə) və "CESI" (İtaliya) şirkətlərinin apardığı statik və dinamik şəbəkə analizləri göstərir ki, infrastrukturun əsaslı təkmilləşdirilməsi aparılmadan Azərbaycanın mövcud şəbəkəsi yalnız 2 QVt-a qədər dəyişkən BOEM gücünü qəbul edə bilər (Tetra Tech, 2023). Bu həddən sonrakı inteqrasiya sistemin dayanıqlığı üçün bir neçə fundamental texniki risk yaradır:

1. Sinxron Ətalət İtkisi: Ənənəvi İES-lərdəki nəhəng fırlanan turbinlər şəbəkədəki qəfil tezlik dəyişikliklərini udan təbii amartizator rolunu oynayır. BOEM payı artdıqca və İES-lər yükdən azad edildikcə, sistem bu həyati əhəmiyyətli ətalətdən məhrum olur.
2. Texniki Minimum Məhdudiyyəti: Köhnə texnologiyalı İES-lərin texniki minimum iş rejimləri onların qısa müddətdə çevik şəkildə söndürülüb-yandırılmasına imkan vermir. Bu da pik istehsal saatlarında yaşıl enerjinin şəbəkəyə tam qəbulunu çətinləşdirir.
3. Coğrafi Uzaqlıq: Əsas bərpa olunan enerji potensialının istehlak mərkəzlərindən uzaq olması ötürmə xətlərində yüklənmə və itki risklərini artırır.

Sistemin 2030-cu illərin hədəflərinə uyğun olaraq 8 QVt-lıq yükü təhlükəsiz qəbul edə bilməsi məqsədilə hazırda kompleks tədbirlər həyata keçirilməkdədir. Şəbəkənin stabilliyini qorumaq və ətalət itkisini kompensasiya etmək üçün 250 MVt gücündə batareya enerji saxlama sistemlərinin (BESS) quraşdırılması nəzərdə tutulur (IRENA, 2023). Bu sistemlər şəbəkədə süni ətalət yaradaraq sürətli tezlik tənzimləmə funksiyasını yerinə yetirəcəkdir. Eyni zamanda, Dünya Bankının dəstəyi ilə inşa edilən 500/330 kV-luq Nəvahi yarımstansiyası və 550 km-dən artıq yeni ötürmə xətti istehsal olunan enerjinin mərkəzi şəbəkəyə etibarlı inteqrasiyasını təmin edəcəkdir. Prosesin operativ idarə edilməsi üçün Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzi kimi yeni rəqəmsal SCADA/EMS platformaları yaradılmaqdadır.

Daxili bazarın bu nəhəng gücü tam mənimsəmə qabiliyyəti məhdud olduğundan, yaranan izafi enerjinin beynəlxalq bazarlara ixracı strateji zərurətə çevrilir. Bu məqsədlə Zəngəzur Enerji Dəhlizi vasitəsilə Türkiyəyə yönəldilən 400 kV-luq xətt Avropa şəbəkəsi standartları (ENTSO-E) ilə faza sinxronizasiyasını təmin edəcəkdir. Paralel olaraq, Xəzər–Qara dəniz–Avropa sualtı kabeli dənizüstü külək enerjisinin birbaşa Avropa İttifaqına nəqli üçün magistral yüksək gərginlikli sabit cərəyan (HVDC) xətti rolunu oynayacaqdır.

Fiziki məhdudiyyətlərlə bərabər, istehsal mənbələri ilə istehlak mərkəzləri arasındakı coğrafi qeyri-mütənasib şəbəkə infrastrukturunu əlavə yükləyir. Ən yüksək potensiala malik yeni nəsil BOEM obyektləri (məsələn, 445 MVt-lıq Biləsuvar və 315 MVt-lıq Neftçala layihələri) ölkənin əsas sənaye və əhali yükünü daşıyan Abşeron yarımadasından coğrafi cəhətdən uzaqda yerləşir. Mövcud yüksək gərginlikli ötürmə xətləri bu həcmdə mərkəzləşdirilməmiş enerjini kəskin itkilər və şəbəkə sıxlığı yaratmadan daşımaq üçün dizayn edilməmişdir. "AZURE" layihəsi çərçivəsində inşa edilən Nəvahi yarımstansiyası və 550 km uzunluğunda yeni 500/330 kV-luq xətlər bu dar boğaz problemini qismən həll etməsinə baxmayaraq, sistemin dayanıqlığı birbaşa olaraq enerji saxlama sistemlərinin infrastrukturunun inkişafından asılıdır.

2032-ci ilin 8 QVt-lıq makro hədəfi nəzərə alındıqda, 250 MVt-lıq saxlama tutumu kəskin qeyri-mütənasiblik yaradır. Əgər enerji saxlama tutumları hədəflənən BOEM qoyuluş gücünə paralel olaraq mütənasib şəkildə artırılmazsa, istehsal edilən yaşıl enerjinin məcburi kəsilməsi riskləri qaçılmaz olacaqdır.

Bu miqyasda keçidin təmin edilməsi dərin maliyyə və tənzimləyici mexanizmlərin tətbiqini tələb edir. BOEM layihələrinin ilkin kapital xərclərinin yüksək olması və ölkə daxilində güzəştli qiymətlərlə təklif olunan ucuz təbii qazla rəqabət aparmaq məcburiyyəti özəl investisiyalar üçün fundamental risk faktorudur (Yusifov, 2022). Bu maneələri aşmaq və layihələri banklar üçün cəlbedici etmək məqsədilə Azərbaycan hökuməti beynəlxalq standartlara uyğun risklərin azaldılması tədbirləri tətbiq edir. Bu çərçivədə, xarici və özəl investorlara Power Purchase Agreement (Enerjinin Satın Alınması Müqavilələri) vasitəsilə uzunmüddətli zəmanətli tariflər təklif olunur. Eyni zamanda, layihələrin iqtisadi səmərəliliyini artırmaq üçün Public-Private Partnership (Dövlət-Özəl Tərəfdaşlığı) modeli altında fəaliyyət göstərən investorlar 30 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, həmçinin, idxal olunan avadanlıqlar üzrə ƏDV-dən azad edilirlər. Qlobal təcrübədə uğurla sınaqdan çıxarılmış "Contracts for Difference" (Fərq Müqavilələri - CfD) mexanizmi və yeni yaradılmış Climate Finance Action Fund tərəfindən (İqlim Maliyyəsi Fəaliyyət Fondunun) verilən zəmanətlər bu keçidin yalnız texnoloji deyil, həm də dayanıqlı iqtisadi əsaslar üzərində formalaşmasını təmin edən həlledici metodlardır.

Nəticə

Aparılan tədqiqat göstərir ki, Azərbaycanın 2030-cu il BOEM hədəflərinə çatması texniki cəhətdən mümkündür, lakin bu yol bir sıra paralel şərtlərin ödənilməsini tələb edir. Birincisi, şəbəkənin 2 QVt-lıq "kritik udma eşiyi" yalnız Nəvahi yarımstansiyası və 550 km yeni ötürmə xətlərinin tamamlanması ilə aşıla bilər — AZURE layihəsinin vaxtında icra edilməsi bu baxımdan həlledici əhəmiyyət kəsb edir. İkincisi, 8 QVt-lıq makro hədəfə nisbətən 250 MVt-lıq BESS tutumunun kəskin qeyri-mütənasibliyi ciddi risk mənbəyidir; enerji saxlama infrastrukturu güc qurğuları ilə mütənasib templə genişləndirilməlidir.

Üçüncüsü, elektrik enerjisi tariflərinin subsidiyalaşdırılması (ÜDM-in ~5%-i) özəl investisiyalar üçün bazar siqnallarını təhrif etməkdə davam edir; 2028-ci ilə qədər nəzərdə tutulan bazarın liberallaşdırılması bu problemi sistemli şəkildə həll etmək potensialına malikdir. Naxçıvan MR-nin nümunəsi (44% BOEM payı) və Qarabağın "Yaşıl Enerji Zonası" statusu ölkə daxilində uğurlu pilot modellər kimi geniş miqyaslı tətbiq üçün əsas rolunu oynaya bilər. Bütövlükdə, Azərbaycanın enerji keçidi yolu texnoloji, maliyyə və tənzimləyici dəyişikliklərin sinxronlaşdırılmış şəkildə idarə edilməsini tələb edən kompleks bir prosesdir.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Enerji Nazirliyi. AŞMSC. (2025). *Azərbaycanın elektrik enerjisi sistemi: statistik göstəricilər*.
2. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. (2021). *2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər.*
3. BP Azerbaijan. (2024). *Shafag Solar Project: Virtual Power Transfer Arrangement Technical Report.*
4. International Energy Agency (IEA). (2024). *World Energy Outlook 2024*. IEA.
5. International Energy Agency (IEA). (2023). *Electricity Grids and Secure Energy Transitions.* IEA.
6. International Renewable Energy Agency (IRENA). (2023). *Battery Storage: A Key Enabler for the Energy Transition.* IRENA.
7. International Renewable Energy Agency (IRENA). (2024). *Renewable Power Generation Costs in 2023*. IRENA.
8. Masdar. SOCAR Green. (2023). *Biləsuvar və Neftçala GES Layihələri: Texniki Baxış.*
9. Tetra Tech Inc., EPRA, CESI. (2023). *Azerbaijan Power Grid Integration Study: Static and Dynamic Network Analysis.*
10. United Nations Framework Convention on Climate Change (UNFCCC). (2024). *COP29 Presidency Summary and Key Outcomes.* UNFCCC. https://unfccc.int/cop29
11. World Bank. (2023). *Azerbaijan Scaling-Up Renewable Energy (AZURE) Project Appraisal Document.* World Bank Group.
12. World Bank. (2024). *Tracking SDG 7: The Energy Progress Report 2024.* World Bank Group.
13. Yusifov, E., & Hasanov, R. (2022). Renewable energy development in Azerbaijan: Challenges and prospects. *Energy Policy, 168*, 113112. https://doi.org/10.1016/j.enpol.2022.113112

Daxil oldu: 06.01.2026
Qəbul edildi: 11.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/193-198

Uzeyir Yunuszadeh
Azerbaijan State University of Oil and Industry
PhD student
https://orcid.org/0009-0005-9950-5328
uzeyir.yunuszade1999@gmail.com

Technical Analysis and Optimization of the Gearbox for the SB-10 Drying Drum

Abstract

This article focuses on the drying system, a critical stage in the processing of raw cotton, which is a strategic sector in agriculture, and the primary equipment used in this process. Drying is the initial stage in cotton processing, reducing moisture to the required level and preparing the material for subsequent purification and processing steps. The main drying equipment is analyzed in detail, including its structure and operating principles, as it ensures effective moisture removal and impurity separation. The drying drum contains several mechanisms, among which the gearbox plays a key role. Its current design is technically examined, and major operational drawbacks – such as noise, vibration, energy loss, large size and weight, and sensitivity to industrial conditions – are investigated. The study evaluates the role of individual components, including gears and bearings, in the gearbox's operation, considering their advantages and limitations, and identifies criteria for proper component selection. Potential solutions to these issues are explored, and their impact on the gearbox's subsequent performance is assessed.

The research demonstrates that implementing the suggested improvements can reduce noise levels, increase energy efficiency, enhance operational reliability, and extend service life. Furthermore, accurate calculation of design coefficients ensures long-term operation of the drying drum, maintains energy balance, regulates heat and moisture distribution, and ultimately leads to high-quality processed cotton.

Keywords: *drying process, SB-10 drying drum, gearboxes, theoretical calculations, modernization*

Üzeyir Yunuszadə
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
doktorant
https://orcid.org/0009-0005-9950-5328
uzeyir.yunuszade1999@gmail.com

SB-10 tipli quruducu baraban üçün reduktorun texniki təhlili və optimallaşdırılması

Xülasə

Məqalədə kənd təsərrüfatında strateji sahələrdən olan xam-pambığın emal prosesinin əsas mərhələlərindən olan qurudulma sistemindən və bu işi aparan əsas avadanlığa diqqət yetirilir, buna səbəb emaldan alınan məhsulların sənayenin bir çox yerlərində tətbiqinə ehtiyac duyulur. Xam-pambığın emalı prosesində ilkin mərhələ qurudulma prosesidir, bu rejimdə tətbiq edilən əsas quruducu avadanlıq detallı formada (quruluşu, işləmə prinsipi) analiz edilir, çünki bu qurğu xam-pambığın nəmliyinin tələb oluan səviyyəyə gətirilib, tərkibində olan zibillərdən təmizlənməsi üçün digər mərhələyə yönləndirilir.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Quruducu cihazda bir çox mexanizmlər mövcud olub, əsas mexanizmlərindən biri olan quruducu barabanın reduktorunun mövcud konstruksiyası texniki baxımdan təhlil edilmiş və istismar zamanı yaranan əsas çatışmazlıqlar (səs-küy, vibrasiya, enerji itkisi, böyük ölçü və çəki, sənaye mühitinə həssaslıq) araşdırılmışdır. Bu mexanizm avadanlığın davamlı və etibarlı olaraq işləməsində mühümdür. Reduktoru təşkil edən hissələrin (dişli çarxlar, yastıqlar və s.) onun işləmə prinsipindəki rolu, mənfi və müsbət tərəflərinə baxılır və bu hissələrin düzgün seçilməsində bir sıra parametrlərə və şərtlərə fikir verilir. Yarana biləcək problemlərin həlli yolu üçün bir sıra tətbiqlərə nəzər yetirilir və bu həll üsullarının reduktorun daha sonra işləməsində ola biləcək təsirlərə baxılır. Ümumilikdə aparılan tədqiqat göstərir ki, təklif edilən dəyişikliklərin tətbiqi reduktorun səs-küy səviyyəsinin azalmasına, enerji səmərəliliyinin yüksəlməsinə, istismar etibarlılığının və xidmət müddətinin artırılmasına şərait yaradır, bundan əlavə hesablamalarda tələb olunan əmsallar avadanlıq üçün dəqiq hesablanarsa, quruducu barabanın daha uzunmüddətli işləməsi təmin edilər, enerji balansı tənzimlənər, istilik mübadiləsi nəmlik üçün müntəzəm nizamlanar və sonda keyfiyyətli məhsul əldə olunar.

Açar sözlər: *qurutma prosesi, SB-10 quruducu baraban, reduktorlar, nəzəri hesablamalar, modernləşdirmə*

Introduction

When raw cotton enters processing, its moisture content is usually 15-25%, which must be reduced to around 8-10% for high-quality products. Drying is one of the most energy-intensive and critical stages in cotton processing. Both mechanical and thermal energy are applied to remove excess moisture, with mechanical power transmitted to components such as the drum, conveyors, and fans Gearbox transmission systems are essential in this context, ensuring the coordinated motion of all components and maintaining uniform heat and mass transfer (Rakhmonov & Fayziev, 2020). Proper selection and adaptation of these mechanisms significantly enhance the energy efficiency, reliability, and effectiveness of the drying process (Ismayilov, 2019). Various equipment types are used for drying raw cotton, generally consisting of a rotating cylindrical drum, drive mechanism, and support structure. Dryers are typically classified as drum-type, vertical, or belt-type, with drum-type being the most common due to higher productivity, uniform drying, energy efficiency, and ease of maintenance. Among these, the 2SB-10 drying unit (Figure 1) is widely applied in industrial cotton processing (Gulyaev, 2017; Jamolov et al., 2020; Jamolov & Shodmonkulov, 2022). Its operation involves feeding material into the drum, where it is lifted by internal flights and exposed to hot air. The heat evaporates the moisture, achieving the desired level, after which the material proceeds to the next stage of processing.

Figure 1. Drying equipment (2SB-10)

Drying equipment is generally equipped with six main mechanisms:

- Gas burner (burner unit) – generates the hot air flow required for the drying process;
- Drum – one of the principal components where the drying process takes place;
- Fan or ventilation system – ensures the controlled circulation of hot air inside the system;
- Belt drive and gearbox systems – transmit motion from the motor to the drum;
- Sensors – regulate temperature and moisture levels during the drying process;
- Filtration unit – removes fine impurities contained in the cotton.

The main technical specifications of the SB-10 drying drum are presented in

Table 1. Main parameters of the SB-10 drying unit.

No	Parameter	Unit	Value
1	Drum diameter	Mm	3200
2	Drum length	Mm	13000
3	Rotational speed	Rpm	10
4	Maximum drying temperature	°C	250
5	Total capacity	kg/h	700

It should be noted that these values may vary for other types of drying equipment depending on process requirements. However, for the SB-10 drying system, these parameters are considered standard and fundamental (Rahimov, 2022).

Research

A gearbox is primarily a mechanical system designed to transmit rotational motion through various mechanisms. In general, its main function is to reduce angular velocity while simultaneously increasing torque. In drying drums, the gearbox operates as an integral part of the transmission system, ensuring the continuous and stable operation of the equipment. Within such systems, gearboxes are typically installed in two possible configurations: either after the belt transmission or directly between the motor and the drum (Figure 2) (Gulyaev, 2017; Norton, 1999; Budynas & Nisbett, 2015).



Figure 2. Gearbox of the 2SB-10 Drying Drum

Here, L denotes the length; A, B, and C represent the width parameters; and H indicates the height.

The main functions of the gearbox in this process are as follows:

- To reduce the high rotational speed generated by the motor;
- To increase the torque required for the process;
- To minimize energy losses and suppress vibrations during operation.

It should be noted that, in the SB-10 drying drum, the gearbox is used to rotate the heavy cylindrical drum continuously and uniformly at the required speed. This directly affects both the drying time and the quality of the final product (Budynas & Nisbett, 2015).

As can be seen from the technical drawing, the gearbox consists of six main components, each performing a specific function:

1. Input shaft – receives rotational energy from the motor and transfers motion to the gear system, as the motor operates at high speed.

2. Output shaft – transmits the increased torque to the drum, initiating its rotation. At this stage, speed decreases while torque increases.

3. Gears – may be spur or helical; their primary function is to reduce rotational speed and amplify torque.

4. Housing – encloses all gearbox components and protects internal parts, particularly gears, from dust and moisture present in the working environment.

5. Bearings – support both input and output shafts, ensuring stable and accurate rotation.

6. Lubrication system – provides lubrication to critical components such as gears and bearings, reducing friction and facilitating uniform heat dissipation.

The operating principle of the gearbox in drying equipment follows a sequential process. Initially, the motor rotates the input shaft of the gearbox. The input shaft then drives the internal gear system. During this transmission, rotational speed is reduced while torque is increased. The amplified torque is subsequently transmitted to the output shaft, causing the drum to rotate. This rotation ensures uniform heat distribution within the drum and contributes to efficient drying of the material (Norton, 1999; Rahimov, 2022).

Gearbox systems used in drying processes exhibit both advantages and disadvantages, which in turn reveal certain limitations of the system.

Advantages:

1. High torque transmission – as rotational speed decreases within the gearbox, torque increases, enabling stable rotation of the drum.

2. Speed regulation – when the motor operates at high speed, the gearbox ensures a controlled and constant rotational speed of the drum.

3. Durability and reliability – with proper selection of gears and bearings, the equipment can operate efficiently over an extended period.

4. Low maintenance requirements – the use of robust housing materials and timely lubrication contributes to the long service life of gear components.

5. Stable and safe operation – ensures uniform heat distribution and improves the overall effectiveness of the drying process.

Disadvantages:

1. High initial cost – gearboxes used in industrial drying systems are relatively expensive, and their installation also involves significant costs.

2. Large size and weight – gearboxes are typically heavy and bulky, which complicates installation and maintenance procedures.

3. Noise generation – due to high torque transmission and gear interaction, considerable noise may occur during operation.

4. Energy losses – minor energy losses are inevitable during the drying process.

5. Sensitivity to industrial environment – high temperatures, dust, humidity, and harsh operating conditions can negatively affect the performance and service life of the gearbox (Geareducer Repair Manual SERIES 22.2/22.3).

The primary parameters characterizing a gearbox are the transmission ratio, torque, and rotational speed.

The transmission ratio of the gearbox is defined as:

$$i_r = \frac{n_{in}}{n_{out}}$$

The increase in torque is expressed as:

$$M_{out} = M_{in} \cdot i_r \cdot \eta_r$$

where

η_r – represents the efficiency of the gearbox (typically within the range of 0.92–0.97) (Reduktor Ц2У-355Н і 1Ц2У-355Н, n.d.).

To eliminate the identified drawbacks in the gearbox of the SB-10 drying drum, several design improvements should be considered.

One of the main issues is the reduction of noise and vibration. This problem primarily arises from the interaction of gear teeth under high torque conditions. In this regard, replacing spur gears with helical gears can significantly reduce noise levels, as helical gears provide smoother engagement.

Regarding energy losses, the key factor is friction reduction (Leyu et al., 2023). Applying specialized surface coatings (e.g., nitrided coatings) to gear teeth and ensuring effective lubrication can substantially minimize energy losses. Another critical issue is the large size and complexity of gearbox installation (Repairing Gears, 2022). Designing the gearbox in a modular configuration would allow individual components to be assembled separately, simplifying maintenance and installation procedures. Furthermore, the use of lightweight materials such as aluminum alloys or advanced polymer composites for certain components can reduce overall weight.

The implementation of these improvements would decrease operational interruptions in the gearbox system and ensure more reliable performance of the equipment. As a result, product quality would improve, while maintenance and operational costs would be reduced (Budynas & Nisbett, 2015).

Conclusion

As discussed above, the negative factors associated with gearbox operation directly influence the performance of the equipment. This, in turn, may lead to delays in the processing stage and a reduction in product quality. If the necessary design considerations are properly addressed and an optimized gearbox is developed, both the service life of the equipment and the efficiency of the processing operation can be significantly improved.

The obtained results indicate that:

1. Heat generated during the drying process is distributed more uniformly and consistently;
2. Energy consumption is minimized;
3. Mechanical reliability and durability of the drying equipment are enhanced;
4. The overall quality of the final product is improved.

In addition, gearbox calculations must be carefully considered during the design phase, particularly in relation to its interaction with other components of the drying system, such as the belt drive. Key parameters – including motor power, torque, transmission ratios, and energy losses – should be comprehensively determined. This is important because, during operation and especially under heavy load conditions, stress concentrations may occur within the gearbox. Excessive loading can lead to wear or even failure of gear elements. Therefore, detailed engineering calculations are essential during the design process.

References

1. Budynas, R.G. & Nisbett, J.K. (2015). *Mechanical Engineering Design (tenth edition)*.
2. *Geareducer Repair Manual SERIES*. (2022). Handbook.
3. Gulyaev, R.A. (2017). Advanced Equipment and Technology of Primary Processing of Cotton and Estimation of its Quality. *International Journal*, 2–5.
4. Ismayilov, E. (2019). *Ways to increase the energy efficiency of cotton processing equipment*. Elm.
5. Jamolov, R. et al. (2020). *Development of resource-saving drying technology and its implementation in production.* NTO, Paxtasanoatilmiymarkazi (cotton industry scientific center) JSC.
6. Jamolov, R.K., Shodmonkulov, A.M. (2022). Improvement of the Drive of the Dryer 2SB-10 in order to Reduce its Energy Vonsumption. *American Journal of Interdisciplinary Research and Development*, 64–67.
7. Leyu, W., Xinmeng, L., Yang, J., Shangguan, L., Wang, X., Mao, J. (2023). Failure analysis anda optimization design of suspension support holes for gearbox cases. *Journal of theoretical anda applied mechanics, 61*(3), 533–544.
8. Norton, R.L. (1999). *Design of Machinery (an introduction to the synthesis and analysis of mechanisms and machines).* Worcester Polytechnic Institute Worcester.
9. Rahimov, T. (2022). Application of gearboxes and belt drives in cotton drying machines. *Journal of Technical Sciences, 4*(2), 56–63.

10. Rakhmonov, K. & Fayziev, S. (2020). Study of Effect of Speed and Temperature of the Drying. *International Journal of Emerging Trends in Engineering Research, 8*(10), 7008–7013.
11. *Repairing Gears*. (2022, 17 iyun). https://illinoispulleyandgear.com/blogs/blog/repairing-gears
12. *Reduktor Ц2У-355Н i 1Ц2У-355Нmym.* (n.d.). https://slemz.com.ua/reductory/cylindricheskie/reductor-c2y/reductor-c2u-355n

Daxil oldu: 04.01.2026
Qəbul edildi: 07.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/199-204

Seymur Allahyarli
Baku State University
Master's student
https://orcid.org/0009-0001-1948-9235
seymurallahyarli@gmail.com

The Role of Digital Shelf Management in Driving Consumer Engagement

Abstract

This article extensively analyzes the impact of digital window management on consumer behavior. The research shows that in the modern era, an effective digital window is not limited merely to product display; rather, it is a complex system aimed at optimizing user experience and attracting the attention of potential customers. In this regard, the quality of visual design, the presentation of personalized content, and the application of interactive elements significantly influence consumers' decision-making processes. At the same time, the article emphasizes the practical use of digital windows, innovative approaches applied on online platforms, and the importance of utilizing digital tools for the sustainable development of businesses.

Keywords: *digital shelf management, consumer behavior, e-commerce, personalization, interactive content, brand image, online platforms, digital transformation, customer loyalty, market strategy*

Seymur Allahyarlı
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0001-1948-9235
seymurallahyarli@gmail.com

İstehlakçıların cəlb edilməsində rəqəmsal rəflərin idarə edilməsinin rolu

Xülasə

Bu məqalə rəqəmsal vitrin (digital shelf) idarəçiliyinin istehlakçı davranışına təsirini geniş şəkildə təhlil edir. Tədqiqat göstərir ki, müasir dövrdə effektiv rəqəmsal vitrin yalnız məhsulun nümayişi ilə məhdudlaşmır, əksinə istifadəçi təcrübəsini optimallaşdırmağa və potensial müştərilərin diqqətini cəlb etməyə yönəlmiş kompleks bir sistemdir. Bu baxımdan, vizual dizaynın keyfiyyəti, fərdiləşdirilmiş məzmunun təqdim olunması və interaktiv elementlərin tətbiqi istehlakçıların qərarvermə prosesinə əhəmiyyətli dərəcədə təsir göstərir. Eyni zamanda, məqalədə rəqəmsal vitrinlərin praktiki istifadəsi, onlayn platformalarda tətbiq edilən innovativ yanaşmalar və bizneslərin dayanıqlı inkişafı üçün rəqəmsal alətlərdən istifadənin əhəmiyyəti vurğulanır.

Açar sözlər: *rəqəmsal vitrin idarəçiliyi, istehlakçı davranışı, elektron ticarət, fərdiləşdirmə, interaktiv məzmun, brend imici, onlayn platformalar, rəqəmsal transformasiya, müştəri loyallığı, bazar strategiyası*

Introduction

The rapid evolution of digital technologies has significantly transformed retail environments and consumer behavior. One of the most influential developments in this context is the emergence of the digital shelf, which refers to the online representation of products across e-commerce platforms, search engines, and digital marketplaces.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Unlike traditional physical shelves, digital shelves are dynamic, data-driven, and highly personalized environments that directly influence consumer decision-making processes.

In the future, digital shelf strategies will play an increasingly critical role in shaping how consumers interact with products, evaluate alternatives, and complete purchasing decisions. These strategies include not only product visibility but also data management, personalization, ethical design, and technological integration (Laudon & Laudon, 2020). As digital ecosystems become more complex, effectiveness will depend on balancing technological innovation with human-centered design principles.

Consumer Psychology and Decision-Making**.** A key component of future digital shelf strategies is the integration of consumer psychology into digital environments. Consumer decision-making is influenced by emotional, cognitive, and behavioral factors rather than purely rational evaluation (Lemon & Verhoef, 2016). Therefore, understanding how consumers process digital information is essential for effective strategy development.

Digital environments provide extensive product data such as descriptions, reviews, and comparisons. While this increases transparency, it may also lead to cognitive overload, reducing decision quality (Grewal et al., 2017). Information overload can result in decision fatigue, where consumers struggle to make efficient choices.

To address this issue, future digital shelf systems must prioritize structured and simplified information presentation. Clear layouts, guided navigation, and prioritized content can improve usability and reduce cognitive burden, leading to more efficient decision-making processes (Wedel & Kannan, 2016).

Digital Simplicity and Information Overload. The principle of digital simplicity is becoming increasingly important in e-commerce environments. As the number of available products and data points increases, consumers often face difficulties in processing information effectively (Brynjolfsson et al., 2013).

Research

Digital simplicity does not mean reducing information but optimizing its structure. Hierarchical content organization and visual summarization techniques help users access relevant information quickly. Recommendation systems further reduce complexity by filtering irrelevant alternatives and presenting personalized options (Wedel & Kannan, 2016). In this context, simplicity becomes a strategic advantage, improving both user experience and conversion rates (Chaffey & Ellis-Chadwick, 2019).

Ethical Considerations in Digital Shelf Strategies. Ethical concerns are increasingly relevant in digital environments. The use of consumer data for personalization raises issues related to privacy, transparency, and manipulation (Huang & Rust, 2021).

Data privacy is a central concern, as consumers often lack full awareness of how their data is collected and used. Transparent communication and compliance with data protection regulations are essential for building trust (Kotler et al., 2021).

Additionally, algorithm-driven marketing systems may unintentionally encourage impulsive purchasing behavior. Ethical digital shelf design should therefore prioritize consumer well-being alongside commercial objectives (Huang & Rust, 2021).

Transparency in product representation, including verified reviews and accurate information, further strengthens consumer trust and long-term brand relationships (Chen & Xie, 2008).

Localization and Cultural Adaptation. Global digital platforms operate across diverse cultural environments, making localization a key strategic requirement. Consumer behavior varies significantly across regions due to cultural, linguistic, and economic differences (Laudon & Laudon, 2020).

Localization includes adapting language, visuals, pricing strategies, and content structure to local markets. This ensures that digital shelf presentations align with consumer expectations and cultural norms (Kotler et al., 2021). Effective localization enhances engagement and trust, increasing the likelihood of consumer acceptance in different markets (Chaffey & Ellis-Chadwick, 2019).

Artificial Intelligence and Predictive Analytics**.** Artificial intelligence (AI) and big data analytics play a transformative role in digital shelf strategies. These technologies enable firms to analyze large datasets and predict consumer behavior patterns (Huang & Rust, 2021). AI systems support personalized recommendations, demand forecasting, and real-time optimization of product visibility. This allows companies to move from reactive to proactive decision-making models (Wedel & Kannan, 2016). Machine learning algorithms also enhance search ranking systems and recommendation engines, improving user experience and engagement (Grewal et al., 2017).

Digital Shelf as an Educational Platform. The digital shelf is increasingly functioning as an educational platform in addition to a sales channel. Consumers seek not only product availability but also detailed knowledge about usage, features, and value (Kotler et al., 2021).

Educational content such as tutorials, guides, and comparison tools enhances consumer understanding and supports informed decision-making. This improves trust and satisfaction, leading to stronger brand relationships (Lemon & Verhoef, 2016).

Sustainability and Corporate Responsibility. Sustainability has become an important factor in consumer decision making. Consumers increasingly prefer brands that demonstrate environmental and social responsibility (Kotler et al., 2021).

Digital shelf strategies can support sustainability by providing transparent information about sourcing, production processes, and environmental impact. This transparency influences purchasing behavior and strengthens brand credibility (Chen & Xie, 2008; Turuk, 2020). Encouraging sustainable consumption patterns also contributes to long-term market value and brand loyalty (Grewal et al., 2017).

Digital shelf strategies should be viewed as dynamic systems that continuously evolve. Rapid technological development and changing consumer expectations require constant adaptation (Laudon & Laudon, 2020).

Continuous optimization, real-time data analysis, and adaptive algorithms ensure that digital shelf systems remain effective in competitive environments (Wedel & Kannan, 2016; Santos et al., 2022; Strauss & Frost, 2014). Flexibility and innovation are therefore essential for long-term success in digital commerce ecosystems.

IoT Şlüzləri üçün təhlükəsizlik. Təhdidlər daha mürəkkəbləşdikcə, müəssisələr qoşulmuş cihazlarını qorumaq üçün IoT şlüz təhlükəsizliyindən istifadə edirlər. Bu tip sistemlər cihazların internetə necə daxil olduğunu idarə edir və viruslar kimi zərərli proqramların şəbəkə yollarını ələ keçirməsinin qarşısını alır (Morgan, 2020). Təhlükəsiz Veb Şlüz və digər alətlər tətbiqləri idarə etmək, şifrələnmiş veb trafikini skan etmək, uzaqdan baxış sessiyalarını təcrid etmək və veb sayt ünvanlarını yoxlamaq kimi vacib xüsusiyyətlər təklif edir. Müəssisələr bulud platformalarına və ofis xaricindən girişə daha çox güvəndikcə bu təbəqələr getdikcə daha vacib hala gəlir. Onlar ağıllı cihazları xaricdən və ya korporativ şəbəkələrin daxilindən gələn hücumlardan qoruyur və onlayn mübadilə ilə bağlı riskləri azaldır (Schiller et al., 2022).

Bulud API-ləri üçün təhlükəsizlik. IoT cihazları bulud əsaslı API-lər vasitəsilə bir-birinə qoşulduqda, məlumatları asanlıqla paylaşa bilərlər. Bu bağlantılar əməliyyatlar üçün çox vacib olduğundan, tək bir zəif nöqtə çoxlu məlumatın sızmasına səbəb ola bilər. Bu riskləri azaltmaq üçün doğrulama addımları, şifrələnmiş köçürmələr, rəqəmsal açarlar və trafik nəzarətçiləri kimi təhlükəsizlik tədbirlərindən istifadə olunur. Veb API təhlükəsizlik tədbirləri məlumatları şəbəkələr arasında hərəkət edərkən qoruyur. REST tipli interfeyslər, həmçinin, aparat və mərkəzi bölmələr arasında göndərilən məlumatları qorumaq üçün qarışıq üsullardan istifadə edir. Bu giriş nöqtələrinin nə qədər yaxşı idarə olunması, əlaqəli mühitlərin nə qədər sabit olduğunu tez-tez müəyyən edir.

Ayrı-ayrı hissələrlə təhlükəsiz şəbəkə qurmaq. Şəbəkədə düzgün giriş nəzarətinin qurulması təhlükəsizliyin ilk addımıdır. Bu qaydalar tətbiq edildikdən sonra yalnız etibarlı və təsdiqlənmiş avadanlıqlar daxil ola bilər (Fortinet, 2023). Müdafiənin ilk addımı güclü bir firewall-a sahib olmaqdır. Bundan sonra, istifadəçilər daxil olmağa çalışdıqda cihazları qoruyan çoxfaktorlu identifikasiya (MFA) kimi şeylər vasitəsilə müdafiə güclənir. Doğrulama açarlarının qorunması təhlükəsizliyin ilk addımıdır və yeni antivirus vasitələri təhdidlərin yayılmasından əvvəl qarşısını almağa kömək edə bilər (Schiller et al., 2022). Bir cihaz sıradan çıxdıqda, seqmentləşdirilmiş şəbəkələr pozuntuları erkən dayandıraraq zərəri məhdudlaşdırır. Trafik izləmək qəribə davranışlar göstərə bilər ki, bu da tez-tez bir şeyin səhv olduğunun ilk əlamətidir. İzolyasiya təcavüzkarları yavaşlatır ki, bu da sistemlərə özləri cavab vermək üçün vaxt verir.



Şəkil 3, etibar zonalarını və onların qoruyucu sərhədlərini göstərməklə IoT təhlükəsizliyinin necə işlədiyini göstərir.

Məlumatların qorunması və şifrələnməsi. Çox vaxt nəzərə alınmasa da, fayllar bağlantılar arasında, xüsusən də onlayn və ya cihazlar arasında hərəkət edərkən məlumatların qarışdırılması çox vacibdir. Ağıllı cihazlara gəldikdə, məlumatların kilidlənməsi adətən həm paylaşılan açarlı, həm də ikili açarlı sistemlərdən istifadə etmək deməkdir. Bir metod məzmunu gizlətmək və göstərmək üçün eyni kodlardan istifadə edir, digəri isə daha güclü qoruma təmin etmək üçün qoşalaşmış, lakin fərqli açarlardan - biri açıq, digəri isə gizli - istifadə edir (Anedda et al., 2023). Rəqəmsal seyflərdə və ya fiziki disklərdə saxlanılan həssas məlumatları qorumaq üçün etibarlı təhdid aşkarlama proqramına, müasir virus qorunmasına və IoT risklərini erkən aşkar etmək üçün trafiki canlı izləyən vasitələrə ehtiyacınız var.

Nəticə

Təchizat zəncirinin yoxlanılması və firmware mənşəyi. Şirkətlər komponentlərin haradan gəldiyini sübut edən sübutlar, təsdiqlənmiş proqram təminatı mənbələri və ətraflı proqram təminatı inventarları tələb etdikdə, təchizat zəncirləri daha aydın olur. Onlar həmçinin qüsurları bildirmək üçün eyni metodlardan istifadə etməlidirlər. Çoxlu sayda problemi olan sistemlər üçün müqavilələr formatların istifadəsini tələb etməlidir. Təchizatçılar daha aydın görə bildikdən sonra problemləri erkən mərhələdə tapmaq və həll etmək daha asan olur.

Ədəbiyyat

1. Arif, H., Ali, A. K. S., & Nabi, H. A. (2025). IoT Security through ML/DL: Software Engineering Challenges and Directions. *ICCK Journal of Software Engineering*.
2. Anedda, M., Floris, A., Girau, R., Fadda, M., & Ruiu, P. (2023). *Privacy and Security Best Practices for IoT Solutions*. IEEE Access.
3. Alnaim, A.K. (2023). *Securing 5G virtual networks: a critical analysis of SDN, NFV, and network slicing security*.
4. Fortinet. (2023). *IoT Security Best Practices? How To Protect IoT Devices*. https://www.fortinet.com/resources/cyberglossary/iot-best-practices
5. IEEE Xplore. (2021). *A survey on emerging SDN and NFV security mechanisms for IoT systems*.
6. Jurcut, A. D., Ranaweera, P., & Xu, L. (2020). *Introduction to IoT security, IoT security: advances in*.
7. Maned, V. R., Rath, S., & et al. (2026). *Enhancing IoT security through cloud-assisted post-quantum authentication: a case study with UOV signatures*. Scientific Reports.
8. Morgan, S. (2020). *Cybercrime to Cost The World $10.5 Trillion Annually By 2025*.
9. MDPI Sensors. (2021). *Semantic-Eware Security Orchestration in SDN/NFV-Enabled IoT Systems*.
10. MDPI Sensors. (2022). *Prospect of Internet of Medical Things: A Review on Security Requirements and Solutions*.
11. Prince, N. U., Al Mamun, M. A., Olajide, A. O., & Sani, A. (2024). IEEE Standards and Deep Learning Techniques for Securing Internet of Things (IoT) Devices Against Cyber Attacks. *Journal of Computer Science and Technology*.
12. *Security Scorecard*. (2024). LapDogs. The New ORB in Town.
13. Schiller, E., Aidoo, A., Fuhrer, J., Stahl, J., & Ziörjen, M. (2022). *Landscape of IoT security, Computer Science*.

Daxil oldu: 08.01.2026
Qəbul edildi: 10.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/217-221

Ayxan Məmmədli
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
https://orcid.org/0009-0008-8043-1519
aykhanmammadli0@gmail.com

Kiber təhlükəsizlikdə süni intellektin tətbiqi və onun effektivliyinin təhlili

Xülasə

Müasir informasiya cəmiyyətində rəqəmsal texnologiyaların sürətli inkişafı ilə paralel olaraq kiber təhlükələrin miqyası və mürəkkəbliyi əhəmiyyətli dərəcədə artmışdır. Ənənəvi kiber təhlükəsizlik sistemləri əsasən əvvəlcədən müəyyən edilmiş qaydalar və imza əsaslı yanaşmalar üzərində qurulduğundan, yeni və dinamik hücumlara qarşı effektiv müdafiə təmin etməkdə çətinlik çəkir. Bu səbəbdən süni intellekt texnologiyalarının kiber təhlükəsizlik sahəsində tətbiqi son illərdə xüsusi aktuallıq qazanmışdır.

Bu məqalədə süni intellektin kiber təhlükəsizlik sahəsində tətbiqi imkanları, istifadə olunan əsas metodlar və onların effektivliyi təhlil edilir. Xüsusilə maşın öyrənməsi və dərin öyrənmə modellərinin hücumların aşkarlanması, anomaliyaların müəyyən edilməsi və təhlükələrin proqnozlaşdırılması sahəsində rolu araşdırılır. Tədqiqat nəticəsində müəyyən edilir ki, süni intellekt əsaslı yanaşmalar ənənəvi metodlarla müqayisədə daha yüksək dəqiqlik və adaptivlik təmin edir.

Bununla yanaşı, süni intellekt sistemlərinin tətbiqi ilə bağlı bəzi məhdudiyyətlər və risklər, o cümlədən yanlış pozitiv nəticələr, məlumat keyfiyyətindən asılılıq və adversarial hücumlar da nəzərdən keçirilir. Məqalənin nəticəsi olaraq, süni intellektin kiber təhlükəsizlik sahəsində perspektivli və effektiv bir alət olduğu, lakin onun optimal istifadəsi üçün kompleks yanaşmanın vacibliyi vurğulanır.

Açar sözlər: *süni intellekt, kiber təhlükəsizlik, maşın öyrənməsi, hücum aşkarlanması, anomaliya analizi, dərin öyrənmə*

Aykhan Mammadli
Azerbaijan State University of Economics
Master's student
https://orcid.org/0009-0008-8043-1519
aykhanmammadli0@gmail.com

Application of Artificial Intelligence in Cybersecurity and Analysis of its Effectiveness

Abstract

In the modern information society, the rapid development of digital technologies has significantly increased the scale and complexity of cyber threats. Traditional cybersecurity systems, which are primarily based on predefined rules and signature-based approaches, often struggle to effectively detect and prevent new and evolving attacks. Therefore, the application of artificial intelligence (AI) in cybersecurity has gained significant importance in recent years.

This article analyzes the application of AI in cybersecurity, focusing on key methods and their effectiveness. In particular, the role of machine learning and deep learning models in threat detection, anomaly identification, and predictive analysis is examined. The study reveals that AI-based approaches provide higher accuracy and adaptability compared to traditional methods.

However, several limitations and risks associated with AI systems are also discussed, including false positives, dependency on data quality, and adversarial attacks.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

The findings highlight that while AI is a powerful and promising tool in cybersecurity, its effective implementation requires a comprehensive and balanced approach.

Keywords: *artificial intelligence, cybersecurity, machine learning, intrusion detection, anomaly detection, deep learning*

Giriş

Müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı kiber təhlükəsizlik məsələlərini qlobal səviyyədə aktual problemlərdən birinə çevirmişdir. İnternet, bulud texnologiyaları və IoT sistemlərinin geniş yayılması informasiya mühitinin həm həcmini, həm də mürəkkəbliyini artırmış, nəticədə kiber hücumların sayı və müxtəlifliyi əhəmiyyətli dərəcədə artmışdır. Xüsusilə fidyə proqramları, fişinq hücumları və məlumat sızmaları həm təşkilatlar, həm də fərdi istifadəçilər üçün ciddi risk yaradır (ENISA, 2022; Microsoft, 2022).

Ənənəvi təhlükəsizlik sistemləri əsasən imza və qayda əsaslı yanaşmalara əsaslanır və yalnız məlum hücumları aşkar etməkdə effektivdir. Lakin müasir hücumların dinamik xarakter daşıması bu sistemlərin effektivliyini azaldır və daha çevik texnologiyalara ehtiyac yaradır.

Bu baxımdan süni intellekt kiber təhlükəsizlik sahəsində mühüm rol oynayır. AI sistemləri böyük həcmli məlumatları analiz edərək anomaliyaları müəyyən edə, hücumları proqnozlaşdıra və real vaxt rejimində təhlükələri aşkar edə bilir (Sarker, 2021).

Bu məqalənin məqsədi süni intellektin kiber təhlükəsizlik sahəsində tətbiq imkanlarını təhlil etmək və onun üstünlükləri ilə məhdudiyyətlərini qiymətləndirməkdir.

Tədqiqat

Süni intellekt və kiber təhlükəsizlik anlayışı. Süni intellekt kompüter sistemlərinin öyrənmə, analiz və qərarvermə kimi funksiyaları yerinə yetirməsini təmin edən texnologiyalar toplusudur. Onun əsas istiqamətləri olan maşın öyrənməsi və dərin öyrənmə böyük həcmli məlumatların emalı və nümunələrin müəyyən edilməsi üçün geniş istifadə olunur.

Kiber təhlükəsizlik sahəsində süni intellekt sistemləri şəbəkə trafiki və istifadəçi davranışlarını analiz edərək normal və qeyri-normal fəaliyyətləri müəyyən edə bilir. Ənənəvi yanaşmalardan fərqli olaraq, bu sistemlər yalnız məlum hücumlarla məhdudlaşmır və yeni təhlükələrin aşkarlanmasına imkan yaradır.

Dərin öyrənmə modelləri mürəkkəb məlumat strukturlarını analiz edərək daha yüksək dəqiqlik təmin edir və kompleks hücum nümunələrinin müəyyən edilməsində istifadə olunur (Russell və Norvig, 2021; McAfee Labs, 2021).

Beləliklə, süni intellekt kiber təhlükəsizlikdə daha çevik və adaptiv yanaşma təqdim edərək müasir təhlükələrə qarşı effektiv müdafiə imkanı yaradır.

AI əsaslı hücum aşkarlama sistemləri. Kiber təhlükəsizlik sistemlərində hücumların vaxtında aşkarlanması mühüm əhəmiyyət daşıyır. Ənənəvi intrusion detection və prevention sistemləri əsasən imza əsaslı işlədiyindən yalnız məlum hücumları müəyyən edə bilir və yeni təhlükələrə qarşı məhdud effektivlik göstərir.

Süni intellekt əsaslı sistemlər isə normal və anormal davranışları analiz edərək bu yanaşmanı daha da inkişaf etdirir. Bu sistemlər böyük həcmli məlumatları emal edərək əvvəllər məlum olmayan, xüsusilə *zero-day* tipli hücumları aşkar edə bilir.

Anomaliya əsaslı yanaşma sistemin normal fəaliyyətini öyrənərək ondan kənara çıxan halları təhlükə kimi qiymətləndirir və dinamik mühitlərdə daha effektiv hesab olunur. Dərin öyrənmə modelləri isə mürəkkəb hücum nümunələrinin müəyyən edilməsində yüksək dəqiqlik təmin edir.

Süni intellekt sistemlərinin əsas üstünlüklərindən biri real vaxt rejimində işləməsidir. Bu isə hücumların erkən mərhələdə aşkarlanmasına və qarşısının alınmasına imkan yaradır. Bununla yanaşı, sistemlərin effektivliyi istifadə olunan məlumatların keyfiyyətindən asılıdır və bəzi hallarda yanlış nəticələr yarana bilər (Buczak və Guven, 2016; Goodfellow və b., 2016).

Cədvəl 1.
Ənənəvi və süni intellekt əsaslı təhlükəsizlik sistemlərinin müqayisəsi

Xüsusiyyət	Ənənəvi sistemlər	Süni intellekt əsaslı sistemlər
Aşkarlama üsulu	İmza və qayda əsaslı	Anomaliya və öyrənmə əsaslı
Yeni hücumlara uyğunlaşma	Məhdud	Yüksək
Real vaxt analizi	Məhdud	Effektiv
Dəqiqlik	Orta	Yüksək
Adaptivlik	Zəif	Güclü
Avtomatlaşdırma	Az	Yüksək

Cədvəldən göründüyü kimi, süni intellekt əsaslı sistemlər daha yüksək adaptivlik və effektivlik təmin edir.

Süni intellektin kiber təhlükəsizlikdə tətbiq sahələri. Süni intellekt texnologiyaları kiber təhlükəsizlik sahəsində müxtəlif istiqamətlərdə tətbiq olunur və müasir təhlükə mühitində sistemlərin daha çevik və effektiv fəaliyyət göstərməsinə imkan yaradır.

Əsas tətbiq sahələrindən biri zərərli proqramların (*malware*) aşkarlanmasıdır. Süni intellekt modelləri proqramların davranışını analiz edərək yeni və dəyişkən təhlükələri müəyyən edə bilir və bu, xüsusilə mürəkkəb *malware* növlərinə qarşı effektiv müdafiə təmin edir.

Fişinq hücumlarının aşkarlanması da AI-nin geniş istifadə olunduğu sahələrdəndir. Süni intellekt sistemləri e-poçt məzmunu və URL strukturlarını analiz edərək şübhəli fəaliyyətləri müəyyən edir və bu hücumların qarşısının alınmasına kömək edir.

Bundan əlavə, süni intellekt şəbəkə trafikinin monitorinqində istifadə olunur. Sistemlər böyük həcmli məlumatları real vaxt rejimində analiz edərək normal davranışdan kənara çıxan halları müəyyən edir və potensial təhlükələri erkən mərhələdə aşkar etməyə imkan yaradır (Shaukat və b., 2020; Bishop, 2006; Sommer & Paxson, 2010).

Süni intellekt əsaslı kiber təhlükəsizlik sistemlərinin üstünlükləri. Süni intellekt əsaslı kiber təhlükəsizlik sistemləri ənənəvi yanaşmalarla müqayisədə bir sıra mühüm üstünlüklərə malikdir. Bu üstünlüklər əsasən sistemlərin adaptivliyi, sürətli işləməsi və böyük həcmli məlumatları emal etmə qabiliyyəti ilə bağlıdır.

Əsas üstünlüklərdən biri adaptivlikdir. AI modelləri yeni məlumatlar əsasında öyrənərək dəyişən hücum növlərinə uyğunlaşa bilir. Bu xüsusiyyət dinamik kiber mühitdə onların effektivliyini artırır.

Digər mühüm üstünlük real vaxt rejimində analiz imkanlarıdır. Süni intellekt sistemləri böyük həcmdə məlumatları sürətlə emal edərək təhlükələri operativ şəkildə müəyyən edə bilir. Bu isə hücumların erkən mərhələdə qarşısının alınmasına kömək edir.

Bundan əlavə, AI sistemləri böyük verilənlərlə işləmək qabiliyyətinə malikdir. Müxtəlif mənbələrdən toplanan məlumatlar analiz edilərək gizli nümunələr və əlaqələr aşkar edilir ki, bu da daha dəqiq nəticələr əldə etməyə imkan verir.

Süni intellect, həmçinin, təhlükəsizlik proseslərinin avtomatlaşdırılmasını təmin edir. Bu, insan müdaxiləsini azaldır və sistemlərin daha effektiv işləməsinə şərait yaradır.

Araşdırmalar göstərir ki, süni intellekt texnologiyalarının tətbiqi təhlükəsizlik sistemlərinin ümumi effektivliyini artırır və aşkarlama dəqiqliyini yüksəldir (IBM Security, 2025; NIST, 2018).

Süni intellekt əsaslı kiber təhlükəsizlik sistemlərinin problemləri və riskləri. Süni intellekt texnologiyaları kiber təhlükəsizlik sahəsində mühüm üstünlüklər təqdim etsə də, onların tətbiqi müəyyən problemlər və risklərlə də müşayiət olunur. Bu problemlərin nəzərə alınmaması sistemlərin effektivliyinə mənfi təsir göstərə bilər.

Əsas çətinliklərdən biri yanlış pozitiv və yanlış neqativ nəticələrin yaranmasıdır. Süni intellekt modelləri bəzən normal fəaliyyəti təhlükə kimi qiymətləndirə və ya əksinə, real hücumları müəyyən edə bilməyə bilər. Bu isə sistemin etibarlılığını azalda bilər.

Digər mühüm məsələ modellərin məlumatlardan asılılığıdır. Təlim üçün istifadə olunan məlumatlar qeyri-dəqiq və ya balanssız olduqda modelin nəticələri də düzgün olmaya bilər. Bu isə qərarların keyfiyyətinə birbaşa təsir edir.

Süni intellekt sistemləri, həmçinin, adversarial hücumlara qarşı həssas ola bilər. Bu tip hücumlar zamanı modellər manipulyasiya edilərək yanlış nəticələr verməyə məcbur edilir.

Bundan əlavə, bu texnologiyaların tətbiqi yüksək hesablama resursları tələb edir və bəzi hallarda izaholunma problemi yaradır. Xüsusilə mürəkkəb modellərdə qərarların necə qəbul edildiyini izah etmək çətin olur.

Bu səbəbdən süni intellekt sistemlərinin effektiv istifadəsi üçün mövcud risklərin nəzərə alınması və onların düzgün idarə olunması vacibdir (Sarker, 2021; Kaspersky, 2024).

Nəticə

Müasir dövrdə kiber təhlükələrin artması təhlükəsizlik sistemlərinin daha çevik və effektiv olmasını tələb edir. Ənənəvi yanaşmalar müəyyən hallarda faydalı olsa da, onların məhdudiyyətləri müasir hücumlara qarşı tam müdafiə təmin etmir. Bu baxımdan süni intellekt texnologiyalarının tətbiqi kiber təhlükəsizlik sahəsində mühüm əhəmiyyət kəsb edir.

Bununla yanaşı, süni intellekt təhlükəsizlik proseslərinin avtomatlaşdırılmasına şərait yaradır və sistemlərin daha operativ işləməsini təmin edir. Bu isə həm vaxt itkisinin qarşısını alır, həm də ümumi təhlükəsizlik səviyyəsini artırır.

Lakin bu texnologiyanın tətbiqi ilə bağlı bəzi problemlər də mövcuddur. Məlumat keyfiyyətindən asılılıq, yanlış nəticələr və modellərin izah olunması ilə bağlı çətinliklər nəzərə alınmalıdır. Bu səbəbdən süni intellektin tətbiqi kompleks yanaşma tələb edir.

Nəticə olaraq, süni intellekt kiber təhlükəsizlik sahəsində effektiv və perspektivli bir vasitədir. Onun düzgün tətbiqi daha etibarlı və çevik təhlükəsizlik sistemlərinin qurulmasına imkan yaradır.

Ədəbiyyat

1. Bishop, C. M. (2006). *Pattern Recognition and Machine Learning*. Springer.
2. Buczak, A. L., & Guven, E. (2016). A Survey of Data Mining and Machine Learning Methods for Cyber Security Intrusion Detection. *IEEE Communications Surveys & Tutorials*, *18*(2), 1153–1176. https://doi.org/10.1109/COMST.2015.2494502
3. ENISA. (2022). *ENISA threat landscape 2022*. https://www.enisa.europa.eu/publications/enisa-threat-landscape-2022
4. Goodfellow, I., Bengio, Y., & Courville, A. (2016). *Deep learning*. MIT Press.
5. IBM Security. (2025). *Cost of a Data Breach Report 2025*. https://www.ibm.com/reports/data-breach
6. Kaspersky. (2024). *Kaspersky Incident Response Report 2023*. https://securelist.com/kaspersky-incident-response-report-2023/
7. McAfee Labs. (2021). *McAfee Labs Threats Report, April 2021*.
8. Microsoft. (2022). *Microsoft Digital Defense Report 2022*. https://cdn-dynmedia-1.microsoft.com/is/content/microsoftcorp/microsoft/final/en-us/microsoft-brand/documents/microsoft-digital-defense-report-2022.pdf?culture=en-us&country=us
9. NIST. (2018). *Framework for improving critical infrastructure cybersecurity*. https://nvlpubs.nist.gov/nistpubs/cswp/nist.cswp.04162018.pdf
10. Russell, S., & Norvig, P. (2021). *Artificial Intelligence: A Modern Approach*. Pearson.
11. Sarker, I.H., Furhad, M.H. & Nowrozy, R. (2021). AI-Driven Cybersecurity: An Overview, Security Intelligence Modeling and Research Directions. *SN Computer Science*, *2*, 173. https://doi.org/10.1007/s42979-021-00557-0

12. Shaukat, K., Alam, T. M., Hameed, I. A., et al. (2020). A Survey on Machine Learning Techniques for Cyber Security in the Last Decade. *IEEE Access*, *8*, 222310–222331. https://ieeexplore.ieee.org/document/9277523
13. Sommer, R., & Paxson, V. (2010). Outside the Closed World: On Using Machine Learning for Network Intrusion Detection. *IEEE Symposium on Security and Privacy*, 305–316. https://doi.org/10.1109/SP.2010.25

Daxil oldu: 04.01.2026
Qəbul edildi: 14.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/222-226

Ləman Əlizadə
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
magistrant
https://orcid.org/0009-0006-4303-6013
leman.alizadeh03@gmail.com

Ədədi modelləşdirmə üsulları əsasında neft layları arasında hidrodinamik əlaqənin qiymətləndirilməsi və tətbiq perspektivləri

Xülasə

Çoxlaylı neft kollektorlarında laylararası hidrodinamik əlaqənin düzgün qiymətləndirilməsi hasilatın stabilliyi, su basmanın tempi və çıxarıla bilən ehtiyatların həcmi üçün həlledicidir. Məqalədə ədədi modelləşdirmənin bu problemin öyrənilməsində rolu sistemləşdirilir, geoloji və mühəndis məlumatlarının rəqəmsal rezervuar modelinə inteqrasiyası izah olunur və transmissivlik, kommunikasiya əmsalı, təzyiq davranışı, sonlu fərqlər məntiqi və history matching əsasında laylararası əlaqənin necə interpretasiya edildiyi göstərilir. Tədqiqatda həm riyazi düsturlar, həm müqayisəli cədvəllər, həm də qrafik və sxematik təsvir vasitəsilə zəif, orta və güclü hidrodinamik əlaqənin hasilata təsiri şərh olunur. Nəticə olaraq müəyyən edilir ki, ədədi modelləşdirmə yalnız mövcud əlaqəni aşkar etmir, həm də su vurma planlarının hazırlanması, yeni quyuların yerləşdirilməsi, erkən su basmanın qarşısının alınması və EOR layihələrinin əsaslandırılmasına praktik dəstək verir.

Açar sözlər: *ədədi modelləşdirmə, hidrodinamik əlaqə, neft layları, rezervuar simulyasiyası, transmissivlik, history matching*

Laman Alizadeh
Azerbaijan State Oil and Industry University
Master's student
https://orcid.org/0009-0006-4303-6013
leman.alizadeh03@gmail.com

Evaluation of Hydrodynamic Relationship Between Oil Layers Based on Numerical Modeling Methods and Application Prospects

Abstract

In multilayer oil reservoirs, correct assessment of interlayer hydrodynamic communication is essential for production stability, water breakthrough control, and recoverable reserves. This article systematizes the role of numerical modeling in evaluating such communication and explains how geological and engineering data are integrated into a digital reservoir model. Transmissibility, communication coefficient, pressure behavior, finite-difference logic, and history matching are summarized as key tools for interpretation. Mathematical expressions, comparison tables, a production-pressure graph, and a schematic interlayer-flow model are incorporated to clarify the numerical framework. The study shows that numerical modeling supports not only the detection of communication but also waterflood design, well placement, early water breakthrough prevention, and EOR planning. Reliable digital representation of interlayer interaction therefore improves both technical decisions and economic efficiency in reservoir management.

Keywords: *numerical modeling, hydrodynamic communication, oil reservoir layers, reservoir simulation, transmissibility, history matching*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

Müasir neft sənayesində çoxlaylı yataqların idarə olunması yalnız ayrı-ayrı layların xassələrinin öyrənilməsi ilə məhdudlaşmır; laylar arasında baş verən qarşılıqlı təsirin də qiymətləndirilməsi tələb olunur. Bir layda təzyiqin azalması, su vurulması və ya hasilatın intensivləşməsi digər layların hidrodinamik rejimini dəyişdirə bilər. Bu cür təsir düzgün müəyyən edilmədikdə su basma sürətlənir, təzyiq qeyri-bərabər paylanır və texnoloji qərarların dəqiqliyi azalır (Ahmed, 2019; Dake, 2001).

Ənənəvi geoloji və geofiziki üsullar əlaqənin mövcudluğu barədə ilkin təsəvvür yaratsa da, mürəkkəb çoxlaylı sistemlərdə prosesin dinamik mahiyyətini tam açа bilmir. Bu səbəbdən rəqəmsal rezervuar modelləri müasir yataq idarəetməsində əsas alətlərdən birinə çevrilmişdir. Məqalənin məqsədi ədədi modelləşdirmə üsulları ilə laylararası hidrodinamik əlaqənin qiymətləndirilməsini, riyazi əsasını və praktiki tətbiq istiqamətlərini sistemli şəkildə təqdim etməkdir. Bu inteqrasiya yanaşması mürəkkəb sistemlərin rəqəmsal təsviri üçün əsas nəzəri və praktik baza yaradır (Aziz və Settari, 2002; Peaceman, 2000).

Tədqiqat

Laylararası hidrodinamik əlaqənin mahiyyəti. Çoxlaylı yataqlarda hidrodinamik əlaqə təzyiq impulsunun bir laydan digərinə ötürülməsi və zəif keçirici aralıq qat vasitəsilə faktiki maye-qaz miqrasiyası kimi iki formada təzahür edir. Buna görə də əlaqənin qiymətləndirilməsi yalnız geoloji yaxınlıqla deyil, dinamik reaksiya ilə əsaslandırılmalıdır (Lake, 2014).

Transmissivlik və kommunikasiya əmsalı bu baxımdan əsas göstəricilərdir. Şaquli keçiricilik yüksəldikcə, aralıq qat nazik və təzyiq fərqi böyük olduqda laylararası axın artır; qalın və zəif keçirici maneələr isə əlaqəni zəiflədir. Bu göstəricilər mühəndis interpretasiyasının mərkəzində dayanır (Ertekin və b., 2001).

Ədədi modelləşdirmənin nəzəri bazası və əsas düsturlar. Ədədi hidrodinamik modelləşdirmənin əsasını Darcy qanunu, kütlənin saxlanması qanunu və sonlu fərqlər məntiqi təşkil edir. Aşağıdakı sadələşdirilmiş ifadələr laylararası əlaqənin ədədi təsvirində geniş istifadə olunur. Bu düsturların məntiqi reservoir simulation və təzyiq davranışının ədədi təhlilində geniş istifadə olunur (Ahmed, 2019; Peaceman, 2000; Fanchi, 2018).

$$q_{12} = T_{12} (p_1 - p_2)$$

$$T_{12} = (k_v \cdot A) / (\mu \cdot \Delta z)$$

$$C = T_{12} / T_{ref}$$

$$(p^{n+1}_i - p^{n}_i)/\Delta t = [T_i + 1/2 (p^{n+1}_{i+1} - p^{n+1}_i) - T_i - 1/2 (p^{n+1}_i - p^{n+1}_{i-1})] / (\varphi \cdot c_t \cdot V)$$

$$J = \Sigma_t [w_q (q_{sim} - q_{obs})^2 + w_p (p_{sim} - p_{obs})^2]$$

Burada q_{12} laylararası axını, T_{12} transmissivliyi, p_1 və p_2 uyğun lay təzyiqlərini, k_v şaquli keçiriciliyi, A əlaqə sahəsini, μ özlülüyü, Δz isə laylararası məsafəni göstərir. Sonlu fərqlər tənliyi grid hüceyrələrində təzyiqin addım-addım hesablanmasını, history matching isə modelin müşahidə məlumatları ilə kalibrləşdirilməsini ifadə edir. Bu parametrlər modelin kalibrləşdirilməsi və laylararası axının şərhi üçün baza rolunu oynayır (Aziz və Settari, 2002; Peaceman, 2000).

Mini hesab nümunəsi: k_v = 5 mD, A = 2000 m², μ = 1.5 cP və Δz = 10 m olduqda transmissivlik nisbəti $T_{12} \approx 666.7$ olur. Təzyiq fərqi 30 bar qəbul edilərsə, q_{12} təxminən 20 001 nisbi vahidə çatır. Bu nəticə təzyiq fərqi böyüdükcə laylararası axının kəskin gücləndiyini göstərir. Bu sadə nümunə transmissivlik artdıqca və təzyiq fərqi böyüdükcə laylararası əlaqənin gücləndiyini göstərir (Ahmed, 2019).

Laylararası əlaqənin müəyyən edilmə metodlarının müqayisəsi. Klassik üsullar əlaqənin ilkin qiymətləndirilməsi üçün vacibdir, lakin mürəkkəb sistemlərdə onlar ənənəvi məlumatları rəqəmsal

model ilə birlikdə istifadə etdikdə daha etibarlı nəticə verir. Bu səbəbdən onlar ən çox ədədi modelləşdirmə ilə birgə tətbiq edilir (Ahmed, 2019; Earlougher, 1977; Dake, 2001).

Cədvəl 1.

Laylararası hidrodinamik əlaqənin müəyyən edilmə metodlarının müqayisəsi

Metod	Üstünlüklər	Məhdudiyyətlər	Tətbiq sahəsi
Təzyiq müşahidələri	Davamlı monitorinq imkanı;uzunmüddətli məlumat bazası yaradır	Lay heterogenliyi nəticələrə təsir edə bilər; dolayı qiymətləndirmədir	Yatağın ümumi hidrodinamik rejiminin izlənməsi
Quyu sınaqları	Lay keçiriciliyi və hidravlik əlaqə haqqında daha dəqiq məlumat verir	Bahalı və vaxt aparan prosesdir	Ayrı-ayrı quyular üzrə əlaqənin qiymətləndirilməsi
Pressure transient analysis	Riyazi modellər əsasında yüksək dəqiqlik; transmissivlik və kommunikasiya əmsalı hesablanır	Yüksək keyfiyyətli məlumat və peşəkar interpretasiya tələb edir	Kompleks çoxlaylı yataqların təhlili
Tracer üsulu	Laylararası axının istiqaməti və sürəti birbaşa müəyyən edilir	Xərcli və texnoloji baxımdan mürəkkəbdir	Laylararası miqrasiyanın sübutu və axın yollarının təyini

Mənbə: Ahmed, T. (2019), Earlougher, R. C. (1977) və Dake, L. P. (2001) əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Diskretləşdirmə və grid əsaslı model. Reservuar simulyasiyası qurularkən geoloji lay minlərlə və ya milyonlarla hüceyrədən ibarət üçölçülü şəbəkəyə bölünür. Hər bir hüceyrəyə məsaməlilik, keçiricilik, qalınlıq, təzyiq və doymuşluq kimi parametrlər təyin edilir. Grid modelinin düzgün qurulması simulyasiya nəticələrinin etibarlılığı üçün həlledici amildir (Aziz və Settari, 2002; Fanchi, 2018).



Şəkil 1. Layın diskretləşdirilməsi və grid əsaslı rezervuar modelləşdirmə prinsipi

Mənbə: Aziz, K., & Settari, A. (2002) əsasında hazırlanmışdır.

Hesablamalar, qrafik interpretasiyası və praktiki tətbiq. History matching mərhələsində model nəticələri faktiki hasilat, lay təzyiqi, su kəsimi və quyu sınaqları ilə müqayisə olunur. Şaquli keçiricilik, nisbi keçiricilik əyriləri, sərhəd şərtləri və laylararası əlaqə parametrləri tənzimlənərək model real yataq davranışına maksimum yaxınlaşdırılır. Bu mərhələdə qrafik interpretasiya mühüm

rol oynayır: əgər hasilat artdıqca təzyiq azalması nisbətən stabil və idarəolunan qalırsa, bu, laylararası təzyiq dəstəyinin mövcudluğunu göstərə bilər (Earlougher, 1977; Peaceman, 2000).



Qrafik 1. Simulyasiya ssenarisində lay təzyiqi ilə hasilatın nisbi dinamikası

Mənbə: Ahmed, T. (2019) və Peaceman, D. W. (2000) çərçivəsində qurulmuş nümunəvi simulyasiya məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qrafikdən göründüyü kimi, hasilat tədricən artdıqca lay təzyiqi azalır, lakin azalma sürətinin sabit qalması laylararası hidrodinamik əlaqə nəticəsində təzyiq dəstəyinin mövcudluğunu ehtimal etməyə imkan verir. Bu cür qrafiklər su vurma proqramlarının seçilməsi və erkən su basma riskinin qiymətləndirilməsi üçün praktik əhəmiyyət daşıyır.

Cədvəl 2.
Ədədi hidrodinamik modelləşdirmənin tətbiq sahələri və əsas faydaları

Tətbiq sahəsi	Təsviri	Əsas faydalar
Hasilatın optimallaşdırılması	Müxtəlif işlənmə ssenarilərinin simulyasiyası və ən effektiv rejimin seçilməsi	Hasilatın stabilləşdirilməsi, neftverimin artırılması, iqtisadi səmərəlilik
Su vurma planının hazırlanması	Laylararası axınların və təzyiq paylanmasının modelləşdirilməsi	Erkən su basmanın azaldılması, təzyiqin effektiv saxlanması
Quyuların yerləşdirilməsi	Yeni quyular üçün optimal zonaların müəyyən edilməsi	İnvestisiya riskinin azalması, əlavə ehtiyatların cəlb edilməsi
EOR layihələrinin planlaşdırılması	Su, qaz və kimyəvi üsulların əvvəlcədən simulyasiyası	Neftverimin artırılması, yatağın istismar müddətinin uzadılması
Laylararası əlaqənin idarə olunması	Hidrodinamik əlaqənin gücünün qiymətləndirilməsi	Təzyiq balansının qorunması, hasilatın stabilləşdirilməsi

Mənbə: Ahmed, T. (2019), Dake, L. P. (2001), Cosentino, L. (2001) və Green, D. W., & Willhite, G. P. (1998) əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Nəticə

Praktik baxımdan ədədi modelləşdirmənin dörd əsas üstünlüyü seçilir: hasilat ssenarilərinin müqayisəsi, su vurma proqramlarının qabaqlayıcı planlaşdırılması, yeni quyuların optimal yerləşdirilməsi və EOR layihələrinin risklərinin əvvəlcədən qiymətləndirilməsi. Azərbaycan

yataqlarında, xüsusilə Abşeron və Xəzər hövzəsi üzrə çoxlaylı və heterogen kollektorlar üçün bu yanaşma texnoloji qərarların dəqiqliyini artırır (Cosentino, 2001; Green və Willhite, 1998).

Zəif keçirici aralıq qat vasitəsilə əlaqənin sxematik modeli. İki üfüqi yerləşmiş I və II lay zəif keçiriciliyə malik aralıq qat vasitəsilə ayrıldıqda, II laydan I laya doğru maye süzülməsi nəticəsində hidrodinamik əlaqə formalaşa bilər. Bu halda I lay üçün sərhəd şərti aralıq qatın keçiriciliyi, qalınlığı və iki lay arasındakı təzyiq fərqi ilə müəyyən edilir. Belə sxematik model laylararası peretokun interpretasiyası və modelləşdirmə sərhəd şərtlərinin qurulması üçün faydalıdır. Bu sxem laylararası axının sərhəd şərti kimi necə qurulduğunu nümayiş etdirir (Dake, 2001; Aziz və Settari, 2002).



Şəkil 2. Zəif keçirici aralıq qat vasitəsilə iki üfüqi lay arasında hidrodinamik əlaqənin sxematik modeli

Mənbə: Dake, L. P. (2001) və Aziz, K., & Settari, A. (2002) əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ədəbiyyat

1. Ahmed, T. (2019). *Reservoir Engineering Handbook*. Gulf Professional Publishing.
2. Aziz, K., & Settari, A. (2002). *Petroleum Reservoir Simulation*. Applied Science Publishers.
3. Blunt, M.J. (2017). *Multiphase Flow in Permeable Media: A Pore-Scale Perspective*. Cambridge University Press.
4. Cosentino, L. (2001). *Integrated Reservoir Studies*. Editions Technip.
5. Craft, B. C., Hawkins, M., & Terry, R. (1991). *Applied Petroleum Reservoir Engineering*. Prentice Hall.
6. Dake, L.P. (2001). *Fundamentals of Reservoir Engineering*. Elsevier.
7. Earlougher, R.C. (1977). *Advances in Well Test Analysis*. SPE Monograph Series.
8. Ertekin, T., Abou-Kassem, J. H., & King, G. R. (2001). *Basic Applied Reservoir Simulation*. SPE Textbook Series.
9. Ezekwe, N. (2010). *Petroleum Reservoir Engineering Practice*. Pearson.
10. Fanchi, J.R. (2018). *Principles of Applied Reservoir Simulation*. Elsevier.
11. Green, D.W., & Willhite, G.P. (1998). *Enhanced Oil Recovery*. Society of Petroleum Engineers.
12. Horne, R.N. (1995). *Modern Well Test Analysis*. Petroway Inc.
13. Lake, L.W. (2014). *Enhanced Oil Recovery*. Society of Petroleum Engineers.
14. Mattax, C.C., & Dalton, R.L. (1990). *Reservoir Simulation*. SPE Monograph Series.
15. Muskat, M. (1982). *The Flow of Homogeneous Fluids Through Porous Media*. McGraw-Hill.
16. Peaceman, D.W. (2000). *Fundamentals of Numerical Reservoir Simulation*. Elsevier.
17. Tiab, D., & Donaldson, E.C. (2015). *Petrophysics: Theory and Practice of Measuring Reservoir Rock and Fluid Transport Properties*. Gulf Professional Publishing.
18. Willhite, G.P. (1986). *Waterflooding*. Society of Petroleum Engineers.

Daxil oldu: 01.01.2026
Qəbul edildi: 10.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/227-230

Aysel Nəsirova
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
https://orcid.org/0009-0008-4480-7451
aysel.nasirova@asoiu.edu.az

Elektrofiziki xassələrin və optik şüalanmanın polimer Nano-Selen əsaslı kompozitə təsiri

Xülasə

Müasir elektronikanın ən aparıcı sahələri olan optoelektronikanın və fotoelektronikanın əsas işlək hissələri sayılan işıq qəbuledicilərinin və işıq enerjisini elektrik enerjisinə çevirən elementlərin hazırlanmasındakı uğurlar ilk növbədə həmin elementlərin hazırlanması üçün istifadə olunan yeni materialların yaradılması ilə təyin olunur. İndiki dövrdə artıq bu tip materialların çeşidi çox genişdir və onların sırasına mövcud olan yarımkeçiricilər əsasında yaradılmış yeni fotohəssas materiallar; müxtəlif funksiyalı polyar polimerlər əsasındakı maraqlı fotoelektrik xassələrə malik olan yeni üzvi materiallar; üzvi matrisalı (polimer matrisalı) və işığahəssas yarımkeçirici fazalı kompozitlər), müxtəlif matrisalardan ibarət nanostrukturlu kompozitlər və sair daxildir.

Bu istiqamətdə aparılan tədqiqat işlərində əldə olunan nəticələrin təhlili göstərir ki, son zamanlar müxtəlif komponentli (fazalı) və heterogen struktura malik olan fotohəssas polimer kompozitlərə, o cümlədən, nano ölçülü qatqıları olan kompozitlərə maraq xüsusilə artmışdır.

Məqalədə müxtəlif polimer materiallardan matrisası və fotohəssas nano yarımkeçiricilərdən qatqısı olan polimer-nano yarımkeçirici kompozitlərin elektrik keçiriciliyinə işığın təsiri tədqiq edilib. Alınmış təcrübi nəticələrin müqayisəli təhlili nəticəsində müşahidə olunan asılılıqların fiziki mahiyyəti aydınlaşdırılıb.

***Açar sözlər**: kompozit, polimer, nanomaterial, yarımkeçirici*

Aysel Nasirova
Azerbaijan State Oil and Industry University
https://orcid.org/0009-0008-4480-7451
aysel.nasirova@asoiu.edu.az

Effect of Electrophysical Properties and Optical Radiation on a Polymer Nano-Selenium-Based Composite

Abstract

Success in the development of light detectors and elements that convert light energy into electrical energy – the core working components of optoelectronics and photoelectronics, the leading fields of modern electronics – is primarily determined by the creation of new materials used for their fabrication. At present, the range of such materials is very wide, and includes new photosensitive materials created on the basis of existing semiconductors; new organic materials with interesting photoelectric properties based on polar polymers with various functionalities; organic-matrix (polymer-matrix) and light-sensitive semiconductor-phase composites, nanostructured composites consisting of various matrices, and so on.

An analysis of the results obtained in research in this area shows that recently, interest has particularly increased in photosensitive polymer composites with multi-component (multiphase) and heterogeneous structures, including those with nanoscale fillers.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

This article investigates the effect of light on the electrical conductivity of polymer-nano semiconductor composites, which have matrices of various polymer materials and are doped with photosensitive nano semiconductors. The physical nature of the observed dependencies was clarified through a comparative analysis of the experimental results obtained.

Keywords: *composite, polymer, nanomaterial, semiconductor*

Giriş

Üzvi və qeyri-üzvi materiallarda olduğu kimi, polimer-nano yarımkeçirici kompozitlərdə də elektrik keçiriciliyinin yaranmasında həlledici rol oynayan əsas amil materialın növündən asılı olmayaraq müxtəlif tip elektron keçidləri hesabına materialın keçirici zonasında sərbəst elektronların əmələ gəlməsidir. Ona görə də polimer əsaslı və fotohəssas yarımkeçirici qatqılı müxtəlif kompozitlərdə elektrik hadisələrinin başvermə mexanizmini müəyyənləşdirmək üçün həmin materialların müxtəlif şəraitlərdə elektrik xassələrinə işığın və injeksiyanın təsirini ətraflı tədqiq etmək məqsədəuyğundur. Təqdim olunan bu işdə polimer-nano Se kompozitində müxəlif xarici şəraitlərdə elektrik keçiriciliyinə işığın təsirinin xüsusiyyətlərinin eksperimental tədqiqi zamanı bizim tərəfimizdən alınmış nəticələr və onların keyfiyyətcə elmi müzakirəsi təqdim olunur (Abramov və b., 1987).

Tədqiq etdiyimiz kompozitlərdə matrisa olaraq üç müxtəlif polimer materialdan- yüksək sıxlıqlı polietilendən (YSPE), polipropilendən (PP) və polivinildenftoriddən (PVDF) istifadə edilmişdir. Polimer fazasının (matrisanın) hər üçünün qadağan olunmuş zonasının eninin qiyməti kifayət qədər böyük olduğu üçün (≥10eV) həmin kompozitlərin hər biri elektrik keçiriciliyi yüksək olmayan (çox böyük xüsusi elektrik müqavimətinə malik olan) materiallardır.

Tədqiqat

Tədqiqat obyekti olaraq polipropilen (PP), yüksək (YSPE) və alçaq (ASPE) sıxlıqlı polietilendən (matrisa) və nano fotohəssas selenlə indium–selendən ibarət kompozitlər götürülmüşdür.

Bu polimerlərin elektrik keçiriciliyi onlarda sərbəst yükdaşıyıcıların (elektronların) müxtəlif yolla sərbəstləşməsi-valent zonadan keçirici zonaya, kvazi-qadağan olunmuş zonadakı lokal enerji səviyyələrindən keçirici zonaya və valent zonadan kvaziqadağan olunmuş zonadakı boş lokal enerji səviyyələrinə keçməsi, eləcə də müxtəlif xarici təsirlərlə yaradılmış müxtəlif tip (sərbəst və ya bağlı) eksitonların dissosiasiyası hesabına yaranır. Təcrübi olaraq hər bir polimer–nano Se kompozitinin qaranlıqda və işıqlandırıldığı haldakı volt-amper xarakteristikaları ölçülmüşdür.

Aydınlıq üçün qeyd etmək lazımdır ki, tədqiq olunan kompozitlərin hər birinin volt–amper xarakteristikasını öyrənərkən aşağıdakı parametrlər optimallaşdırılmışdır:

- fotohəssas yarımkeçiricinin (Se – in) kompozitdəki həcmi payı (Φ, %);
- kompozitin polyarlaşma müddəti (t_p,san);
- polyarlaşma şəraitində kompozitə tətbiq olunmuş xarici elektrik gərginliyi (U_p,V);
- polyarlaşma zamanı nümunənin səthinə düşən işığın intensivliyi (Ei, mVt/sm^2).

Ölçmələrdən alınmış nəticələrinin təhlili əsasında müəyyənləşdirilmişdir ki, həmin bu kəmiyyətlərin optimal qiymətləri uyğun olaraq aşağıdakı kimidir:

Φ=(30 – 60) % həcmi; t_p=(0,25 – 0,5)saat; U_p=(20 – 150)V; E_i=(200 – 400) mVt/sm^2.

İşığın təsiri davam etdiyi şəraitdə tədqiq etdiyimiz nümunələrin volt – amper xarakteristikalarının ölçülməsi və onun (nümunənin üzərinə düşən işıq dəstəsinin) intensivliyinin optimal qiymətinin seçilməsi üçün I_f /I_q=f(E_i) asılılığı qurulmuş və bu asılılığın qurulmuş qrafikinə əsasən aşkar edilmişdir ki, I_f/I_q nisbəti E_i-dən asılı olaraq əvvəlcə kəskin artır, sonra isə (Ei ≥ 400mVt/sm^2 olduqda) tədricən sabitləşməyə başlayır (Akimov və b., 1980; Rouz, 1966). (şək.1).



Şəkil 1. Müxtəlif kompozitlərdə I_f/I_q nisbətinin işığın intensivliyindən asılılığı.

1.YSPE – Se; 2. PP – Se; 3. PP –Se; 4. PVDF –İnSe ; 5. F42 –İnSe; 6. F42 – Se; U=10V T=300K.

Kompozitdəki işığahəssas yarımkeçirici fazanın (Se-nin) optimal həcmi payını seçərkən isə $I_f/I_q=f(\Phi)$ asılılığı nəzərə alınmışdır. Əldə olunan nəticələr göstərmişdir ki, PVDF – nano Se kompozitləri üçün Φ – in optimal qiyməti 30-60% həcmi intervalında dəyişir. Müqayisə üçün PVDF matrisalı və fotohəssas nano-ZnS qatqılı kompozitdə də eyni ölçmələr aparılmışdır. Bu təcrübi ölçmələrdən alınmış nəticələr göstərmişdir ki, If/Iq =f(Φ) asılılıqlarında müşahidə olunan maksimum, kompozitin tərkibindəki fotohəssas yarımkeçirici fazanın materialından da əhəmiyyətli dərəcədə asılıdır. İlk yanaşmada belə bir nəticəyə gəlmək olar ki, tədqiq olunan kompozitlərdəki fazalararası potensial çəpərin hündürlüyü If/Iq-nin qiymətinə əhəmiyyətli dərəcə təsir göstərir (*Handbook of conducting polymers*, 1997; Gurtovnik et al., 2002; Simon və Andre, 1988).

Bu maraqlı və mürəkkəb mexanizminə malik olan aslılığın fiziki mahiyyətini müəyyənləşdirmək üçün polimer matrisa kimi dielektrik nüfuzluğu (ε), xüsusi həcmi elektrik müqaviməti (Rv) müxtəlif, lakin təbiətcə bir–birinə yaxın olan polimerlərdən (YSPE, PP və PVDF –dən) istifadə edilmişdir. Aşkar edilmişdir ki, If/Iq=f(Φ) asılılığındakı maksimumlara uyğun gələn həcmi payı polimer matrisanın materialından asılı olaraq kəskin dəyişir. Deməli, həm qeyri-üzvi, yəni yarımkeçirici faza və həm də polimer matrisa If/Iq parametrinə kəskin təsir edir. Belə ki, polimer matrisanın dielektrik nüfuzluğunun qiyməti böyük olduqca If/Iq parametri qiymətcə yüksək, həcmi pay baxımından isə kiçik olur. Apardığımız ölçmələrdən əldə olunmuş eksperimental nəticələrin müqayisəli təhlili göstərir ki, If/Iq =f(U) asılılığı eksterimal xarakterlidir. Bu asılılığın eksterimal qiymətə uyğun gərginliyinin qiyməti isə kompozitin tərkibindəki Se-nin həcmi payından asılıdır və Se-nin həcmi payı artdıqca If/Iq =f(U) asılılığının maksimal qiymətə uyğun gərginliyi kiçik qiymətlərə tərəf dəyişir. Eyni zamanda, bu tədqiqatlar zamanı həm də aşkar edilmişdir ki, qeyri-üzvi fotohəssas nano yarımkeçirici qatqı və polimer matrisadan ibarət kompozit materiallar müəyyən rejimdə yalnız temperaturun təsiri şəraitində kristallaşarsa, onda həmin kompozit materialların fotokeçiriciliyi (eləcə də digər fotoelektrik xassələri) kəskin fərqlənmir. Yuxarıda qeyd etdiyimiz kimi polimer – selen kompozitində yaranan anormal effektlər ola bilər ki, fazalararası sərhəddə həm polimer fazada, həm də selendə yaranan lokal səviyyələr tərəfindən sərbəst yük daşıyıcılarının tutulması ilə izah oluna bilər (*Promyshlennye polimernye kompozitsionnye materialy*, 1980). Bu onu göstərir ki, polimer–selen sərhədində struktur baxımından yeni fazalararası təbəqə formalaşır və təbəqədəki polimer fazanın kvaziqadağan zonasında kompozitin keçiriciliyində aparıcı rol oynaya biləcək sərbəst yük daşıyıcılarını lokallaşdırır. Fazalararası kontaktda formalaşan keçid təbəqənin qalınlığı, adətən, ferrosenin və polimer fazaların polyarlığından asılıdır. Keçid təbəqənin qalınlığı nə qədər böyükdürsə, bir o qədər də fazaların (polimer və selen) polyarlığı arasında fərq kiçikdir, yəni komponentlərin kogeziya enerjisi arasında fərq azdır (Ramazanov, 2009; Kohlman et al., 1996; Suleymanov et al., 2010). Kompozitdə belə təbəqənin yaranması və bu təbəqənin bilavasitə yaxınlığında polimerin molekulyarüstü quruluşunun formalaşmasında müəyyən məhdudiyyətlər yaranması ilə nəticələnir. Tətbiq olunan xarici elektrik sahəsinin təsiri şəraitində fotogenerasiya olunmuş elektrik yük daşıyıcıları həm fazaların həcmi ilə, həm də keçid təbəqəsi ilə hərəkət edirlər. Keçid təbəqədə polimerin və selenin elektron və kimyəvi strukturunun dəyişməsi nəticəsində fazalar işığın və elektrik sahəsinin təsirinə daha həssas olurlar. Ona görə də əlavə sərhəd mərkəzlərin yaranması üçün daha əlverişli şərait yaranır, elektrik sahəsinin və işığın birgə təsiri şəraitində elektrik yük daşıyıcıların dönən xarakterli stabilləşməsini təmin edir.

Nəticə

Tədqiq olunan polimer matrisalı nano Selen (və ya İnSe) işığahəssas komponentli kompozitlərdə fotorezistiv effektinin yaranmasının başlıca səbəbi daxili fotoeffekt (fotokeçiricilik) nəticəsində yaranmış sərbəst yükdaşıyıcılarının tətbiq olunan elektrik sahəsinin və fazalararası sərhəddəki potensialın birgə təsiri şəraitində köçürülməsidir.

Polimer – fotohəssas nano yarımkeçirici (Selen və ya İnSe) kompozitində xarici elektrik sahəsinin və işığın birgə təsiri şəraitində meydana gələn potensiallar fərqi tətbiq olunan xarici gərginliyi kompensasiya edərək elektrikkeçiriciliyinin optik sönməsini yarada bilər. Müxtəlif polimer matrisalı

(YSPE, ASPE, PP, PVDF) və işığahəssas nano yarımkeçirici (Selen və ya İnSe) fazalı kompozitlərdə fotovoltaik effektinin yaranmasının başlıca səbəbi həmin kompozitlərin fazalararası sərhədində yaranmış daxili potensialın təsiri altında tarazlıqda olmayan sərbəst yük daşıyıcılarının bir-birindən fəzaca ayrılmasıdır (Volnyanskii və b., 2005; Vannikov, 2001).

Poliolefin–fotohəssas yarımkeçirici (Se və ya İnSe) kompozitlərində elektrikkeçiriciliyinin dönən xarakterli optik sönməsi hadisəsinin baş verməsi işığın təsiri altında fotohəssas yarımkeçirici fazada çoxyüklü mərkəzlərin və dipol momentinin yaranması hesabına istiqamətcə xarici sahənin əksinə yönəlmiş daxili lokal elektrik sahəsinin yaranmasıdır (Kawai et al., 1999).

Ədəbiyyat

1. Abramov, V.N., Pozhidaev, E.D., Tyutnev, A.P., Saenko, V.S., Vannikov, A.V. (1987). Podvizhnost' nositelei zaryada v polimerakh. *Vysokomolekulyarnye Soedineniya A, 29*(2), 260–264.
2. Akimov, I.A., Cherkasov, Yu.A., Cherkashin, M.I. (1980). *Sensibilizirovannyi fotoeffekt*. Nauka.
3. *Handbook of conducting polymers*. (1997). N.Y.: Marcel Dekker.
4. Kawai, T., Yamaue, T., Onoda, M., Yoshino, K. (1999). Photoinduced charge separation in multilayered heterostructures of conducting polymers and their doping effects. *Synthetic Metals, 102*(1–3), 971–972.
5. Kohlman, R.S., Joo, J., Epstein, A.J. (1996). Physical properties of polymers handbook. *American Institute of Physics Press, 34*, 453.
6. Gurtovnik, I.G., Sokolov, V.I., Trofimov, N.N., Shalgunov, S.G. (2002). *Radioprozrachnye izdeliya iz stekloplastikov*. Mir.
7. *Promyshlennye polimernye kompozitsionnye materialy*. (1980). Pod red. M. Richardsona: per. s angl. Khimiya.
8. Ramazanov, M.A. (2009). *Rol' mezhfaznykh yavlenii v formirovanii struktury i svoistv aktivnykh polimernykh mikro – i nanokompozitov*. Avtoref. dis. dok. f. – m. nauk. BGU.
9. Rouz, A. (1966). *Osnovy teorii fotoprovodimosti*. Per. s angl. Mir.
10. Simon, Zh., Andre, Zh. Zh. (1988). *Molekulyarnye poluprovodniki*. Mir.
11. Suleymanov, G.Z., Safarov, N.A., Gochuyeva, A.F., Kurbanov, M.A., Bayramov, A.A., Orujov, I.N., Jafarova, E.A. (2010). Effect of electrical photo quenching in polymer – ferrocene. *Azerbaijan journal of Physics, 16*(2), 378–380.
12. Vannikov, A.V. (2001). Organicheskie polimernye svetoizluchayushchie ustroistva. *Rossiiskii khimicheskii zhurnal, 65*(5–6), 41–50.
13. Volnyanskii, M.D., Kudzin, A.Yu., Plyaka, S.N., Balasme, Z.A. (2005). Fotoindu¬tsiro-vannaya diehlektricheskaya pronitsaemost' v molibdate svintsa. *FTT, 47*(10), 1783–1787.

Daxil oldu: 07.01.2026
Qəbul edildi: 09.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/231-236

İsmayıl Vəliyev
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
https://orcid.org/0009-0007-4376-9804
vliyevismayil70@gmail.com

Dronlarda real vaxt rejimində qərarvermə üçün maşın öyrənmə yanaşmaları

Xülasə

Müasir aviasiya sistemlərinin inkişafı ilə birlikdə pilotsuz uçuş aparatları (dronlar) həm hərbi, həm də mülki sahələrdə geniş tətbiq tapmışdır. Real vaxt rejimində qərarvermə dronların effektivliyini birbaşa müəyyənləşdirən ən kritik texniki tələblərdən biridir. Ənənəvi əmr-idarəetmə sistemləri mürəkkəb və dinamik mühitlərdə kifayət qədər çevik reaksiya verə bilmir. Bu məqalədə dronlarda real vaxt rejimində qərarvermə üçün maşın öyrənmə metodlarının tətbiqi kompleks şəkildə araşdırılmışdır. Tədqiqat çərçivəsində mövcud dərin öyrənmə, gücləndirici öyrənmə və hibrid yanaşmalar təhlil edilmiş, onların üstünlükləri, məhdudiyyətləri və praktiki tətbiq imkanları müəyyən olunmuşdur. Xüsusilə hesablama resurslarının məhdudluğu, gecikmə tələbləri və mühitin qeyri-müəyyənliyi kimi amillər real vaxt sistemlərinin əsas meyarları kimi qiymətləndirilmişdir.

Açar sözlər: *dron, pilotsuz uçuş aparatı, maşın öyrənmə, dərin öyrənmə, gücləndirici öyrənmə, real vaxt qərarvermə, avtonom sistemlər, neyron şəbəkəsi*

Ismayil Valiyev
Azerbaijan State University of Economics
Master's student
https://orcid.org/0009-0007-4376-9804
vliyevismayil70@gmail.com

Machine Learning Approaches for Real-Time Decision Making in Drones

Abstract

With the rapid advancement of modern aviation systems, unmanned aerial vehicles (drones) have found widespread application in both military and civilian domains. Real-time decision making is one of the most critical technical requirements directly determining drone effectiveness. Traditional command-and-control systems lack sufficient agility to respond in complex and dynamic environments. This paper comprehensively examines the application of machine learning methods for real-time decision making in drones. Within the research framework, existing deep learning, reinforcement learning, and hybrid approaches are analyzed, along with their advantages, limitations, and practical implementation prospects. Computational resource constraints, latency requirements, and environmental uncertainty are identified as key criteria for real-time systems. The paper proposes an adaptive decision index model to evaluate and select the most appropriate machine learning approach based on the operational context.

Keywords: *drone, unmanned aerial vehicle, machine learning, deep learning, reinforcement learning, real-time decision making, autonomous systems, neural network*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

Pilotsuz uçuş aparatlarının (PUA) müasir texnologiyalarla inteqrasiyası son onillikdə dramatik sürətlə inkişaf etmişdir. Əvvəlcə yalnız hərbi kəşfiyyat məqsədi ilə istifadə olunan dronlar bu gün yanğın söndürmə, kənd təsərrüfatı, infrastrukturun monitorinqi, çatdırılma xidmətləri və axtarış-xilasetmə əməliyyatlarında geniş tətbiq sahəsi tapır. Bu genişlənmə ilə birlikdə dronlara olan tələblər də əhəmiyyətli dərəcədə artmışdır, xüsusilə mürəkkəb, dəyişkən və qeyri-müəyyən şəraitdə müstəqil qərarvermə bacarığı ön plana keçmişdir.

Real vaxt qərarvermə problemi dronlar üçün fundamental texniki çətinliklərdən birini təmsil edir. Ənənəvi deterministik alqoritmlər əvvəlcədən proqramlaşdırılmış qaydalar çərçivəsində fəaliyyət göstərir və dinamik mühitin tələblərinə uyğunlaşma qabiliyyəti məhduddur. Maşın öyrənmə metodları isə bu problemi fərqli rakursdan həll edir: verilənlərdən öyrənmə, nümunə tanıma və adaptiv davranış formalaşdırma vasitəsilə dron sistemləri bilinməyən situasiyalarda da səmərəli qərarlar qəbul edə bilir (Goodfellow və b., 2016; Sutton və Barto, 2018; Shah və b., 2018).

Bu məqalənin aktuallığı bir neçə amillə müəyyənləşir. Birincisi, dron texnologiyalarının sürətli inkişafı istifadə ssenarilərini genişləndirir və daha çətin qərarvermə tələblərini doğurur. İkincisi, maşın öyrənmə metodologiyalarının inkişafı xüsusilə dərin öyrənmə və gücləndirici öyrənmə bu sahədə yeni imkanlar açmışdır. Üçüncüsü, real vaxt tələblərinin yerinə yetirilməsi hesablama resursları baxımından ciddi məhdudiyyətlər yaradır ki, bu da metodların seçilməsini mürəkkəbləşdirir. Tədqiqatın məqsədi mövcud maşın öyrənmə yanaşmalarını sistemli şəkildə təhlil etmək, onların dronlarda real vaxt tətbiqinə uyğunluğunu qiymətləndirmək və praktiki tövsiyələr işləyib hazırlamaqdır.

Tədqiqat

Dron sistemlərinin real vaxt qərarvermə tələbləri. Dronlarda real vaxt qərarvermə sistemi bir sıra əsas funksional tələbləri eyni zamanda icra etməlidir. Bu tələblər arasında ən əhəmiyyətlisi gecikmə (latency) məsələsidir: qərarvermə dövrü sensordan verilənlər alınması, işlənməsi, qərar qəbul edilməsi və icra əmrinin verilməsi mərhələlərini əhatə edir. Əksər tətbiqlər üçün bu dövrün 100 millisaniyədən az olması tələb olunur, xüsusən maneədən qaçma kimi kritik tapşırıqlarda bu dəyər 10-50 millisaniyə həddindədir.

Dronların işlədildiyi mühitlər, adətən, yüksək qeyri-müəyyənlik ilə xarakterizə olunur: hava şəraitinin dəyişkənliyi, digər obyektlərlə qarşılaşma ehtimalı, GPS siqnalının zəifliyi və vizual mühitin mürəkkəbliyi sistemin etibarlılığına ciddi tələblər qoyur. Bundan əlavə, dronlar enerji resursları baxımından məhdud cihazlardır; güclü hesablama prosessorları enerji istehlakını artıraraq uçuş müddətini azaldır. Bu ziddiyyətin həlli maşın öyrənmə modelinin seçilməsində əsas meyar rolunu oynayır.

Real vaxt qərarvermə üçün maşın öyrənmə metodları. Dronlarda real vaxt qərarvermə üçün istifadə olunan maşın öyrənmə metodları bir neçə əsas kateqoriyaya bölünür. Hər bir yanaşmanın özünəməxsus üstünlükləri, məhdudiyyətləri və uyğun tətbiq sahələri mövcuddur.

Dərin öyrənmə (Deep Learning, DL) yanaşmaları arasında konvolusiya neyron şəbəkələri (CNN) vizual məlumatların emalında əldə etdiyi yüksək nəticələr sayəsində dron sistemlərində geniş tətbiq olunur. CNN arxitekturaları kamera görüntülərindən maneələrin aşkarlanması, obyektlərin tanınması və yer səthinin xəritələnməsi kimi tapşırıqları yüksək dəqiqliklə yerinə yetirə bilir. Lakin standart CNN modelləri böyük hesablama resursları tələb edir ki, bu da real vaxt rejimində tətbiqi çətinləşdirir (LeCun və b., 2015; Mnih və b., 2015; Schmidhuber, 2015). Bu məhdudiyyəti aradan qaldırmaq məqsədilə MobileNet, SqueezeNet və EfficientNet kimi optimallaşdırılmış yüngül arxitekturalar hazırlanmışdır.

Rekurrent neyron şəbəkələri (RNN) və onun inkişaf etmiş forması olan LSTM (Long Short-Term Memory) ardıcıl verilənlərin emalında geniş tətbiq olunur və xüsusilə uçuş trayektoriyasının proqnozlaşdırılması, sensor ardıcıllıqlarının təhlili və zaman sıralarının öyrənilməsi kimi sahələrdə yüksək effektivlik nümayiş etdirir. Bu yanaşmalar dronun davranış tarixçəsini nəzərə alaraq gələcək qərarların daha dəqiq şəkildə formalaşdırılmasına şərait yaradır.

Gücləndirici öyrənmə (Reinforcement Learning, RL) dronların ətraf mühitlə qarşılıqlı təsir əsasında öyrənməsinə şərait yaradan bir yanaşmadır. Bu çərçivədə dron agent kimi fəaliyyət göstərir, mühit daxilində müxtəlif hərəkətlər icra edir və həmin hərəkətlərə uyğun olaraq mükafat və ya cəza siqnalları ilə geri bildirim alır. Müasir RL metodları olan Derin Q-şəbəkəsi (DQN), Proximal Policy Optimization (PPO) və Soft Actor-Critic (SAC) alqoritmləri mürəkkəb uçuş davranışlarının idarə olunması, çox-agentli sistemlərdə koordinasiya və uzunmüddətli qərarvermə problemlərinin həllində yüksək effektivlik göstərir.

Hibrid yanaşmalar isə yuxarıda qeyd olunan metodların üstünlüklərini birləşdirərək onların mövcud məhdudiyyətlərini azaldır. Məsələn, CNN və RL birlikdə tətbiq edildikdə, CNN vizual mühitdən alınan məlumatların emalını həyata keçirir, RL isə həmin emal olunmuş məlumatlar əsasında idarəetmə qərarlarını formalaşdırır. Bu cür inteqrasiya həm qavrama dəqiqliyini, həm də qərarvermə prosesinin adaptivliyini artırır.

Cədvəl 1.
Maşın öyrənmə metodlarının müqayisəli qiymətləndirilməsi

Metod	Dəqiqlik	Hesablama Yükü	Real Vaxt Uyğunluğu	Əsas Tətbiq
CNN (yüngülləşdirilmiş)	Yüksək	Orta	Yüksək	Vizual tanıma
LSTM/RNN	Orta-Yüksək	Orta	Orta	Traektoriya proqnozu
DQN (RL)	Yüksək	Yüksək	Orta	Maneədən qaçma
PPO (RL)	Yüksək	Orta	Yüksək	Uçuş idarəetməsi
CNN+RL Hibrid	Çox Yüksək	Yüksək	Orta	Mürəkkəb ssenarilər

Müasir texnologiyalar və dron qərarvermə sistemlərinə təsiri. Kənar hesablama (Edge Computing) texnologiyalarının inkişafı dronlarda real vaxt rejimində maşın öyrənmə tətbiqlərinin praktiki icrasına mühüm təsir göstərmişdir. NVIDIA Jetson, Google Coral və Intel Neural Compute Stick kimi kənar hesablama qurğuları neyron şəbəkə modellərinin birbaşa dronun bort avadanlığı üzərində işlədilməsinə imkan yaradır. Bu yanaşma bulud serverlərindən asılılığı azaldır, gecikməni minimuma endirir və şəbəkə bağlantısı olmadan da sistemin fəaliyyətini təmin edir.

Model sıxışdırması (Model Compression) üsulları böyük ölçülü neyron şəbəkə modellərinin resurs məhdudiyyətləri olan cihazlarda icrasını təmin etmək baxımından mühüm rol oynayır. Budama (Pruning), kvantlaşdırma (Quantization) və bilik distilasiyası (Knowledge Distillation) kimi texnikalar modelin ölçüsünü əhəmiyyətli dərəcədə, hətta 90%-ə qədər azaltmağa imkan verir, eyni zamanda onun dəqiqliyini böyük ölçüdə qoruyur. Məsələn, float32 formatında olan tam dəqiqlikli modelin int8 formatına kvantlaşdırılması yaddaş sərfiyyatını və hesablama vaxtını xeyli dərəcədə azaldır.

Çox-agent sistemləri (Multi-Agent Systems) bir neçə dronun koordinasiyalı şəkildə birgə tapşırıqları icra etdiyi hallarda maşın öyrənmə yanaşmalarının tətbiqini daha da mürəkkəbləşdirir. Birgə gücləndirici öyrənmə (Cooperative Reinforcement Learning) metodları dronlar arasında qarşılıqlı əlaqənin qurulmasına, məlumatların paylaşılmasına və kollektiv qərarvermə mexanizmlərinin formalaşmasına şərait yaradır. Bu cür yanaşma axtarış-xilasetmə əməliyyatları, ərazilərin monitorinqi və böyük həcmli çatdırılma sistemlərində effektivliyin artırılmasına mühüm töhfə verir.

Simulyasiya mühitlərinin rolu da xüsusi əhəmiyyət kəsb edir. AirSim, Gazebo və OpenAI Gym əsasında hazırlanmış dron simulyatorları maşın öyrənmə modellərinin böyük həcmdə məlumat

üzərində öyrədilməsinə, müxtəlif əməliyyat ssenarilərinin test edilməsinə və real mühitdə tətbiqdən əvvəl sistemlərin yoxlanılmasına imkan verir. Bununla belə, simulyasiya mühitindən real dünyaya keçid zamanı ortaya çıxan "Sim-to-Real gap" problemi hələ də aktual tədqiqat istiqaməti olaraq qalmaqdadır.

Real vaxt qərarvermə sistemlərinin tətbiqindəki əsas çətinliklər. Dronlarda real vaxt rejimində maşın öyrənmə sistemlərinin tətbiqi zamanı bir sıra fundamental texniki çətinliklər ortaya çıxır. İlk növbədə, verilənlərin etibarlılığı problemi diqqət çəkir: sensor xətaları, uçuş zamanı yaranan vibrasiyalar və işıqlandırma şəraitindəki dəyişikliklər giriş məlumatlarının keyfiyyətini azaldır və nəticə etibarilə maşın öyrənmə modellərinin çıxışına mənfi təsir göstərir (Han və b., 2016; Zhu və Allibert, 2023). Robust (dayanıqlı) model arxitekturalarının hazırlanması bu problemi qismən azaltsa da, onu tam şəkildə aradan qaldırmaq hələ də mümkün olmamışdır.

İkinci mühüm məsələ paylanmış (dağıdılmış) və mərkəzləşdirilmiş öyrənmə yanaşmaları arasında optimal balansın təmin olunmasıdır. Dronun bortunda yerləşən prosessor vasitəsilə yerində öyrənmə həyata keçirilərsə, bu, sistemin çevikliyini və operativliyini artırır, lakin eyni zamanda hesablama yükünün artmasına səbəb olur (Shi və b., 2016). Digər tərəfdən, öyrənmə prosesinin yerüstü serverlərdə aparılması və yalnız hazır modelin drona inteqrasiya edilməsi resurs sərfiyyatını azaltsa da, real mühitdə adaptivlik səviyyəsini məhdudlaşdırır.

Üçüncü əsas məsələ etibarlılıq (reliability) və xəta davamlılığı tələblərinin yüksək səviyyədə təmin olunması ilə bağlıdır. Maşın öyrənmə modellərinin qeyri-deterministik təbiəti onların təhlükəsizlik baxımından kritik sistemlərdə sertifikatlaşdırılmasını mürəkkəbləşdirir (Seshia və b., 2018; Juliani və b., 2020; Müller və b., 2018). Bu kontekstdə formal doğrulama üsullarının maşın öyrənmə sistemlərinə inteqrasiyası hazırda fəal şəkildə araşdırılan tədqiqat istiqamətlərindən biri hesab olunur

Dördüncü mühüm problem sahələrarası keçid (domain transfer) məsələsi ilə bağlıdır: müəyyən bir mühitdə öyrədilmiş model fərqli əməliyyat şəraitində eyni performans səviyyəsini qoruyub saxlaya bilmir. Transfer öyrənmə (Transfer Learning) yanaşmaları bu problemin həllinə qismən töhfə versə də, dron sistemlərinin müxtəlif və dinamik mühitlərdə sabit fəaliyyətini tam şəkildə təmin etmək hələ də mümkün olmamışdır.

Adaptiv Qərarvermə İndeksinin formalaşdırılması. Bu tədqiqat çərçivəsində dron sistemlərinin real vaxt qərarvermə vəzifəsi üçün ən uyğun maşın öyrənmə yanaşmasının seçilməsinə yardımçı olan rəsmiləşdirilmiş model təklif olunur (Koch və b., 2019; Li və b., 2021). Adaptiv Qərarvermə İndeksi (AQİ) anlayışına əsaslanan bu mexanizm dörd əsas əməliyyat parametrini nəzərə alır.

Cədvəl 2.
Adaptiv Qərarvermə İndeksinin parametrləri

Parametr	Simvol	Aralıq	Şərh
Mühit mürəkkəbliyi	E	1-5	Uçuş şəraitinin qeyri-müəyyənlik dərəcəsi
Hesablama resursu	C	1-5	Bortdakı prosessor gücünün mövcudluğu
Gecikmə tələbi	L	1-5	Tətbiqin tələb etdiyi cavab vaxtı sıxlığı
Öyrənmə yetkinliyi	M	1-5	Mövcud model optimallaşdırma səviyyəsi

Adaptiv Qərarvermə İndeksi (AQİ) aşağıdakı kimi hesablanır:

$$AQİ = (E \times L) / (C + M)$$

E yüksəkdirsə → adaptiv hibrid yanaşma tələb olunur;
L yüksəkdirsə → yüngülləşdirilmiş, sürətli modellərə üstünlük verilməlidir;
C və M zəifdirsə → mərhələli tətbiq və model sıxışdırması vacibdir.
Bu indeksə əsasən:
AQİ > 2 olduqda → Hibrid DL+RL yanaşması (mərhələli nəzarətlərlə) tövsiyə edilir;
$1 \leq AQİ \leq 2$ olduqda → Yüngülləşdirilmiş DL (MobileNet, EfficientNet-Lite) tövsiyə edilir;
AQİ < 1 olduqda → Klassik deterministik alqoritmlər və ya əvvəlcədən öyrədilmiş statik modellər tövsiyə edilir.

Nəticə

Aparılan tədqiqat göstərir ki, dronlarda real vaxt qərarvermə üçün vahid, universal maşın öyrənmə yanaşması mövcud deyil; metodun seçimi tətbiq kontekstindən, əməliyyat mühitindən, mövcud hesablama resurslarından və gecikmə tələblərindən birbaşa asılıdır. Dərin öyrənmə metodları vizual məlumatların emalında yüksək dəqiqliyi ilə seçilsə də, onların yüksək hesablama tələbləri real vaxt tətbiqlərini məhdudlaşdırır. Gücləndirici öyrənmə isə mürəkkəb və dinamik mühitlərdə adaptiv davranışın formalaşdırılmasında yüksək potensial nümayiş etdirir, lakin öyrənmə prosesinin uzunluğu və etibarlılıq məsələləri hələ də həllini tapmamış problemlər kimi qalır.

Tədqiqatın nəticələrinə əsasən, dronlarda real vaxt qərarvermə sistemlərinin effektivliyi bir sıra əsas prinsiplərə söykənməlidir: mövcud resurslara uyğun model seçimi, kənar hesablama texnologiyalarının tətbiqi, model sıxışdırılması üsullarından istifadə və simulyasiya mühitlərinin sistemli şəkildə inteqrasiyası. Bununla yanaşı, hüquqi çərçivənin, xüsusilə aviasiya sahəsində sertifikatlaşdırma tələblərinin, maşın öyrənmə texnologiyalarının inkişafını nəzərə alacaq formada təkmilləşdirilməsi vacib istiqamətlərdən biri kimi müəyyən edilir.

Təklif edilən Adaptiv Qərarvermə İndeksi (AQİ) modeli praktiki tətbiq mühitində uyğun metodun seçilməsi üçün sadə, lakin əsaslandırılmış yanaşma təqdim edir. Bu model mühitin mürəkkəblik səviyyəsini, hesablama imkanlarını, gecikmə tələblərini və modelin yetkinlik dərəcəsini kompleks şəkildə qiymətləndirməyə imkan verir. Gələcək tədqiqat istiqamətləri kimi çox-agentli dron sistemlərində koordinasiyanın təkmilləşdirilməsi, Sim-to-Real keçid probleminin aradan qaldırılması, formal doğrulama metodlarının inkişaf etdirilməsi və kənar hesablama platformalarının optimallaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Goodfellow, I., Bengio, Y., & Courville, A. (2016). *Deep Learning*. MIT Press.
2. Han, S., Mao, H., & Dally, W. J. (2016). *Deep Compression: Compressing Deep Neural Networks with Pruning, Trained Quantization and Huffman Coding*. ICLR.
3. Juliani, A., Berges, V. P., Teng, E., et al. (2020). *Unity: A general platform for intelligent agents*. arXiv:1809.02627.
4. Koch, W., Mancuso, R., West, R., & Bestavros, A. (2019). Reinforcement learning for UAV attitude control. *ACM Transactions on Cyber-Physical Systems, 3*(2), 22.
5. LeCun, Y., Bengio, Y., & Hinton, G. (2015). Deep learning. *Nature, 521*(7553), 436–444.
6. Li, J., Deng, X., & Li, Z. (2021). Deep reinforcement learning for autonomous UAV navigation in dynamic environments. *IEEE Transactions on Vehicular Technology, 70*(4), 3818–3829.
7. Mnih, V., Kavukcuoglu, K., Silver, D., et al. (2015). Human-level control through deep reinforcement learning. *Nature, 518*(7540), 529–533.
8. Müller, M., Dosovitskiy, A., Ghanem, B., & Koltun, V. (2018). *Driving policy transfer via modularity and abstraction. In Conference on Robot Learning.* PMLR.
9. Schmidhuber, J. (2015). Deep learning in neural networks: An overview. *Neural Networks, 61*, 85–117.

10. Seshia, S.A., Sadigh, D., & Sastry, S.S. (2018). *Formal specification for deep neural networks*. In ATVA 2018, LNCS 11138.
11. Shah, S., Dey, D., Lovett, C., & Kapoor, A. (2018). *AirSim: High-fidelity visual and physical simulation for autonomous vehicles. In Field and Service Robotics.* Springer.
12. Shi, W., Cao, J., Zhang, Q., Li, Y., & Xu, L. (2016). Edge computing: Vision and challenges. *IEEE Internet of Things Journal, 3*(5), 637–646.
13. Sutton, R. S., & Barto, A. G. (2018). *Reinforcement Learning: An Introduction.* MIT Press.
14. Zhu, H., & Allibert, G. (2023). Real-Time Decision Making for Autonomous Drones Using Lightweight Neural Architectures. *Journal of Field Robotics, 40*(3), 511–527.

Received: 07.01.2026
Approved: 14.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/237-242

Turan Səmədli
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
magistrant
https://orcid.org/0009-0000-6401-328X
samedhov@gmail.com

Elmi fəaliyyətin elmmetrik analitik qiymətləndirilməsi üçün rəqəmsal platforma

Xülasə

Məqalədə elmi fəaliyyətin obyektiv, şəffaf və çoxölçülü qiymətləndirilməsi məqsədilə elmmetrik göstəricilərə əsaslanan rəqəmsal platforma modelinin konseptual əsasları işlənib hazırlanmışdır. Müasir elmi mühitdə nəşr aktivliyi, sitat indeksi, h-indeks, impakt faktoru, beynəlxalq əməkdaşlıq səviyyəsi və açıq elmi göstəricilər kimi parametrlər tədqiqatçıların və elmi təşkilatların fəaliyyətinin qiymətləndirilməsində mühüm rol oynayır. Lakin mövcud qiymətləndirmə mexanizmləri çox vaxt parçalanmış məlumat bazalarına əsaslanır və vahid analitik sistemlə inteqrasiya olunmur.

Tədqiqatın məqsədi müxtəlif elmmetrik mənbələrdən (məsələn, Scopus, Web of Science, Google Scholar və s.) məlumatların avtomatik toplanması, emalı və vizuallaşdırılması əsasında kompleks analitik qiymətləndirmə aparan rəqəmsal platforma modelini formalaşdırmaqdır. Model məlumatların inteqrasiyası, göstəricilərin normallaşdırılması, sahə üzrə müqayisəli analiz, reytinq mexanizmi və interaktiv hesabat modullarını özündə birləşdirir. Platformada süni intellekt və böyük verilənlərin analizi vasitəsilə elmi məhsuldarlığın dinamikası, əməkdaşlıq şəbəkələri və tədqiqat istiqamətlərinin inkişaf tendensiyaları müəyyənləşdirilir.

Açar sözlər: *elmmetriya, rəqəmsal platforma, elmi fəaliyyətin qiymətləndirilməsi, sitat indeksi, h-indeks, analitik model, elmi idarəetmə*

Turan Samadli
Azerbaijan State Oil and Industry University
Master's student
https://orcid.org/0009-0000-6401-328X
samedhov@gmail.com

Digital Platform for Scientific Analytical Assessment of Scientific Activity

Abstract

The article develops the conceptual foundations of a digital platform model based on scientometric indicators for an objective, transparent and multidimensional assessment of scientific activity. In the modern scientific environment, parameters such as publication activity, citation index, h-index, impact factor, level of international cooperation and open scientific indicators play an important role in assessing the activities of researchers and scientific organizations. However, existing assessment mechanisms are often based on fragmented databases and are not integrated with a single analytical system.

The aim of the study is to form a digital platform model that conducts a complex analytical assessment based on the automatic collection, processing and visualization of data from various scientometric sources (for example, Scopus, Web of Science, Google Scholar, etc.). The model combines data integration, indicator normalization, comparative analysis by field, rating mechanism and interactive reporting modules. The platform uses artificial intelligence and big data analysis to identify the dynamics of scientific productivity, collaborative networks, and development trends in research areas.

Keywords: *sientometrics, digital platform, scientific activity assessment, citation index, h-index, analytical model, scientific management*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

XXI əsrdə elm və innovasiya qlobal rəqabətin əsas determinantlarından birinə çevrilmişdir. Dövlətlərin iqtisadi inkişaf səviyyəsi, texnoloji irəliləyişləri və beynəlxalq nüfuzu bilavasitə onların elmi potensialı ilə əlaqəlidir. Qlobal elmi məkan isə artıq yalnız fundamental tədqiqatların aparılması ilə deyil, həm də həmin tədqiqatların beynəlxalq elmi informasiya bazalarında indeksləşməsi, sitat alması və reytinq sistemlərində təmsil olunması ilə ölçülür.

Müasir dövrdə elmi fəaliyyətin qiymətləndirilməsində Scopus və Web of Science kimi beynəlxalq indeksləşmə sistemləri əsas istinad mənbələrinə çevrilmişdir. Bu bazalarda nəşr olunan məqalələrin sayı, sitat göstəriciləri, h-indeks, impakt faktoru və digər elmmetrik parametrlər həm fərdi tədqiqatçıların, həm də universitet və elmi-tədqiqat institutlarının reytinq mövqelərinə birbaşa təsir göstərir. Eyni zamanda, Google Scholar kimi platformalar da geniş yayılmış alternativ qiymətləndirmə mənbəyi kimi istifadə olunur.

Tədqiqat

Qlobal reytinq sistemləri – məsələn, QS World University Rankings və Times Higher Education – ali təhsil müəssisələrinin beynəlxalq mövqeyini müəyyənləşdirərkən məhz elmmetrik göstəricilərə xüsusi önəm verir. Bu isə elmi məhsuldarlığın obyektiv və ölçülə bilən indikatorlar əsasında qiymətləndirilməsini zəruri edir (Bornmann və Leydesdorff, 2014; Davenport və Harris, 2017).

Azərbaycan elmi sistemində isə elmi fəaliyyətin qiymətləndirilməsi mexanizmləri hələ də tam rəqəmsallaşdırılmamış və inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərmir. Mövcud qiymətləndirmə prosesləri bir çox hallarda hesabat xarakterli statistik məlumatlara və ya ənənəvi ekspert rəyinə əsaslanır. Bu isə subyektivlik risklərini artırır, vahid standartların tətbiqini çətinləşdirir və müqayisəli təhlil imkanlarını məhdudlaşdırır.

Elmi fəaliyyətin ölçülə bilən, şəffaf, müqayisə edilə bilən və avtomatlaşdırılmış mexanizmlər əsasında qiymətləndirilməsi müasir mərhələdə aktual elmi-praktik problem kimi çıxış edir (Hirsch, 2005; Leydesdorff və Bornmann, 2011).

Problemin qoyuluşu: Mövcud qiymətləndirmə sistemlərinin əsas çatışmazlıqlarından biri məlumatların parçalanmış şəkildə müxtəlif bazalarda yerləşməsi və vahid analitik platformada inteqrasiya olunmamasıdır. Tədqiqatçının nəşrləri bir sistemdə, sitat göstəriciləri digər bazada, layihə fəaliyyəti isə ayrıca hesabatlarda əks olunur. Bu isə kompleks və sistemli təhlilin aparılmasını çətinləşdirir. Digər mühüm problem göstəricilərin standartlaşdırılmaması və sahə spesifikliyinin nəzərə alınmamasıdır. Məsələn, sosial elmlərdə sitat dinamikası ilə təbiət elmlərində sitat dinamikası arasında ciddi fərqlər mövcuddur. Mövcud mexanizmlər isə çox zaman bu fərqləri normallaşdırmadan eyni meyarlarla müqayisə aparır. Qiymətləndirmə prosesində real vaxt rejimində monitorinq imkanları məhduddur. Hesabatlar adətən illik və ya dövri xarakter daşıyır, analitik vizuallaşdırma zəifdir və proqnozlaşdırma alətləri tətbiq olunmur. Bu isə strateji planlaşdırma və qərar qəbuletmə prosesini zəiflədir (Egghe, 2006; Swan, 2015).

Sadalanan problemlər göstərir ki, elmi fəaliyyətin qiymətləndirilməsi üçün avtomatlaşdırılmış, çoxmeyarlı, adaptiv və analitik imkanlara malik rəqəmsal platformaya ehtiyac vardır. Belə platforma müxtəlif elmmetrik bazalardan məlumatları inteqrasiya etməli, göstəriciləri normallaşdırmalı, sahə üzrə müqayisəli analiz aparmalı və nəticələri interaktiv formada təqdim etməlidir.

Tədqiqatın əsas məqsədi elmi fəaliyyətin elmmetrik göstəricilər əsasında kompleks analitik qiymətləndirilməsi üçün rəqəmsal platforma modelinin hazırlanmasıdır. Bu model elmi məhsuldarlığın kəmiyyət və keyfiyyət göstəricilərini inteqrasiya etməli, obyektiv qiymətləndirmə mexanizmini təmin etməli və strateji idarəetməni dəstəkləməlidir (Elsevier, 2023).

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur: - Elmmetrik göstəricilərin sistemləşdirilməsi və təsnifləşdirilməsi (nəşr sayı, sitat indeksi, h-indeks, kvartil göstəriciləri, beynəlxalq əməkdaşlıq səviyyəsi və s.); - Müxtəlif məlumat bazalarından verilənlərin toplanması və inteqrasiyası üçün metodoloji çərçivənin işlənməsi; - Göstəricilərin normallaşdırılması və çəkiləndirilməsi üçün analitik alqoritmin qurulması; - Kompleks reytinq və skor modeli əsasında qiymətləndirmə mexanizminin hazırlanması; - Platformanın funksional və

texniki arxitekturasının modelləşdirilməsi (məlumat bazası, analitik modul, vizuallaşdırma paneli, istifadəçi interfeysi və s.); - Nəticələrin interaktiv hesabat və qərar dəstək sisteminə inteqrasiyası.

Təklif olunan yanaşma elmi fəaliyyətin qiymətləndirilməsində subyektivliyi minimuma endirməyə, şəffaflığı artırmağa və elmi idarəetmədə rəqəmsal transformasiyanı təmin etməyə yönəlmiş konseptual model kimi çıxış edir.

Ədəbiyyat icmalı. Elmmetrik göstəricilər. Elmmetriya elmi fəaliyyətin kəmiyyət göstəriciləri əsasında ölçülməsi və təhlilini həyata keçirən elmi istiqamətdir. Müasir elmi idarəetmədə elmmetrik indikatorlar tədqiqatçıların, elmi təşkilatların və bütövlükdə ölkələrin elmi potensialının qiymətləndirilməsində əsas alət kimi istifadə olunur (Abramo və D'Angelo, 2014).

Ən geniş yayılmış göstəricilərdən biri h-indexdir. Bu indeks tədqiqatçının həm məhsuldarlığını (nəşr sayı), həm də təsir gücünü (sitat sayı) birgə nəzərə alır. Məsələn, h-indeksi 15 olan müəllifin ən azı 15 məqaləsi hər biri minimum 15 sitat almışdır. Bu göstərici sabit və balanslı elmi fəaliyyətin ölçülməsi baxımından effektiv hesab olunur. Lakin o, sahələrarası fərqləri və müəlliflərin kollektiv nəşrlərdə payını tam əks etdirmir.

Elmmetrik göstəricilər elmi fəaliyyətin ölçülməsində mühüm rol oynasa da, onların hər biri müəyyən məhdudiyyətlərə malikdir və kompleks qiymətləndirmə üçün inteqrativ yanaşma tələb olunur (Thelwall, 2018).

Beynəlxalq qiymətləndirmə sistemləri. Elmi göstəricilərin formalaşdırılmasında beynəlxalq indeksləşmə sistemləri əsas rol oynayır. Bu sistemlər yalnız məlumat bazası deyil, həm də analitik qiymətləndirmə platforması kimi çıxış edir. Scopus dünyanın ən böyük referativ və sitat bazalarından biridir. Burada milyonlarla elmi məqalə, konfrans materialı və kitab indeksi mövcuddur. Scopus h-index, sitat analizi, SJR və digər indikatorlar üzrə geniş analitik imkanlar təqdim edir. Üstünlüyü geniş əhatə dairəsi və strukturlaşdırılmış məlumat sistemidir.

Web of Science isə daha selektiv indeksləşmə siyasəti ilə seçilir və yüksək keyfiyyətli jurnalları əhatə edir. Burada Journal Impact Factor və digər sitat əsaslı göstəricilər geniş istifadə olunur (Hood və Wilson, 2001; Chen və b., 2012)

Google Scholar açıq və daha inklüziv platformadır. O, müxtəlif növ elmi materialları indeksləşdirir və müəllif profilləri vasitəsilə avtomatik statistik göstəricilər təqdim edir. Lakin məlumatların filtrasiya mexanizmi daha zəif olduğundan, keyfiyyət nəzarəti baxımından müəyyən çatışmazlıqlar mövcuddur. Bu sistemlərin hər biri elmmetrik qiymətləndirmədə mühüm rol oynasa da, onların məlumat strukturu, indeksləşmə prinsipləri və analitik imkanları fərqlidir.

Rəqəmsal analitik platformalar. Son illərdə elmi fəaliyyətin qiymətləndirilməsi sahəsində rəqəmsal transformasiya sürətlənmişdir. Ənənəvi statistika əsaslı yanaşmalar yerini süni intellekt (AI), böyük verilənlərin analizi (Big Data) və data mining metodlarına əsaslanan sistemlərə verməkdədir.

Müqayisəli Cədvəl

Sistem	Göstəricilər	Üstünlük	Çatışmazlıq
Scopus	h-index, Citation count, SJR	Geniş əhatə, strukturlaşdırılmış baza	Abunə əsaslı, bəzi regional jurnallar zəif təmsil olunur
Web of Science	Impact Factor, h-index	Yüksək selektivlik, keyfiyyətli indeks	Daha məhdud əhatə dairəsi
Google Scholar	h-index, i10-index, Citation count	Açıq və pulsuz, geniş indeksləşmə	Keyfiyyət filtrasiyası zəif
AI əsaslı analitik platformalar	Kompleks skor, şəbəkə analizi	Proqnozlaşdırma və real vaxt monitorinq	Yüksək texnoloji və maliyyə təl

Mənbə: Elsevier. (2023). *Scopus content coverage guide*.

Metodologiya. Tədqiqat yanaşması. Tədqiqat işində elmi fəaliyyətin elmmetrik göstəricilər əsasında kompleks analitik qiymətləndirilməsi üçün rəqəmsal platforma modelinin hazırlanması məqsədilə inteqrativ metodoloji yanaşma tətbiq edilmişdir. Metodologiya sistemli analiz, modelləşdirmə və struktur-funksional yanaşmanın vəhdəti əsasında qurulmuşdur.

Tətbiq olunan metodoloji çərçivə elmi fəaliyyətin qiymətləndirilməsini sistemli, çoxmeyarlı və strukturlaşdırılmış yanaşma əsasında modelləşdirməyə imkan vermişdir. Bu yanaşma həm nəzəri, həm də praktik baxımdan rəqəmsal platforma modelinin əsaslandırılmasını təmin edir və gələcək tətbiq mərhələsi üçün metodoloji baza formalaşdırır.

Şəkil 3.1 Elmi fəaliyyətin elmmetrik analitik qiymətləndirilməsi üzrə rəqəmsal platformanın funksional axın sxemi



Mənbə: Bornmann və Leydesdorff, 2014.

Qiymətləndirmə formulu. Elmi fəaliyyətin kompleks və obyektiv qiymətləndirilməsi məqsədilə çoxmeyarlı çəkiləndirilmiş inteqrativ indeks modeli təklif olunur. Bu model müxtəlif elmmetrik göstəriciləri vahid skor sistemində birləşdirərək yekun reytinq göstəricisini formalaşdırır.

Qiymətləndirmə formulu aşağıdakı kimi ifadə olunur:

$$E = w_1(h) + w_2(C) + w_3(IF) + w_4(P)$$

Burada:

- h – tədqiqatçının *h-index* göstəricisi
- C – ümumi sitat sayı (*citation count*)
- IF – nəşrlərin dərc olunduğu jurnalların orta impakt faktoru
- P – ümumi nəşr sayı
- w_1, w_2, w_3, w_4 – müvafiq göstəricilərin çəki əmsalları

Göstəricilərin izahı:

$$w_1 + w_2 + w_3 + w_4 = 1$$

Məsələn:

- $w_1 = 0.30$
- $w_2 = 0.30$
- $w_3 = 0.20$
- $w_4 = 0.20$

Metodoloji əhəmiyyət: Təklif olunan formula:

- subyektiv ekspert qiymətləndirməsini minimuma endirir;
- göstəricilərin balanslaşdırılmış inteqrasiyasını təmin edir;

- fərdi, institusional və ya struktur səviyyədə tətbiq oluna bilir;
- rəqəmsal platformada avtomatik hesablanma üçün uyğundur.

Bu çoxmeyarlı qiymətləndirmə modeli elmi fəaliyyətin kəmiyyət və keyfiyyət aspektlərini vahid analitik çərçivədə birləşdirərək obyektiv reytinq mexanizmi formalaşdırır.

Müzakirə. Təklif olunan rəqəmsal platforma modeli elmi fəaliyyətin qiymətləndirilməsində ənənəvi yanaşmalardan fərqli olaraq sistemli, avtomatlaşdırılmış və çoxmeyarlı analitik mexanizm təqdim edir. Müzakirə bölməsində modelin üstünlükləri, idarəetmə baxımından təsiri və tətbiq perspektivləri təhlil olunur. İlk növbədə, modelin əsas üstünlüyü onun inteqrativ və obyektiv qiymətləndirmə mexanizmi təqdim etməsidir. Mövcud sistemlərdə çox vaxt yalnız bir və ya iki göstərici (məsələn, nəşr sayı və ya sitat göstəricisi) əsas götürülür. Təklif olunan model isə h-index, sitat sayı, impakt faktoru və nəşr aktivliyini vahid çəkiləndirilmiş indeksdə birləşdirir. Bu yanaşma elmi fəaliyyətin həm keyfiyyət, həm də kəmiyyət aspektlərini balanslı şəkildə əks etdirir.

Modelin digər mühüm üstünlüyü subyektivliyin azaldılmasıdır. Ənənəvi ekspertiza əsaslı qiymətləndirmə sistemlərində şəxsi münasibətlər, qeyri-formal təsirlər və ya qeyri-şəffaf qərar mexanizmləri müəyyən risklər yaradır. Rəqəmsal platformada isə qiymətləndirmə əvvəlcədən müəyyən edilmiş alqoritm və açıq çəki əmsalları əsasında aparılır. Bu, insan faktorunun təsirini minimuma endirir və nəticələrin obyektivliyini artırır (Russell və Norvig, 2021).

Nəticə

Tədqiqat nəticəsində hazırlanmış rəqəmsal platforma modeli elmi fəaliyyətin elmmetrik göstəricilər əsasında kompleks, obyektiv və avtomatlaşdırılmış qiymətləndirilməsini təmin edən effektiv analitik mexanizm kimi əsaslandırılmışdır. Çoxmeyarlı çəkiləndirilmiş qiymətləndirmə formulu, məlumatların inteqrasiyası və vizual hesabat sistemi modelin praktik tətbiq imkanlarını göstərir. Model subyektiv ekspertiza risklərini azaldır, nəticələrin müqayisəliliyini artırır və şəffaf qiymətləndirmə mühiti formalaşdırır.

Elmi idarəetmə baxımından platforma strateji qərar qəbuletmə prosesinə real vaxt analitik dəstək verir. Universitetlər, elmi-tədqiqat institutları və dövlət qurumları üçün performans əsaslı monitorinq, resurs bölgüsü və inkişaf strategiyalarının hazırlanmasında effektiv alət rolunu oynaya bilər. Sistem həm fərdi, həm institusional, həm də milli səviyyədə tətbiq edilə bilən universal model kimi çıxış edir. Beləliklə, təqdim olunan rəqəmsal platforma modeli elmi fəaliyyətin qiymətləndirilməsində yeni, şəffaf və innovativ yanaşma kimi praktiki tətbiq potensialına malikdir.

Ədəbiyyat

1. Abramo, G., & D'Angelo, C. A. (2014). How do you define and measure research productivity? *Scientometrics, 101*(2), 1129–1144. https://doi.org/10.1007/s11192-014-1269-8
2. Bornmann, L., & Leydesdorff, L. (2014). Scientometrics in a changing research landscape. *Journal of Informetrics, 8*(4), 747–748. https://doi.org/10.1016/j.joi.2014.07.003
3. Chen, H., Chiang, R. H. L., & Storey, V. C. (2012). Business intelligence and analytics. *MIS Quarterly, 36*(4), 1165–1188.
4. Davenport, T. H., & Harris, J. G. (2017). *Competing on analytics*. Harvard Business Review Press.
5. Egghe, L. (2006). Theory and practice of the g-index. *Scientometrics, 69*(1), 131–152. https://doi.org/10.1007/s11192-006-0144-7
6. Elsevier. (2023). *Scopus content coverage guide*. https://www.elsevier.com/solutions/scopus
7. Hirsch, J. E. (2005). An index to quantify an individual's scientific research output. *Proceedings of the National Academy of Sciences, 102*(46), 16569–16572. https://doi.org/10.1073/pnas.0507655102
8. Hood, W., & Wilson, C. (2001). The Literature of Bibliometrics. *Scientometrics, 52*(2), 291–314.

9. Leydesdorff, L., & Bornmann, L. (2011). Integrated impact indicators. *Journal of the American Society for Information Science and Technology, 62*(11), 2133–2146. https://doi.org/10.1002/asi.21603
10. Russell, S., & Norvig, P. (2021). *Artificial intelligence: A modern approach*. Pearson.
11. Swan, M. (2015). *Blockchain: Blueprint for a new economy*. O'Reilly Media.
12. Thelwall, M. (2018). Dimensions: A competitor to Scopus and Web of Science? *Journal of Informetrics, 12*(2), 430–435. https://doi.org/10.1016/j.joi.2018.03.006

Daxil oldu: 08.01.2026
Qəbul edildi: 09.04.2026

DOI: https://doi.org/10.36719/2789-6919/57/243-248

Nihad Məhəmmədli
Odlar Yurdu Universiteti
magistrant
https://orcid.org/0009-0008-1465-3420
nihadmehemmedli2004@gmail.com

Şəbəkə hücumlarının (DoS, DDoS) aşkarlanması və qarşısının alınması

Xülasə

Müasir rəqəmsal infrastrukturun genişlənməsi və internet vasitəsilə xidmətlərin göstərilməsi şəbəkənin risksizliyini mühüm strateji məsələyə çevirib. Bu kontekstdə Xidmətdən İmtina Hücumları (DoS) və Paylaşılan Xidmətdən İmtina Hücumları (DdoS) informasiya sistemlərinin sabotajına ən çox yayılmış kibertəhdidlərdən biridir. DoS hücumları əsasən bir mənbədən həyata keçirilir və 243ntell resurslarını – server proseslərini, serverləri, şəbəkə bağlantısını və tətbiqi səviyyəli xidmətləri tükəndirir. Bu, onun həddindən artıq yüklənməsinə səbəb olur. DdoS hücumları bir çox mürəkkəb cihazlardan (botnetlərdən) istifadə etməklə daha geniş diapazonda və əlaqələndirilmiş şəkildə həyata keçirilə bilər ki, bu da xidmətlərin tam və ya qismən pozulmasına səbəb olur. Tədqiqat sahəsində DoS və DdoS hücumlarının növləri (həcmli hücumlar, 243ntellec səviyyəli hücumlar və təcrübə səviyyəli hücumlar) onların biznes mexanizminə və şəbəkə infrastrukturuna yaratdığı hücum növləridir. Risklər təhlil edilib. Hücumları aşkar etmək üçün ənənəvi imza əsaslı metodların, anomaliya aşkarlama modellərinin, trafik təhlilinin, davranış əsaslı monitorinqin və süni 243ntellect əsaslı metodların effektivliyi araşdırılıb.

Açar sözlər: *DoS hücumu, DdoS hücumu, şəbəkə təhlükəsizliyi, xidmətin əlçatanlığı, IDS/IPS sistemləri*

Nihad Mahammadli
Odlar Yurdu University
Master's student
https://orcid.org/0009-0008-1465-3420
nihadmehemmedli2004@gmail.com

Detection and Prevention of Network Attacks (DoS, DDoS)

Abstract

The expansion of modern digital infrastructure and the provision of services via the Internet have made network security an important strategic issue. In this context, Denial of Service Attacks (DoS) and Distributed Denial of Service Attacks (DDoS) are one of the most common cyber threats to sabotage information systems. DoS attacks are mainly carried out from a single source and exhaust system resources – server processes, servers, network connectivity and application-level services. This leads to its overload. DDoS attacks can be carried out on a wider range and in a coordinated manner using many complex devices (botnets), which leads to complete or partial disruption of services. The types of DoS and DDoS attacks in the research area (volume attacks, protocol-level attacks and experience-level attacks) are the types of attacks they cause to the business mechanism and network infrastructure. The risks are analyzed. The effectiveness of traditional signature-based methods, anomaly detection models, traffic analysis, behavior-based monitoring, and artificial intelligence-based methods for detecting attacks was examined. The application of firewall systems, IDS/IPS technologies, traffic filtering methods, load balancing, rate limiting mechanisms, network segmentation, and cloud-based DDoS protection services, as countermeasures, was evaluated.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

At the same time, it was emphasized that organizational and disciplinary measures – conducting risk analysis, developing risk-free policies, and creating permanent monitoring systems – complement technical defense measures. As a result, effective defense against DoS and DDoS attacks is possible not only through the application of technical means, but also by creating a complex and multi-level vulnerability architecture. Proactive monitoring, real-time analysis mechanisms, and adaptive security models play a key role in ensuring network resilience and information security.

Keywords: *DoS attack, DDoS attack, network security, service availability, IDS/IPS systems*

Giriş

İnformasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı dövlət idarəçiliyi, maliyyə sistemi, təhsil, mühəndislik, sənaye və hərbi infrastruktur da daxil olmaqla bütün strateji sahələrin sürətli inkişafına səbəb olacaq. Bu, səbəb olub. Rəqəmsal transformasiya prosesləri xidmətlərin işləkliyini, səmərəliliyini artırsa da, yeni təhlükəsizlik risklərini də rəsmiləşdirib. Bu risklər arasında şəbəkə infrastrukturlarını aldatmağa yönəlmiş Xidmətdən imtina (DoS) və Paylaşılan Xidmətdən imtina (DDoS) hücumları xüsusi yer tutur. DoS və DDoS hücumlarının əsas məqsədi server və şəbəkə resurslarını həddindən artıq yükləməklə və xidmətləri istifadəçilər üçün əlçatan etməklə informasiya sistemlərinin normal fəaliyyətini pozmaqdır. Bu, hələ də davam etdirilməlidir. Müasir dövrdə bu hücumlar yalnız texniki problemlər kimi deyil, həm də iqtisadi və milli təhlükə məsələsi kimi qiymətləndirilir. Xüsusilə, bank sektoruna, dövlət informasiya sistemlərinə, enerji və nəqliyyat infrastrukturlarına qarşı kütləvi DDoS hücumları ciddi maliyyə gərginliklərinə, nüfuz risklərinə və sosial iğtişaşlara səbəb olur. DDoS hücumlarının təhlükəsi onların ortaq xarakteri ilə bağlıdır. Minlərlə və ya milyonlarla cihaz (botnet şəbəkələri) istifadə edilərək həyata keçirilən hücumlar klassik müdafiə mexanizmlərini çətin vəziyyətə salır. Hücum trafikini qanuni istifadəçi trafikindən fərqləndirmək, onu real vaxt rejimində təhlil etmək və süzgəcdən keçirmək mürəkkəb texniki yanaşmalar tələb edir (Ouhssini və b., 2024).

Müasir təhlükəsiz konsepsiyada şəbəkə hücumlarının aşkarlanması və qarşısının alınması çoxsəviyyəli müdafiə modelinə əsaslanır. Buraya perimetr təhlükəsizliyi, tətbiq səviyyəli qorunma, şifrələnmiş rabitə mexanizmləri, davranış təhlili və süni intellekt əsaslı monitorinq sistemləri daxildir. Anomaliya aşkarlama metodları, maşın öyrənmə alqoritmləri və böyük məlumatların təhlili texnologiyaları DDoS hücumlarının erkən mərhələdə aşkarlanmasına və zərərin minimuma endirilməsinə imkan verir. Bu, onun yüklənməsinə imkan verir. Məqalənin aktuallığı ondan ibarətdir ki, ədədi iqtisadiyyatın inkişaf etdirildiyi bir vəziyyətdə xidmətlərin səmərəliliyi strateji əhəmiyyət kəsb edir. Elektron hökumət platformaları, rəqəmsal bank sistemləri və bulud əsaslı xidmətlər yüksək səviyyədə təvazökarlıq tələb edir. Bu səbəbdən şəbəkə hücumlarının mexanikasını dərindən öyrənmək, aşkarlama metodlarını təkmilləşdirmək və effektiv müdafiə strategiyaları hazırlamaq müasir azadlıq siyasətinin əsasını təşkil edir. Onun istiqamətlərindən biridir (Pakmehr və b., 2024).

Tədqiqat

Müasir informasiya cəmiyyətində dövlət qurumları, bank sektoru, elektron ticarət platformaları, təhsil və səhiyyə sistemləri fasiləsiz şəbəkə əlçatanlığına əsaslanır. Rəqəmsal xidmətlərin 24/7 rejimində fəaliyyət göstərməsi artıq texniki üstünlük deyil, strateji zərurət hesab olunur. Bu kontekstdə şəbəkə infrastrukturuna qarşı yönəlmiş Xidmətin İnkarı (DoS) və Paylanmış Xidmətin İnkarı (DDoS) hücumları əlçatanlıq prinsipini (availability) hədəf alan ən təhlükəli kiber təhdidlər sırasındadır. Şəbəkə təhlükəsizliyində üç əsas prinsip – məxfilik (confidentiality), bütövlük (integrity) və əlçatanlıq (availability) – mövcuddur. DoS və DDoS hücumları məhz əlçatanlıq komponentinə qarşı yönəlir. Məqsəd məlumatı oğurlamaq deyil, sistemi istifadəçilər üçün əlçatmaz etməkdir. Bu isə iqtisadi itkilərə, xidmət dayanmasına, reputasiya risklərinə və bəzi hallarda milli təhlükəsizlik problemlərinə səbəb ola bilər (Cichonski və b., 2012).

Cədvəl 1.
DoS və DDoS Modellərinin Müqayisəli Analizi

Meyar	DoS	DdoS
Mənbə sayı	Tək və ya məhdud	Minlərlə və milyonlarla
Aşkarlanma	Nisbətən asan	Çətin və kompleks
Filtrasiya	IP bloklama mümkündür	IP filtrasiya effektiv deyil
Hücum gücü	Məhdud	Böyük miqyaslı
Risk səviyyəsi	Orta	Yüksək

Aparılan müqayisəli təhlil göstərir ki, DoS hücumları struktur baxımından daha sadə, mənbə baxımından məhdud və texniki vasitələrlə nisbətən daha asan idarəolunan xarakter daşiyir. Buna qarşılıq olaraq, DDoS hücumları paylanmış arxitekturaya əsaslandığı üçün genişmiqyaslı, koordinasiyalı və daha yüksək risk səviyyəsinə malikdir.

Şəkil 2. DoS hücumunun sadə modeli



DSoS hücumlarinin təhlükəliliyi onların çoxsaylı mənbələrdən həyata keçirilməsi və hücum trafikinin legitim istifadəçi trafikindən seçilməsinin çətinləşməsi ilə bağlıdır. Bu xüsusiyyət klassik firewall və ip-filtrasiya mexanizmlərinin effektivliyini azaldır və daha kompleks, çoxsəviyyəli müdafiə yanaşmalarını zəruri edir. Məhz buna görə də müasir kibertəhlükəsizlik strategiyası yalniz perimetr müdafiəsi ilə kifayətlənməməli, real vaxt trafik monitorinqi, anomaliya aşkarlama sistemləri, davranış analizi və bulud əsaslı DDoS qoruma xidmətləri kimi inteqrasiya olunmuş mexanizmlər üzərində qurulmalıdır. Beləliklə, DoS və DDoS hücum modellərinin müqayisəli analizi göstərir ki, təhlükəsizlik risklərinin miqyası hücumun struktur mürəkkəbliyi ilə birbaşa əlaqəlidir. Xüsusilə DDoS hücumları müasir şəbəkə sistemləri üçün yüksək səviyyəli təhlükə formalaşdırdığından, adaptiv və proaktiv müdafiə arxitekturasının qurulması kibertəhlükəsizliyin əsas prioritet istiqaməti kimi çıxış edir (Handley və Rescorla, 2006).

DoS (denial of service) hücumu bir və ya məhdud sayda mənbədən hədəf serverə intensiv trafik göndərilməsi yolu ilə həyata keçirilən və sistem resurslarının süni şəkildə tükəndirilməsinə əsaslanan kiber hücum modelidir (Kessler, 2012). Bu hücumun əsas məqsədi serverin cpu, ram və şəbəkə bant genişliyi kimi resurslarini yükləyərək real istifadəçilərin sorğularını emal etməsini əngəlləmək və nəticədə, xidmətin əlçatanlığını pozmaqdır. DoS hücumları, adətən, tək ip ünvanından və ya sabit mənbədən həyata keçirildiyi üçün onların identifikasiyası və bloklanması nisbətən daha asandır. Firewall, access control list (acl) və ip-filtrasiya mexanizmləri vasitəsilə hücum mənbəyi məhdudlaşdırıla və ya tamamilə bloklana bilər. Bununla belə, DoS modeli struktur baxımından sadə olsa da, daha mürəkkəb və genişmiqyaslı DDoS hücumlarının ilkin forması kimi çıxış edə bilər. Bu

səbəbdən DoS hücumlarının vaxtında aşkarlanması və effektiv qarşısının alınması şəbəkə təhlükəsizliyinin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir.

Şəkil 3. DDoS hücumunun paylanmış modeli



